https://socialsciences.az/ **ISSN: 2710-0820**

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

SOSİAL ELMLƏR

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА

ОБЩЕСТВЕННЫЕ НАУКИ

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

SOCIAL SCIENCES

№ 1

BAKI – "ELM" – 2024

“Sosial elmlər” jurnalı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestri və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin qərarı ilə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı” na daxil edilmişdir.

BAŞ REDAKTOR:
Nərgiz AXUNDOVA, akademik

BAŞ REDAKTORUN MÜAVİNİ:
Yaqub MAHMUDOV, akademik

MƏSUL KATİB:
Lamiyə QAFAR-ZADƏ, tarix üzrə fəlsəfə doktoru, dosent

REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:
İsmayıl Hacıyev (akademik), Nailə Vəlixanlı (akademik), Gövhər Baxşəliyeva (akademik), Şahin Mustafayev (akademik), Musa Qasımlı (AMEA-nın müxbir üzvü), Könül Bünyadzadə (AMEA-nın müxbir üzvü), İlham Məmmədzadə (fəlsəfə elmləri doktoru), Nazim İmanov (iqtisad elmləri doktoru), Aytən Mustafazadə (hüquq elmləri doktoru), Məryəm Seyidbəyli (tarix elmləri doktoru), Nəcəf Müseyibli (tarix elmləri doktoru), Ayxan Rüstəmzadə (hüquq elmləri doktoru), Əliağa Məmmədli (antropologiya elmləri doktoru).

REDAKSİYA HEYƏTİNİN XARİCİ ÜZVLƏRİ:
Selma Yel (doktor, professor, Türkiyə), Toğrul İsmayıl (doktor, professor, Türkiyə)**,** İqor Turitsın (doktor, professor, Rusiya Federasiyası), Hakim Elnazarov (doktor, Böyük Britaniya), Djozgil Kim (professor, Cənubi Koreya), Jozef Tymanovski (doktor, professor, Polşa), Pavel Stavarz (doktor, Polşa), Meruyert Abuseitova (doktor, professor, Qazaxıstan).

REDAKSİYANIN ÜNVANI:
AZ1001, Azərbaycan Respublikası, Bakı şəh., İstiqlaliyyət küç., 30
Tel.: (+99412) 4925180; mob.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

ГЛАВНЫЙ РЕДАКТОР:
Наргиз АХУНДОВА, академик

ЗАМЕСТИТЕЛЬ ГЛАВНОГО РЕДАКТОРА:
Ягуб МАХМУДОВ, академик

ОТВЕТСТВЕННЫЙ СЕКРЕТАРЬ:
Ламия КАФАР-ЗАДЕ, доктор философии по истории, доцент

ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:
Исмаил Гаджиев (академик), Наиля Велиханлы (академик), Говхар Бахшалиева (академик), Шахин Мустафаев (академик), Муса Гасымлы (член-корреспондент НАНА), Кёнуль Буньядзаде (член-корреспондент НАНА), Ильхам Мамедзаде (доктор философских наук), Назим Иманов (доктор экономических наук), Айтен Мустафазаде (доктор юридических наук), Марьям Сеидбейли (доктор исторических наук), Наджаф Мусеибли (доктор исторических наук), Айхан Рустамзаде (доктор юридических наук), Алиага Мамедли (доктор антропологических наук).

ИНОСТРАННЫЕ ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:
Сельма Йель (доктор, профессор, Турция), Тогрул Исмаил (доктор, профессор, Турция), Игорь Турицын (доктор, профессор, Российская Федерация), Хаким Эльназаров (доктор, Великобритания), Джозгил Ким (профессор, Южная Корея), Жозеф Тумановски (доктор, профессор, Польша), Павел Ставарз (доктор, Польша), Меруерт Абусеитова (доктор, профессор, Казахстан).

АДРЕС РЕДАКЦИИ:
AZ1001, Азербайджанская Республика, г. Баку, ул. Истиглалиййат, 30
Тел.: (+99412) 4925180; моб.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

EDITOR-IN-CHIEF:
Nargiz AKHUNDOVA, Academician

DEPUTY EDITOR-IN-CHIEF:
Yagub MAHMUDOV, Academician

EXECUTIVE SECRETARY:
Lamiya GAFAR-ZADA, Doctor of Philosophy in History, Associate Professor

EDITORIAL BOARD MEMBERS:
Ismayil Hajiyev (Academician), Naila Velikhanli (Academician), Govhar Bakhshaliyeva (Academician), Shanin Mustafayev (Academician), Musa Gasimli (Corresponding member of ANAS), Konul Bunyadzada (Corresponding member of AN- AS), Ilham Mammadzada (Doctor of Philosofical Sciences), Nazim Imanov (Doctor of Economic Sciences), Ayten Mustafazada (Doctor of Juridical Sciences), Maryam Seyidbayli (Doctor of Historical Sciences), Najaf Museyibli (Doctor of Historical Sciences), Aykhan Rustamzada (Doctor of Juridical Sciences), Aliagha Mammadli (Doctor of Anthropological Sciences).

FOREIGN MEMBERS OF EDITORIAL BOARD:
Selma Yel (doctor, professor, Turkey), Toghrul Ismayil (doctor, professor, Turkey), Igor Turitsyn (doctor, professor, Russian Federation), Hakim Elnazarov (doctor, Great Britain), Djozgil Kim (professor, South Korea), Jozef Tymanowski (doctor, professor, Poland), Pawel Stawarz (doctor, Poland), Meruert Abuseitova (doctor, professor, Kazakhstan).

EDITORIAL ADDRESS:
AZ1001, Azerbaijan Republic, Baku, 30 Istiglaliyyat St.
Phone: (+99412) 4925180; mob.: (+99455) 5581080
Email address: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

MÜNDƏRİCAT

BAŞ MƏQALƏ

İsmayıl HACIYEV. NAXÇIVAN DİYARININ MUXTARİYYƏT STATUSU ƏLDƏ ETMƏSİ VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏŞKİLİ 11

TARİX

Aidə BAĞIROVA. XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRAQ PROBLEMİ BEYNƏLXALQ MÜNASİBƏTLƏR KONTEKSTİNDƏ 26

Arzu BƏBİROVA. ŞƏDDADİLƏR DÖVLƏTİNİN TARİXİNƏ DAİR İLKİN QAYNAQLARA ÜMUMİ BİR BAXIŞ 37

Aynur HACIQƏDİRLİ. RUSİYANIN QAFQAZ SİYASƏTİNDƏ PASKEVİÇ FAKTORU 42

Ələkbər ƏLƏKBƏROV. AZƏRBAYCANIN TARİXİ VƏ ETNİK SƏRHƏDLƏRİNİN BƏZİ PROBLEMLƏRİNƏ DAİR 48

Kəmalə HƏSƏNOVA. ERKƏN ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA DİNİ MÜHİT (III-X ƏSRLƏRDƏ) 59

Lamiə SULTANOVA. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ SİYASƏTİNİN AQRAR ASPEKTLƏRİNƏ DAİR 67

Nazilə MƏMMƏDOVA. İSLAM DÜNYASINDA ELM VƏ MAARİFİN İNKİŞAFI MƏSƏLƏLƏRİNİN AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA ÖYRƏNİLMƏSİNƏ DAİR (IX-XIV ƏSRLƏR) 74

Nərgiz AXUNDOVA, Aydın ƏLİ-ZADƏ. AZƏRBAYCAN ƏRƏB İŞĞALI ƏRƏFƏSİNDƏ 81

Nəriman ŞİRƏLİYEV. AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNDƏ HƏRBİ VƏZİFƏLİLƏR 86

Rəna QURBANOVA. NAXÇIVAN MUXTAR RESPUBLİKASINA QARŞI ERMƏNİSTANIN HƏRBİ TƏCAVÜZÜNÜN QARŞISININ ALINMASINDA DİPLOMATİK-SİYASİ VASİTƏLƏRDƏN İSTİFADƏ 104

Səxavət ƏMRAHOV. QUTİLƏRİN QONŞULARI İLƏ QARŞILIQLI SİYASİ ƏLAQƏLƏRİ 115

Şahlar ŞƏRİFOV. ERKƏN XİLAFƏT DÖVRÜNDƏ YAŞAMIŞ AZƏRBAYCANLI ƏDİBLƏR (VII-VIII ƏSRLƏR) 120

Ülkər ƏLİYEVA. XXI ƏSRDƏ ÇİN-İRAN MÜNASİBƏTLƏRİNDƏ ZİDDİYYƏTLƏR 128

Vüqar SƏMƏDOV. İMPERATOR I İRAKLİNİN QAFQAZA BİRİNCİ YÜRÜŞÜ 134

Yeganə ÇAĞLAYAN. XIII ƏSRİN BİRİNCİ YARISINDA BİZANSIN AVROPA SİYASƏTİNƏ DAİR 144

ARXEOLOGİYA

Anar AĞALARZADƏ. XUDUTƏPƏ YAŞAYIŞ YERİNİN XALKOLİT-İLK TUNC DÖVRÜ TAPINTILARI HAQQINDA 152

Elmar BAXŞƏLİYEV. DALMATƏPƏ MƏDƏNİYYƏTİ ABİDƏLƏRİNİN TOPOQAFİK VƏ MƏDƏNİ XÜSUSİYYƏTLƏRİ 162

Elmira CƏFƏROVA. ORTA ƏSR ŞİRVAN ŞƏHƏRLƏRİNİN LOKALLAŞDIRILMASI 178

Jiraslan KAGAZEJEV. HAPLOQROUP G2a (Y - DNT) QAFQAZDA TARİXİ GENESİSİ VƏ PAYLANMASI PROBLEMİ 185

Lola HÜSEYNOVA. ÇOVDAR ƏRAZİSİNDƏ ARXEOLOJİ ABİDƏLƏRİN ÖYRƏNİLMƏ TARİXİ (1 MƏRHƏLƏSİ, 1903-1921-Cİ İLLƏR) 200

Nəcəf MÜSEYİBLİ. ÇAĞRITƏPƏDƏ ARXEOLOJİ QAZINTILAR: ORTA KÜR HÖVZƏSİNDƏ ERKƏN ƏKİNÇİLİK. NEOLİTİNİN MƏNŞƏYİ ROBLEMİNİN BƏZİ MƏSƏLƏLƏRİ 211

Vəli BAXŞƏLİYEV, Nezahat CEYLAN, Elmar BAXŞƏLİYEV, Heyran HƏSƏNOVA. CƏNUBİ QAFQAZIN SİONİ TİPLİ KERAMİKASI TUMBULTƏPƏDƏ ARXEOLOJİ QAZINTILAR KONTEKSTİNDƏ 228

FƏLSƏFƏ VƏ HÜQUQ

Əntiqə PAŞAYEVA. ETİKA VƏ HÜQUQ: HÜQUQİ MƏNBƏLƏRDƏ ADƏT-ƏNƏNƏNİN ETİK FUNKSİYASINA FƏLSƏFİ VƏ HÜQUQİ BAXIŞ 247

Habil QURBANOV. İSLAM HÜQUQU VƏ BEYNƏLXALQ HÜQUQ BAXIMINDAN QAÇQINLARIN HÜQUQ VƏ TƏMİNATLARINDA ƏSAS MÜDDƏALAR (MÜQAYİSƏLİ TƏHLİL) 257

Hafiz MUSAYEV. BEYNƏLXALQ TERRORÇULUQLA MÜBARİZƏDƏ REGİONAL ƏMƏKDAŞLIQ 267

Vüsalə GÜLMALIYEVA. DİALOQ ANLAYIŞININ FƏLSƏFİ DƏRKİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ 272

SİYASİ ELMLƏR

Nərmin AZADGİL. İSRAİL-AZƏRBAYCAN-İRAN: ÜÇTƏRƏFLİ MÜNASİBƏTLƏRİN TARİXİ İNKİŞAF DİNAMİKASININ TƏHLİLİ 280

Samirə HƏBİBBƏYLİ. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – GÜRCÜSTAN DEMOKRATİK RESPUBLİKASI MÜNASİBƏTLƏRİ 289

SOSİOLOGİYA

Rəna MƏMMƏDOVA. EKSTRABİLİTİ VƏ İNKLÜZİV MƏDƏNİYYƏT 294

PSİXOLOGİYA

Aytən ALIŞANLI. ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN OPTİMALLAŞMASINDA EMOSİONAL İNTELLEKTİN ROLU 301
Kəmalə AĞAYEVA. DƏHP VƏ YANAŞI GEDƏN POZUNTULAR 308

RESENZİYALAR

Rəşad Mustafanın Bayram Arif Kösenin "Azerbaycan: Orta Çağ İslam Hanedanları Dönemi" adlı kitabına resenziyası 314
Yaroslav Pilipçukun Olesya Jdanoviçin "Кочовики і Візантія у Менандра" adlı kitabına resenziyası 318
Yaroslav Pilipçukun Vladislav Quleviçin "От ордынского улуса к ханству Гиреев: Крым в 1399-1502 гг." adlı kitabına resenziyası 323

СОДЕРЖАНИЕ

ГЛАВНАЯ СТАТЬЯ

Исмаил ГАДЖИЕВ. ПРИОБРЕТЕНИЕ НАХЧЫВАНСКИМ КРАЕМ СТАТУСА АВТОНОМИИ И ОБРАЗОВАНИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ 11

ИСТОРИЯ

Аида БАГИРОВА. ИРАКСКАЯ ПРОБЛЕМА В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ В НАЧАЛЕ XXI ВЕКА 26

АРЗУ БАБИРОВА. ОБЩИЙ ВЗГЛЯД НА ПЕРВОИСТОЧНИКИ ПО ИСТОРИИ ГОСУДАРСТВА ШАДДАДИДОВ 37

Айнур ГАДЖИГАДИРЛИ. ФАКТОР ПАСКЕВИЧА В РОССИЙСКОЙ ПОЛИТИКЕ НА КАВКАЗЕ 42

Алекпер АЛЕКПЕРОВ. ПО ПОВОДУ НЕКОТОРЫХ ПРОБЛЕМ ИСТОРИЧЕСКИХ И ЭТНИЧЕСКИХ ГРАНИЦ АЗЕРБАЙДЖАНА 48

Камала ГАСАНОВА. РЕЛИГИОЗНАЯ СРЕДА В АЗЕРБАЙДЖАНЕ В РАННЕЕ СРЕДНЕВЕКОВЬЕ (III-X вв.) 59

Ламия СУЛТАНОВА. О СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ АСПЕКТАХ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ 67

Назиля МАМЕДОВА. К ИЗУЧЕНИЮ В АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИОГРАФИИ ВОПРОСОВ ИСТОРИИ МУСУЛЬМАНСКОЙ НАУКИ И ПРОСВЕЩЕНИЯ (IX-XIV вв.) 74

Наргиз АХУНДОВА, Айдын АЛИ-ЗАДЕ. АЗЕРБАЙДЖАН НАКАНУНЕ АРАБСКОГО ЗАВОЕВАНИЯ (ПО АРАБСКИМ ИСТОЧНИКАМ) 81

Нериман ШИРЕЛИЕВ. ВОЕННЫЕ ЧИНОВНИКИ АЗЕРБАЙДЖАНСКОЙ АРМИИ АККОЮНЛУ 86

Рена ГУРБАНОВА. ИСПОЛЬЗОВАНИЕ ПОЛИТИКО-ДИПЛОМАТИЧЕСКИХ СРЕДСТВ ДЛЯ ПРЕДОТВРАЩЕНИЯ ВОЕННОЙ АГРЕССИИ АРМЕНИИ ПРОТИВ НАХИЧЕВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ 104

Сахават АМРАХОВ. ПОЛИТИЧЕСКИЕ ВЗАИМООТНАШЕНИЯ КУТИЕВ С СОСЕДНИМИ ПЛЕМЕНАМИ 115

Шахлар ШАРИФОВ. ПОЭТЫ АЗЕРБАЙДЖАНА, ЖИВШИЕ В ПЕРИОД РАННЕГО ХАЛИФАТА (VII-VIII ВЕКИ) 120

Улькер АЛИЕВА. ПРОТИВОРЕЧИЯ В ОТНОШЕНИЯХ МЕЖДУ КИТАЕМ И ИРАНОМ В XXI ВЕКЕ 128

Вугар САМЕДОВ. ПЕРВЫЙ ПОХОД ИМПЕРАТОРА ИРАКЛИЯ I В КАВКАЗ 134

Егяна ЧАГЛАЙАН. К ВОПРОСУ ЕВРОПЕЙСКОЙ ПОЛИТИКИ ВИЗАНТИИ В ПЕРВОЙ ПОЛОВИНЕ XIII ВЕКА 144

АРХЕОЛОГИЯ

Анар АГАЛАРЗАДЕ. О НАХОДКАХ ПЕРИОДА ХАЛКОЛИТА – РАННЕЙ БРОНЗЫ НА ПОСЕЛЕНИИ ХУДУТЕПЕ 152

Эльмар БАХШАЛИЕВ. ТОПОГРАФИЧЕСКАЯ И КУЛЬТУРНАЯ ХАРАКТЕРИСТИКА ПАМЯТНИКОВ КУЛЬТУРЫ ДАЛМАТЕПЫ 162

Эльмира ДЖАФАРОВА. ЛОКАЛИЗАЦИЯ ГОРОДОВ СРЕДНЕВЕКОВОГО ШИРВАНА 178

Жираслан КАГАЗЕЖЕВ. ПРОБЛЕМА ИСТОРИЧЕСКОГО ГЕНЕЗИСА И РАСПРОСТРАНЕНИЯ ГАПЛОГРУППЫ G2a (Y - ДНК) НА КАВКАЗЕ 185

Лола ГУСЕЙНОВА. ИСТОРИЯ ИЗУЧЕНИЯ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ ЧОВДАРСКОЙ ТЕРРИТОРИИ (ЭТАП 1, 1903-1921 гг.) 200

Наджаф МУСИБЛИ. АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ В ЧАГРЫТЕПЕ: НЕКОТОРЫЕ ВОПРОСЫ ПРОБЛЕМЫ ПРОИСХОЖДЕНИЯ РАННЕЗЕМЛЕДЕЛЬЧЕСКОГО НЕОЛИТА В БАССЕЙНЕ СРЕДНЕЙ КУРЫ 211

Вели БАХШАЛИЕВ, **Назахат ДЖЕЙЛАН, Эльмар БАХШАЛИЕВ, Хейран ГАСАНОВА.** КЕРАМИКИ ТИПА СИОНИ НА ЮЖНОМ КАВКАЗЕ В КОНТЕКСТЕ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК В ПОСЕЛЕНИИ ТУМБУЛТЕПЕ 228

ФИЛОСОФИЯ И ПРАВО

Антига ПАШАЕВА. ЭТИКА И ПРАВО: ФИЛОСОФСКО-ПРАВОВОЙ ВЗГЛЯД НА ЭТИЧЕСКУЮ ФУНКЦИЮ ОБЫЧАЕВ И ТРАДИЦИЙ В ПРАВОВЫХ ИСТОЧНИКАХ 247

Хабиль ГУРБАНОВ. ОСНОВНЫЕ ПОЛОЖЕНИЯ ПРАВ И ГАРАНТИЙ БЕЖЕНЦЕВ С ТОЧКИ ЗРЕНИЯ ИСЛАМСКОГО ПРАВА И МЕЖДУНАРОДНОГО ПРАВА (СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ) 257

Хафиз МУСАЕВ. РЕГИОНАЛЬНОЕ СОТРУДНИЧЕСТВО В ОБЛАСТИ МЕЖДУНАРОДНОГО ТЕРРОРИЗМА 267

Вусала ГЮЛЬМАЛИЕВА. ОСОБЕННОСТИ ФИЛОСОФСКОГО ПОНИМАНИЯ ДИАЛОГА 272

ПОЛИТИЧЕСКИЕ НАУКИ

Нармин АЗАДГИЛЬ. ИЗРАИЛЬ-АЗЕРБАЙДЖАН-ИРАН: ИСТОРИЧЕСКИЙ АНАЛИЗ СЛОЖНОЙ ДИНАМИКИ РАЗВИТИЯ ТРЕХСТОРОННИХ ОТНОШЕНИЙ.....280
Самира ГАБИББЕЙЛИ. ВЗАИМООТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКОЙ И ГРУЗИНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКОЙ 289

СОЦИОЛОГИЯ

Рена МАМЕДОВА. ЭКСТРАБИЛИТИ И ИНКЛЮЗИВНАЯ КУЛЬТУРА.....294

ПСИХОЛОГИЯ

Айтен АЛЫШАНЛЫ. РОЛЬ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА В ОПТИМИЗАЦИИ МЕЖЛИЧНОСТНЫХ ОТНОШЕНИЙ.....301
Камала АГАЕВА. СДВГ И КОМОРБИДНЫЕ РАССТРОЙСТВА 308

РЕЦЕНЗИИ

Рецензия Рашада Мустафы на книгу Байрама Арифа Кёсе «Azerbaycan: Orta Çağ İslam Hanedanları Dönemi».....314
Рецензия Ярослава Пилипчука на книгу Олеси Жданович «Кочовики і Візантія у Менандра» 318
Рецензия Ярослава Пилипчука на книгу Владислава Гулевича «От ордынского улуса к ханству Гиреев: Крым в 1399-1502 гг.».....323

CONTENTS

MAIN ARTICLE

Ismayıl HAJIYEV. OBTAİNİNG OF AUTONOMY STATUS OF NAKHCHİVAN REGİON AND ESTABLISHMENT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC 11

HISTORY

Aida BAGHIROVA. THE IRAQI PROBLEM IN THE CONTEXT OF INTERNATIONAL RELATIONS AT THE BEGINNING OF THE XXI CENTURY 26
Arzu BABIROVA. GENERAL VIEW OF PRIMARY HISTORICAL SOURCES ON THE HISTORY OF THE SHADDADIDS 37
Aynur HAJIGADIRLI. PASKEVİCH FACTOR İN RUSSİA'S CAUCASUS POLİCY 42
ALEKPER ALEKPEROV. ON SOME PROBLEMS OF THE HİSTORİCAL AND ETHNİC BORDERS OF AZERBAİJAN 48
Kamala HASANOVA. RELİGİOUS ENVİRONMENT İN AZERBAİJAN İN THE EARLY MİDDLE AGES (III-X CENTURİES) 59
Lamıa SULTANOVA. ABOUT THE AGRICULTURAL ASPECTS OF THE ECONOMIC POLICY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC 67
Nazila MAMMADOVA. ON THE STUDY OF ISSUES ON THE DEVELOPMENT OF SCIENCE AND EDUCATION IN THE ISLAMIC WORLD IN AZERBAIJANI HISTOROLOGY (9th-14th CENTURIES) 74
Nargız AKHUNDOVA, Aydın ALI-ZADE. AZERBAIJAN DURING THE ARAB INVASION 81
Nariman SHIRALIYEV. MILITARY OFFICIALS IN AKKOYUNLU STATE OF AZERBAIJAN 86
Rena GURBANOVA. USE OF DIPLOMATIC AND POLITICAL MEANS IN PREVENTING ARMENIA'S MILITARY AGGRESSION AGAINST NAKCHIVAN AUTONOMOUS REPUBLIC 104
Sakhavat AMRAHOV. MUTUAL POLITICAL RELATIONS OF THE GUTIANS WITH THEIR NEIGHBOURS 115
Shahlar SHARIFOV. POETS OF AZERBAIJAN WHO LIVED IN THE EARLY CALIPHATE PERIOD (VII-VIII CENTURIES) 120
Ulker ALIYEVA. CONTRADICTIONS IN RELATIONS BETWEEN CHINA AND IRAN IN THE 21st CENTURY 128
Vugar SAMADOV. THE FIRST CAMPAIGN OF EMPEROR HERACLIUS I TO THE CAUCASUS 134
Yegana CHAGHLAYAN. ON THE QUESTION OF BYZANTINE EUROPEAN POLICY IN THE FIRST HALF OF THE 13th CENTURY 144

ARCHAEOLOGY

Anar AGALARZADE. ABOUT THE CHALCOLITHIC-EARLY BRONZE AGE FINDINGS OF THE KHUDUTEPE SETTLEMENT 152
Elmar BAKHSHALIYEV. TOPOGRAPHIC AND CULTURAL CHARACTERISTICS OF DALMATEPA CULTURAL MONUMENTS 162
Elmira JAFAROVA. LOCALIZATION OF THE TOWNS OF MEDIEVAL SHIRVAN 178
Zhiraslan KAGAZEZHEV. THE PROBLEM OF THE HISTORICAL GENESIS OF THE DISTRIBUTION OF HAPLOGROUP G2a (Y - DNA) IN THE CAUCASUS 185
Lola HUSEYNOVA. HISTORY OF THE STUDY OF ARCHAEOLOGICAL MONUMENTS IN THE TERRITORY OF CHOVDAR (PHASE 1, 1903-1921) 200
Najaf MUSEIBLI. ARCHAEOLOGICAL EXCAVATIONS AT CHAGRITEPE: SOME QUESTIONS ABOUT THE ORIGIN OF THE EARLY NEOLITHIC IN THE MIDDLE KURA BASIN 211
Velı BAKHSHALIYEV, **Nezahat CEYLAN, Elmar BAKHSHALIYEV, Heyran HASANOVA.** THE SIONI TYPE CERAMICS IN THE SOUTH CAUCASUS IN THE CONTEXT OF ARCHAEOLOGICAL EXCAVATIONS AT TUMBULTEPE SETTLEMENT 228

PHILOSOPHY AND LAW

Antıga PASHAYEVA. ETHICS AND RIGHT: A PHILOSOPHICAL AND LEGAL VIEW OF THE ETHICAL FUNCTION OF CUSTOM AND TRADITION IN LEGAL SOURCES 247
Habil GURBANOV. BASIC PROVISIONS IN THE RIGHTS AND GUARANTEES OF REFUGEES FROM THE POINT OF VIEW OF ISLAMIC LAW AND INTERNATIONAL LAW (COMPARATIVE ANALYSIS) 257
Hafiz MUSAEV. THE REGIONAL COOPERATION IN THE FIELD OF INTERNATIONAL TERRORISM 267
Vusala GULMALIYEVA. CHARACTERISTICS OF PHILOSOPHICAL UNDERSTANDING OF DIALOGUE 272

POLITICAL SCIENCES

Narmin AZADGIL. ISRAEL-AZERBAIJAN-IRAN: ANALYSIS OF THE COMPLEX HISTORICAL DYNAMICS OF TRILATERAL RELATIONS 280
Samıra HABIBBAYLI. DEMOCRATIC REPUBLIC OF AZERBAIJAN – DEMOCRATIC REPUBLIC OF GEORGİA RELATIONS 289

SOCIOLOGY

Rana MAMMADOVA. EXTRABİLİTY AND İNCLUSİVE CULTURE 294

PSYCHOLOGY

Aytan ALISHANLI. THE ROLE OF EMOTIONAL INTELLIGENCE IN THE OPTIMIZATION OF INTERPERSONAL RELATIONS 301
Kamala AGHAYEVA. ADHD AND COMORBID DISORDERS 308

REVIEWS

Rashad Mustafa's review of Bayram Arif Kose's book "Azerbaycan: Orta Çağ İslam Hanedanları Dönemi" 314
Yaroslav Pylypchuk's review of Olesya Jdanovich's book "Кочовики і Візантія у Менандра" 318
Yaroslav Pylypchuk's review of Vladislav Gulevich's book "От ордынского улуса к ханству Гиреев: Крым в 1399-1502 гг." 323

UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2024.1.11

Naxçıvan Muxtar Respublikası – 100

İsmayıl HACIYEV
AMEA Naxçıvan Bölməsinin
sədri, akademik
haciyev.i1951@gmail.com
Azərbaycan

NAXÇIVAN DİYARININ MUXTARİYYƏT STATUSU ƏLDƏ ETMƏSİ VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏŞKİLİ

Məqalədə 1917-1921-ci illərdə Naxçıvan diyarında hərbi-siyasi vəziyyət, Rusiyada baş verən siyasi hadisələrin Cənubi Qafqaza, eləcə də Naxçıvan diyarına təsiri, hakimiyyət strukturlarının yaradılması, Cənubi Qafqazda müstəqil dövlətlərin yaranması, osmanlı hərbi heyətinin Naxçıvana gəlməsi, ingilis və amerikan hərbi nümayəndələrinin ikili siyasəti, Naxçıvan diyarını Ermənistana vermək cəhdləri, Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrin möhkəmlənməsi kimi məsələlərdən bəhs edilir.

Burada Sovet Rusiyasının ikili siyasəti, Naxçıvanın sovetləşməsi, Gümrü, Moskva və Qars müqavilələri, Naxçıvan diyarının muxtariyyət statusu qazanması və Azərbaycanın himayəsində qalması, Naxçıvan Muxtar Respublikasının təşkilinə aid məsələlər də tədqiqata cəlb edilmişdir

Açar sözlər: *Rusiya, Cənubi Qafqaz, Xüsusi Zaqafqaziya Komitəsi, Zaqafqaziya Seymi, Azərbaycan, Naxçıvan, muxtariyyət, respublika*

Giriş. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyinin Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb etdiyini və onun xalqımızın həyatında əlamətdar hadisə olduğunu nəzərə alan Ölkə Prezidenti İlham Əliyev 2023-cü il dekabrın 30-da Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır... Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir" [18, 2023, 31 dekabr].

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Bütün dövrlərdə Naxçıvan nəinki qonşu dövlətlər, həmçinin dünyanın digər dövlətləri üçün də çox böyük coğrafi-siyasi və strateji əhəmiyyət kəsb etmişdir. Xüsusilə, XX əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu ərazini "Böyük Ermənistan"a qatmaq üçün cəhdlər göstərmiş, azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirmişlər. Çətin və mürəkkəb mərhələlərdən keçən Naxçıvan Muxtar Respublikası Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış, ona muxtariyyət statusu verilmişdir. Naxçıvanın muxtariyyət statusu qazanması bu bölgədə 1917-1921-ci illərdə cərəyan edən ictimai-siyasi hadisələrin, onlara təsir edən daxili və xarici amillərin, əhalinin inadlı mübarizəsinin, referendumun nəticəsinin və iki mühüm beynəlxalq müqavilənin sayəsin-

də olmuşdur. 1921-1924-cü illərdə çoxsaylı müzakirələr olmuşdur. Bu müzakirələrdə bir məsələ aydın idi ki, Azərbaycan daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi [30, s. 313].

1923-cü il iyunun 16-da Naxçıvan muxtar diyar adlandırıldı, yəni onun siyasi-hüquqi statusu azaldıldı. Bunu bilən Türkiyə Cümhuriyyəti buna etirazını bildirdi. Nəticədə bir neçə müzakirədən sonra 1924-cü il fevralın 9-da Azərbaycan MİK Naxçıvan diyarının Naxçıvan MSSR-yə çevrilməsi haqqında qərar verdi.

Rusiyada monarxiyanın süqutu. XX əsrin əvvəllərində dünyada baş verən sosial-siyasi proseslər, xüsusən, Birinci dünya müharibəsinin nəticələri, Rusiya imperiyasının dağılması, siyasi həyata yeni müstəqil dövlətlərin gəlməsi Naxçıvan diyarının da taleyində dərin iz buraxmışdı. Rusiyada çarizm devrildikdən sonra imperiyanın əksər əyalətlərində olduğu kimi, Naxçıvan bölgəsində də ikihakimiyyətlilik meydana gəlmiş, bu diyar bir sıra dövlətlərin maraq dairəsində olmuşdur.

1917-1920-ci illər Naxçıvan diyarı üçün çətin inkişaf dövrü olmuş, bu qədim Azərbaycan torpağının real olaraq Ermənistana ilhaq edilmək təhlükəsi yaranmışdı. Birinci dünya müharibəsində qalib gəlmiş dövlətlərin himayə etdiyi Ermənistanın daşnak hökuməti bu bölgəni "Böyük Ermənistan"a qatmaq üçün silahlı təcavüzə əl atmış, bu məqsədlə Andronik, Dro, Njde və b. qaniçənlərin başçılıq etdikləri quldur daşnak dəstələrindən də fəal istifadə edilmişdi. Lakin diyarın yerli azərbaycanlı əhalisi bu amansız təcavüzlərə mərdliklə müqavimət göstərmiş, özünün yeganə xilas yolunu tarixi vətənə - Azərbaycana birləşməkdə görmüşdü. Naxçıvan diyarının əhalisi hələ o vaxt öz qəti fikrini belə ifadə etmişdi: "Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz".

Fevral inqilabı keçmiş Rusiya imperiyasının bütün ərazilərində, o cümlədən Naxçıvanda da tamamilə yeni siyasi şərait yaratdı. 1917-ci il martın 9-da diyarda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə (OZAKOM) verildi [29, s. 68]. Xüsusi Zaqafqaziya Komitəsi Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, ancaq qanunvericilik hüququna malik deyildi. Komitənin sədri V.A.Xarlamov, üzvləri isə M.Y.Cəfərov, K.Abaşidze, M.Papacanov və A.Çxenkeli idi. Xüsusi Zaqafqaziya Komitəsinin 1917-ci il 26 aprel və 18 iyun tarixli qərarları ilə Naxçıvana iki müvəkkil (B.Maqsudov, Mxitaryants) təyin edildi [30, s.37].

Naxçıvan, Culfa və Ordubad şəhərlərində Müsəlman və Erməni milli komitələri yaradıldı. Bu komitələr faktiki olaraq yerli idarəetmə funksiyalarını yerinə yetirməyə başladılar. Eyni zamanda, onlar öz silahlı qüvvələrini yaratmaq məqsədi ilə əhali arasında fəal iş aparırdılar.

1917-ci il noyabrın 11-də Tiflisdə keçirilən müşavirədə gürcü menşevikləri, Azərbaycan müsavatçıları, erməni daşnakları və sağ eserlərinin nümayəndələri Rusiya bolşevik hökumətini tanımaqdan imtina etdilər. Belə qərar qəbul edildi ki, Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Zaqafqaziya hökuməti yaradılsın. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı [29, s. 71]. Gürcü menşeviki E.P.Gegeçkorinin rəhbərlik etdiyi hökumətdə 10 komissarlıq təsis edilmişdi. Zaqafqaziya Komissarlığının əsas fəaliyyət istiqamətlərindən biri diyarı bolşevik Rusiyasından ayırmaq və Türkiyə ilə münasibətləri nizamlamaqdan ibarət idi.

Zaqafqaziya Komissarlığının yaradılması ilə Naxçıvanın inzibati idarəçiliyində əsaslı dəyişiklik baş vermədi. Diyarda Zaqafqaziya Komissarlığının müvəkkilliyi fəaliyyət göstərsə də, yerlərdə əsas hakimiyyət yenə də milli komitənin əlində idi. Naxçıvan şəhərində isə Qarışıq Komitə fəaliyyət göstərirdi.

Ərzincan barışığı imzalandıqdan sonra (1917, 18 dekabr) rus qoşunları Naxçıvanı tərk etdi. Onların malik olduqları silah-sursatı erməni daşnakları ələ keçirdi. Yerli azərbaycanlılarla müqayisədə ermənilər kifayət qədər silah-sursat üstünlüyünə malik idi. Rus komandanlığı erməniləri silahlandırdığı halda, müsəlmanlara silah verməkdən imtina edirdi.

1918-ci ilin əvvəllərindən başlayaraq daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini qırmışdı. Yanvarın 29-da Əznəbürd kəndinin ermənilər 22 nəfər müsəlmanı qətlə yetirdilər. Martın əvvəllərində Naxçıvan şəhərində və ətraf kəndlərdə ermənilərlə azərbaycanlılar ara-

sında qarşıdurma qızışdı. Naxçıvan şəhərindəki döyüşlərdə azərbaycanlılar özlərini müdafiə edirdilər, bölgənin digər yerlərində vəziyyət ağır idi. Kəndlərdə yerli müsəlmanlar silahlı erməni dəstələri qarşısında, demək olar ki, müdafiəsiz qalmışdılar.

Osmanlı komandanlığı ermənilərin törətdikləri vəhşiliklərin davam etdirildiyini daşnaklara xatırladıb türk ordusunun müsəlmanların qırılması təqdirində sadəcə müşahidəçi olmayacağını bildirdi. Türkiyə silahlı qüvvələrinin Qafqaz ordusu Baş komandanı Mehmed Vehib paşa öz ordusuna hücum əmri verdi. Osmanlı ordusunun bütün cəbhə boyu irəliləməsi fevralın 23-də Zaqafqaziya Seyminin açılmasına kimi davam etdi. 1918-ci il fevralın 23-də Zaqafqaziya Komissarlığının əvəzinə yeni orqan – Zaqafqaziya Seymi yaradıldı. Həmin ilin aprelin 22-də Zaqafqaziya Seymi müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradılması haqqında qərar qəbul etdi. A.Çxenkelinin başçılığı altında 12 nəfərdən ibarət yeni hökumət yaradıldı [27, s. 26].

Cənubi Qafqazda müstəqillik dalğası. Cənubi Qafqaz bölgəsində baş vermiş hadisələr son nəticədə Zaqafqaziya Federasiyasının süqutu və üç müstəqil dövlətin – Azərbaycan, Ermənistan və Gürcüstan respublikalarının yaranması ilə nəticələndi. Azərbaycanın müstəqil dövlət elan edilməsi Naxçıvan diyarı əhalisində müəyyən ümidlər yaratdı. Naxçıvan bölgəsinin qarşılaşdığı problemləri həll etmək və çətinlikləri aradan qaldırmaq üçün istər yerli əhali və onun başçıları, istərsə də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən müəyyən işlər görülmüş, ermənilərin ərazi iddialarının və etnik təmizləmə siyasətinin reallaşdırılması istiqamətində ilkin cəhdləri dəf olunmuşdu.

Erməni tərəfin Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti aparmasına baxmayaraq, Azərbaycan Milli Şurası Ermənistan nümayəndələrinin yardım üçün müraciətlərini qəbul edərək əzəli Azərbaycan şəhərini – İrəvan şəhərini onlara paytaxt kimi güzəşt edilməsinə razılıq verdi. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Tiflisdən xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi teleqramda yazırdı ki, "... biz İrəvanı ermənilərə verməyə razılaşdıq" [9, v.5]. Azərbaycan hökuməti bu güzəştə getməklə Ermənistanın ölkəmizə qarşı torpaq iddialarından əl çəkəcəyini zənn edirdi. Bu xeyirxahlıq erməni tərəfini yeni-yeni ərazi iddiaları irəli sürməkdən çəkindirmədi. Ermənistan hökuməti bütün İrəvan quberniyasını, Qars vilayətini, Tiflis və Yelizavetpol quberniyalarının bir hissəsini (o cümlədən keçmiş Dağlıq Qarabağı – İ.H.) özünün ayrılmaz hissəsi elan edərək, əhalinin 62,5 faizi azərbaycanlılar olan Naxçıvana da iddia etdiyini bəyan etdi.

Osmanlı dövləti nümayəndələri ilə Batumda aparılan danışıqlarda türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Eçmiədzin bölgələrindən ibarət bir Ermənistan dövlətinin qurulmasını təsdiqlədi [29, s. 168]. 4 iyun 1918-ci il tarixdə imzalanmış Batum müqaviləsinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 10 min kv. km ərazisi olan bir dövlət oldu [29, s. 169].

Batumdakı Azərbaycan və Ermənistan nümayəndələri arasında da ərazi-sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan "Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır. İrəvanı siyasi mərkəz kimi Ermənistana vermək məcburiyyətində olan Azərbaycan nümayəndələri şəhəri bu şərtlə güzəştə getməyə razı oldular ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, yəni Qarabağa, eləcə də İrəvan quberniyasının Naxçıvan bölgəsinə olan iddialarından imtina etsinlər.

1918-ci ilin may-iyun aylarında ermənilər və Andranikin başçılığı ilə erməni yaraqlıları Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirdi. Erməni silahlı quldur dəstələri bölgədə azərbaycanlı dinc əhaliyə divan tutur, Naxçıvan əhalisinə qarşı vəhşi hərəkətlərini davam etdirir, yaşayış məntəqələrinə basqınlar edir, etnik təmizləmə siyasəti aparır, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitələrə əl atır, Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə məlumatlar yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər.

Yeni idarəetmə sisteminin yaradılması. Erməni daşnakları Naxçıvan qəzasının bir sıra kəndlərini və Culfanı işğal edən zaman – 1918-

ci il mayın 17-də kapitan Xəlil bəyin başçılığı ilə türk hərbi heyəti Naxçıvana gəldi. O, bölgəyə gəldikdən sonra Naxçıvanı gözlənilən erməni təcavüzündən qorumaq üçün yerli gənclərdən könüllü qoşun hissələri təşkil etməyə başladı [30, s. 62].

Batum müqaviləsini əsas götürən Osmanlı dövləti qəti tədbirlər görməyə məcbur oldu. Türkiyə hərbi komandanlığı Kazım Qarabəkir paşanın komandanlığı altında olan IX Orduya Naxçıvana kömək etməyi tapşırdı. IX Ordunun tərkibində olan XI Qafqaz diviziyası 1918-ci il iyulun əvvəlində erməni dəstələrini məğlub edərək Naxçıvan şəhərinə yaxınlaşdı. İyul ayının 20-21-də baş vermiş döyüşlərdən sonra şəhər erməni qüvvələrindən təmizləndi, Culfa isə azad edildi [27, s. 65-66].

Naxçıvan bölgəsi türk qoşunlarının nəzarətinə keçdikdən sonra burada Osmanlı sisteminə uyğun inzibati idarəetmə sistemi yaradılmağa başlandı. Alay komandiri Sürəyya bəy qəza rəisi təyin edildi. Sürəyya bəyin əmri ilə Naxçıvan Milli Komitəsi ləğv edilərək yerində jandarm, ədliyyə və bələdiyyə idarələri yaradıldı. Jandarm komandanlığına Məhəmməd Əli xan, onun müavini Qəni bəy Vəzirov, Bələdiyyə idarəsinin rəisi Cəfərqulu xan, üzvləri isə Hacı Abdulla Şeyxov və Tağı Nağdalıyev təyin edildilər. Ədliyyə məhkəməsinə isə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim paşa Kəngərlinski təyin olundular [27, s. 72]. Bir müddət sonra ordunun Təbrizə getməsi ilə əlaqədar, Sürəyya bəyin yerinə mayor Əli Şəfiq bəy təyin olunmuş, o isə öz növbəsində bir sıra inzibati dəyişikliklər etmişdi. Türk komandanlığı Naxçıvanda hərbi vəziyyət elan etdi, yerli əhalidən özünümüdafiə dəstələri təşkil edərək onlara hərbi təlim keçməyə başladı.

1918-ci il avqustun 1-də Osmanlı imperatorluğunda kolorduların (xüsusi korpusların – İ.H.) təşkili və cəbhələrdə aparılan yerdəyişmələrlə əlaqədar Naxçıvan bölgəsinin müdafiəsi Kazım Qarabəkir paşanın komandanlığı altında olan I Qafqaz kolordusuna tapşırıldı, IX və XI diviziyalar onun tərkibinə qatıldı. Avqustun 7-dən Naxçıvanda olan Kazım Qarabəkir paşa bölgənin müdafiəsi üçün bir sıra tədbirlər gördü və bununla da erməni silahlı qüvvələrinin yenidən Naxçıvana hücum etmələrinin qarşısı alındı [30, s. 62].

Birinci dünya müharibəsində məğlub olan Osmanlı dövləti oktyabrın 30-da Mudros sazişini imzalamağa məcbur oldu. Müqaviləyə görə Türkiyə Azərbaycanı, eləcə də Naxçıvanı ingilislərin himayəsinə verməli idi. Siyasi vəziyyət həddindən artıq çətin və mürəkkəb idi. Türk qoşunu ölkəni tərk etmək ərəfəsində - 1918-ci il noyabrın 18-də sabiq Naxçıvan Müsəlman Milli Şurasının əsasən üzvlərindən ibarət Araz-Türk Cümhuriyyəti yaradıldı. Kazım Qarabəkir paşa bu cümhuriyyətin silahlı qüvvələrinin yaradılmasına kömək məqsədi ilə bölgədə türk ordusundan ibarət əsgər və zabit saxlanılmasına icazə verdi. Polkovnik Xəlil bəy bu cümhuriyyətdə Türkiyəni təmsil edirdi. Gələcəkdə erməni hücumlarından qorunmaq üçün türk komandanlığı burada güclü və sabit hakimiyyət yaratmağa, könüllülərdən ibarət hərbi qüvvələr qurmağa, müsəlman əhalisini təşkilatlandırmağa başlamışdı. Bu məqsədlə Naxçıvan şəhər əhalisinin ümumi yığıncağında Müsəlman Milli Şurasının yenidən təşkilinə, əhalinin silahlandırılmasına, müdafiə işlərinin sürətləndirilməsinə qərar verilmiş, Naxçıvanı tərk edən Əli Şəfiq bəyin yerinə Mirzə Nəsrullah Əmirov yerli hökumətin başçısı təyin edilmişdi [27, s. 83-84].

Araz-Türk Cümhuriyyəti. Noyabrın ilk günlərindən osmanlı qüvvələri Naxçıvanı tərk etməyə başladılar. Ordu komandanı Yaqub Şövqü paşanın teleqramında göstərilirdi ki, tərxis olunana ehtiyat zabitlərindən Naxçıvan bölgəsində yaradılan təşkilatda işləmək istəyənlər orada qala bilərlər, ancaq osmanlı forması geyinməsinlər. Alınan əmrə görə Xəlil bəy və yoldaşlarının bir qrupu Naxçıvanda qalırdı. Türk ordusu Naxçıvandan çıxandan sonra bölgədə 5 zabit və 300 əsgər qaldı.

1918-ci il noyabrın 18-də Naxçıvan diyarını və ətraf əraziləri erməni daşnaklarının işğalından qorumaq üçün Araz-Türk Cümhuriyyəti yaradıldı. Araz-Türk Cümhuriyyətinin yaradılması təşəbbüsü ilə Naxçıvan, Şərur müsəlmanları çıxış etmiş və onların təklifi ilə ordubadlılar da bu siyasi tədbirə qoşulmuşlar. Araz-Türk Cümhuriyyətinin hakimiyyət strukturu formalaşdırılmış və Əmir bəy Nərimanbəyov hökumətin sədri seçilmişdir. Hökumətin tərkibi hərbi, maliyyə, inzibati, ədliyyə, xarici işlər, şey-

xülislam və aşirətlər rəisindən ibarət idi. Xəlil bəy Türkiyə dövlətinin Araz-Türk Cümhuriyyətində hərbi müşaviri idi [25, s. 41-42].

Araz-Türk Cümhuriyyətində dövlət, parlament və digər idarəçilik orqanları, 20 tabordan ibarət könüllü xalq dəstələri yaradıldı. Araz-Türk Cümhuriyyətinin sahəsi 8696 kv. km, əhalisi 1 milyon nəfərə çatırdı. Naxçıvan, Şərur-Dərələyəz, Ordubad qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b. ərazilər cümhuriyyətin tərkibində idi. General Vesəl Ünüvar yazmışdır ki, Araz-Türk hökuməti Ordubaddan Sürməliyədək olan torpaqlar bu respublikanın ərazisinə daxildir. Cümhuriyyətin yaradılması məsələsi Qəmərlidə müzakirə edilmiş və sonra Naxçıvan şəhərində yaradılmış və paytaxtı da Naxçıvan şəhəri idi.

Respublika ərazisində milis idarələri, onların sahə şöbələri, taborlar (batalyonlar), süvari alayı yaradıldı. Araz-Türk Cümhuriyyətinin yaratdığı özünümüdafiə qüvvələri, süvari alayı yerli əhali ilə birlikdə diyarın və əhalinin təhlükəsizliyini, ərazinin qorunmasını, onun erməni işğalına düşməsi üçün əzmlə mübarizə aparırdı.

Araz-Türk Cümhuriyyəti fəaliyyəti dövründə (18.11.1918 – 10.03.1919) Azərbaycan Xalq Cümhuriyyəti, Osmanlı dövləti, Cənubi-Qərbi Qafqaz Respublikası ilə əlaqələr yaratmış, Naxçıvan diyarını qoruyub saxlamışdır.

Naxçıvana İngiltərə və ABŞ müdaxiləsi. 1919-cu ilin yanvarında Naxçıvan bölgəsinə çox az miqdarda ingilis hərbi qüvvələri gətirildi. Bir neçə gündən sonra mayor Vilyam Gibbon Naxçıvana gəldi. Onun gəlişinin əsas məqsədi erməni mühacirlərinin məsələsini həll etmək, diyarın iqtisadi və siyasi vəziyyəti ilə tanış olmaq, Araz-Türk Cümhuriyyəti silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdur. V.Gibbon Naxçıvan hökumətinin səlahiyyətli şəxsləri ilə görüşündə erməni mühacirlərinin məsələsini həll etmək, onları buradakı evlərində yerləşdirmək üçün gəldiyini bildirsə də, müsbət cavab ala bilmədi və geri qayıtdı.

1919-cu il yanvarın 19-da Fridrix Lautenin başçılığı ilə daha bir ingilis heyəti Naxçıvana gəldi [30, s. 87]. F.Lauten Milli Şura üzvləri ilə görüşdükdən sonra münaqişənin qəti həllinə və sərhədlərin müəyyənləşdirilməsinədək bu ərazilərin ingilis komissiyası tərəfindən idarə olunacağını, müsəlmanların silahlı qüvvələrinin Arazdəyən stansiyası və Sədərəkdə, erməni hərbi hissələrinin isə Arazboyu Yaycıda qalacağını bildirdi [4, v. 7-8].

1919-cu il fevralın əvvəllərində Qafqazdakı ingilis hərbi komandanlığının əmri ilə F.Lauten Naxçıvan rayonunun general-qubernatoru təyin edildi. Polkovnik F.Lautenə səlahiyyət verilmişdi ki, "əhalinin əksəriyyətini müsəlmanlar təşkil edən qonşu rayonları da öz general-qubernatorluğuna birləşdirə bilər" [30, s. 88]. İngilislər dəmiryolu, poçt, teleqrafı nəzarətə götürmüş, yerli əhalidən vergi toplanması hüququnu əllərinə keçirmiş, hərbi qüvvələrini Naxçıvan, Culfa, Şahtaxtı və Dəvəlidə yerləşdirmişdilər [36, s. 57]. İngilislər özlərini bitərəf elan etmələrinə baxmayaraq, Naxçıvanın Ermənistana qatılması ideyasını müdafiə edirdilər. Milli Şuranın sədri Cəfərqulu xan və üzvləri 1919-cu il fevralın 26-da general-qubernator F.Lautenə məktub göndərərək bölgənin müsəlmanların iradəsinin əksinə olaraq Ararat Respublikasına verilməsinə etiraz edir və göstərirdilər ki, "müsəlmanlar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər" [10, v. 2].

İngilis missiyası ermənilərin Naxçıvana qarşı işğalçılıq hərəkətlərinə nəinki mane olmur, əksinə ermənilər silahlandırırdı. Onlar bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təkliflərini irəli sürürdülər [36, s. 59].

1919-cu il 3 aprel tarixindən F.Lauteni Con Simpson əvəz etdi. Yeni general-qubernatorun fəaliyyəti sayəsində Naxçıvanın Ermənistana tabe etdirilməsi daha da sürətləndi. Onun bilavasitə göstərişi ilə əhalidəki silahlar yığılmağa, Osmanlı təəbələri bölgədən çıxarılmağa başlandı. Azərbaycan hökuməti tərəfindən Naxçıvana göndərilmiş polkovnik Ququşovun başçılığı ilə zabit heyətindən Naxçıvanı tərk etmək tələb olundu [23, s. 66].

Naxçıvanın erməni idarəsinə verilməsinin ilk mərhələsini Britaniyanın Qafqazdakı qoşunlarının komandanı Devi aprelin 17-də Xatisyan ilə Gümrüdə müzakirə etdi. Erməni komandiri Dronun Naxçıvanı silah gücünə tabe etdirmək haqqında planı Devinin Simpsonla görüşündə

bəyənildi [27, s. 167-168]. General Tomson da onların bu məqsədlərini qəbul etdi. Tomson erməni rəhbərlərinə təkilf edirdi ki, Qarabağın və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, Qars və Naxçıvanın onların nəzarəti altına keçməsinə kömək edəcəkdir.

Bölgənin Ermənistanın müvəqqəti idarəçiliyinə verilməsi yolunda atılan ən mühüm addımlardan birini də ingilis generalı Devinin mayın 2-də Naxçıvana səfəri təşkil edir. Mayın 5-də Devi Müsəlman Milli Şurasının üzvləri və Naxçıvanın sayılan adamları ilə görüşündə Naxçıvan, Şərur və Ordubad qəzalarının Ermənistan Respublikası ərazisində yerləşdiklərinə görə onun hakimiyyətinin tabeçiliyinə keçməli olduqlarını bildirdi [6, v.4]. Naxçıvan müsəlmanları Ermənistana birləşməkdən qəti imtina etdilər və bunu açıq zorakılıq kimi səciyyələndirdilər. Onlar qəti olaraq bildirdilər ki, erməni hökuməti tanınmayacaq, ermənilərə xidmət edənlər edam ediləcək, əhalinin bölgədən çıxmasına icazə verilməyəcək. Biz yeganə hakimiyyət orqanı olaraq yaradılan Milli Komitəni tanıyırıq [27, s. 121].

İngilislərin bu rayonları ermənilərə vermək fikrindən dönmədiklərini görən naxçıvanlılar bir sıra şərtlər irəli sürdülər. Bu şərtlərin yerinə yetirilməsi zorla ayrılmış vilayətlərin vəziyyətini qismən yüngülləşdirdi. Naxçıvan bölgəsinin Ermənistan Respublikasının müvəqqəti idarəçiliyinə verilməsi barədə ingilis generalı Devi və İrəvan hərbi dəstəsinin rəisi Dro tərəfindən birgə əmr imzalandı. Azərbaycan hökumətinin və yerli müsəlmanların bununla əlaqədar etirazları ingilislər tərəfindən qəbul edilmədi.

Mayın 14-də general Devi və Ermənistanın Baş naziri Q.Xatisyan Naxçıvana gəldilər. Onları Kəlbalı xan, Milli Komitənin üzvləri qarşıladılar. Onlar şəhərdə əhali ilə görüşlərində naxçıvanlıların barışmaz mövqeyinin şahidi oldular. Beləki, Q.Xatisyan müttəfiq dövlətlərin Qafqazdakı nümayəndələrinin – ingilislərin iradəsi ilə Naxçıvanın müvəqqəti olaraq Ermənistanın idarəçiliyinə verilməsi fikrini söyləyərkən tədbirdəki ağsaqqalların kəskin etirazları ilə qarşılaşdı. Naxçıvanlılar öz etirazlarını həmçinin, yazılı surətdə Cənubi Qafqazdakı Britaniya qoşunlarının komandanlığına, Ermənistan, Azərbaycan və müttəfiq dövlətlərin hökumətlərinə bildirdilər. Lakin azərbaycanlı əhalinin etirazları əməli nəticə vermədi və bölgənin əhalisi iyulun sonlarına qədər erməni "idarəçiliyi"altında yaşamalı oldu. Mayın ortalarında Ermənistam hökumətinin qərarı ilə daşnak Varşamyanın başçılığı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. Daşnaklar yalnız Naxçıvan şəhərinin bir hissəsini və dəmiryolu ətrafındakı əraziləri nəzarətdə saxlaya bilmişdi. Qəzalarda hakimiyyət yerli liderlərin əlində idi. Şərura zabit Həmzəyev, Naxçıvanın şimal sahəsinə Bəhram xan Naxçıvanski, Ordubada Səmədbəyov nəzarət edirdi [36, s. 62].

1919-cu ilin mayın ortalarından iyulun sonlarınadək – təxminən iki aylıq bir müddətdə Naxçıvan bölgəsində erməni "idarəçiliyi" peyda oldu. Həmin müddət çoxlu mühüm siyasi hadisələrlə zəngin olub naxçıvanlıların ermənilərə qarşı qəhrəmancasına mübarizəsi ilə səciyyələnir [30, s. 139]. Azərbaycanlı əhali bir sıra mülahizələri, xüsusilə, bütün işlərin müttəfiq dövlətlər adından görüldüyünü, Devi və Xatisyanın vədlərini nəzərə alaraq əvvəlcə ermənilərə müqavimət göstərmədi. Lakin Naxçıvan Müsəlman Milli Şurasının sədri həmin dövrdə bölgədə baş verən siyasi hadisələr barədə məlumatda yaranmış şəraitdə onların tutduqları mövqeyi belə izah edirdi: "Baxmayaraq ki, hazırda Naxçıvanda erməni mülki qubernatoru və general-qubernatoru vardır, biz hamımız, Naxçıvan rayonunun sakinləri öz təşkilatlarımızı dağıtmamışıq və ingilislərin buradan getməsini və Zəngəzur qəzasının Azərbaycan qoşunları tərəfindən tutulmasını gözləyirik. Azərbaycan bu qəzanı ələ keçirən kimi biz onlarla birləşib elə həmin gün ermənilərə təklif edəcəyik ki, öz avadanlıqlarını bizim ərazidən yığışdırsınlar, əgər biz buna sülh yolu ilə nail olmasaq, silaha əl atacağıq, çünki biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik..." [14, v.16].

1919-cu il iyunun sonu – iyulun əvvəllərində ingilis qoşunları Naxçıvanı tərk etməyə başladı. Ermənilər ingilislər hələ bölgədən çıxmamış Naxçıvan məsələsini öz xeyirlərinə həll etmək məqsədilə bölgəni azərbaycanlılardan təmizləmək, etnik tərkibdə ermənilərin sayını artırmaq, ölkədə hərbi səfərbərlik aparmaq və Naxçıvan bölgəsinə əlavə qoşun hissələri yeridilməsinə başladılar. Bunun müqabilində naxçıvanlılar da ingilislərin çıxmasından istifadə

edərək erməni "idarəçiliyi"nə son qoymaq üçün bir sıra tədbirlər gördülər.

Naxçıvan əhalisi erməni işğalçılarına qarşı tədricən əsl müharibəyə çevrilən azadlıq mübarizəsinə başladı. Naxçıvan bölgəsinin bir sıra yerlərində könüllü partizan dəstələri ermənilərə qarşı uğurlu əməliyyatlar aparır, onların qüvvələrini sarsıdırdı. Ermənilərə qarşı vuruşan könüllülərin sayı 10 minə çatırdı. İrəvandakı səlahiyyətli nümayəndə M.Təkinski vasitəsi ilə Azərbaycan hökuməti naxçıvanlılara geniş siyasi, diplomatik və maliyyə yardımı göstərirdi [25, s. 64-65].

Ermənilərin bölgədəki ağalığına son qoyulması ilə nəticələnən əsas hərbi hadisələr 1919-cu il iyul ayının son ongünlüyündə baş verdi. Naxçıvan şəhəri ətrafında, Şahtaxtı, Yengicə və Noraşen stansiyalarında hərbi sursat cəhətdən daha üstün olmalarına baxmayaraq, erməni qüvvələri məğlub edildilər, çoxlu silah və sursat, zirehli qatar ələ keçirildi. Şahtaxtıda erməni qarnizonu və Naxçıvandakı qoşunlara köməyə gələn Humba paşanın – "Yapon"un eşalonu darmadağın edildi. Xanlıqlar kəndi döyüşsüz təslim oldu, 5 zabit, 95 əsgər əsir alındı, 600 tüfəng qənimət götürüldü [28, s. 81].

General Şelkovnikovun qüvvələri Naxçıvan şəhərində bir müddət müqavimət göstərsə də iyulun 24-də o, şəhəri tərk etməli oldu. Ordubad bölgəsi üç günlük döyüşlərdən sonra ələ keçirildi. Düşmənin Vedidə möhkəmlənmək cəhdi də baş tutmadı, ermənilər burada 4 min canlı qüvvə itirdi.

Naxçıvan bölgəsində ingilislərin "himayəsi" altında silah gücünə yaradılmış erməni "idarəçiliyi" iflasa uğradı və biabırçılıqla başa çatdı. Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında bu barədə demişdi ki, İrəvan quberniyasının bütün türk rayonu, o cümlədən də Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək təbii orqanizm saydığı Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi [30, s. 155].

1919-cu ilin yayında Naxçıvan bölgəsində ingilislərin mövqelərinin zəiflədiyini görən ABŞ burada daha fəal siyasət yeritməyə başladı. Qafqazda nüfuz dairəsini qazanmaq uğrunda İngiltərə ilə rəqabətə girən Birləşmiş Ştatlar Şimali Azərbaycanın, xüsusi ilə də Naxçıvan bölgəsinin strateji mövqeyinə mühüm əhəmiyyət verir, ermənilərin bu diyarı ələ keçirmək niyyətlərindən öz məqsədləri üçün istifadə edərək, müxtəlif vasitə və üsullarla bölgədə möhkəmlənməyə çalışırdı [36, s. 66]. ABŞ əsasən, daşnakpərəst mövqedən çıxış etsə də, bölgəyə kifayət qədər hərbi qüvvə gətirə bilməməsi, yerli azərbaycanlı əhalinin çox güclü müqaviməti, AXC hökumətinin prinsipial mövqeyi və s. görə ikili siyasət yeridirdi. Belə ki, 1919-cu il avqustun 22-də Paris konfransının Ermənistana Ali komissar təyin etdiyi polkovnik V.Haskel Ermənistandakı çıxışında daşnakların bu qəzalara qarşı irəli sürdükləri ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Avqustun 29-da Bakıda Baş nazir N.Yusifbəyli, Xarici İşlər naziri M.Cəfərov və b. ilə görüşündə bölgənin Azərbaycanın idarəçiliyində saxlanacağını elan etmişdi [30, s. 170].

1919-cu ilin sentyabrında V.Haskel Naxçıvan və Şərur-Dərələyəz torpaqlarını əhatə edən "bitərəf zona" yaradılması layihəsini Azərbaycan hökumətinə təqdim etdi. Bu layihəyə görə "bitərəf zona" polkovnik V.Haskelin təyin etdiyi amerikalı qubernatorun idarəsində olmalı idi. "Bitərəf, yaxud neytral zona" yaradılması haqqında Haskelin birinci layihəsi yerli hakimiyyət orqanlarının tamamilə Amerika qubernatoruna tabeliyini nəzərdə tuturdu. Bu layihəyə görə Şərur və Naxçıvan qəzaları amerikalı qubernatorun başçılığı ilə müttəfiqlərin idarəsi altında olan zonanı təşkil etməli idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti V.Haskelin layihəsini qəbul edə bilməzdi. Hələ 1919-cu il 28 fevral tarixli qərarı ilə AXC hökuməti Naxçıvan general-qubernatoru yaratmış və Bəhram xan Naxçıvanskini oraya qubernator təyin etmişdi [5, v.2]. Xarici İşlər naziri M.Cəfərovun V.Haskelə göndərdiyi teleqramda "bitərəf zona" yaradılmasına qəti etiraz olunur, bölgənin yalnız Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Amerika general-qubernatorluğu tərəfindən idarə edilməsinə razılıq verilirdi.

V.Haskelin layihəsi əsasında Naxçıvanda general-qubernatorluğun yaradılması yerli azərbaycanlı əhalinin də kəskin etirazına səbəb oldu. Onların nümayəndələrinin 1919-cu il sentyabrın 9-da Haskelə təqdim etdiyi tələbnamədə, eləcə də həmin ilin oktyabrın 1-də Naxçıvanda S.Cəmillinskinin, Xəlil bəyin və Kəlbalı xanın V.Haskelin nümayəndəsi A.Robenzonla görü-

şündə Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Millistan əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu, bu ərazilərin iqtisadi, siyasi, mədəni və strateji cəhətdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və öz qanları ilə azadlıq qazandıqlarını nəzərə çatdırmışdı [15, v.73].

Müttəfiqlərin Ali komissarının Azərbaycan üzrə müvəkkili Ceyms Rey 1919-cu il oktyabrın 16-da Müsəlman Milli Şurasına və Kalbalı xana göndərdiyi məktubunda Naxçıvan və Şərur rayonlarının müttəfiq idarəçiliyində saxlanıldığını, orada Amerika general-qubernatorluğunun yaradıldığını, ABŞ ordusunun mühəndisi, polkovnik Edmond L.Dellinin ona başçı təyin edildiyini və oktyabrın 23-də Naxçıvana gəlib vəzifələrinin icrasına başlayacağını çatdırırdı [28, s. 92; 30, s. 200].

1919-cu il oktyabrın 24-də Naxçıvana gələn C.Rey S.Cəmillinski, Kalbalı xan və Xəlil bəylə görüşündə V.Haskelin Naxçıvanda general-qubernatorluq yaradılması haqqında bəyanatını elan etdi. Bəyanatda, həmçinin bölgədə yaşayan xalqların sayına görə erməni və azərbaycanlılardan ibarət Mərkəzi Şuranın yaradılması, bölgədən Azərbaycan və Ermənistan qoşunlarının çıxarılması, dəmiryolun və teleqrafın qubernatorun nəzarəti altında qalacağı, idarəetmə xərclərinin yerli büdcə hesabına ödənilməsi bildirilirdi [14, v. 76]. Lakin Naxçıvan rəhbərləri öz mövqelərində qalaraq C.Reyin təkliflərini qətiyyətlə rədd etdi. Ertəsi gün ictimaiyyətin geniş nümayəndələri amerikalı nümayəndələr ilə görüşündə də əhalinin yalnız Azərbaycan hökumətini tanıdığı amerikalı nümayəndələrin nəzərinə çatdırıldı. Bölgənin azərbaycanlı əhalisinin güclü müqaviməti ilə rastlaşan C.Rey Delinin burada general-qubernator kimi deyil, müttəfiqlərin Ali komissarlığının nümayəndəsi kimi qalması ilə razılaşdı.

Beləliklə, Naxçıvan əhalisinin inadlı mübarizəsi və Azərbaycan hökumətinin ciddi səyləri nəticəsində amerikalıların bölgəni "bitərəf zona"ya çevirmək və orada Amerika general-qubernatorluğu yaratmaq yolu ilə Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı. Məqsədlərinə nail ola bilməyən Amerika nümayəndələri 1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Naxçıvanı birdəfəlik tərk etdilər [11, v. 121].

Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrin möhkəmlənməsi. Ermənilərin Naxçıvan bölgəsindən qovulması regionun Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrini möhkəmlətdi. Bundan istifadə edən respublika hökuməti öz nümayəndəsi Səməd bəy Cəmillinskini 11 avqust 1919-cu il tarixdə buranın müvəqqəti general-qubernatoru təyin etdi [30, s. 159].

Erməni işğalına son qoyulduqdan sonra bölgənin idarə edilməsində çox mürəkkəb vəziyyət yaranmışdı. Əslində hakimiyyət üç qüvvənin: Azərbaycan hökumətinin bölgədəki nümayəndəsi – general-qubernator S.Cəmillinskinin, Türkiyənin hərbi nümayəndəsi Xəlil bəyin və Kəlbalı xan və onun tərəfdarlarının əlində idi. Bölgənin ermənilərdən azad edilməsində onlar birgə mübarizə aparsalar da hakimiyyət bölgüsündə, diyarın idarə edilməsində, xarici oriyentasiya və s. məsələlərdə onlar arasında kəskin fikir ayrılıqları var idi.

General-qubernator S.Cəmillinski Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xəttini yeridir və diyarın Azərbaycanla əlaqələrini daha da möhkəmləndirməyə çalışırdı. Naxçıvan bölgəsində öz mütləq hakimiyyətini qurmağa və müstəqil fəaliyyət göstərməyə çalışan Kəlbalı xan və 1919-cu ilin yayında yenidən Naxçıvana qayıtmış, bölgəni Türkiyənin nüfuz dairəsinə qatmağa çalışan Xəlil bəy arasında münasibətlər kəskinləşmiş, onlar arasında ziddiyətlər yaranmışdı. Bu ziddiyətləri aradan qaldırmaq məqsədi ilə S.Cəmillinski Xəlil bəyi Naxçıvan qoşunlarının baş komandanı, rütbəsi artırılmış Kəlbalı xanı isə onun köməkçisi, eyni zamanda, Naxçıvan qoşun dəstəsinin komandiri təyin etmişdi [23, s. 85]. S.Cəmillinski Naxçıvanda Azərbaycan hökumətinin nüfuzunu yüksəltmək və çoxhakimiyyətliliyə son qoymaq üçün bölgəyə nizami qoşun hissələrinin göndərilməsini, yerli xəzinənin pul vəsaiti ilə təmin edilməsini və s. kimi addımların atılmasını hökumətdən xahiş edirdi.

Naxçıvan diyarının idarə edilməsini yaxşılaşdırmaq və onun sosial-iqtisadi problemlərini həll etmək üçün dövlət orqanları fəaliyyətə başlamışdı. Bu problemlər içərisində qaçqınlar problemi xüsusi yer tuturdu. Erməni hökumətinin təcavüzkar siyasəti nəticəsində İrəvan quberniyasından Naxçıvan ərazisinə pənah gətirmiş qaçqınların sayı 70 mindən artıq idi [9,

v.4]. Bölgədəki qaçqınların yerləşdirilməsi və təmin olunması üçün B.Şahtaxtinskinin başçılığı ilə Qaçqınlar Komitəsi yaradıldı.

Naxçıvanda hərbi-siyasi vəziyyət və sovetləşmə. Bu dövrdə Naxçıvan bölgəsində hərbi-siyasi vəziyyət yenidən gərginləşməyə başladı. Erməni daşnakları tərəfindən bütün sərhəd boyu Naxçıvan mahalının Vedibasardan Ordubada qədər bölgəyə hücum üçün hazırlıqlar görülür, nizami silahlı qüvvələr cəmləşdirilirdi. 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün daşnak Ermənistanı yeni cəhd göstərdi. Naxçıvan rəhbərləri arasında birliyin olmaması vəziyyəti çətinləşdirirdi. 1920-ci ilin martında Cavid bəyin xahişi ilə Kazım Qarabəkir paşanın qərarı ilə Naxçıvana Əli Teymur bəyin komandanlığı altında 50 nəfərdən ibarət yeni türk qoşun hissəsi gəldi [36, s. 72]. Kəlbalı xanın, Ədib bəyin, Abbasqulu bəy Şadlinskinin başçılığı ilə yerli azərbaycanlılar erməni quldur dəstələrinə layiqli cavab verdilər və İrəvanın 8 kmliyinə qədər çatdılar [27, s. 274].

Türkiyə milli azadlıq hərəkatının liderləri Antantanın işğalçılıq planlarına qarşı mübarizədə yeganə müttəfiq Sovet Rusiyasını görür və onunla yaxınlaşmağa can atırdı. Sovet Rusiyası ilə Türkiyə arasında əlaqənin, ancaq Naxçıvan ərazisi vasitəsilə mümkün olacağını başa düşən Mustafa Kamal hökuməti Azərbaycanda bolşevizmin hakimiyyətə gəlməsində maraqlı olmuş, XI Ordu ilə sıx əlaqə yaradılmışdı.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti devrildi və bolşeviklər hakimiyyətə gəlməklə Şimali Azərbaycan sovetləşdirildi. Aprel çevrilişindən sonra Ermənistan hökuməti bildirdi ki, əgər Azərbaycan Şərur-Dərələyəz qəzasından və Naxçıvan rayonundan imtina edərsə, o da Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razılıq verər. Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov bu təklifi rədd edərək, Culfa və Naxçıvanın sovet qoşunları tərəfindən dərhal tutulmasını və Azərbaycana birləşdirilməsini təkidlə tələb edirdi.

Erməni basqınlarından cana doymuş yerli əhali 1920-ci ilin iyulunda məktubla N.Nərimanova və Q.Orconikidzeyə müraciət etdi. Məktubda deyilirdi: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur, Qırmızı ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik" [17, v. 252].

Beləliklə, iyulun 28-də Naxçıvanda sovet hakimiyyətinin qurulması ilə Naxçıvan Sovet Sosialist Respublikası elan edildi və respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi (M.Bektaşov, A.Qədimov, A.Bağırov, F.Mahmudbəyov, Q.Babayev, Q.Əsgərov, N.Nəcəfov) yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi tərəfindən Azərbaycan SSR XKS-in sədri N.Nərimanova göndərilən məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi hesab etmişdir" [36, s. 82].

1920-ci ilin oktyabrında G.Əsgərov Naxçıvan İnqilab Komitəsinin sədri təyin olunur və 10 şöbə yaradılır.

Sovet Rusiyasının ikili siyasəti. Bu dövrdə Sovet Rusiyası yenə ikili siyasət yeridirdi. Bir tərəfdən erməni daşnak qüvvələri ilə müharibə aparır, digər tərəfdən isə onlarla danışıq aparırdı. Məhz Sovet Rusiyasının təşəbbüsü ilə 1920-ci il avqustun 10-da daşnak Ermənistanı ilə barışıq sazişi imzalandı [28, s. 151]. Sazişə görə tərəflər hərbi əməliyyatları dayandırmalı, erməni qoşunları Şahtaxtı-Xok-Əznəbürd-Sultanlı, daha sonra Küküdən şimala və Bazarçaydan qərbə uzanan demarkasıya xəttində dayanmalı, sovet qoşunları isə Qarabağ, Zəngəzur və Naxçıvanı tutmalı idilər. Gümrü-Şahtaxtı-Culfa dəmiryolundan ermənilər qeyri-hərbi məqsədlər üçün istifadə edə bilərdilər. Beləliklə, Azərbaycanın iştirakı olmadan onun torpaqlarının məsələsi müzakirə olunur, Ermənistanla danışıqlarda Sovet Rusiyası onun adından çıxış edirdi.

Erməni tərəfi Dərələyəz, Zəngəzur, Ordubad, Şərur, Şahtaxtı ərazilərinə basqınlar edir, onları tutmağa çalışırdı. Türk və sovet qoşunları ilk dəfə olaraq ermənilərə qarşı birgə döyüşə girdi və daşnakları məğlub etdilər. 1920-ci ilin noyabr-dekabr aylarında bütün Şərur qəzası ermənilərdən təmizləndi [28, s. 161].

Çox qəribə idi ki, Naxçıvanda olan bolşevik ordusu Ermənistanla müharibə apardığı halda, həm də onlarla siyasi və diplomatik danışıqları davam etdirirdi. Bu danışıqlarda Azərbaycanın mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bunu

bilən Nəriman Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..." [16, v. 1].

Sovet Rusiyası Ermənistanı öz tərəfinə çəkmək, öz nüfuz dairəsinə almaq üçün Azərbaycanın əzəli torpaqları olan Naxçıvan və Zəngəzuru Ermənistana verməyi planlaşdırırdı. Bu yolla həm də Ermənistanı sovetləşdirmək istəyirdi. Sovet Rusiyasının Azərbaycanın bu bölgəsinə dair planlarını İ.Stalinin 1920-ci ilin noyabrın 9-da Bakıdakı çıxışında dediyi bu sözlər də təsdiqləyir: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti yaranarsa vermək olar" [15, v. 30].

İ.Stalinin bu fikri özünü çox gözlətmədi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. HİK-in sədri N.Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diqtəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "...Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir" [32, v. 6]. Bu qərarı AK(b)P Mərkəzi Komitəsi qəbul etmişdi, N.Nərimanov bunu sadəcə bəyan etmişdi. N.Nərimanov orada çalışan 11 nəfərdən biri idi. S.Orconikidze İ.Stalinə təklif etmişdi ki, belə təşəbbüs Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovdan gəlməli idi. Onda Rusiya bu məsuliyyətdən kənar qalırdı [26, s. 292]

Q.Orconikidze dekabrın 2-də Azərbaycan torpaqlarının Ermənistana verilməsi barədə Rusiya rəhbərliyinə məlumat verir və həmin gün RSFSR ilə Sovet Ermənistanı arasında bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt " adlandırır.

Bu məlumatdan xəbər tutan Naxçıvan əhalisi kəskin etirazlarını bildirir və buna yol verməyəcəklərini bəyan edirlər. Vəziyyətin gərginləşdiyini görən Azərbaycan rəhbərliyi Hərbi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. B.Şahtaxtinski Naxçıvan şəhərində, Şərur və Ordubadda əhali ilə keçirdiyi görüşlərdə 1920-ci il 1 dekabr tarixli bəyanatı ilə əlaqədar əsil həqiqəti əhaliyə söyləməli oldu: "Mən Azərbaycan İnqilab Komitəsinin üzvü kimi B.Vəlibəyovu vəzifəsindən azad edib, özümlə Bakıya aparacağam. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər" [33, v. 1].

B.Şahtaxtinskinin əhali ilə görüşləri və söhbətləri öz nəticəsini verir. Diyarın əhalisi Azərbaycanın himayəsi altında olmaqla Naxçıvanda müstəqil sovet respublikası yaradılmasını tələb edirlər. Naxçıvan əhalisinin qətiyyətli mövqeyi mərkəzin öz mövqeyini müəyyən qədər də olsa dəyişməsinə səbəb oldu. Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli və inadlı mübarizəsi ermənilərin Naxçıvan barəsindəki planlarını pozur. Məkrli niyyətlərini hələlik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu ərazi ilə əlaqədar iddialarından imtina etmişdir [28, s. 188]. Əslində Ermənistanın Naxçıvanı Azərbaycanın bir hissəsi kimi deyil, müstəqil respublika kimi tanıması onun düşünülmüş, məkrli planlarının tərkib hissəsi idi. Naxçıvanı müstəqil qurum kimi tanımaqla Ermənistan gələcəkdə onu ilhaq etmək niyyəti güdürdü.

Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri edirdi. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan

vahid əraziyə malik olan bir ölkə idi" [21, s. 75].

Naxçıvan diyarının əhalisi Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində muxtariyyət tələb edirdi. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90%-dən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi [30, s. 301; 37, s. 138]. Bu rəy sorğusunun nəticəsi Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasında mühüm rol oynadı.

Gümrü, Moskva və Qars müqavilələri. 1920-ci il dekabrın 2-də Gümrüdə Türkiyə ilə Ermənistanın daşnak hökuməti arasında müqavilə imzalandı. Müqavilənin ikinci və on ikinci maddələri bilavasitə Naxçıvanla bağlı idi. İkinci maddəyə görə Naxçıvanın ərazisi və statusu aşağıdakı şəkildə müəyyənləşdirilirdi: Kükü dağı – Həməsür dağı – Qurdqulaq kəndi – Saat dağı – Arpaçay evləri – Gömürlü dağı – Saray bulağı – Ararat stansiyası – Araz çayı – Aşağı Qarasu çayının töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) ərazisinə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara Ermənistanın müdaxilə etməyəcəyi, bu ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılması nəzərdə tutulurdu. On ikinci maddəyə görə isə Türkiyə Şərur-Şahtaxtı-Naxçıvan-Culfa yolu və İran-Maku-Ermənistan tranzit yolunun təhlükəsizliyinə təminat verirdi.

Naxçıvan məsələsində N.Nərimanovun əvvəlki mövqeyindən fərqli olaraq sonradan prinsipial mövqe tutması, onun adından B.Şahtaxtinskinin Moskvada apardığı danışıqlar Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə və nəticə etibarı ilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə təsir etdi. Ümumiyyətlə, Naxçıvan Diyar İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin sədri, Azərbaycanın Ədliyyə komissarı, Rusiyada Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi, Azərbaycan SSR-in Fəhlə-Kəndli Müfəttişi, Azərbaycan Xalq Komissarları Sovetinin sədr müavini kimi çox məsul vəzifələrin öhdəsindən layiqincə gələn Behbud Şahtaxtinskinin Naxçıvanın muxtariyyət statusu qazanmasında çox böyük xidməti olmuşdur. O, fəaliyyəti dövründə Azərbaycan SSR-in müxtəlif problemləri ilə bağlı RSFSR XKS-in sədri V.Leninə teleqramlar vurmuş, məktublar yazmış, bu məktublara bir sıra arayışlar da əlavə etmişdir. Onun V.Leninə göndərdiyi məktub və arayışlar içərisində 1921-ci il martın 1-də göndərdiyi teleqram və ona daxil etdiyi əlavələrin xüsusi əhəmiyyəti vardır. Onun V.Leninə ünvanladığı bu teleqramda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər irəli sürmüşdü [30, s. 304]. Martın 7-də V.Leninin dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilən həmin məktuba martın 16-da Stalinin, Çiçerinin və b. iştirakı ilə baxılmış, B.Şahtaxtinskinin təklifi nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvana muxtariyyət statusu verilməsi barədə qərar qəbul olunmuşdu.

Naxçıvanın Azərbaycan SSR-in himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında"kı müqavilədə də öz əksini tapdı. 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsinin 3-cü maddəsinə əsasən belə bir qarşılıqlı razılığa gəlindi ki, "Naxçıvan vilayəti bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir". "Naxçıvanın ərazisi" adlı I (C) əlavəsində bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: "Ararat stansiyası – Saray Bulaq dağı – Kömürlü dağ – Sayat dağı (7868) – Qurdqulaq kəndi – Həməsür dağı (8060) – 8022 yüksəkliyi – Kükü dağı (8282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi" [24, s. 137-138; 35, s. 33, 38]. Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə bir aydınlıq gətirildi.

1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surət-

də müəyyənləşdirdi [3, v. 9-19]. Burada göstərilirdi ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar bir ərazi olduğu məsələsində müttəfiqdirlər. Müqavilə maddəsindən də göründüyü kimi, burada Moskva müqaviləsinin üçüncü maddəsinin müəyyən bir hissəsi, yəni, "Azərbaycan bu himayəçilik haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə gedə bilməməsi" öz əksini tapmamışdı.

"Naxçıvanın ərazisi" adlı 3 nömrəli əlavədə bögənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirildi: "Urmiya kəndi, oradan düz xəttlə Arazdəyən stansiyasına (bu stansiyanı Ermənistan SSR-də saxlamaqla), sonra düz xəttlə qərbi Daş-Burun dağına (3142) və daha sonra suayrıcı xətlə şərqi Daş-Burun dağı (4108) və Cəhənnəmdərəsi çayından keçməklə "Bulaq"dan cənuba, Bağırsaq dağı (6607), (6587 suayrıcı xətti ilə və buradan keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının inzibati sərhədi ilə 6625 yüksəkliyindən keçərək Kömürlü dağına (6839), (6930) və daha sonra 3080 – Sayatdağ (7868) yüksəklikləri ilə Qurdqulaq kəndi, Həməsür dağı (8160), 8022 yüksəkliyi, Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi" [17, v. 114-115].

Qars müqaviləsinin mühüm əhəmiyyətindən biri Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflərin müəyyən edilməsidir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi. Qars müqaviləsi ilə Ermənistan da Naxçıvanın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiq etdi. Müqavilənin ən əhəmiyyətli tərəflərindən biri də onun müddətsiz imzalanması idi.

Bununla belə, Moskva müqaviləsindən fərqli olaraq Naxçıvanın statusu və tabeçiliyinə aid Azərbaycanın himayəçilik hüququ haqqında müddəa Qars müqaviləsində əks olunmamışdır.

Ümummilli lider Heydər Əliyev beynəlxalq Qars müqaviləsinin tarixdəki yerini və rolunu yüksək qiymətləndirərək demişdir: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir..." [21, s. 9].

Cənubi Qafqaz respublikalıları ilə Türkiyə arasında imzalanan Qars müqaviləsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi və onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi.

Beləliklə, 1917-ci ildən mübarizə aparan naxçıvanlıların arzuları gerçəkləşdi, bölgənin ərazi mənsubiyyəti məsələsi Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu.

Naxçıvan bölgəsi muxtariyyət əldə etsə də, muxtar respublikanın yaradılması xeyli uzandı. 1924-cü ilədək bir sıra müzakirələr aparılmış, hətta muxtar respublikanın statusu aşağı salınmışdır. Əslində bunun üçün heç bir hüquqi əsas yox idi.

Naxçıvan diyarı haqqında Əsasnamə və Konstitusiya hazırlandı. Əsasnamədə deyilirdi: "Naxçıvan diyarı Azərbaycanın protektoratlığı altında muxtar respublika elan edilsin və Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın" [30, s. 313].

1922-ci ilin noyabrında V.İ.Leninin sədrliyi ilə RK(b)P MK-nın Siyasi Bürosu Naxçıvan Muxtar Respublikasının yaradılmasının zəruriliyi barədə qərar qəbul etdi [30, s. 312].

Bir sıra təşkilatlarda müzakirələrdən sonra 1923-cü il iyunun 16-da Naxçıvan muxtar diyara çevrildi. Bunu bilən Türkiyə Cümhuriyyəti öz etirazını bildirdi. 1924-cü il yanvarın 4-də Zaqafqaziya MİK Naxçıvan diyarını Naxçıvan MSSR elan etdi, 1924-cü il fevralın 9-da Azərbaycan MİK Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul etdi.

Yuxarıda qeyd edildiyi Əsasnamədə, həm də 1926-cı il aprelin 18-də qəbul edilmiş Naxçıvan MSSR-in birinci Konstitusiyasında Naxçıvanın muxtariyyət statusunun hüquqi bazası əsaslandırıldı. Naxçıvan MSSR-in sonrakı konstitusiyalarında da Naxçıvan Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi göstərilmişdir.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbay-

can Respublikasının ayrılmaz tərkib hissəsidir" [19, s. 53].

Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasında Naxçıvan muxtar dövlət kimi ifadə olunmuş və onun Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika olduğu təsbit edilmişdir [34, s. 6].

Muxtar respublikanın statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 2012-ci il oktyabrın 16-18-də Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 23-cü plenar sessiyasında qəbul olunan sənədlərin birində Naxçıvan Muxtar Respublikası ilə bağlı çox mühüm və tarixi əhəmiyyət daşıya biləcək məqam əks olunmuşdur. Sənəddə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının konstitusion-hüquqi statusu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarına, habelə hazırda qüvvədə olan iki beynəlxalq müqaviləyə əsaslanır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmişdir.

Naxçıvan Muxtar Respublikasının təşkili bu bölgənin 100 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidentinin dediyi kimi, "...Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir" [18, 2023, 31 dekabr].

Nəticə. Naxçıvanın tarixi müqəddəratında, onun Azərbaycanın tərkibində saxlanılmasında bir sıra amillərlə yanaşı, Moskva və Qars beynəlxalq müqavilələrinin də mühüm rolu olmuşdur. Hər iki beynəlxalq müqavilə müddətsiz imzalanmış və bu gün də qüvvədədir. Həmin müqavilələri birtərəfli qaydada onu imzalayan dövlətlər ləğv edə bilməz. Buna baxmayaraq Ermənistan dövləti beynəlxalq müqavilələrin ləğv edilməsinə bir neçə dəfə cəhd göstərmişdir. Azərbaycanda da bu mövqedə olan adamlar yox deyildir. Onların fikrincə, unitar dövlətin tərkibində muxtar respublika ola bilməz. Lakin dünya təcrübəsində belə nümunələr çoxdur. İkinci bir tərəfdən, Naxçıvanın muxtariyyət statusu onun təhlükəsizliyi üçün çox vacib bir amildir. Nə qədər ki, Naxçıvanın Azərbaycanla sərhəd əlaqəsi yoxdur, muxtariyyətin də olması əhəmiyyətlidir. Naxçıvanın muxtariyyət statusundan bəhs edən Ulu Öndər Heydər Əliyev demişdir ki, Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına tarixi səfərləri, Naxçıvan Muxtar Respublikasının yaradılmasının yubiley tədbirlərində iştirakı, dərin məzmunlu çıxışları, muxtar respublikada görülən işlər, quruculuq tədbirləri Heydər Əliyevin siyasi kursunun uğurla həyata keçirilməsini bir daha göstərir. Ardıcıl, düşünülmüş, uzaqgörən siyasətin nəticəsində "Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur".

Naxçıvan Muxtar Respublikasının yaranması və keçdiyi çətin və şərəfli yol Azərbaycan dövlətçiliyinin tarixi nailiyyətidir. Naxçıvanın muxtariyyət statusu qazanması və bu statusun Azərbaycan dövləti tərəfindən daha da möhkəmləndirilməsi ölkəmizin ümumi inkişafının böyük bir göstəricisidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), f. 28, siy.1, iş 20
2. ARDA, f. 28, siy.1, iş 55
3. ARDA, f. 28, siy.1, iş 67
4. ARDA, f. 894, siy.2, iş 92
5. ARDA, f. 894, siy.2, iş 102
6. ARDA, f. 894, siy.10, iş 33
7. ARDA, f. 894, siy.10, iş 80
8. ARDA, f. 894, siy.10, iş104
9. ARDA, f.970, siy. 1, iş 1
10. ARDA, f. 970, siy.1, iş 37
11. ARDA, f. 970, siy.1, iş 65
12. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 1, iş 24
13. ARPİİSSA, f. 1, siy. 2, iş 18
14. ARPİİSSA, f. 277, siy.2, iş 57
15. ARPİİSSA, f. 277, siy.2, iş 58
16. ARPİİSSA, f. 609, siy.1, iş 71
17. ARPİİSSA, f. 609, siy.1, iş 94
18. "Azərbaycan" qəzeti
19. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016, 67 s.
20. Cəfərli E. Rusiya və Türkiyənin Cənubi Qafqaz siyasətində Naxçıvan (XX əsrin əvvəlləri). Naxçıvan: Əcəmi NPB, 2017, 224 s.
21. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 24-cü kitab. Bakı: Azərnəşr, 2005, 520 s.
22. Əliyev M.B. Qanlı günlərimiz (1918-1920. Naxçıvan). Bakı: Azərnəşr, 1992, 142 s.
23. Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, 124 s.
24. Hacıyev İ. Moskva və Qars beynəlxalq müqavilələri. Naxçıvan: Əcəmi NPB, 2021, 152 s.
25. Hacıyev İ. Araz-Türk Cümhuriyyəti. Naxçıvan: Əcəmi NPB, 2021, 160 s.
26. Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti 91920-1939). Bakı: Adiloğlu, 2012, 656 s.
27. İbrahim Ethem Atnur. Osmanlı idarəçiliyindən Sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi NPB, 2013, 496 s.
28. İsmayılov K. Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920). Bakı: Turxan NPB, 2019, 200 s.
29. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.
30. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: BDU, 1996, 328 s.
31. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi (NMRDA), f. 1, siy. 3, iş 13
32. NMRDA, f. 314, siy. 5, iş 14
33. NMRDA, f. 314, siy. 5, iş 15
34. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, Naxçıvan, 2018, 56 s.
35. İsmail Soysal Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal antlaşmaları. I cilt (1920-1945). 2 Baskı. Ankara, TTKB, 1989, 704 s.
36. Мадатов Г.А. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР. Баку: Элм, 1968, 187 с.
37. Нифталиев И. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). Баку: Təhsil, 2009, 256 с.

Резюме

Исмаил Гаджиев

Приобретение Нахчыванским краем статуса Автономии и образование Нахчыванской Автономной Республики

В статье рассмотрены такие вопросы, как военно-политическая ситуация в Нахчыванском крае в 1917-1921 годах, влияние политических событий в России на Южный Кавказ, а также на Нахчыванский край, создание властных структур, образование незави-

симых государств на Южном Кавказе, прибытие османского военного персонала в Нахчыван, двойная политика британских и американских военных представителей, попытки передать Нахчыванский край Армении, укрепление связей с Азербайджанской Демократической Республикой.

Здесь также были затронуты вопросы, касающиеся двойной политики Советской России, советизации Нахчывана, Гюмрийского, Московского и Карсского договоров, обретения Нахчыванским краем статуса автономии под покровительством Азербайджана и создания Нахчыванской Автономной Республики.

Ключевые слова: *Россия, Закавказье, Особый Закавказский Комитет, Закавказский Сейм, Азербайджан, Нахчыван, автономия, республика*

Summary

Ismayil Hajiyev

Obtaining of autonomy status of Nakhchivan Region and Establishment of Nakhchivan autonomous Republic

The article deals with the military-political situation in the Nakhchivan region in 1917-1921, the impact of political events in Russia on the South Caucasus, as well as on the Nakhchivan region, the establishment of power structures, the establishment of independent states in the South Caucasus, arrival of Ottoman military personnel to Nakhchivan, policy of British and American military representatives on double standards, attempts to cede Nakhchivan to Armenia, strengthening of relations with Azerbaijan Democratic Republic.

The issues related to the dual policy of Soviet Russia, Sovietisation of Nakhchivan, Gyumri, Moscow and Kars treaties, gaining the status of autonomy of Nakhchivan and being under the protection of Azerbaijan, establishment of Nakhchivan Autonomous Republic were also involved in the study.

Keywords: *Russia, South Caucasus, special Transcaucasian Committee, Transcaucasian Seim, Azerbaijan, Nakhchivan, autonomy, republic*

UOT 94 (100-87)
https://doi.org/10.59849/2710-0820.2024.1.26

Аида Багирова
Доктор исторических наук, доцент
Бакинский Государственный Университет
aida_bagirova@yahoo.com
Азербайджан
ORCID 0000-0003-4458-69870

ИРАКСКАЯ ПРОБЛЕМА В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ В НАЧАЛЕ XXI ВЕКА

Ключевые слова: *Ирак, международные отношения, США, НАТО, СБ ООН, Ближний Восток, эксперты ООН, война 2003 г.*

На рубеже XX-XXI веков в системе международных отношений произошли серьезные изменения, которые преломлялись сквозь призму новых угроз и вызовов обширному ареалу, включающей и Ближний Восток. Если во второй половине XX века региональная ситуация во многом определялась соперничеством двух супердержав – США и СССР, то в указанный период центр тяжести международной политики и борьбы ведущих мировых акторов переместился на Ближний Восток, где обострившиеся проблемы сделали его средоточием конфликтности и нестабильности [11, с. 231].

Поворотным событием начала XXI века стали террористические атаки на Нью-Йорк и Вашингтон 11 сентября 2001 г., которые выявили качественно новый вызов не только США, но и сложившемуся мировому порядку в целом. Обеспечение международной безопасности на глобальном уровне требовали пересмотра существующих политических концепций и формирования походов, адекватных новым реалиям [18, с. 117]. Согласно концептуальному осмыслению системы международных отношений, основная опасность для нового миропорядка и глобальной стабильности исходила от так называемых «государств-изгоев», режимы которых обвинялись в поддержке международного терроризма и стремлении овладеть ОМУ, проведении агрессивной политики, нарушении прав человека и т.д. [4, с. 95]. В своем ежегодном выступлении «О положении в стране» в Конгрессе 29 января 2002 г. президент США Дж.Буш-мл. охарактеризовал теракты 11 сентября как «первую войну XXI века» [9, с. 3] заявил о необходимости начала глобальной борьбы против терроризма и поддерживающих его сил и государств. Он впервые использовал термин «ось зла» применительно к таким странам, как Иран, Ирак и Северная Корея и заявил, что государства, сосредоточенные в «оси зла», покровительствуют международному терроризму и оказывают ему всестороннюю помощь, чем ставят мир перед серьезной угрозой.

После падения власти Талибан в Афганистане в октябре 2001 г., источником мировой террористической угрозы был объявлен иракский режим, который обвинялся в продолжении разработок ОМУ и поддержке международного терроризма, в том числе и «аль-Каиды». По словам Дж.Буша-мл., «Ирак превратился в серьезный источник угрозы для мира и стабильности Ближнего Востока, а неадекватные и противоправные действия иракского лидера Саддама Хусейна могут иметь трагические последствия не только для данного региона, но и для всего свободного мира» [9, с. 5]. Отметим, что на протяжении 10 лет после кувейтского кризиса иракский режим стал удобной мишенью для угроз Вашингтона, логическим концом которой должно было стать его свержение. У администрации Дж.Буша-мл. сформировалось мнение о том, что только

кардинальное решение иракской проблемы способно в полной мере удовлетворить американские военно-политические и экономические интересы в регионе [28, с. 94]. Теракты 11 сентября 2001 г. послужили удобным поводом для перехода Вашингтона к активным действиям, и с этого времени его политика в иракском направлении стала приобретать жесткий, ультимативный характер.

Наряду с этим прорабатывались и другие варианты смещения С.Хусейна – от создания условий для его добровольного ухода с политической арены, организации государственного переворота, свержения в результате выступления вооруженной оппозиции при поддержке США, вплоть до проведения масштабной военной операции [21, с.147]. После 11 сентября необходимость осуществления военной акции против Ирака на том основании, что он представляет угрозу национальной безопасности США, стала практически неизбежной – было принято решение, используя все средства, в том числе и военные, ликвидировать режим С.Хусейна до 2005 г. [25, с. 97]. Объявив в качестве второй мишени антитеррористической операции войну против режима С.Хусейна, официальный Вашингтон не скрывал, что речь о полномасштабной операции, нацеленной на его свержение. Если в период подготовки и осуществления операции «Буря в пустыне» (1991) мировое сообщество в целом одобрило военную акцию по освобождению Кувейта, то в отношении силового решения иракской проблемы Вашингтон мог столкнуться с определенными трудностями. Для мотивации своих действий предстояла серьезная работа на всех уровнях, и в целом весь 2002 г. прошел под знаком дипломатической и военной подготовки операции, но при этом считалось целесообразным продолжать использовать механизмы СБ ООН. Известно, что еще в 2001 г. США пытались «зажать» иракский режим с помощью так называемых «умных санкций». Их суть сводилась к тому, что санкции приобретали адресный характер и подразумевали некоторое облегчение экономического блока при одновременном усилении контроля над поставками в Ирак товаров и технологий двойного назначения. Кроме того, иракским руководителям отказывалось в получении въездных виз, предусматривалось отслеживание их зарубежных счетов, а также арест в случае необходимости [29, с. 96].

«Умные санкции» предполагалось ввести одновременно с началом очередного этапа программы «Нефть в обмен на продовольствие». Однако из постоянных членов СБ ООН – Россия, Китай и Франция выражали серьезные сомнения по поводу их жизнеспособности, поэтому до достижения консенсуса был предложен компромиссный вариант – продлить действие программы «Нефть в обмен на продовольствие» только на три месяца; за это время американцы и их союзники – британцы должны были убедить колеблющихся членов в эффективности своего плана [22, с. 216]. В результате мощного прессинга все члены СБ ООН, за исключением России, согласились поддержать «умные санкции». Россия пригрозила наложить вето на англо-американский проект, поэтому его решили не ставить на голосование.

В целом же попытки Вашингтона действовать в иракском направлении в рамках СБ ООН не только не принесли ожидаемого результата, а наоборот наблюдавшиеся среди его постоянных членов серьезные разногласия и столкновение интересов стали работать против самих США. Эта линия четко просматривалась при обсуждении и принятии резолюций СБ ООН №1382 от 29 ноября 2001 г. и №1402 от 14 мая 2002 г., когда в результате закулисных игр представителей России и Франции уже одобренный американский проект резолюции подвергся серьезной корректировке, большинство его требований были смягчены, некоторые вовсе сняты [30, с. 35]. Поэтому администрация Дж. Буша в сложившейся ситуации предпочла действовать в двух направлениях – параллельно с активной деятельностью в СБ ООН и интенсивными политико-дипломатическими шагами начала подготовку к кризисному разрешению иракской проблемы. Однако успешная реализация этих вариантов требовала обязательного учета ряда факторов, в том числе глобальной геополи-

тической обстановки, позиции ведущих мировых и региональных акторов, общей динамики региональных процессов и ситуативного состояния внутрииракских проблем и т.д.

С этой целью Вашингтон проводил диверсифицированную политико-идеологическую подготовку и стремился представить дело таким образом, что все усилия вывести из тупика процесса урегулирования иракского кризиса неэффективны, и с режимом С.Хусейна никакой конструктивный диалог невозможен, ибо он понимает только «язык силы». При этом преследовались две цели: запугать мировое сообщество, и в первую очередь страны – объекты будущих акций о степени своих намерений; настроить американскую общественность на «волну» антипатии к подобным режимам и показать их опасность для жизнедеятельности США. При этом отметим, что политическое поведение и действия официального Багдада в тот период также не способствовали снижению уровня напряженности – он продолжал игнорировать призывы мирового сообщества допустить международных экспертов в страну и разрешить мониторинг военной промышленности на предмет выявления ОМУ и средств его доставки [2, с. 78]. В то же время, анализ заявлений иракских лидеров свидетельствовал об осознании ими того факта, что за действиями Вашингтона стоит не очередное бряцание оружием с целью заставить его выполнить требования мирового сообщества, а целенаправленная военно-политическая, дипломатическая и пропагандистская кампания для нанесения военного удара. На это указывала также интенсивная переброска и размещение на американских базах вблизи иракских границ крупных воинских контингентов [24, с. 217].

Однако Багдад продолжал маневрировать, пытаясь выиграть время в надежде на то, что острые противоречия между ведущими мировыми державами на глобальном и региональном уровнях позволят ему выйти из тупика. При этом невозможно было игнорировать тот факт, что подавляющее большинство ведущих государств, в том числе и тех, кто поддерживал Ирак, выступали с единых позиций в вопросе скорейшего разрешения проблемы международных экспертов. Это линия была подтверждена на состоявшемся в Нью-Йорке неофициальном заседании СБ ООН, где обсуждалась возможность принятия более «жесткой» резолюции по Ираку. Осознав, что дальнейшее противостояние с международным сообществом бесперспективно и бессмысленно, в феврале 2002 г. С.Хусейн вынужден был объявить о готовности начать переговоры по возобновлению деятельности экспертов в стране, о чем официально был извещен Генеральный секретарь ООН К.Аннан. Во время его встречи с министром иностранных дел Ирака Н.Сабри в марте того же года было заявлено, что его страна должна безоговорочно выполнить все соответствующие резолюции СБ ООН и «первым шагом в этом направлении будет возобновление без каких-либо предварительных условий сотрудничества с экспертами ООН» [14].

3 сентября 2002 г. в рамках Саммита Земли в Йоханнесбурге состоялись двусторонние переговоры между главой иракской делегации вице-премьером Тариком Азизом и Генеральным секретарем ООН К.Аннаном. Ведущей темой переговоров стал кризис между Ираком и США и определение возможных путей входа из создавшейся тупиковой ситуации [7, с. 46]. Отметим, что за день до этого в Москве прошла встреча министра иностранных дел Ирака Н.Сабри с главой российского МИДа И.Ивановым. На повестке дня помимо обсуждения политических и экономических аспектов двусторонних отношений стоял вопрос о предотвращении готовящейся войны. И.Иванов подтвердил, что российское руководство выступает только за политическое решение кризиса на основе соответствующих резолюций СБ ООН. На пресс-конференции он заявил о наличии достаточных возможностей для политического урегулирования кризиса и предупредил, что любые силовые акции в отношении Ирака не только осложнят урегулирование проблемы, но и подорвут ситуацию в Заливе и на Ближнем Востоке. Была также подтверждена российская позиция о необходимости

возвращения в Ирак международных экспертов как обязательного условия для снятия санкций. Отвечая на актуальный вопрос, будет ли Россия использовать право вето в СБ ООН, если США понадобятся необходимые санкции для вторжения в Ирак, Иванов уклонился от прямого ответа и заявил, что «Россия надеется, что в СБ ООН вопрос о силовой акции поставлен не будет, и соответственно, не потребуется право вето» [15, с. 108]. Но в Багдаде понимали, что она не пойдет на резкое обострение отношений с США ради малообоснованных выгод от их будущего сотрудничества. Уклончивость ответов И.Иванова указывала и на то, что Москве на данном этапе невыгодно было связывать себя конкретными обязательствами. Аналогичный подход к событиям был высказан в ходе визита Н.Сабри в Пекин в конце августа 2002 г. Министр иностранных дел Китая Т.Цзясюань воздержался от официального заявления по поводу американских военных планов и призвал Багдад не препятствовать возобновлению деятельности международных экспертов [12, с. 99].

Между тем, во второй половине 2002 г. администрация Дж.Буша работала в направлении не поиска путей компромиссной развязки иракской проблемы, а наоборот, путем давления и ультиматумов добиться безоговорочного допуска в Ирак международных экспертов и обязательного выполнения им требований соответствующих резолюций СБ ООН. Анализ заявлений и выступлений представителей американского истеблишмента в тот период позволяет сделать вывод об их стремлении развязаться с «иракским узлом» любыми способами, включая военно-силовые методы, которые «выглядели наиболее вероятными» [23, с. 45]. Это косвенно подтвердило и выступление Дж.Буша на заседании СБ ООН 12 сентября 2002 г., когда он заявил, что «США обладают правом военной гегемонии и защиты своих жизненных интересов всеми доступными средствами» [27]. 7 октября он обратился с посланием к американскому народу, в котором объявил, что багдадский режим находится накануне реализации своей ядерной программы и в ультимативной форме потребовал выполнения следующих условий: Ирак должен признать наличие ОМУ и ликвидировать его арсеналы; положить конец политике поддержки международного терроризма; положить конец преследованиям гражданского населения в стране; прекратить идущую вразрез санкций ООН незаконную продажу нефти; дать сведения обо всех военнопленных, в частности об американских пилотах, предположительно содержавшихся в иракских тюрьмах. В случае отказа Ирака от выполнения этих требований «в конфликт должен вмешаться ООН», если же «он не будет способен разоружить Ирак, то выполнение этой задачи ляжет на США» [32].

В октябре 2002 г. американо-британский альянс представил на рассмотрение СБ ООН проект «жесткой» резолюции по Ираку, который предусматривал немедленный допуск в страну экспертов, расширение числа подлежавших мониторингу объектов на ее территории и включение в этот список восьми президентских дворцов. Ираку отводилось семь дней с момента принятия резолюции СБ ООН, чтобы известить Генсека ООН о своем согласии с ее требованиями и 30 дней – на передачу в ООН списка всех объектов, имевших отношение к военным программам. В случае невыполнения хотя бы одного из этих требований любой член ООН получал право использования всех необходимых для ее реализации средств, в том числе одностороннее применение силы [3, с. 96]. Этот проект вызвал ожесточенную дискуссию в СБ ООН – Россия, Франция и Китай в резкой форме выступили против него, что фактически привело к очередному дипломатическому кризису. Наибольшую активность в ходе дебатов проявила Франция, которая предлагала двухэтапную модель урегулирования. Французский план, поддержанный Россией и Китаем, на первом этапе предусматривал отправку в Ирак международных экспертов и возобновление их миссии. В случае препятствий их деятельности со стороны иракских властей, обо всех фактах нарушений эксперты должны немедленно сообщить в СБ ООН. На этом этапе применение силы исключалось полностью.

На втором этапе для обсуждения ситуации предусматривалось созвать чрезвычайное заседание СБ ООН, на котором только после одобрения 9 из 15 ее членов, в том числе и всех 5 постоянных членов можно было принять резолюцию о применении силы против Ирака [8, с. 96].

Что касается России, то она не проявляла активности на этом этапе обсуждений, предпочитая поддержать позицию Франции. По словам директора Центра международной безопасности ИМЭМО РАН А.Арбатова, она «пыталась одновременно сохранить хорошие отношения с США, Францией и Германией, Багдадом, а вдобавок еще и с виртуальным будущим руководством Ирака. Но развитие ситуации … делало разные интересы Москвы все менее совместимыми: например, партнерство с США и недопущение военного удара по Ираку; особые отношения с Вашингтоном и координация политики с Парижем и Берлином; поддержание связей с Хусейном и обеспечение своих интересов после вероятной смены режима; приверженность конечной цели снятия с Ирака санкций ООН и поддержание высоких мировых цен на нефть» [2, с. 78]. Несмотря на интенсивные военные приготовления и концентрацию англо-американских войск в Заливе, Москва фактически не сделала ни одного сколько-нибудь твердого и знакового официального заявления. Так, единственным шагом российской дипломатии явилась поездка Е.Примакова в Ирак незадолго до начала войны. Впоследствии он так описывал встречу с С.Хусейном в Багдаде: «Я вылетел в Багдад после разговора с Президентом В.Путиным, который поручил мне незамедлительно и лично передать его устное послание С.Хусейну. Смысл послания заключался в призыве уйти с поста президента и обратиться к парламенту с призывом провести демократические выборы.… Выслушав это, Саддам молча похлопал меня по плечу и ушел…» [16, с. 321-322].

Между тем, 10 октября 2002 г. Конгресс США проголосовал за «Совместную резолюцию, разрешающую использование американских вооруженных сил против Ирака» за №114, которая давала полномочия президенту «использовать американские вооруженные силы как он решит необходимым и подобающим для защиты национальной безопасности от продолжающейся угрозы со стороны Ирака и осуществления соответствующих резолюций СБ ООН» [31, с.154]. При этом Вашингтон продолжал политико-дипломатические шаги по максимальному использованию механизмов ООН. 22 октября 2002 г. постоянный представитель США при ООН внес на рассмотрение СБ новый проект резолюции по Ираку, в котором частично были учтены французские предложения. Особенностью новой редакции проекта было то, что она не предусматривала применения в одностороннем порядке силы против Ирака. Хотя маховик войны был пущен, тем не менее Вашингтон считал целесообразным принятие СБ ООН соответствующей резолюции. В результате длительных дипломатических маневров 8 ноября 2002 г. СБ ООН единогласно, включая голоса России, Франции и Китая, а также непостоянного члена СБ Сирии принял резолюцию №1441. Такое единодушие было связано с тем, что проблема распространения ОМУ и опасность его использования различными террористическими группировками рассматривались как реальная угроза глобальной безопасности. Принятая резолюция имела компромиссный характер и открывала дорогу к возобновлению международного мониторинга в Ираке и последующему снятию санкций. В документе определялись обязательства сторон: до 15 ноября Ирак объявлял о принятии ее условий, 18 ноября директор МАГАТЭ М. аль-Барадеи и глава группы международных экспертов Х.Бликс, а 25 ноября все эксперты должны прибыть в Багдад. До 8 декабря Ирак обязуется представить им всю документацию по программам ОМУ. 23 декабря группа экспертов должна была произвести мониторинг любого объекта на территории Ирака, в том числе обладала правом неограниченного доступа в президентские резиденции. Не позднее 21 февраля эксперты обязаны были завершить свою деятельность в Ираке и представить в СБ ООН соответствующий Отчет

[33]. Только на его основании международное сообщество могло определить дальнейшие шаги по урегулированию проблемы.

Хотя СБ ООН единогласно проголосовал за «смягченный вариант» резолюции, а ведущие государства расценили ее, как документ, отводящий реальную угрозу войны и открывающий путь к политическому урегулированию кризиса, 12 ноября 2002 г. на специальном заседании иракский парламент отклонил ее условия как «агрессивные, жесткие и нарушающие суверенитет и национальное достоинство страны». Однако уже 13 ноября СРК и руководство правящей Баас выразили готовность прислушаться к требованиям международного сообщества, а сам С.Хусейн заявил, что он даже готов пойти наперекор решению парламента. Однако на практике выполнение условий резолюции сталкивалось с серьезными трудностями, прежде всего, из-за неготовности и нежелания Багдада к реальному сотрудничеству с международными структурами.

В январе 2003 г. Вашингтон провел некоторые пропагандистские меры с целью подвигнуть руководство ООН, ЕС, НАТО занять жесткую позицию в отношении Ирака, добиться полного выполнения резолюции СБ ООН №1441, потребовать от иракского лидера признать наличие ОМУ и под предлогом разоружения по мандату ООН ввести в страну американские войска. С 27 января 2003 г. в СБ ООН начались слушания промежуточных докладов глав ЮНМОВИК и МАГАТЭ по итогам двухмесячного мониторинга в Ираке. По словам главы ЮНМОВИК Х.Бликса, иракское руководство «на самом деле не вняло призыву разоружиться» [26, с. 76]. Госсекретарь США К.Пауэлл заявил, что «Ирак не обеспечил активного, немедленного и безоговорочного сотрудничества, которого потребовал СБ ООН в резолюции №1441», а постоянный представитель США при ООН Дж.Негропонте высказался в том духе, что «окно для дипломатических возможностей закрывается».

Реакция ЕС на внешнеполитические действия США была неоднозначной. Среди членов ЕС наметился раскол на их союзников и оппонентов. К группе европейских сторонников Вашингтона принадлежали Великобритания, Португалия, Дания, Нидерланды, Италия, Испания, а также ряд стран Центральной и Восточной Европы, которые в тот период являлись кандидатами на вступление в ЕС. 30 января 2003 г. было опубликовано так называемое «письмо восьми», подписанное главами пяти членов ЕС и трех стран-кандидатов, в котором выражалась поддержка любых действий США, в том числе и военных, для разоружения Ирака. [20, с. 93]. Что касается оппонентов США среди государств-членов ЕС, то их лагерь возглавляли Франция и Германия, которые выступали против военного решения иракской проблемы. После обнародования «письма восьми» кризис в ЕС достиг своего пика.

5 февраля 2003 г. по инициативе американского представителя Дж.Негропонте в Нью-Йорке было созвано заседание СБ ООН. В своем выступлении Госсекретарь США К.Пауэлл пытался убедить его членов в нарушении Ираком резолюции №1441, представив их вниманию перехваты телефонных разговоров иракских представителей, снимки ряда объектов, в том числе химического завода и мобильных лабораторий по производству ОМУ. Он обвинил иракские власти в связях с «аль-Каидой», заявив, что на его территории «нашла приют смертельно опасная террористическая сеть, возглавляемая другом и соратником У. бен Ладена – Абу Мусаибом аз-Заркави»; Ирак также поставляет палестинским группировкам оружие и деньги, а «ХАМАС», «Исламский Джихад» и «Ансар аль-Ислам», связанные с организацией «аль-Каида», имеют свои офисы в Багдаде. К.Пауэлл расценил действия Ирака как «угрозу международной безопасности» и призвал СБ ООН принять «незамедлительные, тяжелые решения» [33]. Однако его попытка доказать, что Ирак поддерживает связи с международным терроризмом, не убедила Россию, Францию и Китай, которые выступали за продолжение работы экспертов в стране. Посол Ирака в ООН М. ад-Дури назвал представленные К.Пауэллом доказательства «лживыми» – они, по его словам, «могли быть легко сфаб-

рикованы спецслужбами с учетом современного развития технологий». Он подчеркнул, что мониторинги в Ираке проводятся внезапно, без предварительного уведомления и «эксперты нигде не обнаружили следов ОМУ, о чем было заявлено в докладе главы ЮНМОВИК Х.Бликса» [5]. М. ад-Дури расценил выступление К.Пауэлла как попытку убедить мировое сообщество и американцев в необходимости войны против Ирака.

Что касается арабских стран, то пропагандистская кампания и обвинения в адрес Ирака о наличии ОМУ не привели к существенным изменениям в их позициях – большинство продолжали выступать против силового решения проблемы. Арабские лидеры опасались, что военный исход подорвет межарабские отношения и негативно скажется на политической и экономической ситуации в регионе. Решение Багдада о возобновлении деятельности международных экспертов дало небольшую, надежду на мирное решение кризиса и то, что компромисс по разоружению Ирака будет найден в рамках правового поля ООН. Однако доклада К.Пауэлла практически свел на нет их ожидания и стало ясно, что военной акции не удастся избежать, поэтому их усилия были сосредоточены на том, чтобы выйти из нее с наименьшим политическим и экономическим ущербом. Напомним, что, если в американских военных базах в зоне Залива на постоянной основе дислоцировалось порядка 35 тыс. военнослужащих, то к началу 2003 г. военная группировка насчитывала уже более 150 тыс. человек [24, с. 267].

Leylatəpə tipli tapıntılar bir qayda olaraq qalın divarlı, qırmızı və açıq-qırmızı rəngli, bitki qatışıqlı gildən yaxşı hazırlanmış "keyfiyyətli keramika" kateqoriyasına aid olan orta tutumlu küpələrə məxsusdur. Qıfşəkilli ağız kənarları yana geniş açılır. Səthlərində zəif anqob qatı çəkilib. Divarlarının qalınlığı 1 sm-dir. Bu mədəniyyətə aid tapıntılar içərisində 1 ədəd diskşəkilli əşya da vardır. Saxsı qabın gövdə hissəsindən yonularaq düzəldilmiş əşyanın ortasında ikitərəfli deşiyi açılmışdır. Gili bitki qatışıqlıdır, qırmızı rənglidir, yaxşı hazırlanıb. Əşyanın diametri- 4 sm-dir.

Ümumilikdə Muğanın leylatəpə tipli tapıntıları Alxantəpə yaşayış yerinin əsasında öyrənilmişdir (3, s. 46-51). Xudutəpədən tapılmış bu fraqmentlərin analogiyaları Mil-Qarabağ və Azərbaycanın şimal-qərb bölgəsində aparılan tədqiqatlar zamanı aşkar olunmuşdur. N.Müseyibliyə görə, bu mədəniyyətin keramika istehsalının başlıca səciyyəvi xüsusiyyətləri bütün abidələr üçün ümumi sayılan bitki qatışıqlı gildən dulus çarxında hazırlanmış və sabit temperaturda bişirilmiş küpə, küp və boşqab tipli qablardır (6, s. 114-115). Arxeoloji qazıntılar zamanı tapılmış bu tip qabların çeşidliliyinin öyrənilməsi və digər həmdövr abidələrlə müqayisəli təhlili Xalkolit dövrünün son mərhələsində dulusçuluğun yüksək inkişaf xüsusiyyətlərini araşdırmağa zəmin yaradır (1, s. 94).

Kür-Araz mədəniyyətinə aid tapıntılar

Abidənin keremika materialları içərisində mütləq əksəriyyət Kür-Araz mədəniyyətinə məxsus yarımşar formalı qulp nümunələridir. Küpələr bir qayda olaraq orta tutumlu saxsı qaba məxsus fraqmentlər olub əsasən gen və uzun boğazlı, yastı, enli, şarvari qeyri-standart formalı qulplara malikdirlər. Ağız kənarları köbəli olub xaricə qatlanmışdır. Qalın divarlı, əsasən qonur, qırmızı rəngli, qum tərkibli gildən zəif hazırlanmış qabların üstü his qatı ilə örtülüb. Bəzi qabların ağız kənarı düzdür. Slindrik boğazları vardır. Boğazı ilə çiynini birləşdirən enli, şarvari qulplu qab fraqmentlərinə də rast gəlinir. II kv-n şərq tərəfindən 1 ədəd kiçik ölçülü tam salamat küpə üzə çıxmışdır.

Tavalar qalın divarlı, qəhvəyi rəngli, qum qatışıqlı gildən zəif hazırlanmış saxsı qablardır. Onlar çox kiçik fraqmentlər halında tapılmışdır (Şəkil 4. 4-5).

Qulplar əsasən iri ölçülü olub boz, qəhvəyi, qonur, qırmızı rəngli gili qum və narın qum qatışıqlı olmaqla yastı, enli, yarımşarşəkillidirlər

(Şəkil 5). Əksəriyyəti qeyri-simmetrik qaydada hazırlanmışdır. Bir çoxunun üzərində his qatı qalıb. Ehtimal ki, qulplar qabın boğaz hissəsində olmuşdur. Səliqəli formada, yastı, enli və yarımşarvar hazırlanmış qulplara da rast gəlinir. Onlar daha iri ölçülü qablara məxsus olub gövdə hissəsində düzəldilib. Qulpların eni bir qayda olaraq 2,7-3 sm, divarlarının qalınlığı 0,8-1,2 sm arasında dəyişir.

Gildən ocaq altlıqları da açıq-qırmızı, qonur rəngli, qum və bitki-qum tərkibli gildən yaxşı hazırlanıb. Sınmış hissə olduqları üçün fraqmentlərin altlığın hansı tərəfinə məxsusluğu aydın görünmür. Qalınlıqları 1,3-4,5 sm arasında dəyişir.

Tapıntılar arasında gildən butə və qoç fiqurları, araba təkəri modelləri də maraq doğurur. Kiçik ölçülü butə qara rəngli, gili bitki-qum qatışıqlıdır. Alt hissəsi yastıdır. Divarı qalındır. Ağız hissəsi nazik və nahamardır. Butə əldə kobud formalaşdırılıb. Gövdəsinin diametri-5,5 sm, oturacağının diametri-5 sm, divarının qalınlığı-1 sm-dir.

Ağ rəngli, təmiz tərkibli gildən unikal formada hazırlanmış bir qoç fiqurunun bel hissəsi qalın, baş hissəsi isə nisbətən incə işlənmişdir (Şəkil 6.1). Qoçun başı aşağı dikilmiş, buynuzları sınmışdır. Burun hissəsi kiçik, ondan yuxarıda isə ikitərəfli deşik açmaqla gözləri təsvir edilmişdir. Dörd ayaqları bir birinə simmetrik qaydada düzəldilmiş, lakin ön ayaqları arxa ayaqlardan nisbətən uzun hazırlanmışdır. Ayaqların alt hissəsi yonulmuşdur ki, bu da fiqurun müstəvi üzərində düz durması üçündür. Qoçun belinin sonunda quyruğu təsvir edilib. Sağ yanında, belində 11 ədəd bir-birinə yanaşı dairəvi batıqlardan ibarət naxış vurulmuşdur. Sol yanında yanıq izi müşahidə edilir. Fiqur salamat olub uzunluğu-7,5 sm, hündürlüyü-4 sm-dir.

Kiçik Qafqazın İlk Tunc dövrü arxeoloji abidələrinin tədqiqi zamanı az sayda, lakin maraq doğuran kolleksiyalardan biri də heykəltaraşlıq nümunələri olan terrakotalardır. Onlar əsasən, zoomorf fiqurlar olub Kür-Araz mədəniyyətinin başlıca tapıntılarından hesab edilir. Azərbaycan ərazisində bu tip tapıntılar ilk dəfə olaraq Naxçıvandakı I Kültəpədən və Qazaxdakı Baba Dərvişdən məlumdur. Eyni zamanda bu nümunələrin analogiyalarına Gürcüstanın Şenqavit, indiki Ermənistanın Moxra-Blur, Ariç yaşayış yerlərində də rast gəlinib (15, c. 108-109).

Zoomorf fiqurlar əsasən Mil-Qarabağın Qaraköpəktəpə, Günəştəpə, Uzuntəpə, Xantəpə yaşayış yerlərindən məlumdur. Bu tapıntıların əksəriyyəti kobud formada gildən hazırlanıblar (11, s. 52; 15, c. 106). Naxçıvan MR-dakı I Maxta yaşayış yerindən də gildən hazırlanmış kiçik ölçülü qoç fiqurları tapılmışdır (5, s. 20). Analoji gil fiqurlar Urmiya hövzəsinin Göytəpə yaşayış yerinin İlk Tunc dövrü təbəqəsindən məlumdur (12, s. 201, şək. 12/1).

Arxeoloji ədəbiyyatda zoomorf gil fiqurların düzəldilməsi səbəbləri barədə müxtəlif mülahizələr mövcuddur. S.Aşurovun fikrincə, torpağın becərilməsində insan əməyini yüngülləşdirən öküzlərdən qoşqu qüvvəsi kimi istifadə olunması nəticə etibarilə bu heyvana səcdə olunmasına və dini ayinlərlə bağlılığa gətirib çıxarmışdır (4, s. 68). Q.İsmayılzadə də İlk Tunc dövründə Azərbaycan və bütünlüklə Cənubi Qafqazın ayrı-ayrı yerlərində olduğu kimi ev heyvanları, xüsusən inək və öküzün müqəddəs hesab edilərək əsas sitayiş obyekti olduğunu yazır. Onun fikrincə, İlk Tunc dövrünün əhalisi çox güman ki, məişət və təsərrüfatda mühüm yer tutan qeyri-təbii qüvvələrin mənbəyini görmüş və oda etiqad mərasimlərində məhz bunları qurban gətirmişdilər (11, s. 34).

Yaşayış yerinin araba təkəri modelləri qırmızı rəngli, gildən hazırlanmış və qum tərkiblidir. Simvolik olaraq çarx hissə yastı, enlidir. Diametrləri 3-4,5 sm arasında dəyişir.

Kiçik Qafqazın cənub-şərq ətəklərindəki abidələrdən çoxlu sayda gil-təkər modelləri tapılıb. Haqqında bəhs olunan bu tapıntılar dövrün məişətinin öyrənilməsi üçün əhəmiyyətli rol oynadığını göstərir və bütün bunlar Kür-Araz mədəniyyəti sakinlərinin təsərrüfat həyatının göstəricisi hesab oluna bilər (15, c. 107). Bu tip modellər I Kültəpə və Baba Dərviş yaşayış yerindən, Kür-Araz mədəniyyətinin Gürcüstanda yayılmış Naçar-qora, Kvasxelebi, Qudabertka və s. abidələrindən məlumdur. Eyni zamanda şimal-şərqi Qafqazda, Çeçen-İnquşetiyanın Serjenyurt qədim yaşayış məskənindən də eyni tipli nümunələr əldə edilib (13).

Analoji təkər modelləri I Maxta yaşayış yerindən də əldə olunmuşdur. Maxtanın bu tip nümunələri narın qum qatışıqlı gildən yoğrulmuş,

rəngləri boz, qonur və qaradır. 2011-ci il qazıntıları zamanı bu yaşayış yerindən ölçüsünün böyüklüyünə görə 1 ədəd araba təkəri modeli tapılmışdır ki, bu tapıntı indiyədək Naxçıvandan məlum olan ən geniş diametrli (11 sm) model hesab olunur. Araba təkəri modellərinin I Kültəpənin eneolit dövrü təbəqəsindən tapılması sübut edir ki, İlk Tunc dövrününün birinci mərhələsindən gec olmayaraq yerli tayfalara araba məlum olmuşdur. Bir tərəfdən Yaxın Şərq ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi, digər tərəfdən isə qoşqu vasitəsi kimi (öküz, at) arabadan istifadə olunması zərurətini doğurmuşdur. Son Xalkolit dövründən başlayaraq insanların təsərrüfat həyatına daxil olmuş araba uzun müddət dəyişməz qalmışdır (5, s. 23). Urmiya gölü hövzəsindəki Göytəpə və Yanıqtəpənin İlk Tunc dövrü saxsı məmulatları içərisində də çoxluq təşkil edən araba təkəri modelləri və əyircəklər vardır ki, bəzi tədqiqatçılar hətta təkər modellərini əyircək kimi təsvir etmişlər (12, s. 53).

Araba təkəri modelləri Ön Asiyanın qədim abidələrində geniş yayılmış və burada daha çox iki öküzə qoşulmuş araba təkəri modelləri Ur abidələrindən tapılmışdır. Azərbaycan ərazisində ikitəkərli qoşqulu vasitələrin tunc dövrünün son mərhələsinə qədər intensiv istifadəsi arxeoloji tapıntılardan yaxşı məlumdur. Bunu xüsusilə əkinçilik təsərrüfatında başlıca rol oynayan amillərlə izah etmək olar (15, c. 110).

Dağlıq Talışın və İranın Gilan vilayətinin bəhs olunan dövr qəbir abidələrindən tapılan öküzə qoşulmuş araba modelləri də təsərrüfatda qoşqu vasitəsi kimi arabaların üstünlüklərini göstərir. Müasir dövrümüzdə də yüksək dağlıq ərazilərdə əkinçilikdə cütə qoşulmuş heyvanlardan torpağın şumlanması üçün istifadə olunur (2, s. 162).

Bütün bunlar sübut edir ki, Xudutəpənin üçüncü təbəqəsi Kür-Araz mədəniyyətinin yaşayış məskəni olmuşdur. Onun elementləri xüsusilə ocaq qurğularında, şarşəkilli qablarda, heyvan təsvirli gil fiqurlarda, araba təkəri modellərində əks olunur. Buradan aşkar olunan saxsı istehsalı üçün manqal tipli ocaq altlıqları analoji olaraq Kültəpə, Baba-Dərviş və Amiranisqoradan tapılmışdır. Digər formalı ocaq qurğuları da Kür-Araz saxsı komplekslərindən tapılıb. F.Mahmudovun qeydlərinə görə, saxsı istehsalı üçün hazırlanan bu tip ocaq qurğuları müasir dövrümüzdə də yerli əhalinin dulusçuluq sənətində istifadə edilir. Misal olaraq Masallı rayonunun Hişkədərə və Miyankü kəndlərində demək olar ki, hər qapıda buna rast gəlinir (16, c. 25).

Ümumilikdə Xudutəpənin bəhs olunan dövrə aid tapıntılarının ən yaxın oxşarlarını Naxçıvan abidələrində izləmək mümkündür (8; 5) Yaşayış məskəninin İlk Tunc dövrü qabları Naxçıvanın Ərəbyengicə yaşayış yerinin materialları ilə eyniyyət təşkil edir. Ərəbyengicənin də keramika məmulatı iki yerə bölünür: çəhrayı rəngdə bişirilmiş qablar, hansılar ki, onlar boz-sarı rəngdən qırmızıyadək müxtəlif qablara malikdir. Onlar Kür-Araz mədəniyyətinin ilk mərhələsinə - Eneolit mədəniyyətindən Kür-Araza keçid dövrünə aiddir. İkinci qrup keramika əsasən boz və qonur-qara rəngli gil qabların müxtəlif hissələrindən ibarətdir. Əsasən qum, bəzən isə müxtəlif qatışıqlı gildən hazırlanmışlar (9, s. 27).

Naxçıvandakı Daşarx yaşayış yerinin də materialları Xudutəpə ilə yaxın analogiya təşkil edir. Abidənin mədəni təbəqəsi Kür-Araz mədəniyyətinin bütün mərhələlərini əhatə edərək e.ə. IV-III minilliyə aiddir (10, s. 12-13).

Nəticə

Xudutəpə abidəsi Muğan-Leylatəpə-Kür-Araz mədəniyyətlərinin mərhələli şəkildə inkişafı kimi çox mühüm elmi problem məsələlərin öyrənilməsi baxımından əhəmiyyətə malikdir. Yaşayış məskəninin bəhs olunan dövrlərə aid təbəqəsindən tapılmış maddi mədəniyyət nümunələrinin mövcudluğu bölgənin qədim sakinlərinin təsərrüfat həyatı və məişəti ilə bağlı bir sıra məqamlara aydınlıq gətirməyə imkan verir. Gələcəkdə abidədə aparılacaq geniş miqyaslı tədqiqatlar nəticəsində daha yeni faktların üzə çıxacağı və Muğanın Xalkolit-İlk Tunc dövrünün öyrənilməsi üçün mühüm əhəmiyyətə malik elmi nəticələrə gəlinəcəyi şübhəsizdir. Bütün bunlar Azərbaycanın cənub-şərq bölgəsinin qədim dövr oturaq əkinçi-maldar əhalisinin həyat tərzinin araşdırılması işinə daha geniş imkan verəcəkdir.

Ədəbiyyat

1. Ağalarzadə A.M. Azərbaycanın cənub-şərq bölgəsinin tunc-ilk dəmir dövrü əhalisinin əkinçilik təsərrüfatı (etnoarxeoloji tədqiqat)// Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, №3, 2019. "Bakı Universiteti Nəşriyyatı", 2019, s. 157-164.
2. Ağalarzadə A.M. Leylatəpə arxeoloji mədəniyyətinin keramikası. Bakı 2019, 224 s.
3. Axundov T.İ. və b. "Muğan neolit-eneolit ekspedisiyası"nın 2010-cu ildə gördüyü çöl tədqiqatları (Cəlilabad rayonu)// Baş redaktor: M.N.Rəhimova. Azərbaycanda arxeoloji tədqiqatlar 2008. Bakı: AfPoliqraff 2008, s. 21-25; Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Bakı: AfPoliqraff 2010, s. 38-44; Azərbaycanda arxeoloji tədqiqatlar 2010. Bakı, AfPoliqraff 2011, s. 46-51; Azərbaycanda arxeoloji tədqiqatlar 2015-216. Bakı, AfPoliqraff 2017, s. 81-86.
4. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: "Nafta-Press" 2002, 157 s.
5. Aşurov S.H., Hüseynova S.A., Əliyeva F.A. I Maxta İlk Tunc dövrü abidəsi. I kitab. Bakı, "Apostrof-A" 2020, 147 s.
6. Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. Bakı, "Elm və təhsil" 2020, 576 s.
7. Müseyibli N.Ə. Azərbaycanın xalkolit dövrü mədəniyyəti. Bakı: "Turxan NPB" 2015, 220 s.
8. Müseyibli N.Ə. Xalkolit dövrü Muğan arxeoloji mədəniyyəti// "Sosial elmlər" 2023, №2. Baş red.: N.Axundova. Bakı: Elm 2023, s. 148-153.
9. Seyidov A., Baxşəliyev V., Mahmudova V. Ərəbyengicə qədim yaşayış yeri// Azərbaycanda arxeoloji tədqiqatlar 2008. Bakı 2008, s. 26-28.
10. Əliyev V., Aşurov S. Daşarx İlk Tunc dövrü yaşayış yeri/ Görkəmli Azərbaycan arxeoloqu Saleh Mustafa oğlu Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi sessiyanın materialları. Bakı, Elm 1994, s. 11-13.
11. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, Elm 1981, 64 s.
12. İsmayılova Ş. Urmiya gölü hövzəsinin tunc dövrü keramikası. Bakı: 2011, 243 s.
13. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм 1987, 315 с.
14. Аразова Р. Орудия и хозяйство раннеземледельческого поселения Аликемектепе (в свете трасологического изучения). Баку: «Муаллим» 2022, 84 с.
15. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, «Нафта-Пресс» 2008, 304 с.
16. Махмудов Ф.Р. Культура юго-восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку, Nafta-Press 2008, 216 с.

Резюме

Анар Агаларзаде

О находках периода халколита - ранней бронзы на поселении худутепе

В статье сообщается о находках эпохи халколита и ранней бронзы, ваявленных в результате раскопок многослойного поселения Худутепе, расположенного в Муганском регионе юго-востока Азербайджана. Выгодное природно - географическое расположение Худутепе стало причиной предолжительности обитания населения и создания культурных слоев различных эпох. В результате раскопок было определено, что три нижных слоя памятника относятся к халколиту - ранней бронзе (Муганское, Лейлатепинское, Кура-Араксинское культуры). На самом нижнем слое памятника выявлены халколитические находки аликемектепинского типа. Среди находок также имеются фрагменты сосудов лейлатепинской культуры. Находки этого периода немногочисленны. Среди керамического материала памят-

ника большинство составляют в основном находки лентовидных ручек кухонной посуды куро-аракского типа.

Ключевые слова: *Юго-восточный регион, поселение Худутепе, эпоха халколита - ранней бронзы, стратиграфия, хронология.*

Summary

Anar Agalarzade

About the chalcolithic-early bronze age findings of the khudutepe settlement

The article deals with the Chalcolithic and Early Bronze Age findings discovered as a result of the excavations carried out in the Khudutepe multi-layered settlement located in the Mughan region in the south-eastern part of Azerbaijan. The location of Khudutepe in a favorable natural geographical relief has led to the existence of Khudutepe as an intensive settlement of the population settled in the region for a long time and as a result of this, the formation of cultural layers belonging to different periods. As a result of the excavations, it was found that the three of the lower layers of the monument belong to the Chalcolithic-Early Bronze Ages (Mugan, Leilatepe and Kura-Arax cultures). İn the lowest layer of the monument, Alikomek tepe type findings of the Chalcolithic period were found. Jug fragments belonging to the Leilatepe culture are also among the findings. However, the findings of this period are still few. Among the ceramic materials of the monument, the majority are mainly examples of the Kura-Arax type with ribbon-shaped handles, belonging to the group of kitchen utensils.

Keywords: *Southeast region, Khudutepe settlement, Chalcolithic-Early Bronze Age, stratigraphy, chronology*

Şəkil 1. Əlikəmətəpə tipli monoxrom boyalı qab fraqmentləri

Şəkil 2. Əlikəməktəpə tipli sümük cilalayıcılar

Şəkil 3. Əlikəməktəpə tipli daşdan qadın bütü



Şəkil 4. 1-3 - Leylatəpə tipli saxsı qablar; 4-5- İlk tunc dövrü tava fraqmentləri

Şəkil 5. Kür-Araz tipli yarımşar qulplar

Şəkil 6. İlk Tunc dövrü heyvan fiqurları

UOT 902
https://doi.org/10.59849/2710-0820.2024.1.162

Elmar Baxşəliyev
AMEA Naxçıvan Bölməsi
elmarbakhshaliev@gmail.com

DALMATƏPƏ MƏDƏNİYYƏTİ ABİDƏLƏRİNİN TOPOQAFİK VƏ MƏDƏNİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *Dalmatəpə, Eneolit, Ubed tipli keramika, Xalaf keramikası,boyalı keramika, topoqrafiya, basma naxışlı keramika.*

Giriş. Dalmatəpə mədəniyyətinə aid tipli abidələr Şimal Qərbi İran (İran Azərbaycanı), İraq və Azərbaycan ərazisində yayılmış, e.ə V minilliyin birinci yarısından etibarən özündən əvvəlki mədəniyyətlərin də təsiri ilə inkişaf etmişdir. Erkən Eneolit mədəniyyətinin daşıyıcısı olan tayfalar əkinçilik və köçmə maldarlıqla məşğul olmuş, özünə xas keramikası ilə fərqlənən bu mədəniyyətin geniş coğrafiyaya yayılmasında iştirak etmişdirlər. Dalma mədəniyyəti ilə təmsil olunan abidələrin topoqrafik xüsusiyyətləri indiyədək geniş öyrənilməmişdir. Bu tip abidələrin topoqrafik xüsusiyyətlərinə nəzər yetirdikdə onların yaşayş tərzi haqda yeni fikirlər ortaya çıxır. Bu məqalədə məqsəd Dalmatəpə tipli abidələrin topoqrafik xüsusiyyətlərini, stratiqrafiyasını öyrənmək və bu mədəniyyəti yaradan tayfaların həyat tərzini daha aydın şəkildə izləməkdən ibarətdir.

Şimal-Qərbi İranın yaşayış yerləri. Araşdırmalar Dalmatəpə mədəniyyətinə aid abidələrin başlıca olaraq Şimal-Qərbi İranda, xüsusilə Urmiya gölünün qərbində yayıldığını göstərir. Bu bölgədə yerləşən ən mühüm abidələrdən biri Dalmatəpədir.

Dalmatəpə. Bu mədəniyyətə adını verən Dalmatəpə yaşayış yeri 1958-1959-cu ildə Charles Burney və 1961-ci ildə Cuyler Young tərəfindən tədqiq edilmişdir. Yaşayış yeri Urmiya gölünün cənub-qərbində, İran Azərbaycanın qərbində, dəniz səviyyəsindən təxminən 1289 metr yüksəklikdə yerləşir. Diametri təqribən 50 metr olan yaşayış yerinin müasir yer səviyyəsindən hündürlüyü 4 metrdir (23, p. 111). Dalmatəpədə aparılan arxeoloji qazıntılar yaşayış yerinin stratiqrafiyasını və memarlığını öyrənmək baxımından əhəmiyyətlidir. Yaşayış yerində dörd sahədə qazıntılar aparılmışdır. 1958-ci ildə A sahəsində 5x2 m ölçüdə, 1959-cu ildə B sahəsində 7x3 m ölçüdə, 1961 ci ildə III sadədə 7x4,5 m ölçüdə və IV sahədə 7x4,5 m m ölçüdə tədqiqat aparılmışdır. Daha sonra A və B sahələri uyğun olaraq I və II sahə adlandırılmışdır. Hər iki sahədə (A və B) aparılan qazıntılar 3-3,5 m dərinlikdən sonra suyun üzə çıxması nəticəsində dayandırılmışdır. Stratiqrafiyaya diqqət yetirsək yaşayış yeri 3, 2 m dərinliyədək qazılmış və ən altdakı 6-cı təbəqədə Hacı-Firuz dövrünə aid keramika parçaları aşkar olunmuşdur. Cuyler Youngun qazıntı apardığı 4-cü və 5-ci təbəqələrdə öncəki və sonrakı dövrlərlə qarışığı olmayan Dalmatəpə mədəniyyətinə aid keramika aşkar olunmuşdur (23, p. 113). Tədqiqat zamanı memarlıq qalıqları 5 sahədə daha aydın izlənmişdir. Bu sahədə həyətə açılan dördkünc formalı evlərin qalıqları, onların yaxınlığında zibil çuxuru və ocaq aşkar olunmuşdur. Memarlıq qalıqlarına nəzər saldıqda, tədqiqatçılar tərəfindən 1961-ci ildə təmizlənmiş tikililərin mürəkkəb quruluşa malik olduğunu demək olar. Bu tikililərə örtülü müstəqil tikililər, örtülü açıq həyətlər və palçıqdan tikilmiş divarlar daxildir (23, p. 115, fig.3). Memarlıq qalıqlarının təhlili ən azı dörd tikinti mərhələsinin mövcud olduğunu göstərir. Rəngli suvaq və ya divar rəsmlərinin olmaması ərazidəki memarlığın sadə və funksional üsluba malik olduğunu göstərir(23, p. 113). Bu tapıntılar Dalmatəpənin arxeoloji kontekstini zənginləşdirir və bölgədəki məskunlaşma tarixinə və mədəni təkamülünə mühüm töhfə verir.

Dalma dövrü memarlığının üst təbəqələrində Dəmir Dövrünə (V Həsənlu) aid qəbirlər tapılmışdır. Bu 16 məzarın böyük insanlara aid olduğu müəyyən edilmişdir. Bunlardan əlavə Dalma dövrünə aid 14 məzar da aşkar edilmişdir. Bunlar keramika qablar içərisində dəfn edilmiş uşaq qəbirləri idi. Qəbir materialları məhdud saydadır. Cuyler Youngın apardığı qazıntılar zamanı Dalmatəpə dövrünə aid küplərdə dəfn edilmiş uşaq qəbirləri aşkar olunsa da onlar yaxşı saxlanılmadığından öyrənilə bilməmişdir. Fauna qalıqları isə arxeoloji materialların daşınması zamanı itirilmiş və analiz edilə bilməmişdir.

Dalmatəpə yaşayış yerindən daşdan və sümükdən hazırlanmış müxtəlif əmək alətləri aşkar olunmuşdur. Artefaktlar əsasən keramikadan ibarət olsa da, metal əşyalar da tapılıb. Qəlpələnmiş daşlardan, adətən, çaxmaq daşından və obsidiandan düzəldilmiş iri bıçaq və yonqarlarda aşkar edilmişdir. Döşəmə daşı tapıntıları məişət fəaliyyəti olduğunun göstəricisidir. Sümük tapıntıları arasında bizlər xüsusilə diqqəti cəlb edir. Keramika əşyaları arasında iy başlığı kimi maddi mədəniyyəti əks etdirən əşyalar vardır (23, p. 115-117).

Dalmatəpə mədəniyyətini xarakterizə edən arxeoloji tapıntıların əksəriyyəti keramika məmulatından ibarətdir. Dalmatəpədən aşkar edilmiş keramikanı dörd əsas kateqoriyaya bölə bilərik: boyalı, basma naxışlı, qırmızı astarlı və sadə keramika. Boyalı keramika müxtəlif formalı qablarından ibarətdir. Keramika nümunələri kasa, çömlək tipli qabların parçalarından ibarətdir. Aşkar edilmiş keramikanın müəyyən qrupu monoxrom boyalıdır. Keramika nümunələri qırmızının müxtəlif tonlararında olmaqla qara boya ilə naxışlanmışdır. Naxış motivləri bir-biri üzərində yerləşdirilmiş üçbucaqlar, romblar və ziqzaqlarlandan ibarətdir. Bu naxışlar adətən keramikanın xarici səthinə çəkilmiş, bir-birini təkrarlayaraq qabların bütün gövdəsini əhatə etmişdir (23, p.121, fig. 4). Basmanaxışlar adətən qabın xarici səthinə əl ilə, bəzən isə xüsusi alətin köməyi ilə salınmışdır. Basmanaxışlar arasında daraqşəkilli formada olan naxışlar, barmaq basqılı nümunələr, qamış parçası ilə və müxtəlif alətlər vasitəsi ilə naxışlanmış olan nümunələr vardır. Bundan başqa dırnaq basqısı ilə naxışlanmış və ağac parçası izinə bənzəyən çarpaz deşiklər şəklində olan müxtəlif naxış formaları da vardır. Tədqiqatçıların fikrincə keramikanın xarici divarlarındakı qara ləkələr bu qabların yemək bişirməkdə istifadə oluna biləcəyinə işarə edir. Bu tip keramikanın daxili tünd qırmızı astar və ya boya ilə örtülmüşdür. Basmanaxışlı qabların gilinin tərkibi boyalı qabların tərkibinə bənzəyir, lakin bəzi nümunələrdə daha daha az saman qatqısı vardır. Keramikanın müxtəlif tipləri vardır. Məsələn, ağız kənarları xaricə qatlanmış çölməklər, qabarıq formalı kasalar, kiçik sferik qablar və düz kənarları olan nimçəyə bənzər qablar (23, p.125, fig. 8).

Qırmızı astarlı keramikanın xəmiri açıq narıncı və çəhrayı rəngdə bişirilmişdir. Xəmirin tərkibində saman və kiçik ağ dənəciklər vardır. Bu tip keramika basma naxışlı keramikaya nisbətən daha az qırılğandır. Keramika nümunələrinin iç və çöl səthinə qırmızı rəngli boya çəkilmişdir. Boyanın rəngi qırmızının müxtəlif tonlarında, bəzən qəhvəyi, bəzən də tünd gavalı rəngində olmaqla fərqli çalardadır. Keramikanın xarici səthindəki ləkələnmələr oksidləşmə vəya istifadə zamanı xarici təsirlərdən qaynaqlanmış ola bilər. Keramika nümunələrinin üzərindəki boya örtüyü qalındır, bunlar bəzi nümunələrdə çatlamış və soyulmuş formada müşahidə edilmişdir. Bəzi hallarda boyaq qabın səthinə bir parça ilə nazik qat şəklində çəkilmişdir. Keramika parçalarının tədqiqi göstərir ki, qırmızı boya bəzən ağ və ya bej rəngli astarın üzərinə çəkilmişdir. Bu qrupdakı keramika müxtəlif formalı olmaqla tabaq, kasa, çömlək və digər qabların parçalarından ibarətdir. Tədqiqatçıların fikrincə qırmızı boya ilə örtülmüş boyunlu və böyük ölçülü qablara, digərləri ilə müqayisədə daha çox rast gəlinir. Bundan başqa, Dalmatəpədən qırmızı boya ilə boyanmış bir neçə miniatür kasa da aşkar olunmuşdur (23, p. 124, fig 7, F,G, p.126, fig. 9 C-F, M, p. 127, fig. 10 D,F,G).



Şəkil 1. Dalmatəpədən aşkar edilmiş boyalı (1-4) və basma naxışlı (5-8) keramika (Hamlin 1975).

Keramika nümunələrin böyük bir qrupu da sadə keramikadan ibarətdir. Bu qrupa daxil olan bəzi qablar "özündən astarlı" və ya "krem astarlı"dır. Bununla belə, bu qrupdakıların əksəriyyəti mat rəng tonlarına sahibdir. Bəzilərinin səthi hamarlanmış, bəzilərilərinin səthi isə olduqca nahamardır. Lakin hamısı açıq bej rəngdədir. Yaşayış yerindən bu kateqoriyaya aid nimçələr, qabarıq gövdəli kasalar, müxtəlif ölçülü uzunsov kürəşəkilli qısaboyunlu qablar, dayaz və dərin kasalar aşkar edilmişdir (23, p.126, fig.9 J,K,L).

Həsənli. Dalma mədəniyyətinə aid digər bir abidə Həsənlitəpədir. Həsənlitəpə Şimal-Qərbi İran ərazisində, Qadar çayı vadisində ən böyük yaşayış məntəqəsidir və Sulduz adlanan kiçik düzənlikdə yerləşir. Yaşayış yeri ətraf düzənlikdən təqribən 8 metr hündürlükdədir. İnsanların burada məskunlaşması və müxtəlif fəaliyyətləri səbəbindən təpənin ölçüsü kiçilmişdir. Təpənin çevrəsi hazırda təxminən 600 metrdir (18, p. 1). Həsənlitəpənin dəniz səviyyəsindən yüksəkliyi 1304 mertdir. Həsənlitəpə ilk dəfə 1934-cü ildə aparılan qazıntılar zamanı aşkar olunan qəbirlərlə elmə məlum olmuşdur. 1936-cı ildə ingilis arxeoloqu Aurel Stein burada qazıntı aparmışdır. 1947-1949-cu illərdə İran arxeoloji xidməti M.Rad və A.Hakeminin rəhbərliyi ilə sitadeldən kənarda qazıntı aparmışdır (20, s. 83). 1956-1974-cü illərdə Pensilvaniya Universitetinin Muzeyi Robert Dysonun başçılığı ilə Həsənlitəpədə on mövsüm ərzində qazıntı aparılmışdır. Həsənlitəpədə aparılan qazıntılar zamanı Neolit dövründən başlayaraq Orta əsrlərədək böyük bir dövrü əhatə edən on təbəqə və müxtəlif maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Ən qədim təbəqə Neolit dövrünə aid Hacı Firuz təbəqəsidir, onun üzərində Dalma Təpə və Pisdəli dövrlərinə aid maddi mədəniyyət nümunələri aşkar olunub (20, s. 85). Dalmatəpə mədəniyyətinə aid maddi mədəniyyət nümunələri Həsənli IX təbəqəsində aşkar olunmuşdur. R.Dyson Dalmatəpə dövrünü e. ə. 4500-4000-ci illərə aid etsədə onun e. ə.

5000-4000-ci illərə aid ola biləcəyini ehtimal etmişdir (20, s. 85).

Hacı Firuz. Hacı Firuz yaşayış yeri İranın şimal-qərbində, Qərbi Azərbaycan ostanında, Qadar çayı vadisində yerləşir. Oval formalı olan təpənin sahəsi 200x140 metrdir. Ətraf düzənlikdən 10 metr yüksəklikdə yerləşir (45, p. 7). Yaşayış yerinin dəniz səviyyəsindən yüksəkliyi 1296 metrdir. Hacı Firuz yaşayış yerinin Neolit dövründən başlayaraq Tunc və Dəmir dövrlərinə qədər davam edən uzun məskunlaşma tarixi vardır. Əsas qazıntı sahəsində mürəkkəb stratiqrafik ardıcıllıq aşkar edilsə də, müxtəlif çuxurlarda təbəqələşmə nisbətən sadə olmuş təkrarlanmışdır. Neolit yaşayış yeri tərk edildikdən sonra onun şərq kənarında yeni Dalma yaşayış yeri salınmışdır. Pisdəli dövrünə qədər bu yaşayış yerində yaşayış olmuş, insanların fəaliyyəti zamanı təpədə müxtəlif çuxurlar qazılmışdır. Tədqiqatçılara görə müxtəlif dövrlərdə çuxurların qazılması mürəkkəb bir mənzərə yaratmışdır. Təzə çuxurlar əvvəlki çuxurların içirisində qazıldığından Hacı Firuz yaşayış yerinin böyük hissəsi bu çuxurlarla əhatə olunmuşdur. Bunun nəticəsi olaraq əsas qazıntı sahəsindəki post-neolit materialının arxeoloji əhəmiyyəti azlmışdır.

Tədqiqatlar göstərir ki, yaşayış yerində Orta Tunc və Erkən Dəmir dövrü qəbirləri də mövcud olmuşdur. Yaxşı müəyyən edilə bilən yaşayış sahələri şimal-qərbdə Fl 1 kvadratında və F10 şurfunda Dalma və Pisdeli təbəqələrindədir. Tədqiqatlar zamanı Hacı Hiruzun çoxtəbəqəli yaşayış yeri olduğunu və burada Dalma dövrünün Hacı Firuz ilə Pisdeli dövrü arasında olduğu müəyyənləşdirilmişdir (46, p. 8, fig. 4). Bu abidənin stratiqrafiyası ilə də təsdiq olunur.



Şəkil 2. Lavintəpə (1,2,3,4 Nobari et al), Siahbidtəpə (5,6 Henrickson 1983), Naxçıvantəpədən (7-15 Bakhshaliyev et al) aşkar edilmiş basmanaxışlı keramika.

Sevantəpə. İranın şimal-qərbində, Urmiya gölünün cənub-qərbində, Marqavar vadisində yerləşən və Dalma mədəniyyəti ilə təmsil olunan yaşayış yerlərindən biri də Sevantəpədir (43, p. 98). Təpənin ətraf düzənlikdən hündürlüyü 6.30 metrdir. Dəniz səviyyəsindən yüksəkliyi isə 1515 mertdir. Tədqiqatçıların fikrincə Sevantəpənin arxeoloji tapıntıları əsasən dulusçuluq məmulatından ibarətdir. Burada e.ə V minilliyin birinci yarısında İranın Qərbi Azərbaycan əyalətində geniş yayılmış Dalma mədəniyyətinə aid keramikaya rast gəlinir. Bu dövrə aid keramika məmulatı dörd müxtəlif növə bölünərək təsnif edilir: Saman qatqılı qalın, saman qatqılı nazik qırmızı astarlı, Dalma tipli basmanaxışlı və Dalma tipli boyalı keramika. Dalma dövrü keramikası, daha çox əl istehsalı, saman qatqılı qablarla təmsil olunur və əsasən kasa və küpə tipli qablardan ibarətdir. Aşkar edilmiş saman qatqılı qalın keramika bənövşəyi-qırmızı boya ilə örtülmüş böyük, qalın divarlı qablardan ibarətdir. Bu tip qablar düz və ya bir qədər yuvarlaq tərəflərə malikdir. Küplər isə ümumiyyətlə içəriyə əyilmiş ağız kənarları və dar ağızlı formalarla xarakterizə olunur. Bu qabların gili nisbətən yumşaqdır və daxili səthdə saman və ya ağac lifləri basaraq düzəldilmiş dərin üfüqi cızıqlarlar vardır. Saman qatqılı nazik və qırmızı astarlı keramika, hamar səthləri olan bənövşəyi-qırmızı boyaqla örtülmüş qablardan ibarətdir. Bu qrupa kasa və küplər daxildir. Onlar forma baxımından müxtəlifdir. Bu tip keramikda gövdə qalınlığı 0,6 ilə 1,0 santimetr arasında dəyişir.

Dalma tipli basmanaxışlı keramika unikal bir növdür. Bunlar səthi müxtəlif alətlər və barmaq izləri ilə naxışlanan, adətən qırmızı boyaqla örtülmüş keramikadan ibarətdir. Bu keramikanın çoxunun xarici səthində yanma izləri var ki, bu da onların çox güman ki, yemək bişirmək üçün istifadə edildiyini göstərir. Bu qrupda ağız kənarları daxilə meylli və sadə ağız kənarlı küplər üstünlük təşkil edir.

Buradan aşkar edilmiş Dalma tipli boyalı keramikanın xarici səthi müxtəlif həndəsi fiqurlarla naxışlanmışdır. Bu qabların bəzədilməsində istifadə olunan boya, qabların bişirilməsindən sonra dəyişərək müxtəlif rəng tonları almışdır. Bu qrupa adətən orta ölçülü qablar və ağız kənarları xaricə meyilli olan küplər daxildir. Naxışlama prosesində həndəsi fiqurların çəkilməsində isə adətən qaba fırçalar işlənmişdir. Sevantəpədən aşkar edilmiş arxeoloji materiala keramika ilə yanaşı, qırmızı-qəhvəyi çaxmaq daşı, boz çaxmaq daşı, kvarsit və obsidiandan hazırlanmış daş alətlər də daxildir. Qırmızı-qəhvəyi çaxmaqdaşının qalıntıları arasında işlənməmiş parçalar və qazıma alətləri vardır. Obsidianın çoxluqla işlənməmiş yonqarları arasında istifadə edilmiş bəzi parçalar və istifadə izləri göstərən bıçaq yer almaqdadır. Bunlardan başqa Sevantəpədən tapılan digər əşyalar arasında gil iy başlığı, qırıq yastı sümükdən olan iynə, iki kiçik qırmızı oxra parçası aşkar edilmişdir (43, pp. 101-106). Burada qazıntı işləri şurflar vasitəsi ilə aparıldığından memarlıq qalıntılarından bəhs edilməmişdir (43, p. 99-101).

Culfa Kültəpəsi. Culfa Kültəpəsi İran Azərbaycanında Araz çayından 10 km cənubda yerləşən çoxtəbəqəli yaşayış yeridir. Dalma tipli boyalı keramika ilə təmsil olunan yaşayış yerinin VIII təbəqəsidir. Yaşayış yeri ətraf ərazidən 19 m hündürlükdə yerləşir. Dəniz səviyyəsindən yüksəkliyi isə 967 metrdir (6, p. 323). Qazıntı nəticələrinə əsasən Kül Təpədə səkkiz əsas dövr müəyyən edilmişdir. Araşdırmalar göstərir ki, yaşayış yeri Eneolit dövründən Əhəmənilər dövrünədək məskunlaşdırılmışdır. Bu yaşayış yerinin VIII təbəqəsindən aşkar olunan boyalı keramika Dalmatəpə mədəniyyətinə aid edilsə də buradan Dalma tipli basmanaxışlı keramika aşkar olunmamışdır.

Xüsusilə Dalma dövrünə diqqət yetirərkən, e.ə 4500-4200-cü illərə aid olan Son Eneolit təbəqələrində Pisdeli tipli boyalı keramika və digər Son Eneolit materialları aşkar edilmişdir. Dalma dövrünə aid keramika həndəsi və ya həndəsi olmayan fiqurlarla naxışlanmışdır. Keramika nümunələri rəngi qəhvəyi və qara arasında dəyişən mat boyalarla boyanmışdır. Bu dövrə aid bir çox keramikanın dibində bir sıra çıxıntı və ya çiyin ətrafında halqaşəkilli detallar vardır (6, pp. 323-27). Kültəpə yaşayış yerində aparılan şurf qazıntıları zamanı tikili qalıqlarına rast gəlinmişdir. 3 nömrəli şurfda VIII təbəqəyə aid tikili qalığı aşkar edilmişdir. Bu yalnız bir memarlıq mərhələsinin olduğunu göstərməkdədir. Tikili qəliblənmiş torpaqdan ibarətdir və diametri təxminən 2 metr olan dairəvi, yarımqazma tikililərə məxsus memarlıq qurulu-

şuna malikdir. Divarının eni 20-25 sm arasında dəyişir. Aşkar edilmiş bu nümunə həmin dövrdə çox istifadə edilən yarımqazmaı tikililərə nümunədir (5, p. 37).

Lavintəpə. Dalma mədəniyyətinin təmsil olunduğu digər bir yaşayış yeri Lavintəpədir. Lavintəpə İran ərazisində Qərbi Azərbaycan ostanında, Zab hövzəsinin şimalında və Urmiya gölünün cənubunda yerləşir. Yaşayış yerinin dəniz səviyyəsindən yüksəkliyi 1398 metrdir. Yaşayış yeri ətraf düzənlikdən 15 metr hündürlükdə yerləşir. Lavintəpədə aparılan qazıntılar burada Neolit, Eneolit və Dəmir dövrünə aid təbəqələrin olduğunu aşkara çıxarmışdır. 1,5 hektar ərazini əhatə edən ərazi kənd təsərrüfatı fəaliyyətlərinin mənfi təsirinə məruz qalmış və kiçilmişdir. Burada aparılan stratiqrafik qazıntılar nəticəsində yeddi ayrı xronoloji dövr aşkar edilmişdir. Dalma tipli keramika üstünlük təşkil edir. Əsasən əldə düzəldilmiş keramikanın tərkibi saman qatqılıdır. Bu keramikanı boyalı, basmanaxışlı, qırmızı boyalı və sadə keramika kimi bir neçə qrupa bölmək olar (41, p.101).

Dalma keramikasının Qərbi İranda, xüsusən Mərkəzi və Şimali Zaqros dağları da daxil olmaqla geniş ərazidə yayılması onun şəhər mərkəzləri və Mesopotamiya ilə mədəni əlaqələri olmasına işarə edir. Həmçinin Zab hövzəsinin şimal bölgəsində Pisdeli mədəniyyətinə dair keramika, xüsusilə də Uruk dövrü əyri kənarlı kasa nümunələri vardır ki, bu da son Eneolit dövründə proto-şəhər dövrünün inkişafının göstəricisidir.

Lavin Təpənin arxeoloji tapıntıları İranın Şimal-Qərbinin mədəni və xronoloji təkamülünün başa düşülməsinə mühüm töhfələr verir, tarixdən əvvəlki dövrləri və bölgədəki mədəni qarşılıqlı əlaqələri anlamaq üçün fikir yaradır.Tikiliyə aid divar qalıqları aşkar edilmiş, lakin strukturun ölçüsü və növü haqqında dəqiq məlumat əldə edilə bilməmişdir. İkinci təbəqənin şərq və qərb hissəsində səki daşları və kül izləri aşkar edilmişdir. Cənub hissəsində kərpiç və kül tapılsa da, memarlıq quruluşunu müəyyən etmək mümkün olmayıb (41, p. 99).



Şəkil 3. Culfa Kültəpəsi (1,2 Abedi et al) Lavintəpə (3,4 Nobari et al) Seh Qabi (5,6 Henrickson 1983) Siahbidtəpədən (7,8 Henrickson 1983) aşkar edilmiş boyalı keramika.

Seh Qabi. Kirmanşah və Həmadanın arasında, Qodintəpədən 6 km şimal-şərqdə yerləşir. Yaşayış yeri müasir yer səviyyəsində 7 m yüksəklikdə yerləşən diametri 100 m olan təpə şəklindədir (48, p.57. 27, p. 156). Yaşayış yeri 1971-ci ildə L. Levine tərəfindən kəşf edilmişdir. Yaşayış yeri hər biri üç ay davam edən iki mövsümdə aparılan qazıntılarla öyrənilmişdir. Əsas qazıntə 1971-ci ildə B təpəsində aparılmış, 1973-cü ildə isə iki şurf qoyulmuş, lakin xam torağadək davam etdirilməmişdir. Tədqiqat zamanı Seh Qabi B təpəsində yeddi lay müəyyən edilmişdir. 1-4-cü təbəqələr Seh Qabi dövrünə, 5-7-ci təbəqələr isə Dalma dövrünə aid edilmişdir (27, s. 157). Tədqiqatçıların fikrinə görə bu yaşayış yerində əsasən üst təbəqələr geniş öyrənilmişdir. Dalma dövrünə aid təbəqələrdə kül və kərpic qalıqlarının olduğu izlənmişdir. Tədqiqatlar zamanı 7 layda hörgü qalıqlarına rast gəlinsə də arxitektura qalıqları aşkar olunmamışdır. Bu layın qalınlığı 20 sm olmuşdur. 6-cı layda kərpic divarın qalıqları aşkar olunmuşdur. Bu lay 1,5 m qalınlığında idi. Qalınlığı 50 sm olan 5-ci layda dördkünc formalı otağın qalıqları və Dalma keramikası tapılmışdır. 4-cü layda ölçüsü 3x3 m olan dördkünc evin qalıqları aşkar olunmuşdur. Tədqiqatçıların fikrinə görə Seh Qabidə Dalmanın bütün mərhələləri təmsil olunmamış, ola bilsin ki, onun son dövrü əks olunmuşdur (27, p. 174). Lakin qeyd etmək lazımdır ki, Seh Qabidə Dalmatəpə keramikasının bütün tipləri, sadə, boyalı, basmanaxışlı, qırmızı astarlı və digər tipləri vardır (27, p. 179-181).

Təpə Qışlaq. Bu yaşayış yeri Şimal-Qərbi İranda, Talvar vadisində dəniz səviyyəsindən 1641 m yüksəklikdə yerləşir (36, p. 49). Yaşayış yeri eni 70, uzunu 80 m olan, 5600 kv.m sahəni əhatə edən təpə şəklindədir. Təpənin yer səthindən hündürlüyü 7 metrdir. Abbas Motarjem və Mahnaz Şərifi tərəfindən üç mövsümdə aparılan qazıntılarla öyrənilmiş və 6 mədəni təbəqə aşkar olunmuşdur. Burada yaşayış Eneolit dövründən Dəmir dövrünədək davam etmişdir (37, p. 27. 38, p. 89). Ən altdakı 5 m qalınlığındakı V təbəqə Erkən Eneolit dövrünə aid edilmişdir. Bu təbəqədə dörd lay müəyyənləşdirilmişdir. Üst laylardakı keramika məmulatının Dalma dövrünə uyğunluğu tədqiqatçıların fikrinə görə Urmiya hövzəsi ilə əlaqələri göstərir. Tədqiqatçılar bu təbəqənin Hassuna dövründən başlayaraq Dalma dövrünədək davam etdiyini qeyd edirlər (38, p. 93). Bu təbəqə e. ə. 5000-ci ilə, ondan aşağıda yerləşən VI təbəqə isə e. ə. 5500-cü ilə aid edilmişdir

Təpə Siahbid. Kirmanşahdan 12 km şimal-şərqdə, dəniz səviyyəsindən 1310 m yüksəklikdə yerləşir (27, p. 305). Yaşayış yeri ilk dəfə 1960-cı ildə Matsonun ekspedisiyasına daxil olan Breyvud (Braidwood) tərəfindən şurf qoyulmaqla öyrənilib. Qeydlərdən məlum olur ki, sahəsi 14,5 kv.m olan iki sahə təpənin cənubunda, sahəsi 65 kv.m olan üç sahə isə təpənin şimalında qazılıb. Tədqiqat zamanı Ubeyd tipli monoxrom boyalı keramika, həmçinin Dalma tipli basmanaxışlı və boyalı keramika aşkar olunub. Tədqiqatçı Matsonun fikrinə görə Siahbid təktəbəqəli preistorik yaşayış yeri olmuş, sonra isə İslam dövründə məskunlaşdırılmışdır. 1978-ci ildə Royal Ontario Muzeum Siahbiddə iki şurf qazmışdır. Bu qazıntılar 2,6 m dərinliyədək davam etdirilmiş, qazıntı zamanı birinci qazıntı sahəsində Neolit və Erkən Eneolit dövrü təbəqələrinin üzərində Dalmatəpə mədəniyyətinə aid divar qalıqları və keramika nümunələri əldə edilmişdir (27, p. 306).

Choga Maran. Kirmanşahdan 20 km şimal-qərbdə, dəniz səviyyəsindən 1306 m yüksəklikdə yerləşir (27, p. 311). 1978-ci ildə Mahidaşt layihəsi çərçivəsində 25 günlük qazıntı ilə tədqiq edilmişdir. Yaşayış yerinin şimalında iki sahədə qazıntı aparılmışdır. Birinci sahədə 4x4m ölçüdə Robin Dennel tərəfindən qazıntı aparılmış, 5 (116-111 laylar) mərhələ müəyyən edilmişdır. Qazıntılar İkinci sahədə Həsən Talai 2, 7-3 dərinlikdə qazıntı aparmış və 6 lay müəyyənləşdirmişdir. Hər iki qazıntının alt təbəqələrində Eneolit keramikası, o cümlədə Dalma tipli basmanaxışlı və boyalı keramika aşkar olunmuşdur. Lakin basmanaxışlılar bu yaşayış yerində azdır.

Qodintəpə. Kanqavar vadisində dəniz səviyyəsindən 1483 m yüksəklikdə yerləşir. İlk dəfə 1961-ci ildə kəşf edilmiş, 1965-1973-cü illərdə Cuyler Young tərəfindən tədqiq edilmişdir. Qodintəpənin X təbəqəsi Dalmatəpə mədəniyyətinə aiddir (27, p. 172). Yaşayış yerindəki XYZ şurfundakı qazıntılar Dalma dövrünün müəyyənləşdirilməsi üçün xüsusilə əhəmiyyətli olmuşdur. Tədqiqat zamanı ilk mərhələdə Dala-

ma zolaqlı boyalıları (13-28%), monoxrom Dalma boyalıları (3-18%), orta mərhələdə Dalma monoxrom boyalıları və ilk dəfə olaraq Dalma tipli basmanaxışlılar görünür. Son mərhələdə Dalma basmanaxışlılar tənəzzülü müşahidə edilir. Monoxrom boyalılar davam etsə də sonra yoxa çıxır (27, p. 173).

Təzəkənd yaşayış yeri. Bu yaşayış yeri Urmiya gölünün cənub-qərbində yerləşir. Yaşayış yeri kəşfiyyat xarakterli qazıntılarla öyrənilmişdir. Tədqiqat zamanı Dalma mədəniyyətinə, Erkən və Orta Eneolit dövrünə aid keramika nümunələri aşkar olunmuşdur. Tədqiqatlar yaşayış yerində həyatın Orta əsrlərədək davam etdiyini göstərir. Alt təbəqələrdə Dalma tipli basmanaxışlı və qırmızı astarlı keramika üstünlük təşkil edir (14, p. 63).

Salmas ovalığı. Urmiya gölünün şimal-qərbində yerləşən Salmas ovalığında aparılan araşdırmalar zamanı Dalma tipli keramika nümunələri aşkar edilmiş, lakin bu nümunələr yaxşı nəşr edilməmişdir (31, p. 136).

Tədqiqatçılar Şimal-Qərbi İranda Dalma mədəniyyətinin Qoşatəpə (24, p. 304), İdirtəpə (7, p. 80), Ahranjantəpə (45, p. 7-17), Barujtəpə (11, p. 4-25. 12, p. 3-21) kimi yaşayış yerlərində də yayıldığını qeyd etmişlər.

Songar və Koliyaei ovalığı. Kirmanşah və Həmədan yaxınlığında yerləşən Songar və Koliyaei ovalığında dəniz səviyyəsindən 1650-1700 m yüksəklikdə yerləşən Tepe Varz Kalaavil, QolQole və Nad Ali Beig yaşayış yerlərinin tədqiqi zamanı Dalma tipli keramika aşkar olunmuşdur (28, p. 39-40).

İraq yaşayış yerləri. İraq ərazsində Dalma tipli keramikanın aşkar olunduğu bir sıra abidələr vardır. Bunlar arasında aşağıdakı abidələr əsas yer tutur.

Tell Abad. Tell Abad yaşayış yeri Diyala çayının şərqində, Sadiyahdan təxminən 12 km cənub-şərqdə, Hamrin bölgəsində Zaqros dağlarının ətəklərində yerləşir. Yaşayış yeri ətraf düzənlikdən 3,5 metr hündürlükdə yerləşir (30, p.101). Yaşayış yerinin dəniz səviyyəsindən yüksəkliyi 105 metrdir. Burada aparılan qazıntılar zamanı üç tikinti qatının varlığı müəyyən edilmişdir. III təbəqə Samarra və Ubeyd I arasındakı keçid dövrünü, II təbəqə Ubeid II dövrünü əks etdirən Hacı Məhəmməd keramikasını, ən yuxarıdakı I təbəqə erkən Ubeyd III dövrü əks etdirir (30, p. 101). Yaşayış yerində Ubeyd təbəqəsinə aid tikililərin salamat qalmış hissələri əvvəlki təbəqədəki memarlığın davamıdır və onu göstərir ki, buranın qədim sakinləri öz evlərini tikərkən əvvəlki arxitekturaya kiçik dəyişikliklər etmişdirlər. Bu, Tell-Abadın Ubeyd III dövründə çoxotaqlı kvadrat binaların və T formalı həyətlərin üstünlük təşkil etdiyi memarlıq üslubunun mövcudluğunu açıq şəkildə ortaya qoyur (30, p. 102). I təbəqədə aparılan qazıntılar zamanı çoxlu sayda boyalı keramika tapılmışdır. Aşkar edilmiş keramikanın əksəriyyəti Ubeyd III stilinə aiddir. Bu tip keramika Şimali və Cənubi Ubeyd yaşayış yerlərində təmsil olunduğu kimi Ubeyd dövrünün tipik xüsusiyyətlərini nümayiş etdirir. Keramika əsasən incə şəkildə hazırlanmışdır. Lakin bəzi kobud düz keramika nümunələri də aşkar edilmişdir. Aşkar edilmiş keramika üzərindəıki boya adətən qara, qəhvəyi, qırmızı və ya yaşıl rəngdədir. Dulus çarxında düzəldilmiş bir çox keramika nümunələri də aşkar edilmişdir. Keramikanın bəzədilməsində həndəsi və naturalist naxışlardan istifadə edilmişdir. Buradan həmçinin çoxsaylı heykəlciklər, iy başlıqları, sümük alətlər, əyilmiş gil mismarlar, bəzi çaxmaq daşı və obsidian alətlər aşkar edilmişdir (30, p. 102-103).

Keit Qasim. Keit Qasim İraq ərazisində Cəbəl Hamrin bölgəsində, Bağdaddan təxminən 150 km şimal-şərqdə yerləşən qədim yaşayış yeridir (21, p. 213). Yaşayış yeri 1978-1980-ci illərdə aparılan qazıntılarla öyrənilmişdir. Yaşayış yerindəki tikinti planını belə ümumiləşdirmək olar: Şərq-qərb istiqamətli T formalı əsas zal var. Bu zalın şimalında və cənubunda müvafiq olaraq iki kiçik T formalı zal perpendikulyar yerləşdirilmişdir. Bu üç uzun zalın ətrafında dördkünc formalı otaqların qruplaşdırılmışdır (22, p. 221). Yaşayış yerindən çox az keramika tapılsa da, Dalma və Son Xalaf keramikası yaşayış yerini Ubeyd dövrünə tarixləndirməyə imkan verir. Keit Qasim III dən aşkar edilmiş basma naxışlı keramika, İran ərazisində geniş yayılmış bu tip keramika ilə yaxın bənzərlik göstərir (22, p. 224). Aşkar olunan materiallar əvvəlki tədqiqatlarda yaxşı nəşr edilmədiyindən Yaşayış yerinin kordinatları və yüksəkliyi barədə fikir demək çətindir.

Kani Shaie. Bu yaşayış yeri Mesopotamiyanın şimal-şərqində, yer səthindən 14 m dəniz səviyyəsində 379 m hündürlükdə, olan, 0, 5 hektar sahəni əhatə edən təpə şəklindədir. Yaşayış yeri qərbdə Tainal dərəsi ilə əhatələnmiş və dərəyə doğru axan kiçik bulağın kənarında yer almışdır. Ətraf ərazilərlə birlikdə yaşayış yerinin sahəsi 3 hektardır. Yaşayış yeri şimal-qərbdən cənub-şərqə doğru uzanan Bazian hövzəsinin mərkəzində yerləşməklə, dağlıq Pyedmont bölgəsini qərbdə Tanzaro-Şəhrizor düzənliyi, şərqdə Zaqros dağları olmaqla iki yerə ayırır (42, p. 3). Bu yaşayış yerində 2013, 2015 və 2016-cı illərdə üç mövsüm ərzində Kani Shaie Arxeoloji Layihəsi çərçivəsində qazıntılar aparılmışdır. Bu proyektin məqsədi İnranın dağlıq bölgəsi ilə Mesopotamiya arasındakı əlaqələri müəyyən etməkdən ibarət idi. Tədqiqat zamanı yaşayış yerinin Son Eneolitdən Erkən Tunc dövrünədək böyük bir dövrü əhatə etdiyi müəyyənləşdirilmişdir. Yaşayış yerinin VII təbəqəsi Son Ubeyd dövrünə, VI və V təbəqələri isə Son Eneolit dövrünə aid edilmişdir. Araşdırmalar zamanı yaşayış yerinin VII təbəqəsindən Ubeyd tipli boyalılarla bərabər Dalma tipli basmanaxışlı keramika da aşkar olunmuşdur (42, p. 9-11, fig. 6, 15-16, fig. 7, 1-3). Bu təbəqədə aşkar edilən keramika məmulatının əksəriyyəti bitki qarışıqlıdır. Lakin keramika nümunələri bitki qarışığının azlığına və çoxluğuna görə bir-birindın fərqlənirlər. Dalma tipli keramika Kani Shaienin digər təbəqələrindən aşkar edilməmişdir (42, p. 36, fig. 17).

Qurqa Çiya. Qurqa Çiya İraq Kürd bölgəsinin Şəhrizor düzənliyinin cənub hissəsində, Hələbjə şəhərinin yaxınlığında yerləşən kiçik çoxtəbəqəli yaşayış yeridir (47, p. 1). Yaşayış yeri ətraf ərazilərdən 12 m, dəniz səviyyəsindən 551 metr yüksəklikdə yerləşir. Şəhrizor ovalığının cənub hissəsində yerləşən Qurqa Çiya, təxminən bir hektar ərazini əhatə edən dik yamaclı təpədir. Burada çoxsaylı yaşayış dövrlərinin izlərini görmək olar. Yaşayış yerindən müxtəlif dövrlərə aid çox miqdarda keramika və çaxmaqdaşı alətlər aşkar edilmişdir. Tədqiqatçılar təpə üzərində bu dövrə aid yüksək mədəni təbəqə olduğunu ve binaların tez bir zamanda sıradan çıxdığı qənaətinə gəlmişlərdir. Yaşayış yerində Xalaf, Ubeyd və Uruk dövrünə aid aşkar olunan materiallar xüsusilə diqqətəlayiqdir. Yaşayış yerində bir ədəd Dalma tipli basmanaxışlı keramika da aşkar olunmuşdur (47, p. 13). Araşdırmalar burada həyatın Son Tunc dövrünədək davam etdiyini göstərir.

Tədqiqatçılar Son Ubeyd Dövründə Qurqa Çiya ilə Qərbi Zaqros yüksək dağlıq əraziləri arasında mədəni qarşılıqlı əlaqənin sübutu olaraq Dalma basmanaxışlı keramikasının aşkar olunmasını göstərirlər. Bu keramika parçası Qurqa çiya ilə qonşu bölgələr arasında mədəni mübadilənin varlığını təsdiq edir, bölgənin tarixdən əvvəlki mənzərəsindəki geniş qarşılıqlı əlaqələri göstərir. Bu kəşflər Qurqa Çiyanin arxeoloji tarixini və onun Şəhrizor düzünün tarixdən əvvəlki yaşayış məskənindəki rolunu daha dərindən başa düşməyə imkan verir. (47, p. 11-14).

Surezha yaşayış yeri. Surezha Dəclə çayı və Ninovanın şərqində, müasir Ərbil şəhərindən təxminən 20 km cənubda, müasir Surezha kəndinin yanında yerləşən təqribən 22 hektarlıq əraziyə yayılmış yaşayış yeridir (44, p. 126). Yaşayış yeri dəniz səviyyəsindən 330 metir yüksəklikdə yerləşir.

Tədqiqatçıların fikrincə yaşayış yerində 2013-cü ildən bəri davam edən qazıntılar, Xalaf dövründən Orta Uruk dövrünə qədər uzanan təxminən iki min il əvvələ aid fasiləsiz məskunlaşmanın izini ortaya çıxarmışdır. Xüsusilə, 2018-ci ildə aparılan araşdırmalar zamanı, 2-ci sahədə evlərin, həyətlərin və açıq hava iş yerlərinin zəngin mədəni mənzərəsi, o cümlədən inzibati funksiyaları göstərən möhür kimi mühüm tapıntılar aşkar edilmişdir. 9-cu və 10-cu sahələrdə iri çiy kərpic sərhədinin olması onu göstərir ki, sahələr müxtəlif məqsədlər üçün istifadə olunub və funksional fərqlərə baxmayaraq, bütün strukturlar ümumi memarlıq oriyentasiyasına malikdir. Bundan əlavə, 2018-ci ildə aparılan qazıntılar zamanı Orta Assuriya dövrünə aid dairəvi taxıl çuxurları da aşkar edilmişdir ki, bu da sahənin sonrakı dövrlərdə də istifadə edildiyini göstərir (44, p. 125-133).

Surezha keramikasının əhəmiyyətli hissəsini təşkil edən Dalma tipli basmanaxışlı keramikadır. 2018-2019-cu illərdə aşkar edilmiş 89 ədəd keramikanın 60-nı Dalma tipli basmanaxılılar təşkil edir. Naxışlar müxtəlif formalıdır. Barmaq basqılı, kiçik daraq və xüsusi alətlərin köməyi ilə müxtəlif formalarda naxışlanan keramika nümunələri vardır. Keramika nümunələ-

ri arasında yaş əllə və ya parça ilə hamarlanan bir səthə malik dərin qablar vardır. Tədqiqatçılar bu tip keramikanı suvama texnikası ilə naxışlanan keramika adlandırmışdır. Xüsusilə, bəzi parçalar üçün müntəzəm təkrarlanan naxılar xarakterikdir. Bəzi nümunələr isə nizamsız şəkildə naxışlanmışdır. Naxışlar qabların islaq səthində icra edildiyi üçün dərin iz buraxmışdır. Qazan tipli qablarda tutacaqlar əlavə əlavə edilmişdir. Tədqiqatçılar keramikanın ümumən orta ölçülü qablardan ibarətdir olduğunu qeyd etmişdirlər. Keramikanın xarici səthindəki gözə çarpan ləkələrin onların böyük ehtimalla yemək bişirimək üçün istifadə olunduğu fikrini qeyd etmişdirlər. Bununla belə, dekorativ üsulların müxtəlifliyini şəxsi və ya bəlkə də sosial motivasiyalar ilə əlaqəli ola biləcəyi deyilmişdir. Memarlıq qalıqları daxilində paylanma nümunələrinin təhlili bu qabların təyinatı və sosial-mədəni vəziyyət haqqında müəyyən fikir verə bilər.

Surezha yaşayış yerində Dalma tipli boyalı keramika Surezhadakı keramikanın daha kiçik bir hissəsini təşkil edir. Boyalı keramika Diaqonal xəttlər və şevron naxışlarla bəzədilmişdir. Bu keramika gilin tərkibi və bişmə texnikası baxımından basma naxışlı keramikaya bənzəyir. Keramikanın xəmiri qaba saman qarışıqdır orta dərəcədə yaxşı bişirilmişdir. Xarici səthlər düzləşdirilmiş və aydın bir suvaq izi yoxdur. Boya rəngi qırmızının müxtəlif tonları, qırmızı ve qəhvəyi, arasında dəyişir. Diyagonal xəttin iki alt növü aşkar edilmişdir: nazik diyaqonal xətt və qalın diyagonal xətt. Bunların hər ikisi rənginə görə fərqlənməklə müxtəlif endə və səliqəsiz şəkildə tətbiq edilmişdir. Nəticədə, tədqiqatçılar yerli Dalma boyalı keramikasının tamamilə orta ölçülü qabqalardan ibarət olması fikrinə gəlmişdirlər. Tədqiqatçılar Dalma tipli qırmızı astarlı boyalı keramikanın olmadığını yazmışlar. Onların fikrinə görə qırmızı astarlı keramika yerli istehsal üçün də xarakterik olduğundan onların qarışıq düşə biləcəyini və ayırd edilməsinin vacibliyini qeyd etmişlər. Tədqiqatçılar həmçinin, Surezhada Dalma sadə keramikasının varlığı və ya yoxluğunun daha sistematik bir araşdırma tələb etdiyini qeyd etmişlər (10, pp. 4-9). Surezha yaşayış yerində aparılan qazıntılar Şimali Mesopotamiyada Eneolit dövründə qəsəbə və şəhərlərin memarlıq quruluşu haqqında geniş təsəvvür yaradır. Tədqiqatlar göstərir ki, müasir Ərbil yaxınlığında yerləşən bu arxeoloji sahə hündür təpədən, pilləli quruluşda yerləşən və daha az tanınan ikinci dərəcəli yaşayış məskənlərindən ibarətdir. Memarlıq quruluşu adətən düzbucaqlı və ya kvadrat formalıdır və kərpicdən inşa olunmuşdur.

Genetic research is important in modern historical science and in determining the ethnogenesis of peoples. They provide information for analytical conclusions that help trace the origins and family ties of peoples. The peoples of the Caucasus are no exception, among whom the most ancient genetic populations are found. The distribution of haplogroup G2a among representatives of all language families in the Caucasus is of great interest. It has a high concentration among the population of the Western and Central Caucasus. This circumstance indicates the need to identify the historical substrate, which has become the genetic material for many Caucasian peoples. The genesis of haplogroup G2a in the Caucasus represents an important but unexplored area of historical research. The goal of the work is to reconstruct a holistic historical picture of the genesis of haplogroup G2a in the Caucasus and its influence on the modern ethnic map of the region. In this article, the historical genesis of haplogroup G2a in the Caucasus is explored, revealing the relationship of genetic studies of modern populations with data from ethnology, archeology and linguistics.

***Keywords**: haplogroup G2a, Levant, Neolithic Revolution, ancient archaeological cultures, peoples of the Caucasus, Adygo-Abkhazians, Kartvelian languages, anthropology.*

UOT 902
https://doi.org/10.59849/2710-0820.2024.1.200

Lola Hüseynova
AMEA Arxeologiya və Antropologiya İnstitutu, elmi işçi
lola.l1987.ekber@mail.ru
ORCİD: https://orcig.org/ 0000-0001-7700-5422

ÇOVDAR ƏRAZİSİNDƏ ARXEOLOJİ ABİDƏLƏRİN ÖYRƏNİLMƏ TARİXİ (I MƏRHƏLƏSİ, 1903-1921-Cİ İLLƏR)

Açar sözlər: *Çovdar, Xocalı-Gədəbəy mədəniyyəti, arxeoloji qazıntılar, kurqan, daş qutu qəbir*

Giriş

Daşkəsənin Çovdar kəndi 1733 m hündürlükdə, Çovdar dağının şimal yamacında, 40°36′49″ N.- 46°06′31″ E coğrafi koordinatlarda yerləşir (xəritə 1). Kəndin adı 1727-ci ildə Osmanlılar tərəfindən tərtib edilmiş "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə Gəncə qəzasının Gəncəbasar nahiyəsinə tabe olan bir kənd kimi çəkilir. Coğrafi ərazi Yenicə adlı kəndin yaxınlığında lokalizə edilir (4, s. 66). Gəncənin 4 avqust 1732-ci il tarixli təhrir dəftərində də *"Timan Hüseyn vələdı Əhməd, Ərzurum Karyeyi Çovdar tabeyi Gəncə"*(7, s. 320) qeyd olunmaqla Çovdar kəndi bir daha xatırlanır. Kəndin adının etimalogiyası ilə bağlı müxtəlif yanaşmalar var. Bunlardan biri onun adını eyniadlı dağdan götürməsidir. Əlavə edək ki, dağın adının da eyniadlı bitkidən götürülməsi kimi yanaşmalar var (3, s. 201).

Məsələn eyniadlı digər coğrafi bölgəyə Kəlbəcər rayonu ərazisində rast gəlirik. Belə ki, burada Tərtər çayının bir qolu kimi bilinən Çovdar çayı və onun sahilində yerləşən Çovdar kəndi var. Kənd adını çaydan götürmüşdür (3, s. 142). Bəzi tədqiqatçılar Çovdar dağının adını burada yetişən çovdar bitkisinin çoxluğu ilə əlaqələndirib. Çovdar bitkisinin ən qədim qalıqlarına neolit dövrü abidələrində rast gəlinsə də (12, s. 170) e.ə II –I minilliklərdə daha geniş ərazilərdə eləcə də Kiçik Qafqazda mənimsənilib. Kəlbəcərdə Çovdar adı ilə bağlı araşdırmalarda bitki faktına rast gəlinmir. Çovdar adının etimologiyası ilə bağlı digər mülahizələrdən biri onun "davar alverçisi" mənasını verən "çovdar" sözündən götürülməsidir (3, s. 200). Ərazinin Çovdar adlanması da burada maldarlıq və heyvandarlığın inkişafı ilə bağlı ola bilər. Alimlərin bəziləri məsələyə başqa bir aspektdən yanaşıb. Türk tarixçilərindən Faruk Sümer qeyd edib ki, bu oronim səlcuk-oğuz tayfalarının adı ilə bağlıdır və çaudar/çovuldar/çavundur kimi tayfalarla əlaqəlidir. O, çovdarları çavundurlarla eyniləşdirir və onları oğuz tayfası kimi qəbul edir. Onu da vurğulayaq ki, çaundarlar elmi ədəbiyyatlarda da türk tayfaları kimi qeydə alınıb (2, s. 371). Faruk Sümer sadəcə Anadoluda XVI əsrdə bu adda 21 yer adının qeydə alındığını yazmışdır. Nəzərə alaq ki, Çavdarlar Anadoluya getmək üçün Azərbaycandan keçiblər (11, s. 142). Heç təsadüfi deyil ki, Zəngilanda Oxçuçayın sahilində Çaundar mahalı olub və Araza tökülən Oxçuçayın keçmiş adı da Çaundurçay adlandırılmışdır (8, s. 42). Bundan əlavə İrəvan əyalətinin 1727-ci ildə tərtib edilmiş icmal dəftərində Zar-Zəbil nahiyəsinə tabe olan Çavdar kəndinin, Çavdarlar qışlağının adı qeyd olunur (10, s. 143-144).

ÇOVDARDA ARXEOLOJİ QAZINTILARIN BAŞLANMASINI ŞƏRTLƏNDİRƏN PROSSESLƏR: Çovdar və bilavasitə Azərbaycan ərazisindəki digər abidələrin "arxeoloji tədqiqat" sənədlərində yer alması prossesi Rusiyanın işğalı ilə başlanılıb. Bu fikrin memarı isə I Pyotr hesab edilir. Daha sonra II Yekaterina Rusiya siyasətinin cənub istiqamətində "Yunan layihəsi"ni həyata keçirməyə çalışıb. Bununla, "Bizans mirası" uğrunda mübarizənin orbiti Qafqaza çəkilib (20, s. 922). Qafqazın arxeoloji abidələri haqqında ilk məlumatlar XVIII əsrin sonu - XIX əsrin birinci yarısında bölgəyə səfər etmiş səyyahlar tərəfindən verilib. Bundan sonra Qafqazın Rusiyaya inteqrasiyası, abidələrinin tədqiqi və bərpası ilə bağlı "mədəni tədbirlər" başlanılıb. Bütün səylər

"xristianlıq" adı altında bölgənin tarixini özününküləşdirməkdən ibarət idi. Bundan əlavə tapılan materiallara pul ödənilməsi də həmin dövrdə ərazidəki abidələrin dağılmasına kütləvi şəkildə yol açıb. Memarlıq və arxeoloji abidələrin ilk təsvirləri isə XIX əsrdə rus ordusunun zabitləri, hərbi topoqraflar və Qafqazda xidmət edən səyyahlar tərəfindən hazırlanıb. Onu da qeyd edək ki, bölgənin tarixinin öyrənilməsində avropalılarla Rusiya İmperiyasının maraqları toqquşurdu. Əvvəllər müəyyən sistemsizlik çərçivəsində axtarışlar aparılsa da sonradan Rusiya imperiyasının işğalı altında olan digər ərazilər kimi Azərbaycanda da milliyətindən asılı olmayaraq qazıntı aparan hər kəs müəyyən qurumların icazəsi ilə fəaliyyət göstərə bilərdilər. Onlar əsasən İmperator Arxeologiya Komissiyasının razılığı ilə müxtəlif ərazilərdə qazıntı işləri aparıblar. Qurum 1859-cu il fevralın 2-də qraf S.Q.Stroqanovun təklifi ilə Qədim Əşyaların Tədqiqi Komissiyası əsasında yaradılıb (20, s 926). 1889-cu ildən etibarən komissiya "açıq vərəqlər"lə - dövlət, şəhər və kəndli torpaqlarında qazıntı işlərinə icazə verən yeganə quruma çevrilib. Komissiya həm də abidələrin mühafizəsi və bərpası ilə də məşğul olub. Komissiyanın vəzifələrinə "bir vaxtlar indi Rusiyanın işğal etdiyi məkanda yaşamış xalqların milli tarixi və həyatı ilə bağlı qədim əşyaların axtarışı;antik dövr abidələri haqqında məlumatların toplanması; aşkar edilmiş abidələrin elmi qiymətləndirilməsi" daxil idi. XIX əsrin son rübündə təşkil olunan Tiflis qurultaylarının yekun iclaslarında Qafqaz arxeologiyasının öyrənilməsi ilə bağlı müxtəlif fikirlər söylənildi. Məsələn L.N. Maikov açıq şəkildə bildirirdi ki, "Qafqaz mədəniyyət mərkəzlərindən uzaqda yerləşən bir yerdir" (20, s.661-782). Avropanın ibtidai mədəniyyətlər üzrə mütəxəssisi R.Virxov hesab edirdi ki, "Qafqazda tunc dövrü mədəniyyətlərinin yaranması, inkişafı və ümumilikdə regionun inkişafı üçün heç bir ilkin şərtlər yoxdur. Buradakı bütün yeniliklər Şərqin təsirindən yaranıb" (20, s. 936). Bəzi tədqiqatçılar isə bunun əksinə olaraq qeyd edir ki, "qədim zamanlarda Qafqaz, Qərbi Asiya sivilizasiyaları ilə sıx bağlı olan canlı mədəniyyət mərkəzi olub və onunla eyni mədəni həyatı yaşayır" (14). XIX əsrin sonlarında Talış bölgəsində geniş tədqiqatlar aparmış (5) Alaverdi mədənlərinin mühəndisi Jak de Morqan da Qafqazda tunc dövrünün əhəmiyyətsizliyi barədə fikirlərin əksinə çıxış edib (20, s. 937). Bütün bu təzadlı fikirlərə və XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif ərazilərində Rusiya İmperisyası tərəfindən təşkil olunmuş milli qırğın siyasətinə baxmayaraq arxeoloji qazıntı işləri davam etməkdə idi.

ÇOVDAR ƏRAZİSİNDƏ ARXEOLOJİ QAZINTILAR VƏ ƏLDƏ OLUNAN MƏLUMATLAR: İndiki Azərbaycan Respublikasının sərhədləri çərçivəsində İmperator Arxeoloji Komissiyasının apardığı qazıntılar XIX əsrin sonlarına təsadüf edir. Həmin dövrdə E.A.Resler, A.A.İvanovski, V.A.Skinder, Q.O.Rozendorf, V.Belk, J.Morqan, F.Bayern, Y.Hummel və s kimi şəxslər arxeoloji qazıntı işləri aparıblar. Daşkəsən rayonu haqqında ilk məlumatlar onun zəngin metal yataqları ilə birgə əldə olunub və bu tədqiqatçılardan bir çoxu Daşkəsənin Çovdar ərazisində olub və orada müxtəlif həcmli çöl tədqiqat işləri aparıblar.

Emil Resler: İmperator Arxeoloji Komissiyasının razılığı ilə Yelizavetpol quberniyasına ezam edilən şəxslərdən biri Alman dili müəllimi E.A.Reslerdir. Arxeoloji ədəbiyyatlarda onun 1901 (18, s. 7), 1903 (6, s. 86) və ya 1904-cü illərdə (6, s. 76) Çovdar ərazində arxeoloji qazıntı aparması haqqında məlumatlara rast gəlinir. İstinad kimi İAK VƏ MAO-nın xəbərləri, hesabatları və bununla bağlı nəşrləri göstərilib (21 və 22). E.A.Resler Gəncə- Qazax bölgəsi və Qarabağ ərazisində uzun müddət qazıntı işləri aparıb və qısa hesabatlar yazıb. Ancaq onun Çovdar ərazisində apardığı çöl tədqiqat işlərinin təfərrüatlarına istinad kimi göstərilən əsərlərin heç birində rast gəlinmir. Belə ki, Resler 1901-ci ildə Bayanda, Yelizavetpol quberniyasında, Seyidkənd, Aşağı Daşkəsən, Zurnabad, Balçılı kurqanlarında qazıntı aparıb (21). O, 1902-ci ildə əvvəlcə Şəkinin Böyük Dəhnə, sonra isə Yelizavetpol quberniyasında, Zurnabad kəndi yaxınlığında tədqiqatları davam etdirib. Böyük Dəhnədə 11, Zurnabad 18 qəbir abidəsi qazaraq tədqiqata cəlb edib (24, s. 102-110). Araşdırmalarının davamına 1903-cu ildə İrəvan quberniyasında (26, s. 98-99) və Şəmkir ərazisində kurqan qazıntısında (25, s. 86) rast gəlinir. E.A.Reslerin bu qazıntısının təfərrüatları arxeoloji komissiyanın 1906-ci il buraxılışın-

da nəşr olunduğundan 1907-ci il buraxılışında məlumat xarakterli qısa xülasə yazılıb. Burada qeyd olunur ki, 1904-cu ildə Tiflisdə iğtişaşlar zamanı baş verən hadisələr səbəbi ilə E.A.Resler elmi araşdırma aparmaq imkanını itirmişdir. Bu məlumatın əksinə olaraqİdeal Nərimanovonun 1904-cü ildə Çovdarda qazıntı aparmasını və "buradakı qəbirlərdə bütöv skeletə rast gəlməməsini,ancaq heyvan qalıqlarının tam olmasını" vurğulayıb (6, s. 76). Müəllifin E.A.Resler haqqında qeyd etdiyi cümlənin eyni məzmununa A.A.İvanovskinin tədqiqatlarında da rast gəlinir. O, qeyd edir ki,"E.A.Resler Yelizavetpol quberniyasında tədqiqata cəlb etdiyi bir çox daş qutulardan skelet aşkarlamayıb" (17, s. 166), ancaq bunun məhz Çovdar qəbirləri olması fikri qeyd olunmayıb. Nəticədə belə ehtimal olunur ki, E.A.Resler ya Çovdar ərazisində qazıntılar aparıb, ancaq hesabat nəşr olunmayıb ya da ikinci ehtimal, o, ümumiyyətlə Çovdar kəndi ərazisində qazıntı aparmayıb. E.A.Reslerin 1901-ci ildə Yelizavetpol quberniyasında apardığı arxeoloji qazıntıların nəticələri ilə bağlı hesabatların birində onun iş və yaşayış yeri ilə əlaqədar üzləşdiyi çətinliklər səbəbindən qazıntılar haqqında tam hesabat verə bilmədiyini , hətta əldə olunan materialların fotolarının təqdim olunmaması qeyd olunmuşdur (23, s 92). Sonuncu gəldiyimiz fikrin mənbəyi isə bu günə kimi istinad göstərilmiş əsərlərdə Çovdar haqqında məlumatların yer almamasıdır. E.A.Reslerin doğrudan da Çovdar tədqiqatçısı olunmasını ancaq Sankt -Peterburqda qorunmaqda olan İAK-ın arxiv sənədlərini əldə etdikdən və faktlara rast gəldikdən sonra təsdiq etmək mümkündür.

Q.O.Rozendorf:1903-cü ildə yuxarıda adı çəkilən komissiyadan mədən mühəndisi B.Şultsla birgə adı qeyri qanuni qazıntılarda yer alan, əczaçı Q.O.Rozendorf Gəncə şəhəri yaxınlığında, Çovdar, Mizrik və Quşçu kəndləri ərazisində qazıntı aparmaq üçün "açıq vərəq aldı" (16, s. 24). İlk öncə Q.O.Rozendorf əvvəllər E.A.Reslerin qazıntı apardığı ərazilərə yaxın bölgələrdə qazıntı işləri aparıb, kurqan və daş qutular qazıb. Daha sonra Daşkəsənin Quşçu və Çovdar kəndi ərazisindəki abidələr haqqında məlumat verib.

Q.O.Rozendorf Yelizavetpoldan 20 verst cənub-qərbdə yerləşən Çovdar kəndi yaxınlığındakı dağ silsiləsində üst əlamətləri görünən daş qutulardan ibarət qəbirstanlıq olduğunu qeyd edib. "Daş qutuların kənarları orta ölçülü, üzəri çox böyük daşlardan hazırlandığını yazıb. Əlavə olaraq üzərini örtmək üçün xırda daşlardan da istifadə olunub" (27, s. 102). Tədqiq etdiyi qəbirlər müxtəlif istiqamətlidir. Q.O.Rozendorf qazdığı daş qutu qəbirləri qadın və kişi qəbri olmaqla iki qrupa bölüb. Onun ilk tədqiq etdiyi daş qutu qəbir şərq-qərb istiqamətində, 2.45m. x 1.42m. x 1.12 m. ölçüsündə qurulub. Üzəri iki böyük daşdan ibarətdir. Kameranın şimal hissəsində insana məxsus kəllə sümüyü, cənubundan insana məxsus alt çənə sümüyü və 7 ədəd hissələr şəklində saxsı qab nümunələri, skeletin digər hissələri üzərində 40-a yaxın tunc bəzək əşyası və döşəmədən 1 m hündürlükdə iki saxsı qab aşkarlanıb. Bəzək əşyaları 5 ədəd şəbəkəli, dairəvi tunc asma, 2 ədəd tunc quş asma, ortasında ilan formasında spiral olan bir tunc sırğa; doqquz ədəd böyük tunc bilərzik, dəlikli iynə, 4 ədəd balta şəklində asma, 4-5 qatlı tunc üzük, 4 ədəd böyük düymə, 2 böyük, dairəvi tunc löhvə, tunc düymə və asmalar, 31 ədəd muncuqla təmsil olunur. Bu qəbrin qadın individuala məxsus olması fikrini qeyd edib (27, s. 102).

Digər qadın dəfninin izlənildiyi daş qutu qəbir şimal şərq-cənub qərb istiqamətində, 2,20 m. x 1,35 m. x 1,15 m. ölçüsündədir. Kameranın cənub divarında üst - üstə qoyulmuş daşların tökülməsindən sınmış 5 ədəd gil qab, qabların qarşısında insana məxsus kəllə sümüyü, alt çənə və insana məxsus pis qorunmuş digər sümük qalıqları aşkarlanıb və qadının bazu sümüyü üzərində 6 ədəd tunc bilərzik qeydə alınıb. Buradan tunc balta və iki sınmış saxsı qab da götürülüb (27, s. 103).

Q.O.Rozendorf kişi dəfni kimi qeydə aldığı birinci qəbir haqqında qeyd edib ki, bu qəbrin üst əlamətləri aydın seçildiyi üçün qarət edilib (27, s. 104). Q.O.Rozendorfun ehtimalına görə individual kameranın qərb divarında dəfn edilib. Kameranın cənub hissəsindən tunc kəmər toqqası, iki ədəd dolçaşəkilli asma, burulmuş asması olan şarşəkilli tunc bəzək əşyası, iki ədəd iri tunc bilərzik, 2 ədəd böyük ölçülü tunc düymə, üzərində quş təsvirləri olan tunc kasa, 9 ədəd tunc muncuq, 8 ədəd əqiq muncuq aşkarlanıb. Q.O.Rozendorfun Çovdarda tədqiq etdiyi

sonuncu kişi qəbrinin uzunluğu 2,40 m., eni 1.16 m., dərinliyi isə 1,14 m. olmaqla, şimaldan cənuba istiqamətlənmiş şəkildə hörülüb. Kameranın üzərinə 4 ədəd daş plitə qoyulub və onun da üstündə iki gil qab tapılıb. Kamerada insana məxsus kəllə sümüyü, alt çənə sümüyü, 2 bud sümüyü, 4 qabırğa və 2 boyun fəqərəsi müəyyənləşdirilib. Bundan əlavə qəbir avadanlığı 8 ədəd saxsı qab, tunc xəncər və 3 obsidian ox ucu ilə təmsil olunub (27, s. 105). Ümumilikdə, Çovdardan əldə olunan materiallar da daxil olmaqla 44 ədəd arxeoloji artefakt Q.O.Rozendorf tərəfindən Rusiya İmperiyasının Tarix muzeyinə təhvil verilib. Onu da qeyd edək ki, Q.O.Rozendorf üçü Çovdardan olmaqla 12 kəllə sümüyü üzərində aparmış olduğu araşdırmanın nəticəsində onların uzunsov baş quruluşuna aid olduqlarını qeyd edib.

Vladimir Adamoviç Skinder: Çovdar ərazisində qazıntılar aparmış növbəti şəxs Şamaxının 261-ci ehtiyat atıcı alayının giziri Vladimir Adamoviç Skinderdir. O, 1905-ci ildə Yelizavetpol quberniyasında qazıntı aparmaq məqsədilə İAK-dan "açıq vərəq" tələb edib (34, s. 713). Komissiya ondan qazıntıların aparılması ilə bağlı qaydalar siyahısını və özü haqqında və qazıntının məqsədini bildirən məlumat xarakterli sənəd tələb edib. Skinder cavab məktubunda kimya təhsili aldığını və xaricdə: Şimali Afrikada və indiki İran ərazisində arxeoloji qazıntılar aparmaq niyyətində olduğunu bildirib.Lakin rus-yapon müharibəsinin başlaması və onun orduya çağırılması buna mane olub (34, s. 713). Alayın olduğu Yelizavetpol quberniyasına gələndə, o, burada tarixdən əvvəlki insanın fəaliyyətinin izlərini aşkar etməsini və onları araşdırmaqda marağı olduğunu qeyd edib. Skinder, "açıq vərəqin" mümkün qədər tez göndərilməsini xahiş edərək bildirir ki, "sonra burada işçiləri əldə etmək bahalı və çətindir" (20, s. 981).V.A.Skinderin işi yekunlaşandan sonra komissiyaya hesabat verib və qeyd edib ki, ümumiyyətlə burada işləmək həm maddi, həm də digər məsələlərlə bağlı çox ağırdır. O,"İşlədiyim müddətdə iki dəfə quldurlar tərəfindən az qala öldürülürdüm" (20, s. 982) etirafını da edib. Tədqiqatlarına gəlincə isə "Rusiyada ilk dəfə olaraq ümumi tədqiqat metodunu tətbiq etdiyini" bildirib. Ancaq "ümumi tədqiqat metodu" deyəndə nəyi nəzərdə tutduğu məlum deyil.V.A.Skinder 1905-ci ildə Gəncədən Çovdara qədər ərazidə 7 kurqan qazıb. Onların bəziləri əvvəllər Q.O.Rozendorf tərəfindən tədqiq olunmuş torpaq qəbirlərdir (4 və 6 №li qəbirlər). O, Çovdar kəndi ərazisində qazdığı ilk qəbrin 7 böyük daşdan hörüldüyünü, daxilində saxsı fraqmentlərinə və üzərində dişlər qalmış insanın alt çənə sümüyünə rast gəldiyini qeyd edib (30, s. 19). Növbəti daş qutudan danışarkən o, burada böyük bir qəbirstanlıq olmasından xəbər verib. Bu qəbirdən tunc bilərzik, qara saxsı məmulatı və obsidian ox ucluğu götürülüb. Tədqiqatçı qeyd edir ki, bu qəbirlər onu sübut edir ki, Gəncədən Çovdara qədər ərazi insanların daimi yaşayış məskəni olub (30, s. 20). V.A.Skinder Çovdar kəndi ərazisində 2, ona yaxın ərazilərdə isə 7 daş qutunun tədqiqinə dair hesabatını və aşkarlanan artefaktların siyahısını İAK-a təqdim edib. Müəllif qəbir hədiyyələrinə əsasən daş qutu qəbirlərin qadın və kişi individuala məxsus olması mülahizələrini irəli sürüb. Məsələn,bir tərəfdən xəncər aşkarlanan 2 və 5№-li qəbirlərin kişiyə məxsus olduğunu, digər tərəfdən isə sırğa, üzük, bilərzik əldə olunmuş 3 və 8 №-li qəbirlərin qadınlara məxsus olduğunu qeyd edib. Əldə olunan qara keramikanı isə qaranlıq dünya ilə əlaqələndirib. Lakin sonrakı tədqiqatlar, xüsusilə, Göygöl rayonu ərazisindən tapılan qara keramika onun yuxarıdakı fikrini təsdiqləməyib və bu qabların əsasən təsərrüfatda daha çox istifadə olunması nəticəsinə gəlinib (19, s. 15). O, qablardakı ornamentlərin Assuriya ilə əlaqəli olduğunu qəbul etməmiş və bunun sadəcə formal xarakter daşıdığını qeyd etmişdir. Belə ki, Skinder əldə olunmuş materialları Yaxın Şərq və skiflərlə əlaqələndirib, hətta Xocalı Gədəbəy mədəniyyətinə aid edilən bu materialları hetlərin arxeoloji materialları ilə müqayisə edib. Bundan əlavə maraqlı məqamlardan biri odur ki, o, əldə etdiyi tunc əşyaların "elektrolitik analizləri"nin aparılması və komissiyadan analizlərin aparılmasına görə lazım olan platin qabların alınması üçün ona 80-100 rubl göndərilməsini xahiş edib (34, s. 714). İAK 1906-ci ildə Skinderə yenidən qazıntı aparmaq üçün icazə verəndə, ona analizlər üçün pul göndərməkdən imtina edib. Lakin o, sonradan hətta Yelizavetpol ərazisindən aşkarladığı bir çox metallar üzərində analizlər aparmış (30, 31, 32), onların mənşəyi ilə bağlı fikirlər irəli

sürmüşdür. V.A.Skinderdən sonra Çovdarda aparılan arxeoloji qazıntılar bir müddət dayanmışdır.

Bununla belə istər Rusiya İmperiyası tərkibində olan digər ölkələr, istərsə də Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar əsasında İAK tərəfindən böyük miqdarda materialın toplanması nəticəsində 1859-1918-ci illər ərzində üç müxtəlif adla 37, 46, 66 cilddə arxeoloji hesabatlar nəşr olunub. Komissiya 1919-cu ildə funksiyalarının yeni təşkil edilmiş Rusiya Maddi Mədəniyyət Tarixi Akademiyasına verilməsi ilə ləğv edilib. Moskva arxeoloji cəmiyyəti isə 1923-cü ildən sonra bir çox sahələrinin bağlanması nəticəsində genişmiqyaslı qazıntılar aparmaq səlahiyyətlərindən məhrum edilib. Bu hadisələrlə eyni dövrdə Qoşqarçay və Gəncəçay ərazisinə göndərilən növbəti ekspedisiya Ter Qukasovun rəhbərliyi altında baş tutub (15). O, Çovdarın qeyri milli tədqiqatçılarının siyahısında sonuncu şəxs idi. V.T.Qukasov AXC yaranmamışdan əvvəl, 1908-ci ildən müxtəlif ərazilərdə çöl tədqiqat işləri aparıb. Onun apardığı qazıntılar haqqında hesabatlara demək olar ki, rast gəlinmir. Ancaq onun MATM-nin arxivində qorunmaqda olan 8 səhifəlik əlyazmasından Gəncənin 35 verstliyində yerləşən Çovdarın 3 hissəsində qazıntılar aparması məlum olur (15). İlk olaraq kurqan (bu say etibarilə V.T.Qukasovun Daşkəsən ərazisindəki qazıntı apardığı dördüncü kurqandır) qazıb. Onun kamerasında aşkarlanan skeletin başı qərb istiqamətində qoyulub. Skeletin qəbir hədiyyələri baş bəzəyi, 2 ədəd sırğa, baş pilәkləri, muncuqlar, düymələr,bilərzik, orta ölçülü saxsı məmulatından ibarətdir (15, s. 5). İndividualın qadına məxsus olduğunu qeyd edən müəllif qəbir abidəsinin tunc dövrünə aid olması fikrini irəli sürüb. Növbəti qazıntı işlərini 1921-ci ilin iyun ayında "Qırmızı qaya" kurqanında aparıb. O, buradan bilərzik, muncuq, üzük, sinə bəzəkləri, sırğa və ox ucluğu tapıb (15, s. 6). Onun Daşkəsəndə apardığı qazıntı işlərinin nəticələrinə dair əldə etdiyi materiallar Milli Azərbaycan Tarixi Muzeyinin fondunda 1927-ci ildə yaradılmış inventar kitabında 67-ci saydan başlayaraq 28 inventar nömrəsi altında qeydə alınıb (1). Çovdar ərazisindəki kurqanlardan aşkarlanmış qəbir avadanlıqları bu kitabda № 67 (II kurqan), 71№ - 73№, 85№ - 95№ li inventar sırasında yer alıb. Bu materialların MATM-nin "Arxeoloji fond"unda saxlanması V.T.Qukasovun yox, onu ezamiyyəyə göndərən Dövlət Muzeyinin iradəsidir. Belə ki, yuxarıda adıları çəkilən şəxslər və o dövrdə Azərbaycan ərazisində tədqiqat aparan digər şəxslərin heç biri qazdıqları abidələri arxeoloji cəhətdən və tarixi aspektdən düzgün qiymətləndirə bilməyiblər və onların işlərində çatışmamazlıqlar çox idi. (19, s. 8). Bu şəxslərin əlyazma şəklində yazdığı hesabatların çoxu qorunmayıb. "Həvəskar alimlər" qazıntılardan əldə olunan nəticələr haqqında müfəssəl bir təhlil verməkdən çəkiniblər. V.A.Skinderin timsalında deyə bilərik ki, "Gəldikləri nəticələr"in bir çoxu faktlara əsaslanmadığından sonrakı dövrlərdə öz təsdiqini tapmayıb, materiallarla üst - üstə düşməməkdən başqa, həm də qərəzli idi. Məsələn V.A.Skinder qeyd edir ki, ən qədim tunc məmulatına akkad-şumerlərdə rast gəlirik. O zamanlar bütün xalqlar tunc və misi eyni adla isimləndiriblər, lakin Babilistanda misə "urudu", tunca "zabar" deyirdilər. Babillər protoarilər olub və onların da vətəni "bizim Ermənistandır" (29, s. 97). Mövcud olmayan bir ölkə haqqında "bizim" ifadəsini zikr edən Skinder hesab edir ki, Ermənistan Babil və Assuriyanın mis filizi mərkəzi, dünyanın zəngin mis rayonlarından biridir (29, s. 50). Hansı ki, o bu nəticəyə Azərbaycan ərazisindən əldə etdiyi metal məmulatları əsasında gəlib. Buna istinadən bildirib ki, Yelizavetpolda 67 mis yatağı var və ən vacibləri isə Gədəbəy mis yataqlarıdır (33, s. 93).

Onu da qeyd edək ki, bu zaman çərçivəsində əldə olunan bir çox artefaktların sonrakı taleyi məlum deyil. Məsələn E.A.Resler Moskva Antropoloji Cəmiyyətinin üzvü A.A.İvanovskinin qazıntılarını, onun qazma metodlarını tənqid edib. Bunun qarşılığında A.A.İvanovski də E.A.Reslerin qazıntı aparmaq hüququ olmadığını və əldə etdiyi materialları Virxovun əli ilə xaricə göndərməsini ittiham edib (20, s. 1034). O zaman hökümət tərəfindən A.A.İvanovskinin fikirləri dəstəklənib və E.A.Reslerə Virxovla işləmək qadağan olunub. Təbii ki, bu prossesin kökündə heç də materiallara hörmət, yerli xalqların tarixinə sayğı prinsipləri dayanmırdı. "Toqquşmalar" "Açıq Vərəqlər"in verilməsi uğrunda mübarizəsi deyil, həm də Qafqazın elmi tədqiqində öz prioritetini əldə saxlamaq istəyinə əsaslanıb. Qafqaz ərazisindən aşkarlanmış

60-a yaxın tunc kəmərin yalnız ikisinin Rusiyada, qalanlarının isə Berlində olduğu müəyyən edilib (20, s 1038). Ancaq sonra məlum olub ki, həm kəmərlər, həm də bir çox başqa tunc məmulatları Yelizavetpol quberniyasının Gədəbəy mis əritmə zavodunun elektrik montyoru və kimyaçısı V.Belk tərəfindən çıxarılaraq Berlinə göndərilib. Ümumilikdə, 1888-1890-cı illərdə Belk tərəfindən 300-dən çox daş qutu qazılıb, onlardan bir sıra bütöv tunc kəmərlər R.Virxova təhvil verilib. R.Virxov isə kəmərlərin xülasəsinə E.A.Reslerin məruzəsindən xəbərdar olduğu materialları daxil edib. Onu da qeyd edək ki, Azərbaycan ərazisindən əldə olunan arxeoloji materiallara bu qədər "həvəs" göstərən R.Virxov tarixi və müxtəlif dilləri bilməklə yanaşı həm də tibb işçisi idi. O, "Berlin Antropologiya, Etnologiya və Prehistorya Cəmiyyəti"nin (indiki versiya: BGAEU) həmtəsisçisi olmaqla bərabər 1856-ci ildə Berlində ilk dəfə Patoloji Anatomiya, Patofiziologiya kafedrasını yaradıb. O, əsasən Hind-Avropalıların Qafqaz ərazilərindən olduğu güman edilən bir dövrdə bütün fürsətləri dəyərləndirməyə çalışıb və Azərbaycan və ya Qafqaz ərazisindən daşınıb aparılan skelet nümunələrinin üzərində tədqiqat aparmağa çalışıb (35, s. 54).

Beləliklə, XIX əsrin sonu- XX əsrin əvvəllərində Çovdar ərazisində aparılan qazıntılar sistemsiz və dağıdıcı xarakterli olduğundan bir çox məsələlər qaranlıq qalır. Məsələn qəbirlərin istiqamətləri və giriş qapıları haqqında məlumat azlıq təşkil edir. Kamerada aşkarlanan skeletlərin vəziyyəti və istiqaməti ilə bağlı məlumatlar demək olar yoxdur. Bununla belə həm V.A.Skinder, həm Q.O.Rozenderf, həm də V.T.Qukasov daş qutu qəbirləri aşkarlanan materiallara görə qadın və kişi qəbirləri olmasını ehtimal ediblər. Arxeoloji artefaktlar isə Xocalı Gədəbəy mədəniyyətinin xarakterik xüsusiyyətlərini daşıyan bəzək nümunələri, geyim aksesuarları, müxtəlif təyinatlı saxsı məmulatı və silahlardan ibarətdir. Abidənin strukturu isə demək olar ki, hər üçünün tədqiqatında eyniformada müşahidə olunub.Yan tərəfləri və üzəri böyük çay daşlarından hörülən abidəni bərkitmək üçün xırda və orta ölçülü daşlardan da istifadə olunub. Dəfn prossesi kameranın döşəməsində həyata keçirilib və təkdəfnli mərasim icra olunub.

Çovdar ərazisində daş qutu qəbir və kurqan abidələrinin olması ilə bağlı sonrakı məlumata Nalçaqarov S.L –in Daşkəsənin Bayan kəndində apardığı arxeoloji qazıntıların hesabatlarında rast gəlirik. Lakin o, Çovdarda çöl tədqiqat işləri aparmayıb (13, s 232).

Nəhayət Azərbaycan tarixinin öyrənilməsində irəli sürülən konsepsiyaların mətni dəyişməyə başladı. Belə ki, 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti yarandı və mədəni quruculuqlara başlandı. 1919-cu ildə İstiqlal muzeyi, 1920-ci ildə isə muzeyin bazasında Azərbaycan Dövlət Muzeyi yaradılıb (9, s. 5). Onun tərkibində "Qədim Abidələrin Mühafizəsi Komissiyası" fəaliyyət göstərməyə başlayıb . Məqsəd isə maddi mədəniyyətimizin oğurlanması, xaricə daşınması, nəticədə böyük bir tarixin talanmasına son qoymaqdan ibarət idi. Bununla da Azərbaycan ərazisindəki qazıntılardan əldə olunan maddi mədəniyyət nümunələrini toplayan müəssisələr qismən milliləşdi. Dövlət Muzeyinin rəhbəri Davud bəy Şərifov Azərbaycan tarixinin öyrənilməsində müstəsna xidmətlərə malikdir. O, Çovdarda arxeoloji qazıntılar aparan ilk milli mütəxəssisdir (28).

Ədəbiyyat

1. AMEA MATM arxeologiya fondunun materialları: inv. № 67/ 1422-97/ 1443.
2. Azərbaycan Sovet Ensiklopediyasi / tər. ed C.B.Quliyev. -Bakı, Cild X. -1987, 608 s.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti / tər. ed. Rübabə Əliyeva. Bakı: Şərq-Qərb, I cild. - 2007,- 299 s.
4. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / red. Vasif Quliyev; ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi: Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Şuşa -2000, -576 s.
5. Morqan, J. D. Arxeoloji tədqiqatlar 1890 / J.D.Morqan. Paris-1896. Bakı-2023, -159 s
6. Nərimanov, İ. Gəncəçay rayonunun arxeoloji abidələri/ İ.Nərimanov. Bakı: "Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı". -1958, -143 s.
7. Osmanlı sənədlərində Qarabağ. Layihənin rəhbəri və ön sözün müəllifi Yaqub Mahmudov; Azərbaycan dilinə tərcüməedən və

çapa hazırlayan: Telli Qorxmaz. Bakı: Şərq-Qərb,- 2011, -616 s.
8. Sobulu, Ə. Rusiya İşğalları və Zəngilan (1930-1993) / Əli Sobulu. Bakı: "Avropa" nəşriyyatı -2013,- 575 s
9. Vəlixanlı, N. Tarixi mədəni irsimizi qoruyan məbəd // Azərbaycan Milli Tarixi Muzeyi – 2020, -Bakı:.- "Elm və təhsil", -2020,- 504 s.
10. İlgaz, S. Osmanli Hâkimiyetinde Revan (Çukur Sa'ad) (XVI –XVIII Yüzyıllar arasında Sosyo-Ekonomik Tarih): / Doktora Tezi/- Erzurum, -2010, -321 s
11. Sümer, F. Oğuzlar (Türkmenler) tarihleri/ -boy teşkilatı - destanları. İkinci baskı. Ankara: -"Ankara Üniversitesi basımevi", -1972, -574 s
12. Hillman, G. "On the Origins of Domestic rye: Secale Cereale: The Finds from Aceramic Can Hasan III in Turkey". Anatolian studies. Vol 28: -1978.157–174 c
13. Берцелиус- Налчагаров, С.Л. Раскопки в окрестностях сел. Баян Ганжинского уезда (лето 1925) // - Известия Азкомстариса, Баку: -1929. -вып. 4, тетрадь 2, -325 с
14. Городцов, В. А. Бытовая археология: (Курс лекций, читанный в Московском археологическом институте). М.: Московский археологический институт, 1910, - 424 с
15. Гукасов, В.Т. Отчет о Раскопках в Ганджинском и Шамхорском уездах // AMEA MATM Elmi Arxivi, İnv № 36,-1921 г. лист 8.
16. Длужневская, Г.В. Изучение археологических и архитектурных памятников в Закавказье и на Северном Кавказе // Археологические исследования в Европейской части России и на Кавказе в 1859-1919 годах (по документам Научного архива Института истории материальной культуры РАН). Длужневская. Г.В, - Санкт Петербург: -295 с
17. Ивановский, А.А. Материалы по Археологии Кавказа /-Москва: - 1911. Вып.VI, - 217 с
18. Кесаманлы, Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района /Г.П. Кесаманлы, - Баку: Агридаг, -1999. -179 с.
19. Минкевич-Мустафаева, Н.В. Ходжалы-Кедабекская археологическая культура: Автореф/ на соискание учст.канд. ист. наук/- Баку, -1961, -338 с
20. Рысин, М.Б., Императорская Археологическая Комиссия исследование Памятников Кавказа и ПредКавказья // Приложение Императорская Археологическая Комиссия (1859-1917). Стеганцева. В.Я. - Санкт-Петербург: "Невская Типография", - 2019. Том 2. -1613 с
21. Реслер, Э.А. Археологический ислодевания Э.А.Реслера вы Елизаветпольной губ.вы 1901 году // Известия Императорской Археологической Коммиссии. - Санкт-Петербургъ: - 1905. вып 16.- 123 с
22. Реслер, Э.А. Археологический ислодевания Э.А.Реслера вы Елизаветпольной губ.вы 1901 году // Известия императорской Археологической Коммиссии. - Санкт-Петербургъ: 1904. вып 12. -128 с
23. Реслер, Э.А. Раскопки Елизаветпольская губерния // Отчеть Императорской Археологической Коммиссии за 1901. - Санкт-Петербургъ: "Типографиа главнаго управления уделовь. Моховая", -1903. № 40, -198 с
24. Реслер, Э.А. Раскопки Елизаветпольская губерния // Отчеть Императорской Археологической Коммиссии за 1902. - Санкт-Петербургъ: "Типографиа главнаго управления уделовь. Моховая", № 40. -1904.-199 с
25. Реслер, Э.А. Раскопки Елизаветпольская губерния // Отчеть Императорской Археологической Коммиссии за 1903. - Санкт-Петербургъ: "Типографиа главнаго управления уделовь. Моховая", -1906. № 40, -374 с
26. Реслер, Э.А. Раскопки Елизаветпольская губерния // Отчеть Императорской Археологической Коммиссии за 1904 - Санкт-Петербургъ: "Типографиа главнаго управления уделовь. Моховая",-1907. № 40, -186 с
27. Розендорф, Г.О. Раскопки Елизаветпольская губерния // Отчетъ Императорской Археологической Коммиссии за

1903 годъ, -Санкт-Петербургъ: “Типография главнаго управления уделовь. Моховая”, -1906, -374 с.
28. Шарифов, Д.М. Раскопки близ с. Човдар Ганджинского уезда // - Известия Азкомстариса, Баку: -1929. -вып. 4, тетрадь 2, -325 с
29. Скиндерь, В.А. Бронза её природа и история с древнейших времени / В.А. Скиндерь. - Санкт-Петербургъ: - 1908, -101 с
30. Скиндерь, В.А. Раскопки вы Чавдар // Опыть Археологической разведки Пятигорокь. Типо-литография А.П.Нагорова, -1906,- 32 с
31. Скиндерь, В.А Химико-физическое исследование древных бронз // Известия Кавказскаго Музея. Том III. -1907-08
32. Скиндерь, В.А Химическое изледование древнихъ бронзъ из раскопок в Елизаветпольской губерние / В.А . Скиндерь .-Санкт-петербургъ: - № 12. -1908.
33. Скиндерь, В.А. Протоевропеець и протоариець / В.А. Скиндерь. С.Петербургъ:- Издание А.Н.Заруднаго.- 1907,-100 с
34. Стеганцева, В.Я. Приложение Императорская Археологическая Комиссия (1859-1917) // Рысин. М.Б. “ИмператорскаяАрхеологическая Комиссия и исследование памятников Кавказа и ПредКавказья”. С. Петербургъ:-2009,-Том 1.-1192 с
35. Virchow, R. Leben und Schaffen eines Reformators der Medizin // Gehalten im Rahmen der öffentlichen Vorträge der Universität Bießen am 21. November 1940. Vortrag

Резюме

Лола Гусейнова

История изучения археологических памятников Човдарской территории (этап 1, 1903-1921 гг.)

В статье говорится о начале и продолжении археологических раскопок, проводимых на территории села Човдар Дашкесана, также о комплексном изучении связанной с ними научной литературы. В ходе исследования стало известно, что Розендорф и Скиндер, командированные в Човдар Российской империей, проводили полевые исследования в основном занимались памятниками, имеющими характерные черты Ходжалинской Кедабекской культуры. По скрытым намерениям институтов ИАК, МАО и европейских неспециалистов внутри Российской империи история Азербайджана была перенесена за пределы страны для различных целей. В статье была предпринята попытка их прояснить. Кроме того, в отличие от авторов, которые до сегодняшнего дня рассказывают об исследованиях Эмилем Реслером, в данной исследовательской работе утверждается, что он вообще не проводил раскопок в Човдаре. Раскопки, проводившиеся Российской Империей в районе села Човдар, начались в 1903 году с Розендорфа и были продолжены Скиндером. исследования в Човдаре продолжили отечественные специалисты, сначала под руководством директора Государственного музея истории Азербайджана Давуд беком Шарифовом, а затем и другими.

Ключевые слова: *Човдар, Ходжалы-Гедабекская культура, археологические раскопки, курган, каменныеящики*

Summary

Lola Huseynova

History of the study of archaeological monuments in the territory of Chovdar (PHASE 1, 1903-1921)

The article talks about the initiation and continuation of archaeological excavations in the territory of Chowdar village of Dashkasan, as well as a comprehensive study of scientific literature related to them. During the research, it became known that Rozendorf and Skinder, who were sent to Chovdar by the Russian Empire, conducted field research and mainly the monuments bearing the characteristic features of Khojaly Gadabey culture were involved in the research. In the invisible intentions of the HAC, MAC institutionswithin the Russian Empire and European non-specialists, the history lying in the lands of Azerbaijan was transported beyond the borders of the country for various purposes. In addition, unlike the authors who talk about Emil Resler's studies of Chovdar until today, in this research work it is claimed that he did not conduct excavations in Chovdar at all. Excavations conducted by the Russian Empire in the area of Chovdar village began in 1903 with Rozendorf and were continued by Skinder. After, research in Chovdar was continued by national experts, first under the leadership of the director of the State Museum, Davud Bey Sharifov

Keywords: *Chovdar, Khojaly-Gadabey culture, archaeological excavations, kurgan, stone box grave*

Xəritə 1. Çovdar kəndi ərazisi

Qukasov V.T tərəfindən Çovdardan əldə olunmuş materiallar.Milli Azərbaycan tarixinin "Arxeologiya Elmi Fond "şöbəsinin materialları. (ilk dəfə nəşr olunur)

Rrozendorf. Q.O tərəfindən Çovdardan əldə olunmuş materiallar. İmperator Arxeoloji Komissiyanın hesabatlarından

UOT 902
https://doi.org/10.59849/2710-0820.2024.1.211

Наджаф Мусеибли
д.и.н., профессор, зав. отделом,
Институт археологии и антропологии НАНА
Азербайджан
necef_museibli@mail.ru

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ В ЧАГРЫТЕПЕ: НЕКОТОРЫЕ ВОПРОСЫ ПРОБЛЕМЫ ПРОИСХОЖДЕНИЯ РАННЕЗЕМЛЕДЕЛЬЧЕСКОГО НЕОЛИТА В БАССЕЙНЕ СРЕДНЕЙ КУРЫ

***Ключевые слова**: мезолит, неолит, раннее земледелие, микроорудия, обсидиан, кремень, поселение, стоянка.*

Введение. Одной из научных проблем, которую до сих пор не смогла решить азербайджанская археологическая наука, является возникновение раннеземледельческой культуры, ее происхождение, переход от периода мезолита / раннего, докерамического неолита к периоду керамического неолита, а также определение преемственности между этими периодами. С 1950-х гг. памятники неолитической земледельческой культуры в Азербайджане систематически изучаются, но во всех случаях обнаружена лишь развитая стадия этой культуры [8, с. 126; 2]. Вопрос о ее происхождении не решен не только в Азербайджане, но и на Южном Кавказе в целом. Раскопки, проведенные за последние 15 лет на памятниках периода неолита в регионе, особенно на поселении Гасансу, позволяют нам предполагать, что существуют определенные признаки периода докерамического неолита в этой зоне [7], хотя убедительные, не опровергаемые факты по этому вопросу пока неизвестны. Сравнение археологических материалов поселений раннего земледельческо-скотоводческого населения и стоянок охотников-собирателей того же периода (рис. 1) привело к интересным результатам.

Рис. 1. Карта Азербайджана с указанием местоположения рассматриваемых поселений: 1 – Чагрытепе, 2 – Шомутепе, 3 – Гасансу, 4 – Дамджылы, 5 – Гобустан, 6 – Османтепе, 7 – Кюльтепе.

Fig. 1. Map of Azerbaijan showing the location of the settlements under consideration: 1 – Chagritepe, 2 – Shomutepe, 3 – Hasansu, 4 – Damjili, 5 – Gobustan, 6 – Osmantepe, 7 – Kultepe.

С этой точки зрения интересно поселение Чагрытепе в Агстафинском районе, и выбор этого памятника не случаен. Этот памятник, принадлежащий шомутепинской культуре периода неолита, расположен на высоте 323 м над уровнем моря, к востоку от села Хатаи Агстафинского района. Холм площадью около 1 га (110х80 м) и высотой около 3 м со всех сторон окружен посевными полями (рис. 2, *1*). В 2013 г. в Чагрытепе были проведены разведочные раскопки, и обнаруженные остатки материальной культуры показали, что существуют определенные возможности для исследования упомянутой научной проблемы.

Рис. 2. Поселение Чагрытепе: *1* – общий вид с севера; *2* – остатки постройки № 1, *3* – остатки постройки № 10, *4* – остатки постройки № 13.

Fig. 2. Chagritepe settlement: *1* – general view from the north; *2* – remains of building No. 1; *3* – remains of building No. 10; *4* – remains of building No. 13.

Общие сведения о раскопках. В 2020 г. на поселении Чагрытепе начались масштабные раскопки. Для этого был выбран участок площадью 253 м² на восточном склоне холма. В течение четырех сезонов 2020-2023 гг. раскопки проводились на разную глубину в отдельных квадратах раскопа. Было раскопано более половины культурного слоя, и к настоящему времени установлено, что на поселении выделяются два строительных горизонта, сменяющих друг друга. Раскопки были доведены до 2 м глубины в кв. 1A и кв. 1B по направлению к центру холма, а в кв. 4A и кв. 4B у подножия на глубине 1,7 м холма был зафиксирован материк. На этих последних квадратах не было обнаружено никаких строительных остатков. Компактно собранные (иногда более 20) отщепы обсидиана, очевидно, представляющие отходы производства, были найдены в трех местах на разных уровнях раскопочного участка.



Рис. 3. Поселение Чагрытепе. План раскопа. Строительные остатки I и II горизонтов.
Fig. 3. Chagritepe settlement. Excavation plan. Construction remains of horizons I and II.

Все обнаруженные постройки имеют круглый, в редких случаях и овальный план (рис. 2, *2-4*, 3). Они были сооружены из одного ряда сырцового кирпича. Постройка № 1 сохранилась на высоту 60-70 см, а остальные постройки – на высоту 20-30 см. Полностью раскрыты строения верхней толщи культурного слоя – I-го строительного горизонта. Размер использованных при строительстве кирпичей составляет 46х15х8-9 см, 40х18х6 см и близкие размеры. Однако есть исключения. Так, постройка № 12, открытая на глубине ок. 1,6 м в кв. 1А, принадлежащем II-ом строительному горизонту, построена из кирпича размерами 24х20х5 см и 20х18х5 см. Как правило, кирпичи, используемые при строительстве всех зданий, слегка изогнутые по форме, что связано с круговым планом зданий. При сооружении некоторых хозяйственных ям верхнего горизонта также использовался сырцовый кирпич. По мере углубления была обнаружена и серия построек II-го горизонта, которые пока не полностью и не на всех участках исследованы. Но отмечу, что постройки этого горизонта более плотные и относительно лучшей сохранности.

Наиболее крупным строением II-го горизонта является постройка № 13 (рис. 2, *3*, 3), зафиксированная на глубине 1,6 м в кв. 2А. Половина постройки уходит в южный борт раскопа. Диаметр строения составляет 4 м.

На пересечении кв. 3А и кв. 3В были выявлены остатки крупной, диаметром 3,8 м, постройки № 10, также относящейся ко II-му горизонту. С южной стороны строения расположен входной проем шириной 60 см (рис. 2, 3). Примечательно, что постройки II-го горизонта крупнее построек верхнего I-го горизонта. Комплекс таких круглых построек, представляющих собой остатки жилищ, расположенных весьма плотно, примыкающих друг к другу, с хозяйственные ямы между ними, вероятно, принадлежал одной большой семье. К настоящему времени в горизонтах I и II обнаружены остатки более 20 построек разного размера (рис. 3).

На различных участках раскопа, в верхнем слое, до глубины 40-50 см, иногда встречаются фрагменты средневековой керамики, относящиеся к VIII-X вв. Но в кв. 3В до глубины 1,8 м, наряду с неолитическими находками, интенсивно обнаруживалась средневековая керамика: по всей видимости, в средние века здесь была вырыта полуземлянка, следы в культурном слое не были прослежены, но были зафиксированы остатки истлевшего деревянного столба, очевидно, использовавшегося для перекрытия землянки.

Археологические материалы неолитического периода, обнаруженные в раскопе, представляют собой орудия труда из разных видов камня, кремня, обсидиана и кости. Материалы обоих горизонтов идентичны.

Каменные изделия. При раскопках были обнаружены зернотерки удлиненной формы разного размера (рис. 4, 1). Сделаны они из пористого темно-серого камня, в средней часть имеют прогиб в результате длительного использования. В соседних кв. 1В и кв. 2В было обнаружено 3 крупных зернотерки, обломанные посередине. На рабочей поверхности одной из них прослежены следы охры, что может указывать на ее использование для растирания минерала. Также были обнаружены и терочники, один из которых был найден вместе с зернотеркой.

Орудия из речных камней представляют собой преимущественно терочники разных типов (рис. 4, *2, 3*). Для этого выбирали преимущественно плоскоовальные камни, иногда использовали удлиненные камни. Поверхность их несет следы использования.

Рис. 4. Каменные и костяные орудия. 1-4, 6 – Чагрытепе; 5 – Гобустан
Fig. 4. Stone and bone tools. 1-4, 6 – Chagritepe; 5 – Gobustan

В редких случаях встречаются и орудия типа *чоппер* из речного камня (рис. 4, *4*). Одним из таких орудий является толстый речной камень овальной формы. Рабочая часть орудия, расположенная на одном из краев камня, оформлена сколами, нанесенными с двух сторон. Поверхность этого орудия покрыта белой патиной. Близкий аналог этого орудия (рис. 4, *5*) известен из стоянки Аназага в Гобустане [1, рис. 5, *6*].

В редких случаях встречаются небольшие *топоровидные* (клиновидные) орудия из речных камней (рис. 5, *1, 2*). Конец их толстой верхней части плоский. Вся поверхность от нижней половины до рабочей части отполирована. На таких орудиях, утончающихся к рабочему концу, сохранились следы использования. Такие инструменты, видимо, использовались в необъемных работах.



Рис. 5. Поселение Чагрытепе. 1, 2 – каменные топоры; 3 – заготовка для навершия булавы.
Fig. 5. Chagritepe settlement. 1, 2 – stone axes; 3 – macehead preparation.

Среди интересных находок можно отметить уплощенно-сферический камень (рис. 5, *3*), диаметром 6,5 см, высотой 4 см, вероятно, представляющий заготовку для изготовления *навершия булавы* без просверленного по центру отверстия. Он имеет симметричную биконическую форму, верхняя часть имеет гладкую плоскую поверхность. Выравнивание и заглаживание нижней плоскости не завершено. Каменные булавы типичны для неолитических памятников региона.

Одной из интересных находок является *антропоморфная каменная фигура* (рис. 6, 1). Она была обнаружена, в северо-западном углу кв. 1В на отметке -1,4 м от 0 внутри глубокого очага, заполненного пеплом. Высота фигурки 29,5 см, толщина 3,5-3,8 см, максимальная ширина 9 см. Фигура плоско-продолговатая, выполнена из серого речного камня, специально подобранного по естественной форме. На камне присутствуют естественные синие вкрапления, что делает внешний вид камня привлекательным. Поверхность камня гладкая, тщательно отполированная, но в разных местах имеются сколы. Одна сторона камня ровная и плоская, противоположная – немного выпуклая в центральной части. Один конец камня, вероятно, был специально обломан и затем

немного заглажен. В верхней, «головной» части, сделана выемка. В целом, незначительными работами камню был придан абстрактный антропоморфный вид.

Интересно отметить, что очаг, в котором была обнаружена упомянутая антропоморфная фигура, очевидно, имевшая какое-то культовое назначение и использовавшаяся в религиозно-обрядовых целях, располагался в середине крупной постройки № 11 овальной формы II-го строительного горизонта. Кроме того, в площади строения был найден также каменный предмет с углублением, внутри которого заметны отложения копоти и следы огня, указывающие на его возможное использование в качестве светильника. Можно полагать, что это частично вскрытое строение представляет остатки святилища.



Рис. 6. Антропоморфные изображения: 1, 6 – Чагрытепе; 2 – Небра (Германия); 5 – Гобустан; 3 – Шомутепе; 4 – Арухло.

Fig. 6. Anthropomorphic images: 1, 6 – Chagritepe; 2 – Nebra (Germany); 5 – Gobustan; 3 – Shomutepe; 4 – Arukhlo.

Нам не известны прямые аналогии этой антропоморфной фигуры, обнаруженной в Чагрытепе. Фигурки такой же конфигурации, но меньшего размера, выполненные из кости (рис. 6, *2*), известны из позднепалеолитической стоянки Небра в Германии [10, с. 18-19]. Подобные антропоморфные фигурки, но изготовленные из глины, обнаружены на синхронных памятниках бассейна Средней Куры – на таких поселениях, как Гаргалартепеси (рис. 6, *3*), Арухло (рис. 6, *4*) [9, рис. 28; 13, с. 273]. Кроме того, среди петроглифов Гобустана, относящихся к эпохе мезолита и неолита [5], можно встретить профильные изображения женщин (рис. 6, *5*), форма которых очень близка к фигурке из Чагрытепе. В целом подобные фигурки характерны для эпох неолита и халколита Южного Кавказа, Ближнего и Среднего Востока [6; 2; 14, с. 59-60].

Обращает на себя внимание и удлиненное орудие для размола (пест) из серого речного камня длиной 19 см (рис. 6, *6*). Вся поверхность этого камня тщательно отшлифована. Одна сторона толще другой. В толстой части одна сторона выпуклая, а противоположная слегка вдавленная. В результате такого сглаживания и обработки форма камня приобрела слегка S-образную форму. В результате использования концы стали обитыми, немного плоскими. Этот камень, отличающийся от традиционных пестов, своей общей формой также немного напоминает антропоморфную фигуру.

Основную часть находок составляют обсидиановые и кремневые орудия. Количество кремневых орудий невелико, а количество обсидиановых орудий исчисляется сотнями. Кроме того, были обнаружены многочисленные отходы производства. Орудия изготовлены на пластинах и отщепах разного размера. Больше всего обнаружено скребков. Крупные пластины встречаются редко. Интерес представляют лишь три сравнительно крупные пластины, найденные в кв. 3А. Две из них – пластины из прозрачного обсидиана. Обе стороны их были ретушированы и использовались как скребок и скобель. Третья пластина полупрозрачная, серебристого цвета.

Среди обсидиановых изделий количество орудий на отщепах достаточно большое, и по этому показателю Чагрытепе отличается от других неолитических памятников региона. Типологически эти орудия преимущественно представляют скребки и скобели. Кроме того, присутствуют орудия типа резца, стамески, долотовидные и др. Значительно количество таких полифункциональных орудий. Пластины ретушированы с двух сторон. Как правило, если правая сторона пластины ретуширована с дорсаля, то левая сторона ретуширована с вентрала. И пластины, и отшепы, из которых были изготовлены орудия, меньшего размера, чем на других памятниках.

Некоторые из режущих инструментов представляют собой *микроорудия* из обсидиана (рис. 7). Это мелкие пластинки и отщепы, на которых посредством мелкой обработки оформлены боковой скребок, концевой скребок, острие, стамеска, скобели и др. типы орудий. Хотя микроорудия в основном однофункциональные, имеются и многофункциональные орудия. Некоторые микроорудия имеют маленький выступ-«рукоять» (рис. 7, *7, 8*). На одной пластинке небольшого размера сделаны боковые выемки (рис. 7, *10*). Выделяется и тонкая длинная пластинка в виде иглы-проколки (рис. 7, *13*).



Рис. 7. Поселение Чагрытепе. Обсидиановые орудия из Чагрытепе.

Fig. 7. Chagritepe settlement. Obsidian tools.

Особо следует отметить находку крупного конусовидного *нуклеуса* из темного полосчатого обсидиана (рис. 8, *1*), обнаруженного в юго-западной части кв. 2А, на глубине 1,5 м от 0. Нуклеус лежал in situ вертикально, прислоненный к стене постройки и укрепленный в основании по краям глинобитом. На нем видны негативы снятых длинных пластин. Но собственно такие пластины в раскопе не обнаружены. Высота нуклеуса 18 см, диаметр ударной площадки 15,5 см. Крупные нуклеусы были обнаружены и на других памятниках эпохи неолита (Шомутепе, Гаргалартепси, Геойтепе и др.).

На поселении Акнашен-Хатунарх эпохи неолита и энеолита в Армении обнаружено компактно несколько нуклеусов крупных размеров [11, рис. 3.2]. Но нам не известны находки нуклеусов крупнее, чем изделие, найденное в Чагрытепе.

Другую категорию каменных изделий составляют орудия из кремня. Большинство из них – вкладыши серпов (рис. 8, *2, 3*). На некоторых из них сохранились следы битума, с помощью который эти вкладыши закреплялись в обойме серпа. В отличие от других неолитических памятников региона, количество кремневых орудий в Чагрытепе относительно велико. Хотя из этого сырья, как и из обсидиана, изготавливали различные орудия, они не столь типологически разнообразны. Вкладыши серпов сделаны из пластинок, и, как правило, без применения дальнейшего усилия для придания им определенной формы. Только рабочие части пластин различной формы имеют ретушь или приострены с обеих сторон.



Рис. 8. Поселение Чагрытепе. 1 – обсидиановый нуклеус; 2, 3 – кремневые вкладыши серпов.

Fig. 8. Chagritepe settlement. 1 – obsidian nucleus; 2, 3 – flint sickle elements.

Обращают на себя внимание некоторые орудия *архаичного* облика. Это листовидные орудия типа острий из обсидиана и кремня (рис. 9). Их бока с обеих сторон, а иногда с одной стороны ретушированы. Среди таких орудий, прежде всего, следует упомянуть обсидиановую пластину, найденную в кв. 1В на отметке -1,4 м от 0. Эта пластина (рис. 9, *1*) имеет ретушь по всему периметру, что делает ее многофункциональным орудием. Боковые части ее изготовлены как скребки, верхний конец как острие, а нижний — как долотовидное орудие.



Рис. 9. Поселение Чагрытепе. Обсидиановые (1-4) и кремневые (5-7) орудия.

Fig. 9. Chagritepe settlement. Obsidian (1-4) and flint (5-7) tools.

В кв. 1A и кв. 1B на глубине 1,8-2,0 м были найдены еще два острия на обсидиановых пластинах. Верхняя половина одного из них (рис. 9, *3*) ретуширована с обеих сторон до острого конца; боковые части нижней половины углублены, что придает орудию вид наконечника стрелы. Другое орудие (рис. 9, *4*) сделано на толстой пластине. Острый конец оформлен резцовым сколом; нижний конец использовался в качестве стамески, а одна сторона – в качестве скребка.

В Чагрытепе из кремня изготавливались и орудия на листовидных пластинах. Большинство из них острия. Стоит отметить некоторые листовидные пластины. В кв. 1B на глубине 1,4 м вместе с упомянутой выше обсидиановой пластиной обнаружено орудие из светлого бежево-зеленоватого кремня (рис. 9, *5*). Боковые части и верхний конец пластины были мелко ретушированы и использовались как скребок и нож. Поверхность пластины покрыта местами белой патиной. В кв. 3A на глубине 0,6 м от 0 обнаружена белесо-красноватая трехгранная продолговатая пластина листовидной формы (рис. 9, *6*). Обе ее боковые стороны мелкой обработаны мелкой ретушью и орудия использовали, очевидно, в качестве ножа и острия. На конце пластины из светлого бежево-зеленоватого кремня (рис. 9, *7*), найденной на глубине 1,8 м в кв. 2A, путем мелкой ретуши и частичным скалыванием изготовлено острие.

Острия из обсидиана были найдены и на других памятниках шомутепинской культуры – на поселениях Шомутепе, Тойретепе, Гаргалартепеси [9, с. 100-102]. В Чагрытепе такие орудия изготовлялись как из обсидиана, так и из кремня. Близкие аналоги листообразных орудий типа острие из Чагрытепе встречаются среди кремневых изделий более древних памятников – стоянок Аназага и Кяниза периодов мезолита и раннего неолита Гобустана (IX-VII тыс. до н.э.) [17, рис. 170, *11-13*, рис. 179, *1-8*] но не повторяет их полностью. По данным радиоуглеродного анализа возраст стоянки Аназага определяется IX-VIII тыс. до н.э. [12, с. 81]. Эти находки дают основание думать, что традиции каменной индустрии периода мезолита в определенной степени сохранились в памятниках культуры Шомутепе, в том числе в Чагрытепе.

Костные изделия. В Чагрытепе обнаружены различные костяные орудия. Шилья встречаются больше всего (рис. 4, *6*). Шилья и проколки в количестве 7 шт. были обнаружены внутри постройки № 1 в кв. 1A. У трех из них была сломана верхняя эпифизная часть. Рабочие концы всех шильев хорошо отполированы в результате долгого использования. Одно из этих орудий наиболее интересно. Это узкий удлиненный, отполированный инструмент для прокалывания, по форме напоминающий карандаш (рис. 4, *6b*). Верхний конец слегка утончен путем обрезки – возможно, этим концом орудие крепилось к деревянной ручке. Еще одно шило в форме карандаша было найдено в кв. 1B на глубине 1,4 м.

Обсуждение. В последние 15 лет исследования памятников раннеземледельческого периода на Южном Кавказе, в т.ч. на территории Азербайджана, стали особенно интенсивными. Одной из основных целей этих исследований является установление происхождения раннеземледельческой керамической неолитической культуры. Хотя на основании многочисленных находок, обнаруженных в результате археологических раскопок, выдвигались определенные соображения, до сих пор эта проблема не решена полностью.

Известный исследователь памятников этого периода И.Г. Нариманов отмечал, что при раскопках обнаруживается уже относительно развитая стадия раннеземледельческой культуры, но он не привел никаких сведений о существовании слоев, отражающих ее происхождение. В то же время он отметил наличие на этих памятниках (Шомутепе, Гаргалартепеси, Бабадервиш и др.) архаичных каменных орудий. В целом появление земледелия и скотоводства на Южном Кавказе и, в частности, на территории Азербайджана И. Нариманов связывал с такими факторами как благоприятные природно-климатические и экологические условия, и близость, взаимосвязи с культурными очагами Передней Азии. В то же время он от-

мечал, что выявленная в долине р. Куры культура отражает сложившийся этап хозяйства раннеземледельческих племен Южного Кавказа [8, с. 126; 9, с. 4, 9]. Но исследователь не стал подробно анализировать вопрос происхождения этой культуры, т.к. не имел в своем распоряжении достаточного количества археологических фактов.

В последние годы в результате раскопок увеличилось количество находок, связанных с этой темой, и расширились научно-методические приемы ее решения. Следует отметить, что для решения научной проблемы сначала необходимо правильно ее определить. Исследователи иногда констатируют отсутствие памятников периода докерамического неолита в Азербайджане и, тем самым, допускают методологическую ошибку в исследовании проблемы. В действительности стоянки раннего, докерамического неолита были изучены в нескольких подскальных убежищах Гобустана (Кяниза, Фируз, Аназага и др.) и подскальном убежище Дамджылы в Газахском районе [18; 16]. Ранний неолит на этих стоянках тесно связан с предыдущими слоями мезолита и является их прямым продолжением. По этой причине исследователи считают обнаруженный в Дамджылы ранний неолит типично мезолитическим [16].

В стоянках Гобустана и Дамджылы мезолитический образ жизни, основанный на охоте и собирательстве, почти без изменений продолжился и в неолите. Ряд традиций в области изготовления каменных орудий эпохи мезолита сохранился и в период неолита. С этой точки зрения уровень жизни и экономика докерамического неолита Азербайджана и Южного Кавказа в целом сильно отставали от Ближнего Востока. И, по нашему мнению, существовавший в Азербайджане докерамический период неолита, основанный на охоте и собирательстве, был изучен в Гобустане и Дамджылы. Однако памятники периода неолита, основанные на земледелии и скотоводстве, в Азербайджане до сих пор не обнаружены. По ближневосточному периодизации этот период является этапом Б докерамического неолита [4, с. 31]. Основной целью раскопок, проводимых в Азербайджане в последние годы, является выявление и изучение памятников этого этапа.

Хотя раскопки на поселении Чагрытепе еще не завершены, ряд обнаруженных к настоящему времени архаичных каменных изделий позволяет сделать некоторые предположения по поводу этой поставленной проблемы. Интересно, что такие находки Чагрытепе частично близки к материалам памятников Гобустана, расположенных на сравнительно большом расстоянии от этого поселения – близ побережья Каспийского моря на востоке Азербайджана. С этой точки зрения, прежде всего, можно упомянуть микроорудия из обсидиана, обнаруженные в Чагрытепе. Подобные орудия из кремня широко использовались жителями Гобустана периодов мезолита и раннего неолита.

Большой интерес представляют обсидиановые и кремневые листовидные орудия, найденные в Чагрытепе. Большинство из них представляют собой орудии типа острие. Близкие аналоги этих орудий известны из мезолитических памятников Гобустана. Как уже говорилось, аналогичное орудие типа чоппера из речного камня, обнаруженное в Чагрытепе, известно из стоянки Аназага в Гобустане. Кроме того, обнаруженная в Чагрытепе антропоморфная фигура из речного камня стилистически напоминает женские силуэтные изображения мезолита и раннего неолита в петроглифах Гобустана.

Однако Чагрытепе и другие поселения шомутепинской культуры и памятники Гобустана географически расположены далеко друг от друга, в совершенно разных природно-климатических и геоморфологических условиях. В Гобустане, представляющем горно-скальный рельеф, в эпоху мезолита и неолита, в т.ч. в период шомутепинской культуры, т.е. в VI тыс. до н.э., люди, поселившиеся в естественных подскальных убежищах, занимались охотой, собирательством и рыболовством. Население же шомутепинской культуры заселившее равнины, открытые участки, плодородные земли в долинах рек, занималось земледелием и животноводством. Они жили в круглоплановых

домах, построенных из сырцового кирпича и частично из глинобита. Упомянутые каменные орудия Гобустана были изготовлены из кремня, тогда как орудия шомутепинской культуры изготовлялись преимущественно из обсидиана. В памятниках этой культуры кремень встречается в несравненно малом количестве по сравнению с обсидианом.

Дамджылы также представляет собой стоянку подскального убежищного типа в гористой местности мезолитического и неолитического периодов, обитатели которой занимались охотой и собирательством вследствие природно-географических условий. Здесь орудия в основном изготовлены из обсидиана. То есть стоянки Гобустана и Дамджылы типологически существенно отличаются от памятников шомутепинской культуры, расположенных на равнинной территории.

И.Г. Нариманов, сравнивая памятники Гобустана и Шомутепе, совершенно справедливо писал: «Возможно, что когда на плодородных землях Восточного Закавказья развивалась земледельческая культура, в районе Гобустана в силу природных условий еще жили охотничьи племена» [8, с. 126].

То же можно сказать и относительно стоянки Дамджылы и памятников шомутепинской культуры. По мнению исследователей, в стоянке Дамджылы тесно связаны периоды мезолита и неолита. По результатам радиоуглеродного анализа, эти периоды охватывают временной диапазон с середины VII тыс. до второй пол. VI тыс. до н.э. По мнению исследователей памятника, переход от мезолита к неолиту произошел в течение короткого промежутка времени [16, с. 3-12]. Ранее мы также считали, что Дамджылы – перспективный памятник для исследования происхождения шомутепинской культуры [15, с. 47].

Однако раскопки стоянки Дамджылы показали, что культура охотников-собирателей этого памятника, тесно сохранившая мезолитические традиции, была синхронна неолитическому периоду шомутепинской культуры, основанной на земледелии и скотоводстве, но отставала от нее в развитии и принципиально отличалась от нее. Тесно связанная между собой культура мезолита и неолита, зародившаяся в Дамджылы, продолжилась и закончилась на этом памятнике, не получив дальнейшего развития. То есть культура Дамджылы не была базой возникновения шомутепинской культуры, и перехода от Дамджылы к шомутепинской культуре не было. Резкие различия в орудийном наборе, в типе хозяйства обеих культур не предполагают такой связи. Конечно, не исключено, что на каком-то этапе определенная группа жителей Дамджылы присоединилась к земледельческому населению соседней шомутепинской культуры. Все эти рассуждения о стоянке Дамджылы можно отнести и к гобустанской культуре, охватывающей периоды мезолита и неолита.

В связи с обсуждаемой темой уместно упомянуть частично раскопанное (на площади 25 кв. м) поселение Османтепе, расположенное в Нахчыванской зоне на высоте 2400 м над уровнем моря. На этом памятнике обсидиановые изделия, в т.ч. микроорудия, представляют собой орудия мезолитического и ранненеолитического облика, следов земледелия и скотоводства не зафиксировано. Однако радиоуглеродный анализ показал, что жизнь на поселении продолжалась со второй четверти и до конца VI тыс. до н.э. (5735-5000 гг. до н. э.) [3].

Как видно, несмотря на наличие на близлежащей равнинной территории поселения развитой оседлой земледельческой культуры типа Кюльтепе I того же периода, традиция изготовления орудий в Османтепе типична для мезолита-раннего неолита, как в Гобустане и Дамджылы. Другими словами, обитатели поселения Османтепе вели более отсталый образ жизни по сравнению с насельниками поселения Кюльтепе I того же времени. Только в отличие от Гобустана и Дамджылы, Османтепе представляет собой поселение открытого типа. И здесь архаичность орудий труда была связана с хозяйственной сферой жителей поселения, определяемой природно-географическими условиями – охотой и собирательством. То есть такая ситуация не указывает на принадлежность памятника к более древнему периоду.

Так, на соседнем поселении Кюльтепе I период керамического неолита начался еще во второй пол. VII тыс. до н.э.

В то же время попытки связать Османтепе с отгонным (яйлажным) скотоводством не оправданы. Во-первых, при раскопках, правда, проведенных на ограниченной территории памятника, не было обнаружено костей животных. В тоже время, в период неолита придомное скотоводство существовало в поселениях региона, например, в Кюльтепе I. Вследствие слабой населенности местности оседлые земледельцы могли прокормить немногочисленных хозяйственных животных даже на полях вокруг своих поселений. Отгонное скотоводство на Южном Кавказе возникло лишь в эпоху ранней бронзы – в конце IV - начале III тыс. до н.э. в связи с развитием комплексного земледельческо-скотоводческого хозяйства, роста демографии, численности населения и поселений, существенного увеличения численности мелкого рогатого скота в хозяйстве и укрепления хозяйственных связей в взаимообусловленной и взаимосвязанной системе «горы – равнина».

Выводы. Результаты раскопок на поселении Чагрытепе, относящемся к шомутепинской культуре, позволяют по-новому взглянуть на проблему возникновения раннеземледельческой неолитической культуры в бассейне средней Куры и ее связь с предшествующим историческим этапом. Обнаруженные в ходе раскопок архаичные орудия труда из обсидиана и кремня относятся к числу важных находок для решения указанной проблемы. Вызывает интерес определенное сходство этих орудий с каменными изделиями памятников мезолита и раннего неолита, особенно стоянок Гобустана. Однако культура охотников-собирателей в таких стоянках (Гобустан, Дамджылы), которая синхронна и старше Чагрытепе, не была исходным источником шомутепинской культуры. Исследования показывают, которые хотя и носят предварительный характер, что, на наш взгляд, корни земледельческо-скотоводческой неолитической культуры Южного Кавказа, в т.ч. и шомутепинской культуры, следует искать в равнинных районах ее распространения, в самых нижних отложениях культурных напластований этих поселений. В то же время в этом вопросе необходимо учитывать культурные влияния Ближнего Востока.

Раскопки, проведенные в Чагрытепе, расширяют и уточняют наши представления о шомутепинской культуре. Стратифицированные культурные слои и выделяемые строительные горизонты, выявленные хозяйственно-бытовые постройки и археологические артефакты создают благоприятные возможности для изучения неолита среднего бассейна р. Куры.

Литература

1. Амирханов Х.А. Гобустанская неолитическая культура // История, археология и этнография Кавказа. Т. 19. № 2. 2023. С. 435-459.
2. Антонова Е.В. Антропоморфная скульптура древних земледельцев Передней и Средней Азии. Москва: «Наука», 1977, 227 с.
3. Бахшалиев В.Б. Поселение Османтепе – памятник эпохи каменного века // Общественные науки. № 2, 2023. С. 154-168.
4. Бонгард-Левин Г.М., Деопик Д.В., Деревянко А.П., Кучера С.Р., Массон В.М. Археология зарубежной Азии. Москва: «Высшая школа», 1986. 359 с.
5. Джафарзаде И. М., Гобустан. Баку: «Элм». 1973. 348 с.
6. Мунчаев Р.М. Энеолит Кавказа // Энеолит СССР. Москва: «Наука». С. 93-164.
7. Мусеибли Н. Новые данные по неолиту Азербайджана // Вестник Института истории, археологии и этнографии Дагестанского НЦ РАН. № 3 (19). 2009. С. 81-84.
8. Нариманов И.Г. Древнейшая земледельческая культура Закавказья // Доклады и сообщения археологов СССР. Москва: «Наука», 1966, с. 121-126.
9. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: «Элм», 1987, 260 с.

10. Archaeological Finds from Germany. Selected and annotated by Svend Hansen. Berlin, 2010. 108 p.
11. Badalyan S.Ruben, Harutyunyan A.Armine, Chataigner Christine, Le Mort Françoise, Chabot Jacques, Brochier Jacques-Elie, Balasescu Adrian, Radu Valentin, Hovsepyan Roman. The settlement of Aknashen-Khatunarkh, a Neolithic site in the Ararat plain (Armenia): Excavation results 2004-2009 //TÜBA-AR 13/2010. P. 187-220.
12. Farajova M. About specifics of rock art of Gobustan and some innovative approaches to its interpretation ("Firuz 2" shelter) // Quaternary International 491 (2018). P. 78-98.
13. Hansen Svend. Figurines // The Kura Project. New Research on the Later Prehistory of the Southern Caucasus By Dietrich Reimer Verlag, Berlin. 2017. P. 273.
14. Museibli N. Gobustan. Researches and hypothesis. Baku: "AFPoLiqrAF",2017.144 p.
15. Museibli N. The Neolithic period Hasansu settlement // Dedicated to the 90th anniversary of the famous Azerbaijani archaeologist, corresponding member of the Academy of NAS of Azerbaijan I.H.Narimanov. Baku: "AFPoLiqrAF", 2017. P. 42-58.
16. Nishiaki Y., Zeynalov A., Munsrov M., Guliyev F. Radiocarbon chronology of the mesolithic-neolithic sequence at Damjili cave, Azerbaijan, Southern Caucasus // Radiocarbon, Vol. 00, Nr 00, 2022, p. 1–14.
17. Rüstəmov C.N., Muradova F.M. Azərbaycanın mezolit düşərgələri // Azərbaycan arxeologiyası. Daş dövrü. I cild. Bakı: "Şərq-Qərb", 2008. S. 142-148.
18. Rüstəmov C.N., Muradova F.M. Azərbaycanın neolit düşərgələri // Azərbaycan arxeologiyası. Daş dövrü. I cild. Bakı: "Şərq-Qərb", 2008a. S. 149-172.

Xülasə

Nəcəf Müseyibli

Çağrıtəpədə arxeoloji qazıntılar: Orta Kür hövzəsində erkən əkinçilik Neolitinin mənşəyi probleminin bəzi məsələləri

Son illər Azərbaycanda və ümumiyyətlə Cənubi Qafqazda Neolit dövrü abidələrinin tədqiqatları intensiv xarakter almışdır. Yaxın Şərq-Cənubi Qafqaz kontekstində erkən əkinçilik təsərrüfatlarının yaranması və inkişaf mərhələləri bu tədqiqatların başlıca məqsədidir. Bu baxımdan Çağrıtəpə Neolit dövrü yaşayış yeri də istisnalıq təşkil etmir. Abidə hələ sovet dövründə antropogen müdaxilələr nəticəsində müəyyən qədər dağıntılara məruz qalsa da bölgədəki digər arxeoloji abidələrlə müqayisədə tədqiqat üçün nisbətən qənaətbəxş səviyyədə saxlanmışdır. Keçən əsrin 50-70-ci illərində bölgədə bu mədəniyyətə aid Şomutəpə, Töyrətəpə, Qarğalartəpəsi, Babadərviş kimi yaşayış yerlərində arxeoloji qazıntılar aparılmışdır. Geniş elmi informasiyalar əldə edilsə də bir çox suallar cavabsız olaraq qalmışdır. Bunlardan biri və ən əsası Neolit dövrü əkinçilik mədəniyyətinin mənşəyi, təşəkkülü, əvvəlki dövrlə bağlılığı problemidir. Bu elmi problem bu günədək həll edilməmiş qalır. Yaxınlıqdakı Mezolit və erkən Neolit dövrlərinə aid Damcılı düşərgəsində aparılan qazıntılar da məsələyə lazımi aydınlıq gətirməmişdir. Çağrıtəpədə aparılan qazıntıların məqsədi də ilk növbədə məhz bu elmi problemin araşdırılmasıdır. Qazıntılar tam başa çatmadığından ilkin olaraq abidəni e.ə. VII minilliyin sonu -VI minilliyin birinci yarısına aid etmək olar. Qazıntılar zamanı burada aşkar edilmiş obsidiandan və çaxmaqdaşından hazırlanmış əmək alətlərinin bir qrupu Qobustanın Mezolit və erkən Neolit dövrlərinin daş məmulatı ilə analogiya təşkil edir. Çağrıtəpə üçün arxaik hesab edilən bu alətlər qeyd edilən elmi problem barədə müəyyən ehtimallar irəli sürməyə imkan verir.

Açar sözlər: *Mezolit, Neolit, erkən əkinçilik, mikrotollar, obsidian, çaxmaq daşı, yaşayış yeri, düşərgə.*

Summary

Najaf Museibli

Archaeological excavations at Chagritepe: Some questions about the origin of the Early Neolithic in the Middle Kura basin

In recent years, researches of Neolithic monuments in Azerbaijan and South Caucasus in general have become intensive. The emergence and development stages of early agricultural farms in the context of the Middle East-South Caucasus is the main goal of these studies. From this viewpoint, Chagritepe (Çağrıtepe) Neolithic settlement is no exception. Although the monument suffered some destruction as a result of anthropogenic interventions during the Soviet era, it was preserved at a relatively satisfactory level for research compared to other archaeological monuments in the region**.** In the 50s - 70s of the last century, archaeological excavations were carried out in the settlements of this culture, such as Shomutepe, Toyratepe, Gargalar tepesi, Babadervish. Although extensive scientific information has been obtained, many questions still remain unanswered. One of them, and the most important one, is the problem of the origin, organization and connection of the Neolithic farming culture with the previous period. This scientific problem remains unsolved to this day. The excavations conducted in the nearby Mesolithic and early Neolithic camp of Damjili did not bring sufficient clarity to the issue. The purpose of the excavations in Chagritepe is primarily to investigate this scientific problem. Since the excavations have not fully completed, the monument can be primarily attributed to the end of the 7th millennium - the first half of the 6th millennium BC. A group of tools made of obsidian and flint discovered here during the excavations is analogous to the stoneware of Gobustan from the Mesolithic and early Neolithic periods. These tools, which are considered archaic for Chagritepe, give us reason to make certain assumptions about the mentioned scientific problem.

Keywords: *Mesolithic, Neolithic, early farming, microtools, obsidian, flint, settlement, camp.*

UOT 902
https://doi.org/10.59849/2710-0820.2024.1.228

VƏLİ BAXŞƏLİYEV
Naxşıvan Dövlət Universiteti: velibahshaliyev@mail.ru
NEZAHAT CEYLAN
Qırğızıstan-Türkiyə Manas Universiteti: n.ceylan@atauni.edu.tr
ELMAR BAXŞƏLİYEV
Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi: elmarbakhshaliev@gmail.com,
HEYRAN HƏSƏNOVA
Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi: h.hasanova.99@mail.ru

CƏNUBİ QAFQAZIN SİONİ TİPLİ KERAMİKASI TUMBULTƏPƏDƏ ARXEOLOJİ QAZINTILAR KONTEKSTİNDƏ

Giriş. Cənubi Qafqazda, o cümlədən Azərbaycanda aparılan arxeoloji araşdırmalar nəticəsində Son Eneolit dövrünə aid bir sıra yaşayış yerləri aşkar edilmişdir. Araşdırmalar Azərbaycanda Son Eneolit mədəniyyətinin özünəməxsus xüsusiyyətlərinin olduğunu, burada "Ovçulartəpə mədəniyyəti" və "Leylatəpə mədəniyyəti"nin formalaşdığını göstərmişdir. Lakin buna baxmayaraq bir çox qafqazşünas alimlər Cənubi Qafqazın Son Eneolit mədəniyyətini ümumi şəkildə bəzən Sioni mədəniyyəti (17, c. 115; 35, p. 48-49; 24, p.207), bəzən Sioni-Çopi mədəniyyəti (15, c. 127), bəzən Sioni keramikası (34, p. 323), bəzən isə dərsliklərdə Sioni tipli abidələr adlandırmışdır (15, c. 34). Son zamanlar bu mədəniyyət Sioni-Çopi-Qinçi mədəniyyəti də adlandırılmışdır. Demək olar ki, Sioni mədəniyyəti Cənubi Qafqazın Son Eneolit mədəniyyətinin sinoniminə çevrilmişdir. Cənubi Qafqazda yerləşən Son Eneolit abidələrinin tədqiqi onların arxitektura və keramika məmulatına görə bir-birindən fərqləndiyini göstərir (35 p. 40-48; 43, s. 246). Digər tərəfdən Sioni mədəniyyətinin dövrü və xarakterik xüsusiyyətləri tam şəkildə müəyyənləşdirilməmiş, Sioni yaşayış yerinin özünəməxsus xüsusiyyətləri olan keramikası isə belə bir mədəniyyətin mövcudluğunu demək üçün çətinlik törədir (14, c. 340). Sioni yaşayış yerinin keramikası Çopi, Samelekldе, Samertsxle-klde kimi yaşayış yerlərinin keramikası ilə yalnız ümumi əlamətlərinə görə bənzərdir (17, c. 114). Naxçıvanda Ovçulartəpə, Yeniyol, Zirincli, Şorsu kimi yaşayış yerlərinin tədqiqi də göstərir ki, bu abidələrdə Sioni tipli keramika çox az yayılmışdır (8, c. 88-95). Digər tərəfdən Sioni keramikası və Sioni tipli abidələrin yayılmasının nə ilə bağlı olduğu sonadək aydınlaşdırılmamışdır. Bu baxımdan son illər Naxçıvanda aşkar olunan arxeoloji abidələr xüsusilə əhəmiyyətlidir. Bu abidələr Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Neolit və Eneolit mədəniyyətlərini karbon analizləri əsasında dəqiq tarixləndirməyə imkan verir. Bu araşdırmanın məqsədi yeni tədqiq edilən Tumbultəpə yaşayış yerindən aşkar olunan Son Eneolit dövrünə aid maddi-mədəniyyət nümunələrini, xüsusilə keramika məmulatını Naxçıvanın digər abidələri ilə müqayisəli şəkildə araşdıraraq nəşr etməkdən ibarətdir. Belə hesab edirik ki, bu materialların tədqiqi və nəşri Cənubi Qafqazın Son Eneolit mədəniyyətləri, o cümlədən Sioni mədəniyyəti ilə bağlı məsələlərin həll edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Tumbultəpə yaşayış yeri. Bu yaşayış yeri Naxçıvan şəhərinin cənubunda, Naxçıvançayın sol sahilində, dəniz səviyyəsindən 833 m yüksəklikdə yerləşir (Şəkil 1). Yerüstü materiallar arasında Antik dövrə və Eneolit dövrünə aid keramika nümunələrinə rast gəlinirdi. Lakin tədqiqatın gedişi göstərdi ki, bu abidə Son Eneolit dövrünə aid birtəbəqəli yaşayış yeridir (Şəkil 2). Antik dövrdə və Orta əsrlərdə yaşayış yerinin ərazisi qəbiristanlıq kimi istifadə olunduğundan Eneolit təbəqəsi müəyyən dağıntıya məruz qalmışdır. Yaşayış yeri 2023-cü ildə V.B.Baxşəliyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntılarla öyrənilmişdir. Arxeoloji qazıntılar beş sahədə aparılmışdır. Yaşayış yerinin mərkəzində yerləşən A və B sahələrinin ölçüsü

10x10 m, D və E sahələrinin ölçüsü 5x10 m olmuşdur. Qazıntının gedişində A və B sahələrində Antik dövr qəbirləri aşkar olunduğundan, həmin qəbirlərin gələcəkdə tədqiq edilməsi məqsədilə burada qazıntı dayandırılmışdır. D və E sahələrində isə qazıntılar xam torpağadək davam etdirilmişdir. C sahəsində 4x2 m ölçüdə kəşfiyyat şurfu qoyulmuşdur. Bu şurf qazıntı zamanı genişləndirilərək B sahəsi ilə birləşdirilmiş və 5x5 m ölçüdə sonadək davam etdirilmişdir (Şəkil 3). B sahəsindən dördkünc formalı evin qalıqları aşkar olunmuşdur (Şəkil 4). Araşdırmalar evlərin yarımqazma tipli olduğunu, onların divarlarının bəzi qisimlərdə çiy kərpiclərlə inşa edilərək tamamlandığını göstərir. Evin uzunluğu 4, 10 m, eni 3, 20 m idi. Divarların eni 0,5 m, hündürlüyü 0, 7 m idi. Tədqiqat zamanı divarların 25x50x8 sm ölçülü çiy kərpiclərdən inşa olunduğu müəyyən edilmişdir. Otağın içərisindən Eneolit dövrünə aid keramika nümunələri, az miqdarda heyvan sümüyü, bir dən daşı və obsidian parçaları aşkar olunmuşdur. Otağın şimal-şərq hissəsində ətrafında daş döşənmiş dairəvi formalı ocağın olduğu müəyyən edilmişdir. Ocağın diametri 0, 4 m idi. Ocağın içərisi qara rəngli küllə dolmuşdu.

Şəkil 1. Cənubi Qafqazda Sioni tipli keramikanın yayıldığı əsas yaşayış yerləri.

D və E sahələrində aparılan qazıntılar zamanı mədəni təbəqənin qalın torpaq layı ilə örtüldüyü müəyyən olunmuşdur. Torpağın qalınlığı relyefdən asılı olaraq 1-2 m arasında dəyişirdi.

D sahəsinin şimal-qərb tərəfində dördkünc formalı, küncdə bir qədər dəyirmilənmiş yarımqazma tipli otağın izləri aşkar edilmişdir (Şəkil 5). Xam torpaqda qazılan otağın sahədə qalan hissəsinin uzunluğu 3,2 m, eni 2,2 m, dərinliyi 0,3 m idi. Onun içərisi boz-qara rəngli küllə dolmuşdu. Otağın içərisinə dolmuş kül qalıqları onun ətrafına da yayılmışdı. Mədəni təbəqənin qalınlığı 0,5-0,7 m arasında dəyişirdi. Araşdırma zamanı otağın içərisində müxtəlif səviyyələrdə daşlarla əhatə olunmuş ocağın qalıqları və onun ətrafında üfiqi vəziyyətdə yerləşən keramika nümunələrinin aşkar olunması, yaşayış yerində müxtəlif dövrlərdə yaşayışın mövcudluğunu göstərirdi. Otağın içərisindəki təbəqənin alt laylarından diametri 0,9 m olan, döşəmədə qazılmış ocaq yeri, onun ətrafında isə daş əmək alətləri aşkar olundu (Şəkil 6, 1). Qazıntı sahəsində aşkar olunan maddi-mədəniyyət nümunələrinin əksəriyyəti keramika məmulatından ibarət idi. Heyvan sümüyünün qalıqlarına çox az rast gəlinirdi. Olduqca pis saxlanmış heyvan sümükləri otağın içərisindəki alt laylardan aşkar olunmuşdur. Heyvan sümükləri başlıca olaraq xırdabuynuzlu və iribuynuzlu heyvanlara aid idi. Tədqiqat zamanı həmçinin az miqdarda ob-

sidian və çaxmaqdaşından hazırlanmış alətlər və obsidian qəlpələri də tapılmışdır.

E sahəsində aparılan qazıntılar zamanı bir-birinin yaxınlığında yerləşən iki yarımqazmanın qalığı aşkar olundu. Birinci yarımqazmanın yalnız qalıqları mövcud idi (Şəkil 6, 2). Onun uzunluğu 3 m, eni 2,4 m idi. Salamat qalan divarının eni 0,5 m, hündürlüyü 0,2 m idi. Bu otağın içərisində iki ocağın qalığı aşkar olundu. Ocaqlar müxtəlif dövrlərdə istifadə olunmuşdu. Otağın cənub-şərq tərəfində yerləşən ocağın diametri 0,9 m, dərinliyi 0,2 m idi. Döşəmədə qazılan ocağın içərisindən və ətrafından keramika parçaları, obsidian və çaxmaqdaşı qəlpələri aşkar olunmuşdur. İkinci ocaq ondan 1, 2 m aralıda, otağın şimal tərəfində yerləşirdi. Bu ocaq oval formalı idi. Onun diametri şimal tərəfdə 0, 9 m, cənub tərəfdə isə 1,2 m idi (Şəkil 7). Bu ocağın içərisindən xeyli keramika nümunələri tapıldı.

Şəkil 2. Tumbul Təpə yaşayış yerinin görünüşü.

Uzunluğu 4, 10 m, eni 3, 2 m olan ikinci yarımqazma birincinin şimal tərəfində aşkar olundu. Onun aşağı qismi 40-50 sm dərinliyində torpaqda qazılmış, üst qismi kərpiclə hörülmüşdü. Kərpiclərin ölçüsü 25x50x10 sm idi (Şəkil 6, 2). Kərpiclər bir sırada olduqca pis qalmışdı.Yarımqazmanın içərisi boz rəngli küllə dolmuşdu. Tədqiqat zamanı yarımqazmanın şərq tərəfində diametri 0,5 m olan ocaq yeri aşkar olundu. Ocaq torpaqda qazılmış və dibinə çay daşı döşənmişdi (Şəkil 8). Onun içərisi boz rəngli küllə dolmuşdu. Ocağın ətrafı bəzi yerlərdə yastı çay daşları ilə, bəzi yerlərdə isə göy rəngli daş plitələrlə əhatə edilmişdi. Yarımqazmanın qərb tərəfində ikinci bir ocaq yeri aşkar olundu. Ocaq oval formalı olub torpaqda qazılmışdı. Onun ölçüləri 0,6x0,8 m, dərinliyi 0, 4 m idi. İçərisi qara-boz rəngli küllə dolmuşdu. Onun külü yarımqazmanın içərisinə də yayılmışdı. Ocağın içərisindən xeyli miqdarda keramika parçaları aşkar olundu. Ocağın ətrafında isə dən daşı və sürtgəc parçaları var idi. Ehtimal ki, bu ocaqlardan yemək bişirilməsində və evin qızdırılması üçün istifadə edilmişdir.

Arxeoloji araşdırmalar göstərir ki, evlər bir qismi torpaqda qazılmış yarımqazma tipli olmuş, divarları isə bəzi yerlərdə çiy kərpiclə, yaxud yüngül konstruksiyalı tikintilərlə tamamlanmışdır. Evlərdə dən daşlarının, həmçinin ocaqların içərisində obsidian qəlpələrinin aşkar olunması göstərir ki, qədim sakinlər əmək alətlərini ocağın ətrafında, evin içərisində hazırlamış, ərzaq məhsullarını da burada emal etmişlər. Yaşayış yerində müxtəlif maddi- mədəniyyət qalıqlarının tapılmasına baxmayaraq heyvan sümüklərinə olduqca az rast gəlinmişdir. Yaşayış yerində təbəqənin az yığılması, ehtimal ki, bu yaşayış yerində həyatın mövsümi xarekter daşıması ilə bağlı idi.



Şəkil 3. Tumbul Tepe yaşayış yerinin topoqrafik planı.

Əmək alətləri. Tumbultəpədən aşkar olunan əmək alətlərinin bir qismi dən daşlarından ibarətdir. Bu tip əmək alətləri başlıca olaraq boz rəngli bazalt daşından hazırlanmışdır. Onlar üst və alt dən daşlarından ibarətdir. Dən daşları başlıca olaraq evlərin içərisindən, ocaqların ətrafından aşkar olunmuşdur. Ehtimal ki, Tumbultəpədəki dən daşları taxılın və digər məhsulların üyüdülməsi üçün istifadə edilmişdir. Naxçıvanda aparılan araşdırmalar bu tip alətlərin olduqca müxtəlif məqsədlər üçün istifadə olunduğunu təsdiq edir. Həmin alətlər həmçinin duz üyüdülməsində və filizin zənginləşdirilməsində də istifadə edilmişdir (4, s. 9-10).

Şəkil 4. B sahəsindəki yarımqazma tipli ev.

Obsidian və çaxmaqdaşı alətlər. Tumbultəpədə aşkar olunan əmək alətlərinin bir qismi obsidian və çaxmaqdaşından hazırlanmışdır (Şəkil 9). Çaxmaqdaşından hazırlanan alətlər azdır (5 ədəd). Onlar uzunsov formalı oraq dişlərindən ibarətdir. Onların bəzisi piramidal, bəzisi isə prizmatik nukleuslardan qoparılaraq hazırlanmışdır. Bəzi lövhələr hər iki tərəfdən yaxşı retuşlanmış, bəziləri isə retuşlanmamışdır. Şübhəsiz ki, bu tip əmək alətləri oraq dişləri kimi, yaxud da digər alətlərin qurama hissəsi kimi istifadə olunmuşdur. Obsidian məmulatı nis-

bətən çox olsa da (80 ədəd), onların böyük əksəriyyəti qəlpələrdən ibarətdir. Tumbultəpədə aşkar olunan tapıntılar arasında əmək alətləri azdır (5 ədəd). Məlum olduğu kimi, Cənubi Qafqazda çox sayda xammal yataqları, o cümlədən obsidian və mis yataqları vardır. Urmiya hövzəsində obsidian olmadığından bu bölgədə yerləşən qəbilələr Cənubi Qafqaznın obsidian yataqlarından istifadə etmişlər (31, p. 1956-1965). Obsidian qədim dünyanın əkinçilik və heyvandarlıqla məşğul olan qəbilələri üçün çox önəmli olduğundan Cənubi Qafqaz ilə Urmiya hövzəsi arasındakı əlaqələrin qurulmasına imkan vermişdir. Sirabçay vadisinin Son Eneolit abidələrində olduğu kimi, Tumbultəpədə də obsidian alətlər çox azdır. Araşdırmalar göstərir ki, Naxçıvanın Neolit və Eneolit dövrü yaşayış yerlərində başlıca olaraq Göyçə hövzəsi və Zəngəzur obsidianından istifadə olunmuşdur (11, c. 189-190; 12, c.143). Əgər Ovçulartəpədə Göyçə obsidianı üstünlük təşkil edirsə, Sirabçay vadisinin Son Eneolit abidələrində Zəngəzur obsidianı üstünlük təşkil edir. Tədqiqatlar göstərir ki, obsidian yataqlarından istifadə yaşayış yerlərinin coğrafi mövqeyi ilə bağlı olmuşdur. Tumbultəpədə Zəngəzur obsidianının üstünlük təşkil etməsi də bununla bağlıdır. Ümumiyyətlə, Son Eneolit abidələrində obsidian olduqca azdır. Ovçulartəpə obsidianlarının tədqiqi Son Eneolit dövründə obsidian təminatında kəsinti yarandığını göstərir, lakin bunun səbəbləri indiyədək elmi baxımdan yaxşı aydınlaşdırılmamışdır. Bizim fikrimizə görə, Kür-Araz tayfalarının regionda aktivləşməsi, ya bu tip yaşayış yerlərinin iqtisadiyyatında köçmə maldarlığa üstünlük verilməsi, yaxud regionlararası əlaqələrin pozulması bunun səbəbi ola bilər.

Şəkil 5. D sahəsindəki yarımqazma tipli ev.

Keramika məmulatı. Tumbultəpədən aşkar olunan tapıntıların əksəriyyəti keramika məmulatından ibarətdir. Ümumilikdə Tumbultəpədən 3451 keramika nümunəsi aşkar olunmuşdur. Həmin nümunələr arasında çəhrayı rəngdə bişirilmiş samanlı keramika 84,9%, çəhrayı rəngli qatqısız keramika, 4,2%, çəhrayı rəngli qum qarışıq keramika 2,3%, qəhvəyi rəngli keramika 4,2%, boz və qara rəngli keramika 4,4%-dir. Keramika məmulatını üç böyük qrupa ayırmaq olar.

Birinci qrupa daxil olan keramika məmulatı saman, bəzən həm saman, həm də qum qarışığı olan gildən, bəzən isə qarışığı olmayan gildən hazırlanmışdır (Şəkil 10). Keramika məmulatı nazik gil təbəqələri bir-birinin üzərinə qoymaqla hazırlanmış, bir qisminin üzərində, bəzilərinin isə iç tərəfində daraqvari alətlə düzəltmə izləri qalmışdır (Şəkil 11, 1-12). Həsir izi yalnız beş keramika parçasının üzərində vardır. Keramika nümunələri xaricdən yaxşı anqoblanmış, çəhrayı rəngin müxtəlif tonlarında bişirilmişdir.



Şəkil 6. D (1) ve E (2) sahələrindəki yarımqazmaların planı və kəsiyi: a- dağılmış tikinti qalıqları, b-mədəni təbəqə, c-xam torpaq, d-çiy kərpic.

Bu tip keramika məmulatı adətən yaxşı bişirilmişdir. Lakin onların bəzisinin divarları arasında qara, yaxud boz rəngli təbəqəyə rast gəlinir ki, bu da onların lazımınca oksigen almadığını və yaxşı bişmədiyini göstərir. Bu tip keramika İ.Nərimanov tərəfindən keyfiyyətli keramika adlandırılmışdır (20, c. 46-49). Bu qrupa aid keramika məmulatı kasa, küpə, çölmək tipli qabların parçalarından ibarətdir. Onlar arasında iri təsərrüfat küplərinin də parçaları vardır. Bu qrupda nazik divarlı, kiçik həcmli qabarıq gövdəli kasalar üstünlük təşkil edir (Şəkil 11, 4). Onların bəzilərinin səthində qaba saman qarışığı aydın şəkildə izlənilir. Qabların bəzisi qabarıq məməciklərlə naxışlanmış (Şəkil 11, 8), bəzilərinin üzərində üfiqi barmaq izləri qalmışdır (Şəkil 10, 12). Keramika nümunələrinin bəzisi relyef kəmər üzərindən çəkilən çərtmələrlə naxışlanmışdır (Şəkil 11, 3). Qulplar olduqca azdır. Onlar başlıca olaraq halqaşəkillidir (Şəkil 11, 11). Bu tip qulplar Son Eneolit mədəniyyəti üçün xarakterikdir. Lakin bu qrupa aid bir qabın ağız kənarında qulaqcıqşəkilli çıxıntıya bənzər qulpa da rast gəlinir (Şəkil 11, 5). Bəzi qabların gövdəsində yuvarlaq deşiklər vardır. Qabların oturacaqları müxtəlif formalı olub yastı, içəriyə batıq, xaricə doğru çıxıntılı və yuvarlaq şəkildədir. Ehtimal ki, bu qrupdakı qablar daha çox ərzaq məhsullarının saxlanılması və süfrə qabları kimi istifadə olunmuşdur.

Şəkil 7. E sahəsindəki ocağın qalıqları.

Bu qrupa aid qabların az bir qismində qara rənglə çəkilmiş boya izlərinə rast gəlinir (5 ədəd). Lakin keramika parçaları yaxşı saxlanmadığından naxış motivlərini müəyyən etmək olduqca çətindir (Şəkil 11, 9). Kasa tipli qabların bəzisinin içərisinə qara boya çəkilmişdir. Bəzi kasaların həm içərisinə, həm də ağzının kənarına qara boya çəkilmişdir. Çəhrayı rəngdə bişirilən keramika məmulatının ikisində Proto Kür-Araz keramikası üçün xarakterik olan silindrik boğazlı, iri qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş, xaricdən cilalanmış nümunələrə (Şəkil 11, 1) də rast gəlinmişdir (7, c. 105-107).

Şəkil 8. E sahəsində dibinə daş döşənmiş ocaq.

Tumbultəpə yaşayış yerində aşkar olunan keramika məmulatının əksəriyyəti çəhrayı rəngdə, saman qarışıq gildən hazırlanmış qablardan ibarətdir. Araşdırmalar göstərir ki, Naxçıvanın Son Eneolit dövrü keramikası tipoloji cəhətdən Norşuntəpə keramikası ilə bənzər olsa da, texnoloji xüsusiyyətlərinə görə Norşuntəpənin tünd rəngli keramikasından (32, p. 61-78) fərqlənir. Tədqiqatçılar Naxçıvanın Son Eneolit mədəniyyətinin yerli ənənələr əsasında inkişaf etdiyini, Urmiya hövzəsi, Muğan və Ağrı bölgəsinin abidələri ilə ümumi oxşar əlamətlərə malik olduğunu söyləmişlər (5, c. 88-89). Ovçulartəpə, Sirabçay və Naxçıvançay vadisinin keramika məmulatının araşdırılması Naxçıvanın Son Eneolit dövrü keramikasının Urmiya hövzəsinin keramikası ilə daha yaxın olduğunu təsdiq etməklə, bu regionda formalaşan mədəniyyətin geniş arealı əhatə etdiyini göstərir (1, s. 25-29).

Şəkil 9. Obsidian və çaxmaqdaşı alətlər.



Şəkil 10. Qırmızı rəngli, saman qarışıq keramikanın rəng tonları.

Məlum olduğu kimi, Azərbaycanda saman qarışıq keramika Neolit dövründən (12, c.145-149; 38, s. 1-190), Naxçıvanda isə Eneolit dövrünün müxtəlif mərhələlərində istifadə olunmuşdur (12, s. 14-91). Saman qarışıqlı keramika Azərbaycanın, Naxçıvanın Son Eneolit arxeoloji abidələrindən, o cümlədən Arpaçay, Sirabçay və Naxçıvançay vadisinin yaşayış yerlərindən yaxşı məlumdur. Bu tip keramika nümunələri Naxçıvanda Ovçulartəpəsi (2, s. 25-28), Xələc (5, c. 54; 46, s. 63-78), Aşağı Daşarx, Sədərək, Şortəpə və digər yaşayış yerlərindən də aşkar olunmuşdur. Saman qarışıq, daraqvari alətlə naxışlanmış və samanüzlü keramika məmulatının paralelləri Azərbaycan və Yaxın Şərq abidələrindən məlumdur. Zirincli, Şorsu və Yumru Sürümçəkdən aşkar olunan keramika nümunələrində daraqvari alətin izlərinə az rastlanmışdır (8, c. 88-95). Bu isə Son Eneolitin son mərhələsində daraqlanmış keramikanın azaldığını göstərir.



Şəkil 11. Qırmızı rəngli, saman qarışıq keramikanın tipləri.

Deyə bilərik ki, Tumbultəpə yaşayış yerinin saman qarışıq keramikası Sirabçay və Naxçıvançay vadisində yayılan Son Eneolit mədəniyyətinin davamıdır. Sirabçay və Naxçıvançay vadisindəki abidələrin tədqiqi göstərir ki, bu bölgədə yayılan Son Eneolit mədəniyyətinin müəyyən xüsusiyyətlərinə görə fərqlənməsinə baxmayaraq Ovçulartəpə mədəniyyətinin davamı olmuşdur. Ümumiyyətlə, Azərbaycanın Son Eneolit abidələrinin tədqiqi həmin dövrdə birbirindən fərqlənən mədəniyyətlərin mövcud olduğunu göstərir. Bu dövrdə Leylatəpə mədəniyyətinə aid yaşayış yerlərindən aşkar olunan keramika nümunələrinin Ubeyd mədəniyyəti ilə bənzər olması Ubeyd tayfalarının şimala hərəkəti və Azərbaycanda məskunlaşması fikrini doğurmuşdur. Tədqiqatçılar bu fikri müxtəlif maddi-mədəniyyət nümunələrinin, xüsusilə arxitektura, əmək alətləri və keramikanın təhlili əsasında irəli sürmüşlər (42, s. 34-35; 5, c. 80-92). R. Munçayev və Ş.Əmirovun fikrinə görə, Leylatəpə mədəniyyətinin əsas hissəsini təşkil edən şarxda hazırlanmış, saman qarışıq keramika Mesopotamiyadan gətirilmişdir (15, c. 129). Sirabçay vadisində yayılan keramika nümunələrində, xüsusilə Şorsu yaşayış yerində Leylatəpə mədəniyyətinə məxsus elementlərin olduğu müəyyənləşdirilmiş, lakin bu materiallar geniş şəkildə tədqiq olunaraq nəşr edilməmişdir.



Şəkil 12. Qəhvəyi rəngli (1-4) və qara rəngli (5-7) keramikanın rəng tonları.

İkinci qrupa daxil olan keramika başlıca olaraq qum, bəzən isə saman və qum qarışığı olan gildən hazırlanaraq qəhvəyi rəngdə qeyri-bərabər bişirilmişdir (Şəkil 12, 1-4). Qabların divarları arasında yaxşı bişməmiş təbəqə qalmışdır. Bəzi keramika nümunələrinin üzəri daraqvari alətlə düzəldilmişdir. Bu qrupa daxil olan qablar silindrik, yaxud konusvari gövdəli çanaq tipli qablardan, çölməklərdən ibarətdir (Şəkil 13, 1-10). Bəzi qabların ağız kənarında xaricə qatlanmış, qulaqcıqşəkilli qulpları vardır (Şəkil 13, 2, 4). Bu tip keramika məmulatının bəzilərinin ağız hissəsində, bəzisinin isə gövdəsində güclü hislənməyə rast gəlinir. Bir qabın ağız kənarı çərtmələrlə naxışlanmışdır (Şəkil 13, 3). Bu qrupdakı çanaq tipli qabların bəzisi hislənmiş və oturacaq hissəsi aşınmışdır. Digər bir qrup qablarda hislənmə izləri görülməsə də, onlar güclü aşınmaya məruz qalmışdır. Bu tip qabların ağız kənarı, bəzən isə gövdəsi bir sıra, bəzən isə iki sıra deşiklərlə əhatələnmişdir. Deşiklər başlıca olaraq ağız kənarında yerləşdirilmişdir (Şəkil 13, 2, 6, 7). Bu qrupdakı keramika məmulatı arasında diskşəkilli qablar da vardır (Şəkil 13, 9, 10).



Şəkil 13. Qum qarışıq qəhvəyi rəngli keramikanın tipləri.

Ağız kənarı deşiklərlə əhatələnmiş keramika məmulatının istifadə olunması ilə bağlı müxtəlif fikirlər söylənmişdir. Bu fikirlər arasında qabların pendir süzgəci (*Cheese Pot*) ocaq (*mangaly*), çörək bişirmə qabı (*Baking Pan*), tava (*Cooking Pot*) və ələk kimi istifadə olunduğu vardır (33, p. 141; 30, p. 319; 28, s. 1). Bəzi tədqiqatçılar bu tip qablardan pendir hazırlamaq üçün istifadə olunması fikrinə qarşı çıxaraq onların çörək bişirmək məqsədi ilə istifadə edildiyini söyləmiş və bunu öz hazırladıqları qablarda tətbiq etmişlər (25, p. 499-505). Bəzi tədqiqatçılar isə bu tip qablardan ərzaq məhsullarının saxlanılması, ağız kənarındakı deşiklərin qabın ağzını örtən parçanın bərkidilməsi üçün gərək olduğunu söyləmişlər (47, p. 242; 48, fig. 68 c.). Qeyd edək ki, pendir hazırlanması üçün süzgəc tipli qablar daha uyğundur və belə qablar Son Eneolit abidələrindən məlumdur. Bu tip qabların ağız kənarı düz olmadığından ələk kimi istifadə edilməsi əlverişli deyil. Yuxarıda qeyd etdiyimiz kimi, bu qabların bəzisinin xaricdən çox hislənməsi, bəzilərinin isə səthinin aşınması onların mətbəx qabları kimi istifadə olunduğunu göstərir. Etnoqrafik araşdırmalar göstərir ki, ağzının kənarı deşikli qablar yemək bişirilərkən buxarın çıxması üçün nəzərdə tutulmuşdur. Belə hesab edirik ki, bu qabların bəzisi mətbəx qabları kimi yemək bişirilməsində, bəziləri isə, ehtimal ki, süd məhsullarının hazırlanmasında istifadə olunmuşdur.



Şəkil 14. Ağzının altı yuvarlaq dəliklərlə əhatələnmiş qaplar: 1-Ovçulartəpə, 2-Zirincli, 3-Şorsu, 4-Yeniyol.

Keramika məmulatının araşdırılması ikinci qrup keramikanın da Naxçıvanın Son Eneolit mədəniyyəti üçün xarakterik olduğunu göstərir. Belə ki, ikinci qrup üçün xarakterik olan bəzi tiplər, xüsusilə konusvari gövdəli çanaqlar və kiçikhəcmli qabarıqdövdəli kasalar Naxçıvanda Neolit və Eneolit dövründən mövcuddur. Ağzının altı deşiklərlə əhatə edilən, qulaqcıqşəkilli qulpları olan keramika isə bu dövr üçün yenidir. Ağzının altı deşiklərlə əhatə olunan qablar Cənubi Qafqazda müxtəlif abidələrdən aşkar olunmuşdur (Şəkil 14). Belə qablar Ovçulartəpədə 49, Şorsuda 19, Zirinclidə 14, Yeniyolda 18, Tumbultəpədə 35 ədəddir. Ovçulartəpədə bu tip keramikanın tərkibində saman qarışığı daha çoxdur. Digər abidələrdə isə qum və daş ovuğu üstünlük təşkil edir. Qabların səthi bişmədən öncə daraqşəkilli alətlə düzəldilmişdir. Ağız altı deşikli qabların Cənubi Qafqazda Aknaşen-Xatunarx (24, p. fig. 8-1-4), Arataşen-Mahaltəpə (44, p. 71, fig.3, 1-3), Texut (16, рис. 12, 5-6), Dağıstanda Qinçi (16, с. 112, рис. 13, 9), Şərqi Anadoluda Aştəpə, Çolpan (40, s. 319-356; 39, s. 1-20), Arslantəpə, Təpəcik (45, p. 82), Tülintəpə (Esin, 1993, p. 111, fig. 3,1), Yunanıstan, Balkanlar (29, s. 8-11),

İran (22, p. 33-165, fig. 13, 4-6), , Mərkəzi Avropa (6, c. 206-217) Fransa, Şimali Avropada İrlandiya və Hollandiyada (26, p. 240-249, fig. 8-10; 37, p. 295) və digər yerlərdə yayıldığı təsbit edilmişdir. Ağız kənarında qulaqçıqşəkilli qulpu olan qablar Ovçulartəpə (28, s. 10), Şorsu (12, s. 91-135), Zirincli (3, s. 68-72), Yeniyol (36, s. 29-52) yaşayış yerlərindən aşkar olunmuşdur. Bu tip keramika Gürcüstanda Sioni mədəniyyətinə aid abidələrdə Damstvari Qora (35, fig.3.13, 1), Kviritsvari Qora (35, fig.3.13, 3-4) yaşayış yerlərindən məlumdur. İranda Köhnə Pasqah Təpədə də belə qulplar vardır (41, p. 187-188, fig. 6, 1; fig. 7, 1, 2). Qulaqcıqşəkilli qulplar Ovçulartəpədə 2, Tumbultəpədə 9, Şorsuda 2 və Yeniyolda 3 nümunə ilə təmsil olunub. Qulaqcıqşəkilli qulplar Ovçulartəpə və Şorsudakı kimi bəzən qabın ağız kənarından yuxarıya doğru qalxmış şəkildə, bəzən də Yeniyol və Tumbultəpədəki kimi yana tərəf əyilmişdir. Ümumiyyətlə, bu tip qulaqcıqşəkilli qulplar bir-birindən fərqlənir. Ovçulartəpədə ağzının kənarı deşikli və qulaqcıqşəkilli qulpu olan qabların ən qədim nümunələri yarımqazma tipli evlərin içərisindən aşkar olunmuşdur. Yeniyol yaşayış yerində də bu tip qablar alt təbəqədən tapılmış və üzəri hislənmişdir (36, s. 41). Qəhvəyi və qara rəngli keramika nümunələrinə Xələc yaşayış yerində də rast gəlinmişdir (46, s. 63-78). Bu abidədə qəhvəyi rənglilərin boyalıları da aşkar olunmuşdur (46, foto 70). Qəhvəyi, yaxud şabalıdı rəngli keramika Muğan abidələrində də aşkar olunmuşdur (19, c. 125).

Üçüncü qrup keramika. Tumbultəpədən aşkar olunan üçüncü qrup keramika qara rəngdə bişirilmişdir (Şəkil 12, 5-7; Şəkil 15, 1-10). Onların gilinə narın, bəzən isə iri qum qatılmış, yaxşı bişirilmişdir. Keramika nümunələrinin bəzisi xaricdən qara rəngli olub çəhrayı astarlıdır. Bəzi keramika nümunələri isə boz-qara rəngdə bişirilmişdir. Bu qrupa aid keramika nümunələrinin bir qrupu xaricdən daraqvari alətlə düzəldilmiş, bəzilərinin gövəsində deşik açılmış, bəziləri isə qulaqcıqşəkilli qulpla təmin edilmişdir. Bu qrupa daxil olan keramika nümunələri azlıq təşkil edir, lakin onların hazırlanması və bişirilməsində Proto Kür-Araz keramikasının xüsusiyyətləri izlənməkdədir. Bu tip keramika Naxçıvan abidələrindən (7, c. 105-107), Muğan-Qarabağ düzənliyində Qarahacı, Cüttəpə yaşayış yerlərindən məlumdur (13, tab. 8, *5, 11*).

Araşdırmalar Naxçıvanın Son Eneolit abidələrində qırmızı-sarı, qəhvəyi və qara-boz rəngli keramikanın yayıldığını göstərir. Lakin qırmızı rəngli keramika üstünlük təşkil etmişdir. Belə hesab edirik ki, qəhvəyi və qara rəngli keramika daha çox mətbəx və təsərrüfat qabları kimi istifadə olunmuşdur.

Cənubi Qafqazın Sioni tipli keramikası. İkinci qrup keramikada Sioni keramikasının əlamətləri izləndiyindən bu tip keramikanın da nəzərdən keçirilməsi məqsədəuyğundur. Yuxarıda qeyd etdiyimiz kimi, bəzi tədqiqatçılar Cənubi Qafqazın Son Eneolit mədəniyyətini Sioni mədəniyyəti kimi dəyərləndirmişlər. Sioni yaşayış yeri 1975-ci ildə aparılan arxeoloji qazıntılar nəticəsində 32 kv.m. sahədə öyrənilmişdir. Yaşayış yerindən daşdan inşa olunmuş dairəvi formalı evlərin qalıqları, çox sayda obsidian, çaxmaqdaşı və keramika aşkar olunmuşdur. Arxeoloji materiallar M.Menadbe və T.Kiquradze tərəfindən nəşr edilmiş, Sioni keramikasının xarakterik xüsusiyyətləri Sioni mədəniyyəti kimi qiymətləndirilmişdir (17, c. 115). T. Kiguradze və A.Saqonanın fikrinə görə, Cənubi Qafqazın Beriklideebi, Texut, Qinçi, Çopi, Delisi, Şərqi Anadoluda Sos yaşayış yerlərinin keramikası mika, qum, kvars qarışığından hazırlanmışdır (35, p. 48). Bu tip keramikada saman və obsidian qarışığı da istifadə olunmuş, lakin çox populyar olmamışdır. Onların fikrinə görə, Cənubi Qafqazın qərb (Samele Klde), mərkəzi (Treli, Grmakhevistavi) və cənubunda (Texut, Əlikömək təpə) samanlı keramika geniş yayılmışdır. Obsidian qarışıq keramika (grog ceramic) Tbilisi ətrafında, Delisi, Treli və Grmakhevistavi yaşayış yerlərindən məlumdur. Tədqiqatçilar Sioni keramikasını dörd qrupa bölərək təsvir etmişlər. Onların fikrinə görə, başlıca olaraq anqoblanan və sərt bişirilən Sioni tipli keramikanın rəng tonları solğun qəhvəyi, qırmızı və sarı arasında dəyişmişdir (35, p. 48). Sioni keramikasının əksəriyyəti üçün xaricdən, bəzən isə içəridən daraqlama, ağız kənarının çərtmələrlə naxışlanması xarakterikdir (17, c. 115) C qrupunda Proto Kür-Araz keramikası üçün xarakterik olan qara, yaxud tünd boz anqobla örtülən keramika da aşkar olunmuşdur. Keramika nümunələrinin kəsiyində iki, bəzən isə üç müxtəlif

rəngə rast gəlinir ki, bu da onların yaxşı oksigen almadığını göstərir. Sos höyükdə bir neçə nümunə ilə təmsil olunan bu tip keramikanın üzəri cilalanmış, yaxud hisləmiş və kələ-kötürdür. Khizanaant Qora, Berikldeebi IV və Qinçidən olan bəzi nümunələr nazikdivarlı olmaqla yaxşı cilalanmış və yaxşı bişirilmiş, digərlərinin səthi isə daraqlanmış və ağız kənarı çərtmələrlə naxışlanmışdır (35, p. 48-49). Yumurtagövdəli, düz boğazlı, ağzının kənarı xaricə qatlanmış şişgövdəli və yastı oturacaqlı qablar Sioni üçün xarakterik hesab edilir. Bəzi oturacaqlarda səbət basqısı vardır (35, p. 49). Sioni keramikası, xüsusilə A qrupu üçün, həmçinin ağzının kənarı dalğaşəkilli olan qablar da xarakterik olmuşdur (35, fig. 3.6, 3.7, 3.8). Lakin tədqiqatçıların özlərinin də qeyd etdiyi kimi, ağız kənarı naxışlanmış keramika Cənubi Qafqazın Eneolit keramikasında çox azdır (35, p.50).

Leylatəpə mədəniyyətində olan bu tip keramika "*kobud keramika*" adlandırılmışdır (20, c. 46-49). Sioni tipli keramika Azərbaycanın, o cümlədən Naxçıvanın Son Eneolit keramikasında çox azdır. R.Munçayev və Ş.Əmirovun fikrinə görə, Leylatəpə mədəniyyətinin 25%-i avtoxton Sioni-Çopi mədəniyyətinə aid keramika məmulatından ibarətdir (15, c. 129). Lakin N. Müseyiblinin fikrinə görə, Sioni və Leylatəpə fərqli mədəniyyətlərdir (43, s. 245-250). Qeyd etmək istəyirik ki, Sioni keramikası cilalı olduğu halda, Tumbultəpə keramikası cilasızdır. Ağız kənarı çərtmələrlə naxışlanan keramika Tumbultəpədə bir nümunə ilə, Ovçulartəpədə ağız kənarı çərtməli 9 nümunə,Yeniyol (36, s. 43, şekil 11), Zirincli və Şorsuda isə bu tip keramika tək-tək nümunələrlə təmsil olunub (28, s. 6-15). Ağız kənarı dalğaşəkilli qablar Tumbultəpədə aşkar olunmayıb. Bu tip qablar yalnızca üç nümunə ilə Ovçulartəpəsindən məlumdur. Qum qarışıq cilalı "*Sioni keramikası*" Ovçulartəpədə 8 nümunə ilə təmsil olunub (2, s. 12). Ovçulartəpə, Zirincli, Şorsu qablarının araşdırılması bu tip qablarda qum və daş qarışığı ilə yanaşı, saman qarışığının da olduğunu təsdiq etmişdir (28, s. 8-11). Obsidian qarışığı Ovçulartəpədə yalnız bir keramikada rast gəlinmişdir (2, s. 12). Naxçıvan abidələrindən aşkar olunan ağız kənarı deşikli və qulaqçıqşəkilli qulpları olan qablar da cilasızdır və qeyd etdiyimiz kimi onların xarici səthi hislə örtülmüşdür. Qısaca desək, "*Sioni keramikası*" üçün standart olan dalğavari və qravürlənmiş ağız kənarları Tumbultəpədə və Naxçıvanın digər abidələrində azlıq təşkil edir.

Sioni tipli keramikanın xronologiyası. Qeyd etdiyimiz kimi, birinci qrupa aid saman qarışıq keramika Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Neolit və Eneolit abidələrindən məlum olsa da, ikinci qrup keramikanın xronologiyasını dəqiqləşdirməyə ehtiyac var. İkinci qrup keramikanın fərqləndirici xüsusiyyəti onların ağız kənarının, yaxud gövdəsinin deşiklərlə çevrələnməsi və bəzilərində qulaqcıqşəkilli qulpların olması və xarici səthinin daraqvari alətlə düzəldilməsidir. Qeyd etmək istəyirik ki, qabların səthinin daraqvari alətlə düzəldilməsi Cənubi Qafqada Neolit dövründən məlumdur. Bu texnika Naxçıvanda, həmçinin Erkən və Orta Eneolit abidələrindən də məlumdur (10, p. 96-109). Qabların gövdəsinin deşilməsinə Neolit dövründə rast gəlinsə də Eneolit dövründə Neolit dövründən fərqli olaraq deşiklər bişmədən öncə açılmışdır (9, c. 39). Bu tip qablar olduqca müxtəlif dövrlərə aiddir. Belə keramika məmulatı Mərkəzi Avropada, Macarıstanda Neolit dövrünə aid Böyük mədəniyyətindən məlumdur. Bu mədəniyyət e. ə. 4870-4790-cı illərə aid edilmişdir (6, c. 231). Menteştəpədən tapılan bu tip keramika e. ə. V minilliyin birinci yarısına, e. ə. 4800-4600-cü illərə aid edilir (38, p. 97-98, fig. 142).

Bu tip keramika Aknashen-Xatunarx yaşayış yerində I təbəqədən aşkar olunmuş, lakin karbon analizlərinin nəticələri verməmiş, nisbi xronologiya tətbiq edilmişdir (24, p.193). Arataşen-Mahaltəpə yaşayış yerinin Eneolit təbəqəsi də karbon analizlərin nəticələri ilə deyil, müqayisəli araşdırmalarla tarixləndirilmiş və e. ə. 4250-4000-cü illərə aid edilmişdir (44, p. 75). T. Kiquradze və A. Saqona, həmçinin digər tədqiqatçılar karbon analizləri olmadan Erkən Eneoliti e. ə. 4800-4000, Son Eneoliti e. ə. 4000-3200/3100-cü illərə aid etmişlər (35, p. 40; 27, p. 30). Sioni yaşayış yerini araşdıran M.Menadbe və T. Kiquradze Sioni keramikasının Cənubi Qafqazın Neolit mədəniyyətlərindən fərqləndiyini göstərmiş, Siooninin xarici səthi daraqlanmış keramikasını e. ə. IV minilliyin ortaları ilə tarixləndirilən Əlikəməktəpənin üst təbəqəsi, III Keçili yaşayış yerləri ilə müqayisə

etmişdir (17, c.116-117). M.Menadbe və T.Kiguradze Sioni tipli abidələri e. ə. V minilliyin sonu və e. ə. IV minilliyin əvvəli ilə tarixləndirmişdir (17, c. 114) Bu tip keramikanın yayıldığı abidələrin tarixi Naxçıvanda karbon analizlərlə daha yaxşı öyrənilmişdir. Ovçulartəpə yaşayış yerinin bu tip qabların tapıldığı birinci təbəqəsi e. ə. 4350-4250 (2, s.12), Zirincli e. ə. 4200-3700 (28, s. 7), Şorsu e. ə. 3910-3870 (23, s. 122), Tumbultəpə e. ə. 3946-3860-cı illərə aid edilmişdir. Məlum olduğu kimi, araşdırmalar zamanı Naxçıvanda Son Neolit və Son Eneolit dövrü arasındakı boşluğu dolduran abidələr aşkar olunmuşdur (23, p. 255-306). Lakin bu abidələrdən qulaqcıqşəkilli qulpu olan və ağız kənarı deşiklərlə əhatələnmiş keramika aşkar olunmamışdır.



Şəkil 15. Qara rəngli keramika.

Bu tip qabların yayıldığı abidələrin tarixinə baxılarsa, onların başlıca olaraq e. ə. V minilliyin ortaları və ikinci yarısından e. ə. IV minilliyin əvvəllərinədək istifadə olunduğunu demək olar. Həmin tip keramika e. ə. IV minilliyin əvvəlində daha geniş istifadə olunmuş və müxtəlif tipli olmuşdur. Geniş bir coğrafiyada yayılan bu tip qablar formaca çox fərqlidir və bir-birini təkrar etmir. Menteştəpədən aşkar olunan nü-

munəyə gəldikdə isə belə hesab edirik ki, bu tapıntının tarixi və konteksti dəqiqləşdirilməlidir.

Tədqiqatçılar tapıntıların xronologiyasını nəzərə alaraq onların Anadolu və Şərqi Egey adalarından qərbə, buradan şimala yayıldığını yazmışdır (47, p. 242). Lakin digər tədqiqatçılar tapıntıların xronologiyasına əsaslanaraq bu tip qabların Cənubi Qafqazdan yayıldığını söyləmişdir (28, s. 57). Belə hesab edirik ki, qədim dünyanın müxtəlif yerlərində ortaya çıxan bu tip keramikanı eyni bir mədəniyyətə aid etmək olmaz. Müxtəlif dövrlərə aid və müxtəlif xüsusiyyətlərə malik keramikanın eyni mərkəzdən yayılması ilə bağlı fikirlərin irəli sürülməsi əlavə faktlar tələb edir.

Ovçulartəpə dəniz səviyyəsindən 878 m, Tumbultəpə 833 m, Yeniyol 954 m, Şorsu 1050 m, Sərinbulaq 1200 m, Zirinclik 1360 m yüksəklikdə yerləşmişdir. Bu göstərir ki, bu tip qabların aşkar olunduğu yaşayış yerləri başlıca olaraq əkinçilik və köçmə maldarlıq üçün əlverişli olan mövqelərdə salınmışdır. Zirincli, Şorsu, Yeniyol və Tumbultəpədə mədəni təbəqənin az yığılması bu yaşayış yerlərində həyatın mövsümi xarakter daşıdığını göstərir.

Nəticə. Araşdırmalar sübut edir ki, Cənubi Qafqazın müxtəlif regionlarında yayılan Son Eneolit mədəniyyəti ortaq xüsusiyyətlərə malik olmuşdur. Lakin, istər saman, istərsədə qum qarışıq keramika Cənubi Qafqazın bütün bölgələrində Neolit dövründən başlayaraq mövcud olmuşdur. Tədqiqatlar göstərir ki, Tumbultəpə yaşayış yerinin birinci qrup keramikası yerli ənənələr əsasında inkişaf etmiş və yeni xüsusiyyətlər qazanmışdır. Cənubi Qafqazın mərkəzi və cənubunda yayılan saman qarışıq keramikanı Sioni keramikası adlandırmaq, fikrimizcə, doğru deyildir. Tumbultəpə yaşayış yerində ikinci qrupa daxil olan keramika isə bəzi xüsusiyyətlərinə görə Sioni keramikası ilə bənzərdir. Lakin tədqiqat göstərir ki, bu tip keramika ayrıca bir mədəniyyət yox, Son Eneolit mədəniyyətinin tərkib hissəsi olmuşdur. Belə hesab edirik ki, keramika məmulatının bu cür müxtəlifliyinin səbəbi onların funksional təyinatı ilə bağlıdır.Tədqiqat göstərir ki, Tumbultəpə, Ovçulartəpə, Zirinclik, Şorsu və Yeniyol kimi yaşayış yerlərində bu qrupa daxil olan qablar mətbəx qabları kimi istifadə olunmuşdur. Bir çox tədqiqatçılar həmin tip qabları *manqali* (ocaq) adlandırmışdır ki, bu da onların mətbəx qabları kimi istifadə edildiyini göstərir. Bu qablarının funksiyası ilə bağlı araşdırmaçılar müxtəlif fikirlər söyləsə də ümumi olaraq onların mətbəx və təsərrüfat qabları kimi istifadə olunduğunu qəbul etmişlər. Tədqiqatçılar tərəfindən "*kobud keramika*" adlandırılan bu tip qaba keramikanın idxal malı olaraq Cənubi Qafqazın müxtəlif regionlarına yayıldığını demək mümkün deyil. Cənubi Qafqazdakı Son Eneolit abidələrinin bir qrupunu Sioni-Çopi-Qinçi mədəniyyəti adlandırmaq mümkün olsa belə, bunu bütün Cənubi Qafqaz abidələrinə aid etmək, fikrimizə görə, doğru deyildir. Qeyd edək ki, ayrı-ayrı dövrlərdə və müxtəlif xarakterli abidələrdə yayılmış bu tip keramika yerli xüsusiyyətlərini görə birbirindən fərqlənir. Bu isə onların vahid bir mərkəzdən yayılmadığını sübut edir. Araşdırmalar bu tip keramika məmulatının insanların sosial-iqtisadi və təsərrüfat həyatı ilə bağlı olduğunu göstərir. Kür-Araz keramikasına gəldikdə isə bu tip keramikanın Son Eneolit dövründən başlayaraq formalaşması tamamilə mümkündür və onun araşdırılması ayrıca tədqiqat mövzusudur.

Ədəbiyyat siyahısı

1. Acar G.Z. Naxçıvan və Şərqi Anadolunun Son Eneolit mədəniyyəti. Naxçıvan: Tusi, 2021, 32 s.
2. Baxşəliyev V., Chaterine M., Aşurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.
3. Baxşəliyev, V.B. Zirincli Eneolit dövrünə aid yaşayış yerlərindən biridir // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2012, № 1, s. 68-72.
4. Baxşəliyev, V., Chaterine, M., Hamon, C., Aliyev, N., Dessaint, Ph., Sanz, S.Duzdağın qədim duz mədənləri, Naxçıvan: Əcəmi, 2012, 86 s.
5. Алиев Н., Нариманов И. Культура северного Азербайджана в эпоху позднего энеолита. Баку: Агрыдаг, 2001, 144 с.
6. Археология Венгрии (Каменный век) / Отв. ред.: В.С. Титов, И. Эрдели, М. Габори. Москва: Наука, 1980, 420 с.
7. Бахшалиев В.Б. Протокуро-аракская керамика Нахчывана // РА, 2013, № 3, с. 105-107.

8. Бахшалиев В.Б.Новые энеолитические памятники на территории Нахчывана // Российская археология. 2014, № 2, с. 88–95.
9. Бахшалиев В.Б. Новые данные о поселении Кюльтепе I в Нахчыване // Российская археология, 2016, № 3, с. 38-41.
10. Бахшалиев В.Б. Археологические исследования поселения Нахчывантепе // Российская археология, № 2, 2019, с. 96-109.
11. Бахшалиев Э.В., Бахшалиев В.Б. Неолитический слой поселения Нахчывантепе // Российская археология, 2021, № 2, с. 186-196.
12. Бахшалиев В.Б. Археологические раскопки на поселении Кюльтепе I // Российская археология, 2022, № 1, с. 139-152.
13. Джафаров Г.Ф. Азербайджан в конце IV и начале I тысячелетий до н.э. (на азерб. яз.). Баку, 2000, 188 с.
14. Джапаридзе О. На заре этнокуьтурной истории Кавказа. Тбилиси: Издательство Тбилисского Университета, 1989, 423 с.
15. Мунчаев Р. М., Амиров Ш. Н. Лейлатепинская культура и Кавказ**. Кавказ как связующее звено** между Восточной Европой и Передним Востоком: диалог культур, культура диалога (к 140-летию Александра А. Миллера) Санкт-Петербург, 2015, с. 128-131.
16. Мунчаев Р.М. Кавказ на заре бронзового века. М.: Наука. 1975, 478 с.
17. Менадбе М., Кигурадзе Т. Археологические памятники села Сиони. Тбилиси: Мецниереба, 1981, 142 с.
18. Нариманов И.Г. Обеидские племена Месопотамии в Азербайджане. Тез. Всесоюз. архолог. конфер. Баку: Элм, 1985, с. 271.
19. Нариманов И.Г. Культура древнейшего земледельческо- скотоводческого населения Азербайджана. Баку: Элм, 1987, 260 с.
20. Нариманов И.Г., Ахундов Т.И. , Алиев Н.Г.Культура Лейлатепе, Баку, 2007, 128 с.
21. Черленок Е.А. Археология Кавказа (мезолит, неолит, энеолит). Учебно-методическое пособие. СПб, 2013, 54 с.
22. Abedi A., Khatib, Shahidi H., Chataigner , Ch., Niknami, K., Eskandari, N., Kazempour, M., Pirmohammadi, A., Hoseinzadeh, J. and Ebrahimi Gh. "Excavation at Kul Tepe of (Jolfa), North-Western Iran, 2010: First Preliminary Report", Ancient Near Eastern Studies, 2014, 51: 33-165.
23. Bakhshaliyev V. Archaeology of Nakhchivan in the light new discoveries. Nakhchivan: Ajami, 2022,372 p.
24. Badalyan R., Harutyunyan A., Chataıgner Ch., Le Mort F., Brochıer J., Balasescu A., Radu V., Hovsepyan R. The Settlement of Akhnashen-Khatunarkh, A Neolitic Site in the Ararat Plain (Armenia): Excavation Results 2004-2009 // TUBA-AR, 2010, 13, p. 185-218.
25. Derin Z. and Caymaz T. The Chalcolithic period at Yeşilova Höyük, Communities in transition the Circum Aegean area during the 5 th and 4th millennia BC. Edited by Soren Dietz, Fanis Mavridis, Žarko Tanosic and Turan Takaoğlu. Oxford, 2017, p. 499-505.
26. Camps Gabriel ve E. Rostan,Les poteries a perforations en ligne a proposdu facies terrinien du Chalcolithique corse,Bulletin de la Societe Prehistorique française, cilt 79, 8, 1982, p. 240-249.
27. Connor S., Sagona A. Environment and society in the late prehistory of southern Georgia, Caucasus // Les Cultures du Caucase (VI-III millenaires avant notre ere): Leurs Relations avec le Proche-Orient / Sus la direction Bertille Lyonnet. Paris: CNRS Edutions, 2007, p. 21–36.
28. Emre E. MÖ 5. ve 4. Bin yıl Nahçıvan Mangaly Kapları. Yüksek Lisans Tezi. İzmir, 2017, 310 s.
29. Esin U. The relief decorations on the Prehistoric pottery of Tülintepe in Eastern Anatolia / In M. Frangipane, H. Hauptmann, M. Liverani, P. Matthiae and M. Mellink (ed.), Between the Rivers and over the Mountains. Roma: Università di Roma "La Sapienza", 1993, p. 105-122.

30. Gülçur, S., Marro C. The view from the north: comparative analysis of the Chalcolithic pottery assemblages from Norşuntepe and Ovçular Tepesi // After the Ubaıd: Interpreting Change from the Caucasus to Mesopotamia at the Dawn of Urban Civilization (4500-3500 BC). Paris, 2012, p. 305-352.
31. Khademi N.F., Abedi A., Glascock M. D., Eskandari N. and Khazaee M. Provenance of prehistoric obsidian artifacts from Kul Tepe, Northwestern Iran using X-ray fluorescence (XRF) analysis //Journal of Archaeological Science, 2013, 40, p. 1956-1965.
32. Hauptmann H. Die Grabungen aus dem Norsuntepe, 1973 // In Keban Project 1973 Activities, METU, Ankara: Keban Project Publications, Series I, 1979, № 6, p. 61-78.
33. Heidenreich, R. Vorgeschichtliches in der Stadt Samos. Die Funde. Athenische Mitteilungen 1935-36, 60-61, s. 125-201.
34. Kiguradze, T. « The Chalcolithic-Early Bronze transition in the Eastern Caucasus » in C. Marro et H. Hauptmann (ed.): Chronologies des Pays du Caucase et de l'Euphrate aux IVème-IIIème millénaires, 2000, p. 321-328.
35. Kiguradze T., Sagona A. Archaeology in the Borderlands: Investigations in Caucasia and Beyond, edited by A. T. Smith and K. Rubinson, 2003, pp. 38–94.
36. Kuliyeva Z., Bahşeliyev V. Nahçıvan'ın Kalkolitik Çağ Kültürü (Azerbaycan) // TUBA-AR, 23, 2018, s. 29-52.
37. Nowicki K. Final Neolithic Crete and the Southeast Aegean,De Gruyter, Germany, Berlin, 2014,412 p.
38. Lyonnet B. and Guliyev F., Helwing B. and Aliyev T., Hansen S. and Mirtskhulava G. Ancient Kura 2010–2011: The first two seasons of joint field work in the Southern Caucasus // AMIT, 44, 2012, p. 1-190.
39. Özfırat, A., Marro, C. 2004 Yılı Van, Ağrı ve İqdır İlleri Yüzey Araştırması // – Ankara: Türk Arkeoloji ve Etnografi Dergisi, 2007, 7, s. 1-20.
40. Marro C. and A. Özfirat. Pre-classical Survey in Eastern Turkey. Third preliminary Report : the Dogubeyazit region // Anatolia Antiqua, Paris, 2005, XIII, p. 319-356
41. Maziar, S. Excavations at Kohne Pasgah Tepesi, the Araxes Valley, the Northwest Iran: First Preliminary Report // ANES, 2010, 47, p. 165-193.
42. Müseyibli N. The Chalcolithic settlement Böyük Kesik. Bakı: Nafta-Press, 2007,228 c.
43. Müseyibli N.Leylatepe culture. Bakı: Elm və Təhsil, 2020, 576 s.
44. Palumbi G. A Preliminary Analysis on the Prehistoric Pottery from Aratashen (Armenia). // Les Cultures du Caucase (VI-IIIème millénaires avant notre ère). Leurs Relations avec le Proche-Orient / Sus la direction Bertille Lyonnet. Paris: CNRS Editions, 2007, p. 63-76.
45. Palumbi,G.A 'The Role Of Pastoral Communıtıes Of The Upper Euphrates Regıon In The Expansıon Of The Kura-Araxes Culture", Internatıonal Symposium On East Anatolia South Caucasus Cultures,Proceedings 1, 2015, p. 78-88.
46. Seyidov A, Baxşəliyev, V., Mahmudova V., Xələc. Bakı. Elm, 2010, 216 s.
47. Sampson A. The Neolithic of the Dodecanese and Aegean Neolithic // The Annual of the British School at Athens, 1984, 79, s. 239-247.
48. Sampson A. The Neolithic Settlement at Yali, Nissiros, Athens : Euboiki Arxaiothilos Etaireia, 1988. 280 p.

Резюме

Вели Бахшалиев, Назахат Джейлан, Эльмар Бахшалиев, Хейран Гасанова

Керамики типа сиони на Южном Кавказе в контексте археологических раскопок в поселении Тумбултепе

Многие ученые-кавказоведы дают общее название позднеэнеолитической культуре Южного Кавказа: ее иногда называют культурой Сиони, иногда культурой Сиони-Чопи, иногда керамикой Сиони, а иногда культурой Сиони-Чопи-Гинчи. Однако в поселениях Нахчывана керамика типа Сиони очень мало распространена. Изучение материально-культурных образцов, а особенно керамических изделий новораскопанного поселения Тумбултепе и других памятников Нахчывана, очень важны с точки зрения разъяснения вопросов, связанных с позднеэнеолитическими культурами Южного Кавказа, в том числе с культурой Сиони. Даже если группу памятников позднего энеолита на Южном Кавказе можно назвать культурой Сиони-Чопи-Гинчи, то, на наш взгляд, некорректно приписывать это всем памятникам Южного Кавказа.

Ключевые слова: *Южный Кавказ, культура Сиони, Нахчыван, Тумбултепе, поздний энеолит.*

Summary

Veli Bakhshaliyev, Nezahat Ceylan, Elmar Bakhshaliyev, Heyran Hasanova

The sioni type ceramics in the south caucasus in the context of archaeological excavations at Tumbultepe settlement

Many Caucasian scholars give a general name to the Late Chalcolithic culture of the South Caucasus: it is sometimes called the Sioni culture, sometimes the Sioni-Chopi culture, sometimes the Sioni ceramics, and sometimes the Sioni-Chopi-Ginchi culture. However, Sioni type ceramics are very rare in the settlements of Nakhchivan. The study of material and cultural samples, and especially ceramics from the newly excavated settlement of Tumbultepe and other monuments of Nakhchivan, is very important from the point of view of clarifying issues related to the Late Chalcolithic cultures of the South Caucasus, including the Sioni culture. Even if it is possible to call a group of Late Chalcolithic monuments in the South Caucasus the Sioni-Tsopi-Ginchi culture, it is not correct, in our opinion, to attribute this to all the monuments of the South Caucasus.

Keywords: *South Caucasus, Sioni culture, Nakhchivan, Tumbultepe, Late Chalcolithic.*

UOT 321. 01; 340. 11:1
https://doi.org/10.59849/2710-0820.2024.1.247

Əntiqə Paşayeva
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
"Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi"
şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent.
pashayeva.ph@mail.ru

ETİKA VƏ HÜQUQ: HÜQUQİ MƏNBƏLƏRDƏ ADƏT-ƏNƏNƏNİN ETİK FUNKSİYASINA FƏLSƏFİ VƏ HÜQUQİ BAXIŞ

Giriş. Adət-ənənənin necə və nə zaman yaranması filosofların və hüquqşünas filosofların bəhs etdiyi əsas mövzudur. Adət-ənənə qanunverici orqan tərəfindən yaranmamış, zaman keçdikcə formalaşmışdır, yəni sonradan zühur edən bir fenomen deyil, əksinə, hüquq elmləri və adət-ənənə arasında çox qədim zamanlardan bağlılıq mövcuddur; məhz buna görə də iddia etmək olar ki, adət-ənənə hüququn ən qədim fenomeni olaraq hüquq elminin həm təzahürü, həm də müdafiəçisi kimi tanınır. Tarix baxımından nəzər salsaq görərik ki, tarixi mənbələrdə adət-ənənə hüququn ilk mənbəyi olmuşdur. Adət-ənənələr tədricən toplanılmış, qanunlarda və məhkəmə qərarlarında sistemləşmişdir; bununla belə, hətta qanuni quruluşlarda və məhkəmə sistemində də mövcud olmuşdur. Elə buna görə də bəzən suallar yaranır: hüquqi mənbələrdə adət-ənənənin funksiyası dedikdə hansı müddəalar nəzərdə tutulur? Adət-ənənə hüququn və hüquqi qaydaların yaranma mənbəyi ola bilərmi? Digər mühüm bir sual da bundan ibarətdir ki, vətəndaş hüququnda adət-ənənənin rolu nədən ibarətdir? Filosof və hüquqşünas filosoflar hüquqi mənbələrdə adət-ənənənin xüsusi rolu olduğunu yazmışlar. Onların nəzərində hüquqi qaydanın yaranma mənşəyi olan hər hansı bir qüvvə hüquqi mənbə adlanır; hüquqi sistemlərin əksəriyyətində adət-ənənə hüquqi qaydaların yaranma mənbəyi hesab olunur. Hazırkı tədqiqatda hüquqi mənbələrdə adət-ənənənin funksiyasını daha dərindən bilmək üçün tədqiq olan mövzulara diqqət etmək zəruridir.

Tədqiqatın hədəfi. Adət-ənənə ilə bağlı mühüm məsələlər mövcuddur ki, bunların araşdırılıması bir sıra suallara cavab verir. Adət-ənənə bir nəsildən digər bir nəsilə ötürülən adi bir davaranış deyil, bəlkə hüquq sistemində funksiya daşıyıcısıdır. Buna görə də hazırkı mövzuda adət-ənənə dedikdə, insanlar arasında yayılmış müxtəlif adət və vərdişlərdən söhbət getmir, burada məhkəmə sistemində və qanunvericilkdə qanuni funksaya daşıyan etik bir qüvvə nəzərdə tutulur. Hazırkı dövrdə aktual hesab olunan belə bir mövzunun araşdırılması təkcə fəlsəfə və hüquq sahələri üçün deyil, həm də cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edir.

Mövzunun tədqiqi və təhlili. Qeyd etmək lazımdır ki, qanunların yaranması xüsusi bir dövrə təsadüf edir. Bu, elə bir dövrdür ki, həmin dövrdə dövlət və hökumət qurumları yaranmışdır. İnsan kütləsindən ibarət olan cəmiyyətlər bütün hallarda və hər yerdə hüquq və qanunla birlikdə olmuş, ona riayət etmişlər. Nəzərə almaq lazımdır ki, qanunverici orqan yaranmazdan əvvəl hüquq mövcud olmuşdur, lakin qanunverici orqan hüquq normalarını təyin etməzdən əvvəl insanlar arasında adət-ənənə formasında özünü göstərmişdir. İbtidai və sadə insanlar arasında olan ictimai münasibətlər təbii ki, adət-ənənə olmadan mövcud ola bilməzdi. Çünki bir tərəfdən insan təbiəti mahiyyət etibarilə adətləri qəbul edir və ona tərəf gedir, yəni insan təbiəti elə yaranmışdır ki, bir dəfə etdiyini təkrarlamağa meylli olur və bunu ezoterik (ezoterika: özünü kəşf etmək, həyatın mahiyyətini yaxından dərk etmək; ezoterika, insanın gizli imkanlarını və kainatın sirlərini dərk etməyin bir yoludur; internet resursu) istəklərinə və tələblərinə uyğun hesab edir; digər tərəfdən isə o dövrdə yazmağı tələb etməyən vəziyyət istisna olmaqla, insanların hüququnu tənzimləyən başqa bir vasitə yox idi. Buna görə də insanların ictimai yaşayış tarixinə, yəni daha uzaq dövrlərə nəzər salsaq, bunları köklü şəkildə mütaliə

edib araşdırsaq, adət-ənənəyə uyğun formada təzahür edən güclü və sabit ailə sisteminin şahidi olacağıq.

Etika və hüquq baxımından adət-ənənəni fəlsəfi və hüquqi aspektdə araşdırarkən mühüm məsələlərlə qarşılaşırıq. Bəzi müəlliflərin gəldiyi nəticə də məhz buna işarə edir. Onlar adəti hüquq normaları ilə əlaqələndirərək Misir qanunvericiyilində mövcudluğunu bildirmişlər: "hüququn qədim mənbəyi adət hüquq normaları olub və sonralar zəruri olan bu normalar Misir qanunvericilinyində təsbit olunmuşdur. Bu normaların bəziləri sonrakı dövrlərdə də saxlanıldı" (12. s. 26). Hazırkı dövrümüzdə də olduğu kimi dünyanın müxtəlif yerlərində mövcud olan ibtidai cəmiyyətlərin həyat sistemi adət-ənənə ilə bağlıdır. Bu, əsrlər boyu mükəmməl həyat yolu keçən, indi ən yüksək sivilizasiyada yaşayan ilk mədəni etnik xalqların dövrünə işarədir. Hətta hüquqşünas filosoflar hüququn yaranmasında və formalaşmasında adət-ənənənin hədsiz təsiri olduğunu yazırlar: "hüquq daha çox adətlə, yəni müəyyən bir işin ortaya çıxmasında, daim xüsusi bir qaydaya riayət olunmasında, həmçinin adət halına gəlməsinə vərdiş etməklə formalaşır. Həmin müəyyən olunmuş qaydalar tədricən insanların zehnində daim və təkrar olaraq xüsusi təsir qoyur ki, bu, hüquq qaydaların əsası (kökü) hesab olunur" (7. s. 279). Hüquq baxımından adət-ənənə yazılmamış qaydalardır ki, ümumi, xüsusi, daimi və müstəqil olaraq insanların iradəsindən doğur və bunun yaranmasında dövlətin heç bir fəaliyyəti və rolu mövcud deyil, lakin məhkəmələrdə icra olunması üçün hökumət tərəfindən rəsmi şəkildə tanınmalıdır (10. s. 85). İnsanların iradəsindən yaranan adət-ənənə Monteskyunun düşüncəsində də özünü göstərir. O, adət-ənənənin yaranmasını ictimai kütlə ilə əlaqələndirir : "konstitusiyanın təməlini qanunverici orqan qoyur, ancaq adət-ənənəyə gəldikdə isə bunun təməli geniş ictimaiyyət tərəfindən qoyulur" (21. s. 14). Digər mənbələrin yazdığına görə isə adət-ənənə bir çox hallarda hüquqi mənbələrdən irəlidə olmuşdur. Qədim mənbə və qanunlarda, o cümlədən Hammurapi qanunlarında, Yəhudilikdə, Maniheizmdə, qədim Hindistan və Afina qanunlarında bunu görmək mümkündür (5. s. 99). Bundan əlavə, bəzi hüquqi sistemlərdə məsələn, Anqlosakslarda (ing: Anglo-Saxons) qanundan əvvəl adət-ənənə hüququn ilk və əsas mənbəyi hesab olunur. Amma yazılı hüquq sistemi olan ölkələrdə isə adət-ənənə qanundan sonra gəlir, yəni ikinci dərəcəli mənbə hesab olunur. Ustad Nasir Katuzyanın fikrincə, hazırkı dövrümüzdə qanunlar adət-ənənəyə əsasən toplanılmışdır (19. s. 471).

Hüquqi mənbələrdə adət-ənənənin etik funksiyasına gəlincə, hüquqşünas filosoflar adət-ənənəni hüququn, qanunun, məhkəmə prosesinin həmçinin hüquqi doktrinanın kənarında hüququn mənbələrindən biri hesab edirlər. Belə olan halda adət-ənənənin vətəndaş haqlarında da təsirini görmək mümkündür, çünki vətəndaş haqları vətəndaşlıq anlayışının həyata keçirilməsinin bir funksiyasıdır. Adət-ənənələr həm etik, həm də qanunların təsdiq edilməsi ilə vətəndaş haqlarının rəsmi şəkildə tanınmasının əsas mənbələrindən biri hesab olunur. Nəzərə almaq lazımdır ki, vətəndaş haqları dövlət tərəfindən yaradılmır, bəlkə dövlət bu hüquqa riayət etməli və onu qorumalıdır. Qanunlar, xüsusilə konstitusiya (vətəndaş hüququnun qorunması) ümumi qaydaları ehtiva edir və bu qanunlar adət-ənənədən qaynaqlanır (4. s. 96). Adət və ənənənin vətəndaş hüququnda təsirindən bəhs edərkən bunu da demək lazımdır ki, adətlər-ənənələr zaman keçdikcə tədricən ictimai dəyərlərə çevrildi və hətta insanlar arasında ictimai dəyərlərin formalaşmasına səbəb oldu. İnsan həyatı üçün zəruri olan məsələlərin dəyişməsi və inkişafı (insanların yaşayış səviyyəsi, tərzi, mədəni inkişafı, irəliləyişi, yeni fikirlərin yaranması və digər məsələlər) müxtəlif məsələlərdə, o cümlədən vətəndaş hüququnda da özünü göstərir. Mövzu ilə bağlı məsələlərə və yuxarıda qeyd olunan suallara daha ətraflı cavab vermək üçün ilk olaraq adət-ənənə sözlərinin lüğətdə və mövzuda işlənmə mənalarına diqqət etməliyik.

Adət-ənənə: lüğətdə və mövzuda işlənmə mənası

Adət (ing: custom, common; frans: coutume; ənənə, ing: customs) ərəb sözü olaraq lüğətdə "mərifət", "yaxşı", "yaxşılıq", "öyrənmiş", "adət etmiş", "həmsöhbət", həmçinin "qayda" və "tanınmış" mənaları bildirir (6. s. 136). Digər mənası isə "məlumatlı olmaq", "bilik" və insanlar arasında daha çox yayılan və ümumi olan müəyyən bir şeyə deyilir. Mövzuda

işlənmə mənasına (istilah) gəldikdə isə İbn Nəcimin tərifinə görə adət-ənənə ruhla bağlı olan və daim təkrarlanan bir məfhumdur (9. s. 37). Digər tərifdə isə adət-ənənə insanların söylədiyi və ya etdiyi ümumi vərdişlərdir (16. s. 838). Adət-ənənə kütlə arasında həm əməldə (təcrübədə), həm də sözdə yayılan və daim izlənilən vərdişlərə deyilir (13. s. 1000). Adət-ənənə insanlar arasında yayılmış bir fenomendir; insanların cəmiyyətdə yaxşı və pis, xoşagəlməz, zərərli, cəmiyyət üçün ümumi olan praktik, bəzən danışma üsuludur (14. s. 50). Adət-ənənə dedikdə, əgər insan bir əməli (və ya davranışı) davamlı, müntəzəm və fasiləsiz olaraq təkrar edərsə, bu əməl onun üçün "vərdiş" halını alır və buna görə də onu yerinə yetirmək asanlaşır, amma tərk olunması da çətinlik yaradır və belə bir vərdişə "fərdi adət" deyilir. Cəmiyyətin digər üzvləri də eyni hərəkəti təkrar etdikləri üçün bu, ictimaiyyətdə ümumi adət (ing: usage – istifadə, işlətmə) halını alır.

Hüquqşünas filosofların nəzərində adət-ənənənin ictimai prinsipləri

Hüquqşünas filosofların fikrincə, adət-ənənənin kökləri qədim dövrə aiddir. Məhz buna görə də qədim Roma imperatoru *Yuliandan* (az.Yulian, Flavius Klavdius; Latin: Flavius Claudius Julianus; Greek: Ἰουλιανός Iulianos 331-363) nəql olunur: "adət-ənənə hüquqla bağlı olan çox qədim bir sözdür ki, insanların istək və tələblərindən irəli gəlir, qanuni güc və təsirə malikdir" (15. c. 1, s. s. 21). Adət-ənənə qədim dövrdən bəri insanlar və ya toplu arasında tədricən, bəzən də öz-özünə məcburi bir qayda olaraq göstərilir (18. s. 188). Göründüyü kimi hüquqi mətnlərdə adət-ənənə ictimaiyyətlə bağlı olan və ondan qaynaqlanan mühüm bir qayda olaraq tərif olunur. Hüquqşünasların fikrincə, adət-ənənəni qanunverici orqanın müdaxiləsi olmadan qanuni bir qayda hesab etmək olar; adət-ənənə hətta qayda və qanundan başqa, məhkəmə proseduru və hüquqşünas alimlərin fikirlərindən irəli gələn qaydalarla yanaşı hüququn digər mənbələrini də əhatə edir (18. s. 187-188). Bundan əlavə, qanun ictimai təhlükəsizliyi təmin etmək və qorumaq üçün adət-ənənəyə diqqət və riayət olunmasını vacib hesab edir və ona qarşı olan hər hansı bir itaətsizliyi ictimai nizam-intizamın və etik normaların pozulması səbəbi kimi dəyərləndirir (15. c. 1. s. 86).

Adət-ənənə ilə bağlı yuxarıda qeyd olunan məsələlər təbii ki, "daxili hüquq"la əlaqədardır, ancaq beynəlxalq ümumi hüquqda adət-ənənə fərqli şəkildə təqdim olunur. Burada adət-ənənələr dövlətlərin fəaliyyət və davranış tərzinə uyğun olaraq tərəflər arasında münasibətlərin qurulmasından, genişləməsindən həmçinin gedən proseslər əsnasında münaqişə və mübahisələrdən yaranır. Beynəlxalq münasibətlərdə dövlətlərin təkrarlanan fəaliyyəti nəticəsində qaydalara inam və etiqad yaranır ki, bu da tədricən onların müştərək əlaqələrində məcburi hesab olunur və mövcud dəyərlərin ölçü meyarı olaraq qəbul edilir. Müəllif də təsdiq edir ki, bu meyarlar beynəlxalq ümumi hüquq qaydalarının əsas prinsipləri hesab olunur (17. s. 174-175). Buna görə də Beynəlxalq Ədalət Məhkəməsinin Əsasnaməsinin 38-ci maddəsinin 2-ci bəndinə əsasən adət-ənənə hüquqi qayda olaraq dövlətlərin ümumi təcrübəsi kimi qəbul edilmişdir. Bu münasibətlər iki ölkənin razılığı əsasında qlobal, regional və ikitərəfli ola bilər (11. s. 43). Adət-ənənə beynəlxalq ümumi hüququn ilk mənbəyidir ki, beynəlxalq mübahisələrin həllində məhkəmə qərarlarının əsasını təşkil edir. Məhz buna görə də məhkəmə proseduru və adət-ənənə arasındakı əlaqəyə təkcə hüquqi deyil, həm də fəlsəfi nəzər salsaq faydalı olar.

Məhkəmə proseduru və adət-ənənə arasındakı əlaqəyə fəlsəfi və hüquqi yanaşma: Qeyd olunduğu kimi adət-ənənə hüquqi mətnlərdə zəruri bir məfhum olaraq tərif olunur. Nəzərə almalıyıq ki, adət-ənənənin yaranması qanunvericilikdən asılı deyil, yəni qanunverici orqan olmasa belə adət-ənənə mövcuddur. Bu, müstəqil şəkildə hüquqi qayda olaraq insanlar arasında zaman keçdikcə formalaşmış və onun icrası zəruri hesab olunmuşdur. Bəzən belə mülahizə olunur ki, məhkəmə proseduru və adət-ənənə hüququn mənbəyi olaraq zaman əsnasında yaranır və hər ikisi (məhkəmə proseduru və adət-ənənə) sistemləşmiş hüquqda qanuni müdafiəyə ehtiyacı vardır. Çünki qanun məhkəmə prosesini dayandırma, ləğv etmə və hətta adət-ənənəyə mənsub olan öhdəçiliyi xaric etmək səlahiyyətinə malikdir. Filosofların və hüquqşünas filosofların fikrincə isə hüququn mənbəyi iki hissəyə bölünür: qanun və adət-ənənə. Bura-

da adət-ənənə qanundan başqa hüququn bütün mənbələrinə şamil olunur və nəticədə məhkəmə prosedurunun bir hissəsi hesab edilir. Necə ki, adət-ənənələr insanlar tərəfindən yaranır və bir sıra öhdəçiliyə sahib olur. Məhkəmə prosedurunu da hökm, qərar, fikir və əqidə yaradır. Həqiqətən məhkəmə prosedudru hökmün, qərarın, fikir və əqidənin adət-ənənəsi – bir növ qaydası hesab olunur (çünki adət bir çox hallarda qayda olaraq tərif olunur ki, yuxarıda buna işarə olunub). Amma bəzi mənbələrdə bunların arasında (məhkəmə proseduru və adət-ənənə) ciddi fərqin olduğu bildirilir, hətta məhkəmə prosedurunun adət-ənənə çərçivəsində olmaması iddia olunaraq, sadəcə qanunların yaranmasında təməl kimi göstərilir. Müəllifin gəldiyi nəticə bundan ibarətdir ki, məhkəmə prosederuna, adət-ənənənin mahiyyətinə nəzər salsaq bunların mənşə baxımından fərqli olduğunun şahidi olacağıq. Bu iki məfhum arasında bütün oxşarlıqlara baxmayaraq, məhkəmə prosedurunu adət-ənənə daxilində müəyyən etmək olmaz. Çünki məhkəmənin gəldiyi nəticədə irəli sürülən hökm və qərarlarda qanundan, adət-ənənədən istifadə olunur, təbii ki, ən kiçik detallarına qədər izah olunur, müəyyən qərarlar verilir, amma çıxarılan hökm və qərarların hamısı uzun illər ərzində məhkəmə prosedurunun təsiri nəticəsində əldə olunur (3. s. 8-9). Təbii ki, bu müəllifin gəldiyi nəticədir, amma bizim yanaşmamıza əsasən, məhkəmə prosesi çıxarılan qərarların elmi əsaslara istinad etməyinin səmərəsidir, sabit və dəyişməyən qərarlar qəbul etmək üçün qanundan istifadə olunur. Məhkəmə proseduru, adət-ənənə hər ikisi qanunların yaranması üçün zəmin yaradır, yəni qanunların yaranmasında təməl və bünövrədir. Hətta bəzi qanunlar əvvəlki məhkəmə proseduru, adət-ənənədir ki, qanunverici orqan onu zaman ərzində hazırlayır və müəyyən qaydaya salır. Əlbəttə, unutmaq olmaz ki, həm məhkəmə proseduru, həm də adət-ənənə əxlaq normaları əsasında tənzimlənir. Burada adət-ənənəyə və əxlaq normaları arasında olan nisbətə, fərqli aspektlərə diqqəti yönəltmək faydalı olardı.

Adət-ənənə və əxlaqın nisbəti və fərqli aspektləri: Adət-ənənə və əxlaq normaları arasında olan nisbəti və fərqli aspektləri təhlil edərkən qeyd etmək lazımdır ki, adət-ənənə şəraitə və mühitə uyğun olaraq dəyişir. Çünki müxtəlif zamanlarda, həmin zamanın tələbləri əsasında yaranır, bəzən aradan gedir, bəzən isə yenilənir. Təbii ki, adət-ənənənin funksiyalarını normativlərdə görmək mümkündür və bu normativ mənbələrin sayı ilə bağlı fərqli baxışlar var; altı növ normativ mənbəni sadalamaq olar: əxlaq, hüquq, adət-ənənə, din və məzhəb, uyğunluq və estetika. Diqqət etsək görərik ki, hər bir işdə "gərək" deyilən bir məfhum mövcuddur və bu "gərək" həmin altı mənbədən qaynaqlanır; məsələn, əgər hər hansı bir məclisə dəvət olunuruqsa içimizdə "gərək"lə bağlı fikirlər yaranır: "mən məclisdə olarkən özümü təvazökar aparmalıyam" və ya "mən gərək bu mövzu barədə qətiyyətli fikir söyləyim". Çünki danışmaq niyyətində olduğumuz zaman "gərək" hissi içimizdə yaranır: "gərək düz danışım", "gərək ədalətli olum" deyə öz-özümüzə xitab edirik. Bu cür hiss və duyğuların mənşəyi normativ mənbə olan əxlaqdadır. Normativ mənbənin üçüncüsü olan adət-ənənədə də bu "gərək"lər mövcudur; məsələn, inanclarla bağlı olan hər hansı bir adəti yerinə yetirmək və yerinə yetirməmək. Nəzərə almaq lazımdır ki, adət-ənənədə mövcud olan "gərək" hissi əxlaq, hüquq, qanun və din deyil, bəlkə hər bir insanın daxilindən gələn təbii istək və ehtiyaclarıdır ki, özünə xas formada yerinə yetirilir. Adət-ənənədə mövcud olan "gərək"lər baxmayarq ki, əxlaq deyil, ancaq qəbul olunan davranışlar, yəni insanlar arasında olan ortaq dəyərlər və qarşılıqlı, mənəvi öhdəliklər əxlaq normalarını əks etdirir. İslam aləminin böyük filosofu Məhəmmədhüseyn Əllamə Təbatəbainin də dediyi kimi: "adət-ənənə müdrik insanlar arasında olan ortaq dəyərlər (ənənələr) və gözəl davranışlardır" (20. c. 8, s. 397).

Adət-ənənə və əxlaq arasında nisbətin olmasına baxmayaraq bəzən fərqli cəhətlərin də şahidi oluruq: əgər cəmiyyətdə adət-ənənə ilə bağlı olan hər hansı bir sosial adət və dəyərlər dəyişirsə, həmin cəmiyyətdə heç bir problem yaranmaz, ancaq əxlaqla bağlı olan xüsusiyyətlərdə dəyişiklik etmək olmaz. Sosial adət və dəyərlər şərait və mühitlə bağlıdır, bunların dəyişikliyi də təbiidir, lakin əxlaq meyarları isə şərait və zamanla ölçülməz və bu meyarlar bütün hallarda qurunmalıdır; məsələn, sədaqət yerinə sədaqətsizlik, riyakarlıq; təvazökarlıq yerinə təkəbbürlük; əhdə vəfa etmək yerinə əhdi pozaq; əmanətli olmaq yerinə əmanətə xəyanət etmək;

ədalətli, insaflı, vicdanlı olduğumuz halda ədalətsiz, insafsız və vicdan prinsiplərinə əməl etməmək kimi əməllərə yol verilərsə, belə olan halda ictimaiyyət nəinki zərər görəcək, hətta məhv olmağa doğru gedəcək. Təbii ki, qeyd olunan əməllər təkcə əxlaq baxımından deyil, həm də hüquq normalarına əsasən qəbul edilməzdir; digər tərəfdən, hər hansı bir normanın yaranması müqavilə ilə deyil, çünki müqavilə ilə yaranan müəyyən bir məsələni müqavilə yolu ilə də dəyişmək ya əvəz etmək olar; məsələn, sosial adətlər kimi. Amma müqavilə yolu ilə mövcud olmayan xüsusiyyətləri (əxlaqla bağlı olan meyarlar) heç bir müqavilə ilə əvəz etmək olmaz; daha aydın desək, əxlaq meyarları insanlar arasında müqavilə ilə deyil, bəlkə insanın təbiəti ilə bağlı olan zati bir əməldir, yəni bu meyarlar (əxlaq normaları) yaradılışla bağlıdır nəinki adət-ənənə və mərasimlərlə. Adət-ənənə və əxlaq dəyərləri (meyarlar) arasında fərqin olmasına baxmayaraq, bunların bütün zamanlarda yerinə yetirilməsi vacibdir, çünki həm adət-ənənə və həm də əxlaq meyarları ictimai məsələlərlə bağlılığı vardır.

Nəticə olaraq demək olar ki, bunların arasında olan nisbətə və fərqli cəhətlərə baxdıqda şahidi oluruq ki, adət-ənənə ictimai davranışlarla tam olmasa da bir çox hallarda bağlılıq təşkil edir, ancaq əxlaq ictimai davranış və digər məsələlərlə bağlı olsa da bunlardan asılı deyil. Buna baxmayaraq, biz insan olaraq bəzi məsələləri öhdəmizə götürürük və bunun üçün məsuliyyət daşıyırıq; məsələn, valideynlə, həyat yoldaşı ilə dostla, müəllimlə, çalışdığımız sahədə həmkarlarla, üzv olduğumuz hər hansı bir qurumda və digər sahələrdə ünsiyyətdə olduğumuz zaman adət-ənənə özünü daha çox göstərir. Amma qeyd olunduğu kimi əxlaq meyarları sosial məsələlərdən asılı deyil, çünki əxlaq ümumi normalar məcmuəsidir; dürüstlük, təvazökarlıq və digər fəzilətlər insanların məsuliyyət hissi ilə bağlı deyil, bəlkə insanın öz istəyi ilə yerinə yetiriləcək bir əməldir. Təbii ki, həm adət-ənənə həm də əxlaq normaları insanın iradəsi ilə yerinə yetirilir, amma biri (əxlaq) daxili duyğularla bağlıdır və digəri isə (adət-ənənə) sosial tələblərdən irəli gəlir. Adət-ənənə və əxlaq normaları arasında fərqli aspektlərlə yanaşı, adət-ənənə arasında da oxşar və fərqli cəhətlər mövcuddur. Yaxşı olar ki, diqqəti aşağıdakı mövzuya yönəldək.

Adət və ənənənin oxşar və fərqli cəhətləri: Mövzunu təhlil edərkən adət-ənənə arasında bəzi oxşar və fərqli cəhətlərlə qarşılaşırıq; yəni adət-ənənənin uyğunluğu olduğu kimi fərqli tərəfləri də mövcuddur. Bunların arasında daha çox *mənəvi fərqin* olduğu nəzərə çarpır; ənənə bütün hallarda (zəruri şərtləri çıxmaqla) adətlə bağlıdır. Burada adət dedikdə, təkcə sosial vərdişlər deyil, həm də qaydalar nəzərdə tutulur. Ancaq ənənə, ümumi məfhum olaraq təqdim olunur: "ənənə, adətdən fərqli olaraq daha geniş və ümumi xarakter daşıyır, çünki ənənə təbii amillərdən və fərdi vərdişlərdən yaranır" (16. c. 1, s. 841). Əksər hallarda, müəyyən bir mühitdə ənənə zaman keçdikcə hər hansı bir qaydanı yaradır və həmin qayda tədricən inkişaf edərək adətə, ənənəyə çevrilir. Məhz buna görə də adət bir çox hallarda həm qayda, həm də vərdiş – ənənə olaraq göstərilir. Adət-ənənə arasında olan fərqi bir az da dərindən araşdırsaq görərik ki, bunların arasında iki mühüm fərq mövcuddur: adətdən fərqli olaraq ənənədə təkrarlama halları mövcuddur və fərdə məxsusdur, amma adət təkcə fərdlə deyil, daha çox toplu ilə əlaqədardır, həmçinin bunların (adət-ənənə) arasındakı əlaqə mütləq olaraq ümumi və xüsusidir. Ancaq bəzi müəlliflərin gəldiyi nəticə bundan ibarətdir ki, ənənə təkcə fərdə deyil, həm də topluya aiddir; yəni həm fərdə, həm də topluya şamil olunur (1. s. 145). Ənənədən fərqli olaraq adət də vəzifə və öhdəçilik qapalıdır, yəni açıq-aşkar özünü göstərmir və proses əsnasında yerinə yetirilir. Təbii ki, adət-ənənənin oxşar və fərqli olmasına baxmayaraq, bunların hər ikisi hüquq və əxlaq normaları arasında olan nisbətin, həmçinin vətəndaş hüququnun formalaşmasında əsas mənbələrdən hesab olunur. Bəs vətəndaş hüququnun formalaşmasında adət-ənənənin rolu nədən ibarətdir? Biz çalışmışıq aşağıdakı paraqrafda bu suala cavab verək.

Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin rolu

Hüquq mənbələrinə istinad edərək vətəndaş hüququnun formalaşmasında adət-ənənənin rolundan, hansı üstünlüklərə malik olduğundan bəhs etmək olduqca zəruridir. Çünki bütün hüquq normaları insanın təhlükəsizliyi, inkişafı,

təkmilləşməsi, ictimai-siyasi, mədəni haqlarını tanıması, həm şəxsi, həm də ictimai həyatda layiqli bir vətəndaş kimi yaşaması üçündür. Məhz bu mənada, vətəndaş hüququnun formalaşmasında adət-ənənənin rolunu filosofların və hüquqşünas filosofların əsərlərinə istinad etməklə araşdırmaq yerinə düşərdi. Ümumiyyətlə, "vətəndaş" elə bir məfhumdur ki, təkcə fəlsəfə və hüquqla məhdudlaşa bilməz. Bu, mühüm bir məfhum olaraq müxtəlif ölkələrdə yaşmaqla mədəniyyətlər yaradır və yaradılan mədəniyyətlər, qarşılıqlı əlaqələr genişlənir və böyük bir topluya çevrilir. Vətəndaş o şəxsə deyilir ki, fərdə və topluya aid olan haqları tanısın və bu haqları tanımaqla yanaşı müdafiə edərək qanuna əməl etsin. Ancaq vətəndaş hüququna gəldikdə isə, vətəndaşlıq hüququ müəyyən bir ölkənin vətəndaşlıq münasibətlərinə görə qanunla verilən, qorunan və müdafiə olunan hər bir ölkənin konstitusiyasında təsbit edilmişdir. Vətəndaş hüququ vətəndaşların dövlət qarşısında vəzifə və məsuliyyətlərini nəzərə almaqla yanaşı geniş sosial, siyasi, iqtisadi və mədəni haqları əhatə edir; vətəndaşlıq siyasi quruluşun yaranmasından sonra gələn hüquqi bir statusdur, çünki vətəndaşlıq insanla birlikdə doğulmur, vətəndaşlıq cəmiyyətdə fərdə dəyərli bir haqq olaraq verilir. Bu baxımdan fərdin olduğu məkan (vətən, ölkə, şəhər) bir qrup insanın kollektiv və məqsədyönlü həyatını əhatə edir. Bir çox hallarda vətəndaş vətəni *ana* adlandırır, vətənin ana adlandırlmasından əsas məqsəd kollektiv rifaha, səadətə nail olmaq, bir-birinin haqlarına hörmət edərkən ictimai mənafeyi qorumaqdır. Vətəndaşın həm hüquqi, həm də ictimai məsuliyyəti vardır; əgər vətəndaş sözünü məfhum olaraq təhlil etsək məlum olar ki, bir tərəfdən insanların sosial mühitdə qarşılıqlı münasibətlərinə aiddir, digər tərəfdən isə, bu hüquqlar digər hüquqlarla birlikdə təsirə malikdir. Vətəndaş məfhumu vətəndaşlıq hüquqları da daxil olmaqla hər bir şəxsin hüquq, vəzifə və öhdəliklərinin məcmusuna aiddir. Çünki vətəndaşı tanımağın səbəblərindən biri də vətəndaş hüquqlarının yaranması və cəmiyyətdə yaşayan hər bir fərdin azadlıqlarının qorunması və təmin olunmasıdır. Mənbədə də qeyd olunduğu kimi başqalarının azadlıqlarına zərər verməmək şərti ilə, vətəndaşın hüquqları da daxil olmaqla (hüquqla birlikdə) vəzifə və öhdəliklərin qarşıya qoyulması zəruridir (2. s. 20). Buna görə də vətəndaşlıq hüquqları hər bir ölkənin coğrafi sərhədləri daxilində tərif və müəyyən oluna bilər. Ona görə ki, burada milli dəyərlər mövcuddur; milli dəyərlər dedikdə, cəmiyyətin mədəniyyəti, adət-ənənələridir ki, vətəndaş hüququnun formalaşmasında, daha parlaq və inkişaflı olmasında, hətta dəyişməsində hədsiz təsirə malikdir.

Buradan belə bir nəticəyə gəlmək olar ki, vətəndaşlıq cəmiyyətdə insana verilən bir haqq və yüksək imtiyazdır. Burada əsas məqsəd kollektiv rifaha nail olmaq, bir-birinin hüquqlarına hörmət və riayət edərək ictimai mənafeyi qorumaqdır. Vətəndaşlıq dedikdə, yəni bu adi bir imtiyaz deyil, vətəndaşlıq həm də müxtəlif iqtisadi, sosial, mədəni və siyasi aspektlərə malikdir. Vətəndaşlıq hüququnun bütövlüyü hökumətin iradəsindən və onu insanlara vermək istəyindən irəli gəlmir, vətəndaşlar onlara mənsub olan haqlardan istifadə etməklə hökumət rəhbərlərini seçir, bunun da nəticəsində adət-ənənə əsasında haqq və səlahiyyətə malik olurlar. Adət-ənənənin vətəndaş hüququ qarşısında iki əsas cəhəti mövcuddur: bunlardan biri müsbət (qəbul olunan) və digəri isə mənfi (nəzərə alınmayan) tərəfidir ki, vətəndaş hüququnda hədsiz təsirə malikdir. Burada müsbət cəhət dedikdə, təbii ki, bəzi haqların qəbulu və təsdiq olunmasıdır; amma mənfi və ya nəzərə alınmayan cəhət dedikdə isə, bəzi ictimai azadlıqlara riayət olunmaması, hətta aradan götürülməsi, həmçinin insanların arzu və tələb etdikləri dəyərlərə qarşı əks mövqedə dayanmaq, əleyhinə olmaq kimi qərarlar vətəndaşların hüquqlarının əldə edilməməsi və ya təhlükəyə atılması ilə nəticələnir. Bunun da əsas səbəbi cəmiyyətin müxtəlif sahələrində adət-ənənəyə, onun ictimai prinsiplərinə, inkişafına və təsirlərinə diqqətin olmamasıdır. Buna görə də, adət-ənənə vətəndaş hüququnun əsası hesab olunur və bəzi hallarda yeni qanunlar yaratmaqla üstünlük təşkil edir.

Vətəndaş hüququ və adət-ənənə arasındakı əlaqənin əsas xüsusiyyətləri: Vətəndaş hüququ və adət-ənənə arasındakı əlaqəni araşdırarkən qeyd etmək lazımdır ki, adət-ənənəyə xas iki əsas cəhət mövcuddur ki, bunlardan biri *dəyərləndirmə qaydasıdır,* digəri isə *zəruri əməl və hərəkətdir*. Bu qaydalar ictimaiyyət üzvləri tərəfindən təsdiq olunmuşdur. Məhz buna görə də adət-ənənə ictimai vəzifələrlə sıx

bağlılığı vardır, həmçinin cəmiyyətdəki hərəkətləri iki formada idarə edir və istiqamətləndirir: birincisi, daxili yanaşma – şəxsiyyət baxımından (fərd); ikincisi, sosial sistemdə institutlaşma baxımından (cəmiyyət). Burada mühüm bir məsələyə diqqət etmək zəruridir; adətlər sosial ehtiyaclardan yaranır, zaman keçdikcə insanların agahlıq, məlumatlanmaq səviyyəsi yüksəlir, ehtiyaclar genişlənir və yeni formalar alır. Əgər vətəndaşlıq məfhumuna tarixi nəzər salsaq görərik ki, ilk nəslin vətəndaş hüquqları insanların mədəni-siyasi ehtiyaclarının bir funksiyası olmuşdur. Məhz ictimai anlayışın genişlənməsi, insan düşüncəsinin təkamülü nəticəsində iqtisadi, sosial, mədəni və fərdi hüquqların gələcək nəsilləri formalaşmışdır. Təbii olaraq ehtiyacların dəyişməsi nəticəsində sözügedən normalar da dəyişikliyə uğramış, cəmiyyətdə fərqli adət-ənənələr meydana çıxmışdır. Bəzi adət-ənənələr keçmişin tələbləri ilə ziddiyyət təşkil etsə də, digər bir qrup mövcud adət-ənənəni qəbul etmiş, ona doğru irəliləmişdir, nəticədə adət-ənənədə baş verən inkişaf prosesi – qanunların formalaşması, anlaşılması və hətta dəyişməsi vətəndaş cəmiyyətində təsirli komponentlərindən biri olmuşdur. Vətəndaş hüququnun formalaşmasında adət-ənənə bəzən müsbət qarşılansa da, bəzi hallarda nəzərə alınmır. Buna səbəb nədir? Bu suala cavab verməzdən əvvəl yaxşı olar ki, vətəndaş hüququnun formalaşmasında adət-ənənənin müsbət təsirinə diqqət edək.

Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin müsbət təsiri: Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin müsbət təsiri dedikdə, məqsəd vətəndaş hüququnun formalaşması, genişlənməsi, ən əsası isə inkişaf prosesi nəzərdə tutulur. Diqqət etmək lazımdır ki, bəzən qanunlar insanların tələb və ehtiyaclarını əvvəlcədən müəyyənləşdirə bilmir, belə olan halda adət-ənənə qanunların köməyinə gəlir və əsas işi də bundan ibarət olur ki, qanunlarda olan qüsurları aradan qaldırsın: izah (şərh) etsin, təkmilləşdirsin, nəzarət etsin, yeri gələndə dəyişikliklər etsin, bəzən isə mənsub olduğu qaydalara əsasən hətta qanunlara yiyələnməyə səbəb olsun. Bu, rasional mənşədən yaranan və cəmiyyətin tələblərinə əsaslanaraq yayılmış, davam etmiş, düzgün və düşünülmüş adət-ənənədir (8. s. 173). Ancaq nəzərə almaq lazımdır ki, hər bir cəmiyyətdə rasional adət-ənənənin sosial, hüquqi və qanuni şüurun inkişaf prosesi ilə bağlılığı vardır, çünki ictimai inkişaf və proses nəticəsində zaman və məkana görə nə vaxtsa bu adət-ənənələrə ehtiyac olmadıqda bunlar başqa bir adət-ənənə ilə əvəz olunur. Buna misal olaraq, məlum olduğu kimi Amerikada qadınların ictimaiyyətdə, onların sosial sahələrdə fəal iştirakına ehtiyacın olması ilə bağlı ənənəvi baxış dəyişdi. Nəhayət, 1910-cu ildə Amerikalı qadınlar ictimai səs topladılar; bu o deməkdir ki, adət-ənənəyə dəyişiklik etdilər. 1920-ci ildə Wilsonun rəhbərliyi ilə Konstitusiyada dəyişikliyin zəruri olmasını Senata gətirdilər və qanunda dəyişiklik edərək səy göstərirdilər ki, kişilərlə bərabər səsvermə hüququna nail olsunlar. Təbii ki, bu təkcə ictimai-siyasi bir dönüş deyil, həm də zaman və məkanın tələb etdiyi bir prosesdir ki, adət-ənənəyə də öz təsirini göstərdi. İndi isə qeyd oluna suala (vətəndaş hüququnun formalaşmasında adət-ənənə bəzən müsbət qarşılansa da, bəzi hallarda nəzərə alınmır. Buna səbəb nədir?) diqqəti yönəldək.

Vətəndaş hüququnun formalaşmasında adət-ənənənin nəzərə alınmaması: Vətəndaş hüquqununn formalaşmasında adət-ənənənin nəzərə alınmaması dedikdə, yəni cəmiyyət üzvlərinin hamısı və ya bir hissəsi üçün vətəndaş hüququnun həyata keçirilməsinin və inkişafının qarşısını almaq nəzərdə tutulur. Belə bir vəziyyətdə arzu və tələb olunmayan adət və normalarla, tələb olunan hüquq və dəyərlərin inkişafı arasında ziddiyyətlər yaranır. Buna misal olaraq Fransa İnqilabının əsas sənədlərindən biri olan İnsan və Vətəndaş Haqqları Bəyannaməsində qadın və kölə hüquqları qeyd edilməmişdir. Bu Bəyannamədə qadın və kölə hüquqlarının qeyd olunmaması ictimai adətlərə və qadın hüquqlarına diqqətsizlikdən irəli gəlir. Belə bir diqqətsizlik qanunların yaranmasına və formalaşmasına təsirin bir nümunəsidir, digər tərəfdən isə vətəndaş hüququnun formalaşmasında adət-ənənənin nəzərə alınmamasıdır.

Nəticə

Səhih mənbələrə əsasən adət-ənənənin rolunu fəlsəfi və hüquqi aspektdə təhlil edərkən buradan belə nəticəyə gəlmək olar ki, etik normalar qanunlara təsir etmək və onları tənzimləməklə yanaşı həm də adət-ənənədə özünü göstərir.

Dini terrorçular zor tətbiqinin guya Allah tərəfindən müəyyənləşdirildiyini əsas götürürlər. Bu növ terrorçuluq digər terror növlərinə nisbətən daha geniş yayılmışdır. Belə ki, 90-cı illərin ortalarından ən məşhur 56 terror təşkilatından demək olar ki, yarısı dini mötivlərlə bağlı olduqlarını bəyan etmişlər. Bu kateqoriya terrorçuluğa Usama Bin Ladenin "əl-Qaidə" təşki-

latı, Livan şiələrinin "Hizbullah" qrupu, radikal yəhudi təşkilatı olan Meera Kahan, Amerikanın bir sıra ku-klus-klan "xalq drujinaları", Yapon "Aum Senrike" sektası, "Cama islamiyyə", "İslam cihadı", İslam Qurtuluş Cəbhəsi", "Silahlı islam qruplaşması", İordaniyada "Allah döyüşçüləri", Liviyada "Döyüşkən islam qruplaşması", "İslam cihadı", Sudanda "Milli islam cəbhəsi", Yəməndə "Əl-İslax" və bir sıra təşkilatlarını aid etmək olar.

Etnik rəngli terrorçuluğa misal kimi Şimali İrlandiyada on illərlə davam edən icmalararası müharibəni göstərmək olar. İrqi amillər və bu əsasda ziddiyətlər terrorçuluq təzahürlərinin artmasında əhəmiyyətli rol oynayır. İrqi əsasda zorakılığa dünyanın müxtəlif ölkələrində, əsasən də Amerika Birləşmiş Ştatlarında tez-tez rast gəlmək olur. Enik separatizmi sosial-siyasi hadisə kimi qəbul etmək lazımdır [5].

Terrorçuluğu tam anlamaq üçün birinci növbədə onun xarici təzahürlərini deyil, kökünü öyrənmək lazımdır. Terrorun səbəbləri şox vaxt səhv qəbul olunur. Belə bir fikir geniş yayılmışdır ki, terrorçuluq ədalətsizliyə qarşı hərəkətdir, terrorçular isə dözülməz şəraitdən təngə gəlmiş insanlardır (yoxsulluq, ümidsizlik, sosial və siyasi sıxıntı). Bu məntiqdən yanaşsaq, terrorçuluğun aradan qaldırılması və ya heç olmazsa onun azaldılmasının yeganə yolu terrorçuluğu kobud güc yolu ilə boğmağa çalışmaq yox, onun mənbəyinin, terrorçulara sakitlik veməyən yaranın kəsib atılmasıdır. Bir amerikalı filoloq demişdir: "Bataqlığı qurudun, ağcaqanadlar özləri yox olacaqlar" [2].

Terrorçuluq "yeni təhdidlər" triadasına aid edilir [6,48]. Beynəlxalq terrorun əsas subyektləri kimi hazırki dövrdə çıxış edir:

– radikal siyasi hərəkatlar;

– ekstremist niyyətli milli və seperatist axınlar;

– cinayətkar mafia qrupları;

– bir sıra dövlətlərin xüsusi səlahiyyətli qüvvələri;

– totalitar və ya yarıfaşist antidemokratik siyasi rejimlər [7,102].

Soyuq Müharibədən sonra dəyişikliyə uğrayan, beynəlxalq təhlükəsizlik baxımından əhəmiyyətli bir təhdid halına gələn terrorçuluğu, bu tarixdən etibarən fəaliyyət sahəsini milli sərhədlərin kənarına daşımış və bütün dünyaya təsir edən bir gücə çatmışdır [8,s.98]. Beynəlxalq terrorçuluq, birdən çox ölkənin torpaqlarını hədəfləyən, beynəlxalq səviyyədə təşkil oluna bilən və yenə eyni səviyyədə hərəkət edə bilən, beynəlxalq nəticələr doğuran bir şiddət, ya da şiddət ehtiva edən bir hərəkət kimi izah edilir [9,s.77]. Müasir terrorçuluq qlobal xarakter daşımaqla insanlığın mövcudluğuna təhlükə kimi çıxış edir [10,35]. Digər bir tədqiqatçı B.Xoffman hesab edir ki, terrorçuluğu digər cinayət növlərindən fərqləndirmək lazımdır [12,47].

Terrorçuluq müxtəlif ölkələrin konsepsiyalarında öz əksini tapmışdır. Belə ki, Rusiya Federasiyasının milli təhlükəsizlik konsepsiyasında terrorçuluğun miqyasının genişlənməsi əsas təhdidlərdən sayılır [11].

Terrorçuluğa qarşı mübarizə üzrə beynəlxalq əməkdaşlıq sahəsində bir sıra işlər görülmüşdür. Lakin aparılmış müşahidə və təhlillər məhz beynəlxalq əməkdaşlıq sahəsində bir sıra fundamental hüquqi problemlərin, kazusların mövcudluğunu ortaya çıxarır.

Bu cür qlobal xarakterli kazuslar müvafiq sahədə beynəlxalq əməkdaşlığın birbaşa özülünü zədələməklə yanaşı, antiterrorçuluq fəaliyyətlərinin səmərəliliyi-nin həddindən artıq azalmasına səbəb olur. İlk növbədə beynəlxalq terrorçuluğun hamılıqla qəbul olunmuş anlayışını vermək məqsədilə uzun müddətdir ki, aparılan danışıqların hələ də nəticəsiz qalması beynəlxalq əməkdaşlığa mənfi təsir göstərir. Qeyd etmək lazımdır ki, bəzi müəlliflər beynəlxalq terrorçuluq anlayışının verilməsini, ümumiyyətlə, qeyri-mümkün hesab edirlər. Bu mövqenin əksinə olan mütəxəssislərin fikrinə görə, terrorçuluğa qarşı mübarizənin beynəlxalq hüquqi əsaslarının formalaşdırılması sahəsində artıq müəyyən nailiyyətlər əldə edilmiş, ikili yanaşma (terrorçu fəaliyyətlərin dairəsinin müəyyənləşdirilməsi və bu fenomen qüvvənin ümumi bəyanatlar əsasında yekdilliklə pisləməsi) prinsipi əsasında problemin həlli üçün səy göstərilmişdir. Dünya birliyinin beynəlxalq terrorçuluq cinayətinə qarşı məqsədyönlü mübarizə aparmaq əzmində olmasının praktiki təzahürü kimi Birləşmiş Millətlər Təşkilatının bu cinayətlə əlaqədar qəbul etdiyi 13 konvensiya ilə yanaşı, beynəlxalq terrorçuluq cinayətinə qarşı yaradılmış regional sistemləri göstərmək olar. Bunlara Yaxın

Şərq, İslam Konfransı Təşkilatına daxil olan ölkəkələr, Amerika, Afrika, Cənubi Asiya, Müstəqil Dövlətlər Birliyi ölkələri və s. üzrə imzalanaraq qüvvəyə minmiş xüsusi saziş, konvensiya, müqavilə və protokollar daxildir. Məsələn, BMT Baş Məclisi tərəfindən 1994-cü ildə qəbul edilmiş "Beynəlxalq terrorçuluğun aradan qaldırılması tədbirləri haqqında" Bəyannamədə "harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq, cinayət əməli və bəraətsiz əməl kimi, bütün terrorçuluq aktları, metodları və təcrübələri" pislənilir.

BMT çərçivəsində görülmüş işlərlə paralel surətdə əksər regional təşkilatlar tərəfindən terrorçuluğa qarşı mübarizəyə həsr edilmiş sənədlər hazırlanaraq qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, universal konvensiyalardan fərqli olaraq, bir sıra regional sənədlərdə terrorçuluğun anlayışı verilir, onun əsas elementləri göstərilir. Eyni zamanda terrorçuluğa qarşı mübarizə sahəsində konkret tədbirləri görmək məqsədilə son zamanlar bəzi beynəlxalq təşkilatların təcrübəsində fəaliyyət planları (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının 2001-ci il tarixli "Terrorçuluğa qarşı mübarizə üzrə" fəaliyyət planı), çərçivə qərarları (Avropa İttifaqı Şurasının 2002-ci il tarixli "Terrorçuluğa qarşı mübarizə üzrə" çərçivə qərarı) kimi sənədlərdən istifadə olunur.

Sadalanan faktlar beynəlxalq terrorçuluğun anlayışı ilə bağlı problemin həlli istiqamətində mühüm addımların atıldığına dəlalət edir. Məhz bu məqamları nəzərə alaraq, Avropa İttifaqı Şurasının 2002-ci il tarixli Çərçivə Qərarının 1 (l)-ci maddəsinin, habelə "Terrorçuluğun qarşısının alınması haqqında" Avropa Şurası Konvensiyasının Preambulasının sonuncu paraqrafının müddəaları əsasında beynəlxalq terrorçuluq anlayışı aşağıdakı kimi verilə bilər: "Beynəlxalq terrorçuluq - siyasi, iqtisadi, sosial, dini, mənəvi, mədəni və s. sahələrdə maraqlarını təmin etmək məqsədilə hər hansı bir şəxs, qrup və yaxud müvafiq orqanların əməkdaşları vasitəsilə dövlət tərəfindən ictimai təhlükəsizliyin pozulması, əhalinin vahimə içərisində saxlanılması, dövlət hakimiyyəti orqanlarının və beynəlxalq təşkilatların hərəkət və ya hərəkətsizlik göstərməyə məcbur edilməsi yolu ilə hər hansı bir ölkənin və ya beynəlxalq təşkilatın fundamental siyasi, konstitusiya, iqtisadi və sosial strukturlarının sabit fəaliyyətinin pozulmasına və yaxud məhvinə yönəldilmiş hərəkətlərin bir neçə dövlətin ərazisində və ya bir neçə dövlətin maraqlarına zərər vura biləcək şəkildə törədilməsi, habelə bu cür hərəkətlərin törədiləcəyi ilə başa çatan bir hədələmədir".

Müşahidələr göstərir ki, beynəlxalq hüququn öz müqəddəratını müəyyən etmək prinsipindən sui-istifadə yolu ilə milli, etnik, dini və s. örtük altında dövlətlərin beynəlxalq hüquqla təsbit edilmiş ərazilərini parçalamağa yönəldilmiş separatçı fəaliyyətlər də beynəlxalq terrorçuluğun mənbəyidir. Separatçılıq fəaliyyəti nəticəsində formalaşan beynəlxalq və dövlət nəzarətindən kənar ərazilər - "boz zonalar" (grey zones) terrorçu düşərgələrinin yerləşdirilməsi, axtarışda olan terrorçulara sığınacaq verilməsi, yeni üzvlərə təlimlərin keçirilməsi, habelə terror aktların planlaşdırılması və törədilməsi üçün əlverişli zəmin və şərait yaratmaqla yanaşı, dünyanın müxtəlif regionlarına "terror ixracı"nda böyük rol oynayır.

Beynəlxalq əməkdaşlığı önləyən digər bir problem beynəlxalq aləmdə İslam dininə qarşı mənfi münasibətlə bağlıdır. Beynəlxalq terrorçuluğun dinlə hər hansı formada əlaqələndirilməsi, xüsusilə İslam dininin terrorçuluq ideyalarını özündə əks etdirməsi ilə bağlı yanlış fikirlərin səsləndirilməsi antiterror koalisiyasının fəaliyyətinə mənfi təsir göstərməyə bilməz. Təəssüflə vurğulamaq lazımdır ki, bir sıra ölkələrin diplomatiyasında, beynəlxalq hüquq doktrinasında və təcrübəsində, xüsusilə kütləvi informasiya vasitələrində islamı terrorçuluqla bağlamaq fikri vurğulanır. Bu amil "əsas hədəflin beynəlxalq terrorçuluğun zərbələrdən yayınmasına, güclənməsinə, genişlənməsinə və qarşısıalınmaz qüvvəyə çevrilməsinə səbəb olur.

Bu gün əsl islami dəyərlərdən xəbəri olmayan və onun fərqinə varmayan Qərb dövlətləri və Amerika Birləşmiş Ştatlarının bir sıra məlumatsız alimləri, kütləvi informasiya vasitələrinin nümayəndələri İslamı terrorla eyniləşdirirlər ki, bu da bu dinə etiqad edən bir milyarddan artıq insana qarşı haqsızlıqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslami dəyərlərdən danışarkən demişdir: “Dünyada gedən proseslər bəzi hallarda bizi narahat edir. İlk növbədə, bəzi ölkələrin kütləvi informasiya vasitələrində və müəyyən

siyasi dairələr tərfindən islamı terrorçuluqla eyniləşdirmək cəhdləri bizi çox narahat edir və hiddətləndirir. Biz buna hec ür imkan verə bilmərik. İslamı terrorçuluqla eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir. Azərbaycan özü terrorun qurbanıdır. Erməni terrorçu təşkilatları bizə qarşı 373-dən çox terror aktı törətmişdir. Bu terror aktları nəticəsində 2000-dən artıq azərbaycanlıhəlak olmuşdur. Ancaq biz bu terrorçu təşkilattları hər hansı bir dinə bağlamırıq. Bu düzgün deyildir. Terrorçuluğun nə dini dini var, nə də milliyəti. Ona görə biz bu məsələlərə etirazımızı daha da inamla bildirməliyik, öz sözümmüzü deməliyik. Eyni zamanda, gərək bütün təbliğat imkanlarımızdan istifadə edərək, çox böyük narahatlıq döğuran bu mənfi meylə münasibətimizi bildirək, öz hərəkətimizlə bunun qarşısını alaq" [3].

YUNESKO-nun 20 oktyabr 2001-ci ildə Paris şəhərində keçirilən 31-ci sessiyasında qəbul olunmuşş Qətnamədə terrorçuluğun hər hansı konkret bir dinlə, dini inamla və ya milliyyətlə əlaqəsi qəti şəkildə rədd edilmiş və qeyd olunmuşdur ki, terrorçuluğun bəşəriyyətə hazırkı meydan oxuması ona qarşı Birləşmiş Millətlər Təşkilatı sisteminin bütün təşkilatlarının ardıcıl və əlaqələndirilmiş şəkildə cavab verilməsini tələb edir [4].

Dünya birliyi həm milli qanunvericilik səviyyəsində, həm də beynəlxalq hüquq münasibətləri çərçivəsində terrorizm və separatizmdən hüquqi müdafiə üçün bir sıra ciddi tədbirlər görmüşdür. Bütün bu sənədlərdə terrorizm və təcavüzkar separatizm eyni bir fəaliyyətin təzahürləri kimi qiymətləndirilir. Bu yanaşma BMT-nin bir sıra hüquqi aktlarında, o cümlədən "Beynəlxalq terrorizmin ləğv edilməsi tədbirləri haqqında" Bəyannamədə, "Bomba terrorizmi ilə mübarizə haqqında", "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" və digər beynəlxalq konvensiyalarda öz əksini tapmışdır. Ermənistan istisna olmaqla, MDB dövlətlərinin rəhbərləri 1994-cü il aprelin 15-də Moskvada "MDB üzvü olan dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına riayət edilməsi haqqında" Bəyannaməni və 1995-ci il fevralın 10-da Almatıda "Müstəqil Dövlətlər Birliyində sülhün və sabitliyin qorunması haqqında" Memorandumu imzalayaraq, separatizm probleminə öz münasibətlərini bildirmişlər.

Bəşəriyyətin dinamik inkişafı, sabitlik, dövlətlərin təhlükəsizliyi, suverenliyi və ərazi bütövlüyü üçün ciddi terror təhlükələrinin əsas mənbələri, vasitələri, forma və xüsusiyyətləri məlumdur. Dini, etnik və siyasi pərdə altında terrorizm, separatizm və digər ekstremist fəaliyyətlə mübarizə beynəlxalq hüququn əsas norma və prinsiplərinə ciddi əməl edilməsi yolu ilə və bu gün mövcud olan beynəlxalq hüquq mexanizmləri çərçivəsində mümkündür. Belə mexanizmlərin, zəruri hüquqi bazanın guya olmadığı barədə səslənən yanlış fikirlər, problemin süni şəkildə siyasiləşdirilməsi terrorizmlə mübarizə sahəsində beynəlxalq əməkdaşlıqda iştirak etməmək niyyətinə bəraət qazandırmaq üçün göstərilən cəhdlərdən başqa bir şey deyildir.

Bütün bunlar beynəlxalq əməkdaşlığın mövcud mexanizmlərinin təkmilləşdirilməsini və yenilərinin yaradılmasını, bu prosesin daha da gücləndirilməsini zəruri edir. Diqqət ilk növbədə terrorizmlə mübarizədə universal institusional və hüquqi əsasların formalaşdırılmasına, "terrorçuluq", "təcavüzkar separatçılıq", "dini ekstremizm" və digər anlayışların hüquqi təriflər kimi işlənib hazırlanmasına və onların hər bir dövlət tərəfindən qəbul edilməsinə yönəlməlidir. Azərbaycan bütün bu istiqamətlər üzrə əməkdaşlığa hazırdır.

Ədəbiyyat

1. H. Əliyev. Demokratik cəmiyyətdə dinin rolu və inam: terrorçuluğa və ekstremizmə qarşı mübarizə yollarının axtarılması. Beynəlxalq konfrasda nitqi. Bakı, 10 oktyabr 2002-ci il.
2. Beynəlxalq terrorizmin yaranma səbəbləri və tribologiyası. Hərbi bilik №3, 2008-ci il.
3. İlham Əliyev. Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi" beynəlxalq konfrans. 18 mart 2013-cü il.
4. YUNESKO-nun Paris şəhərində keçirilən 31-ci sessiyası. 20 oktyabr 2001-ci il.
5. Nağıyev N.M. Milli və beynəlxalq təhlükəsizlik. Bakı - 2010.
6. Nağıyev N.M. Milli təhlükəsizlik nəzəriyyəsinin əsasları. Bakı-2007.

7. Volkan V. (2010). Büyük Grup Kimliği ve şiddet, Terörün Sosyal Psikolojisi, M. Sever, H. Cinoğlu, O. Başıbüyük (Ed.), Ankara: Polis Akademisi Yayınları.
8. Yalçiner, Serhan. "Soğuk Savaş Sonrası Uluslar Arası Terörizmin Dönüşümü ve Terörizmle Mücadele", Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 2, Sayı: 4, 2006.
9. Topal, Ahmet Hamdi. "Uluslararası Terörizm ve Uluslararası Ceza Mahkemesi", Uluslararası Hukuk ve Politika, Cilt:1, No:3, 2005.
10. Горбунов, К.Г. Терроризм: социально-психологическое исследование: монография / К.Г. Горбунов. – Омск: Изд-во Ом. гос. ун-та, 2010.
11. Концепция национальной безопасности Российской Федерации, 2021.
12. Хоффман Б. Терроризм – взгляд изнутри. – М.: Ультра. Культура, 2003.

Резюме

Хафиз Мусаев

Региональное сотрудничество в области международного терроризма

Международный терроризм - одно из страшных состояний, создающее угрозу нормальному ходу международных отношений, оказывающее разрушительное воздействие на нормы международного права. В зависимости от характера и масштабов организации терроризм можно назвать "непрерывной тактической формой борьбы за любую цель". Иногда эта борьба может перерасти в небольшие войны, одинаково опасные для всех государств, независимо от их масштабов. Международный терроризм осуществляется с целью выполнения требований политического, экономического, социального, психологического и иного характера. Мировое сообщество в результате сотрудничества в борьбе с международным терроризмом приняло ряд серьезных мер правовой защиты от терроризма и сепаратизма как на уровне национального законодательства, так и в рамках международных правоотношений.

Ключевые слова: *международный терроризм, политический терроризм, национальный терроризм, расовый терроризм, религиозный терроризм, сепаратизм.*

Summary

Hafiz Musaev

The regional cooperation in the field of international terrorism

International terrorism is one of the frightening phenomena that endanger the normal course of international relations and have a devastating effect on the rules of international law. Depending on the nature and scale of the organization, terrorism can be called "a continuous tactical form of struggle for any purpose." Sometimes this struggle can turn into small wars, becoming equally dangerous for all states, regardless of their scope. International terrorism is carried out in order to fulfill the requirements of a political, economic, social, psychological and other nature. As a result of its cooperation in the fight against international terrorism, the world community has taken a number of serious measures for legal protection against terrorism and separatism both at the level of national legislation and within the framework of international legal relations.

Keywords: *international terrorism, politikal terrorism, national terrorism, rasial terrorism, religious terrorism, separatizm.*

UOT 297
https://doi.org/10.59849/2710-0820.2024.1.272

Vüsalə Gülmalıyeva
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
"Etika" şöbəsinin elmi işçisi
vusalagulmaliyeva86@mail.ru

DİALOQ ANLAYIŞININ FƏLSƏFİ DƏRKİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *dialoq,konsensus, əməkdaşlıq, harmoniya, sülh*

Dialoq problemi fəlsəfi problem olaraq mövcud nəzəri fikrin ən vacib məsələlərindən biri kimi çıxış etməkdədir. Bu problem bilavasitə insan-dünya, insan-cəmiyyət, insan-dünyagörüşü və s. kimi münasibətlərdən qaynaqlanan bir problemdir. Başqa sözlə desək, dialoq mədəniyyəti hazırda bir növ Yer üzündə yaşayan cəmiyyətin, sivilizasiyanın, dövlətin elə bir problemi kimi çıxış etməkdədir ki, onun metodoloji, fəlsəfi, qnoseoloji və s. kontekstdən izahı bilavasitə zamanın çağırışı kimi müasir fəlsəfənin qarşısındadır. Lakin məqalədə əsas məqsəd dialoqun sosial-fəlsəfi cəhətdən araşdırılmasıdır. Dialoq problemi çox tərəfli olduğundan mahiyyəti olduqca genişdir. İnsan sosial varlıq olaraq dialoqa böyük ehtiyac duyur. Çünki insan şəxsiyyətinin formalaşmasında və eləcə də sosiallaşmasında, sosial münasibətlərin təkmilləşməsində, eləcə də həyat fəaliyyətinin müxtəlif sahələrində dialoq mədəniyyətinin formalaşması xüsusi önəm daşıyır.

Qədim dövrlərdən bəri fəlsəfədə aktual olan dialoq problemi Antik yunan fəlsəfəsində elmi forma almaqla yanaşı, həm də, gündəlik həyat tərzinin bir hissəsinə də çevrilmiş oldu. Məsələn, "dialoq Sokrat üçün də həyat tərzi idi" [4, s.34]. Hələ qədim dönəmlərdə Sokrat (e.ə. 469-e.ə. 399) insanlarla ünsiyyət zamanı dialoqun ən uyğun forma olmasını görə bilmişdir. Sokrat həm də, say etibarı ilə son dərəcə çox, və cəmiyyətləri ideyaca plüralistik olan yunan polisləri arasında balansın qorunması üçün də, dialoqun vacibliyini dərk etmişdir. Bu cəhətdən, "fəlsəfə də həmişə dialoq xarakteri daşıyıb. Dialoq olmadan real fəlsəfə olmayıb və ola da bilməz" [8, s.1149]. Deməli, dialoq qədimlərdən bəri fəlsəfənin də ruhuna xasdır. Bu ənənə günümüzdə də eyni xətt üzrə davam etməkdədir. Bu mənda, müxtəlif elm sahələrində əks olunmasına baxmayaraq, dialoq problemi daha çox fəlsəfədə tədqiq olunur. Bunun əsas səbəblərindən biri hər iki tərəf üçün ortaq olan düşüncə məsələsidir. Belə ki, fəlsəfənin əsasında duran əsas məsələ düşüncədir. Ümumiyyətlə, fəlsəfə düşüncə elmidir. Dialoqun da mahiyyətində duran əsas amil düşüncədir. Düşüncə həm də, dialoqu konstruktiv edən əsas vasitədir. Digər tərəfdən, düşüncə tərəflər arasında neytral balanansın təmin edilməsini də şərtləndirir. Bu mənada müasir dövrdə isə, "dialoq, ortaq düşünmə və düşüncə yolu ilə ümumiortaq məna axtarışında, ümumi olan səyləri inkişaf etdirmə prosesidir" [17,s.196]. "Dialoq dövlətlər arasında diplomatik vasitə, eləcə də cəmiyyətlərdəki zorakılığa son qoymaq rolunda da çıxış edən vasitədir". [17, s.200] Dialoqlar zamanı əldə olunan və bütün tərəflərinin maraqlarını ödəyən ümumi və ortaq mənaların əldə olunması isə, dialoqun uğurluluğuna ən əsas dəlildir. Günümüzdə formalaşan reallıqları da nəzərə aldıqda, fəlsəfi mənada dialoq bütövlükdə bəşəriyyət adına cəmiyyətlərdə uzunmüddətli nizam və dayanıqlı harmoniya vasitəsidir. Cəmiyyətlərdə stabilliyin qorunmasında da ən önəmli vasitələrdən biridir. Dialoq həm də, müasir cəmiyyətlərin birgəmövcudluğu və birgəfəaliyyəti üçün də ən başlıca şərtlərdən biridir. Amerikalı ictimai rəy analitiki Daniel Yankeloviç (1924-2017) hesab edir ki, "dialoq uğurlu münasibətlərin qurulması prosesidir". [21,s.378] Eləcə də, müasir bazar iqtisadiyyatının diqtə etdiyi tələbləri nəzərə aldıqda, bütün cəmiyyətlərin dialoq mühitində mövcudluqlarını sürdürmələri qaçılmaz reallıqdır. Bu mənada, dialoq sivilizasiyalararası nizam və harmoniyanın da əsas elementidir. Çünki, "dialoq yerli sivilizasiyalar arasın-

da qarşılıqlı əlaqələrinin aktiv formasından başqa bir şey deyil" [7, s.13] "Geniş sosial-mədəni kontekstdə götürüldükdə dialoq, mədəniyyətlərin və sivilizasiyaların bir-biri ilə deyəcəkləri və paylaşacaqları bir görüş, söhbət və ya ideoloji mübahisəsidir". [7, s.26]. Əks halda bazar iqtisadiyyatı şəraitində cəmiyyətlərin inkişafı üçün də vacib amillərdən olan nizam və harmoniyanın qorunması mümkün deyil. Müasir dünyada qarşılıqlı sosial, iqtisadi və siyasi bağları nəzərə aldıqda cəmiyyətlər bir-birilə üzvi vəhdətdədirlər. Günümüzdə bir-birilə əlaqəli cəmiyyətlər, sözün yaxşı mənasında həm də, bir-birilərindən aslıdırlar. Bu qaçılmaz müasir reallıq da, sosial fəlsəfi problem olan dialoq problemini bir qədər də aktual edir. Bu mənada, "bugünkü dünya müxtəlif dünyalardan təşkil olunmuşdur ki, bu dünyaların da hər biri müstəqil, bütöv dünyadır və bu səbəbdən də, üstünlük və ağalıq uğrunda zor tətbiqini ləğv etmədən dialoq və kompromis axtarışlarında olmağa məhkumdur". [3,s.63] Fikrimizcə, müstəqil dünyaların bütöv dünyada özlərinə yer etmələri üçün bütün sferalarda konstruktiv dialoqlar zərurətdir. Dialoq probleminin müasir dövrdə sosial fəlsəfənin ən aktual problemlərindən biri olmasını, məhz bu mənada başa düşmək lazımdır. *Dialoq problemlər ilə şərtlənərək törəyən və problemlərdən çıxış üçün uyğun vasitə olan bəşəri bir fenomendir*.

Digər tərəfdən, dialoq müasir cəmiyyətlərin bir növ terapiyasıdır. Münaqişəli məqamları və gərginlikləri sublimasiya etmək üçün səmərəli bir yoldur. Çünki müasir dünyadakı cəmiyyətlərdə sosial mühit elə mərhələyə gəlib çatmışdır ki, "orada istehsal və mübadilə psixikanın korlanmasına, nevrozların artmasına, intellektual enerjinin qeyri-rasioanal sərfinə, şüurun müxtəlif siyasi məqsədlər naminə manipulyasiyasına, zövqlərin korlanması, dünyagörüşdə humanist meyillərin azalması kimi tendensiyalara gətirib çıxarmışdır". [2, s.270] Müasir dünyanın çağırışları, nəinki geniş miqyasda cəmiyyətlərarası, eləcə də, həyatın bütün digər sferalarında da dialoq mədəniyyətini zərurətə çevirir. Bu cəhətdən dialoq günümzdə həm də, epidemioloji xüsusiyyətlər də qazanmış olur. "Dialoji təfəkkür dini, etnik, mədəni, siyasi və iqtisadi müxtəlifliklərin ortaya çıxartdığı məhdudiyyətləri dəf etməyə, tolerantlığa və harmoniyaya, birgəyaşayışın pozitiv məqamlarına vüsət verməyə qadirdir".[1,s.211] Dialoq mədəniyyəti cəmiyyətdaxili və cəmiyyətlərarası tarazlığın təmin olunması üçün vacib olduğundan, "birlik artıq gerçəklik yox, məqsəddir". [6, s.76] Dialoqun formalaşdırdığı birgəlik ideyası müasir cəmiyyətlərin zəncirvari formada funksionallıqları üçün əsas amillərdəndir. Birlik ideyası müasir dünyanın bəşər adına təhlükəli problemlərin həllində də, əsasdır. Bu məqam son günlərdə kütləvi şəkil alan meşə yanğınları (Türkiyə, İtaliya, Yunanıstan, İspaniya), daşqınlar (Liviya) və zəlzələlər (Türkiyə, Mərakeş) zamanı özünü açıq göstərir. Bütün ölkələrdə baş verə biləcək bu fəlakətləri qarşılamaq üçün, dövlətlərin birbiri ilə yarımlaşması birgəlik məsələsinə yaxşı nümunədir.

İstənilən formalı dialoq daima ilk olaraq daxili fərdi dialoqdan törəyir. Bu mənada, dialoq xüsusidən başlayıb, cəmiyyətə ümumiləşir. Fərdi törəyərək ünsiyyətdə məna qazanır. Bu cəhətdən, dialoq problemi, fəlsəfənin ən əsas problemlərindən bir olan insan problemindən də ayrı deyil. Sülh və münaqişə araşdırmaları üzrə dünyaca məşhur mütəxəssislərdən biri hesab olunan Yohan Qaltunq (1930) hesab edir ki, "insana xas daxili dialoq, insanlar arasındakı dialoq qədər vacibdir". [16,s.191] Bu cəhətdən, müasir dünyada bəşər adına hər bir insanın daxili dialoqu, yəni, öz tənqidi, özü qarşısında məhsuliyyəti və məqsədyönlü fəaliyyəti olduqca böyük məna kəsb etməkdədir. Fəlsəfi mənada, *dialoq fərdlərdən başlayıb cəmiyyətlərə sirayət edən və qlobal miqyaslı bəşəri problemləri həll etməyi hədəfləyən universal və bəşəri olduğu üçün də, əsas bəşəri amil olan kommunikativliyi ilə də səciyyələnən bir fenomendir*.

Dialoq daimi cavablar axtarışıda olan prosesdir. Onun bəşəri qayəsi məhz bundan ibarətdir. Bu mənada dialoq həm də, qarşı tərəfə daimi xitabətdir. Bu axtarış və xitabətdə sualın düzgün qoyuluşu dialoqun uğuruna birbaşa olaraq təsir edən amildir. Y.Qaltunq yazır ki, "dialoq suala əsaslanır". [15,s.166] "Dialoq daima soruşur və axtarır". [15,s.20] Bu mənada, dialoqun fəlsəfi mahiyyəti sual-cavab dixatomiyasına bağlıdır. Bu cəhətdən, dialoq daima verdiyi suallara münasib cavablar axtarmaq əsasında davam edən bir prosesdir. *Dialoq soruşan və axtaran, konsensus isə, bu prosesin sonunda ta-*

pılan ən uyğun cavablardan biridır. İstənilən münaqişəni önləmə məqsədi güdən və ya istənilən bir problemin həllinə aid düzgün cavab, daima, öncədən düzgün qoyulan suallardan aslı olaraq hasil olmuş olur. Bu mənada dialoq da, dolğun sualların müzakirəsi və bu qəbildən olan suallara birgə və eləcə də, dialoqa daxil olan tərəfləri maksimum dərəcədə qane edəcək cavabları tapmaq prosedurudur. "Dialoq subyektivliyin subyektivliklə görüşü" [11, s.216] olsa da, bu prosedurun konstruktiv olması son dərəcə vacibdir. "Dialoq bərabərliyi, iştirakçılarının qarşılıqlı hörmətini nəzərdə tutur. Onun məqsədi sadəcə bilikləri artırmaq və ya öz fikirlərini həmsöhbətə təlqin etmək deyil, mövcud, yeni problemlər və ziddiyyətlərin həllinə ümumi yanaşmalar axtarmaqdır. Dialoq konstruktivdir, destruktiv deyil".[10, s.99] Destruktivliyə qarşı konstruktiv vasitə olan dialoq danışıqları, debatları, müzakirələri, problemlərin həllini daha yüksək mərhələyə daşıyan bir fenomendir. Bu cəhətdən H.H.Saunders yazır ki, "debat daryönümlü baxışları gücləndirir, dialoq isə, yeni və daha yaxşı yanaşmalara yollar açır". [21,s.378] Bu mənada, ümumiortaq nəticələrin əldə olunması üçün dialoq daha dolğun və əsaslı bir platformadır. "Monoloq bir nöqteyi-nəzəri vurğulayaraq monosentrikdirsə, dialoq dualistik, ikili xarakter daşıyır. Bir və ya birdən çox digər həmtərəflərin, "səslərini", müxtəlif düşüncələrin və baxışların birgə mövcudluğu, diskursda bərabər iştirakını təmsil edir". [7, s.25] *Dialoq konstruktivlik axtarışında olan dualistik prosesdir*. Diloq istənilən destruktivliyi həll etmək iqtidarında olan yaradıcı proses və monoloqu aradan qaldırmaq iqtidarında olan kommunikativ prosesdir.

Düşünürük ki, dialoqların konstruktiv olması üçün iki əsas məqama diqqət yetirmək önəmlidir:

1. Dialoqların maksimal dərəcədə konstruktiv və uğurlu olmasında ən önəmli faktorlardan biri də dialoq mövzusunun tərəflərin bilavasitə özlərinin maraqlarından törəməsidir. Əks halda surroqat mövzular dialoq prosesinə daxil olduqda dialoqun konstruktiv olma ehtimalı da azalmış olur. Dialoq mövzusunun tərəflərin ilk öncə öz maraqlarını ehtiva etməsi münaqişəli problemlərin həllində də vacibdir. "Münaqişədən çıxmaq üçün müxtəlif subyektlərin iştirakını və anlayışını təşviq edib, münaqişənin transformasiyası naminə öz bilik və təcrübələrindən istifadə edən, onları xaricdən idxal etməyən dialoqlar vacibdir". [13, s. 256] Fikrimizcə, istənilən formatlı dialoqların ilk öncə real əsaslara söykənməsi və kənardan əlavə edilən olmaması zəruridir. Əks halda, kənardan ekstrapolyasiya edilən şərtlər daxilində dialoqların uğurlu tamamlanması və sonda konsensusa yol açması mümkünsüzdür.

2. Dialoqların konstruktiv, uğurlu və münaqişələrin həllində əsas faktor olmaları üçün şərtlərdən biri də, dialoq prosesini münaqişəli problemə düzgün inteqrasiya etməkdir. Yəni diloq münaqişə müstəvisinə düzgün və daha çox onun mərkəzinə yerləşdirildikdə, onun effektiv olmaq şansı da daha yüksəlmiş olur. H.H.Saunders yazır ki, "dialoq dəstəkləndikdə, davam etdirildikdə, ciddi, diqqətlə hazırlanmış bir proses kimi tətbiq edildikdə və əsasən də, dərin köklü münaqişənin kontekstinə yerləşdirildikdə, o, ziddiyyətli, qeyri-funksional və ya dağıdıcı münasibətləri dəyişdirmək üçün sistemli bir vasitəyə çevrilə bilər". [21,s.376] Yəni, fəlsəfi mənada dialoqun bütün əsas funksiyaları və imkanları düzgün bir şəkildə və sistemli olaraq işə salındıqda, onun nəticələrinin uğurlu olması da, qaçılmazdır. Bu mənada, dialoqun əvvəldən düzgün təşkili və aparılması olduqca önəmlidir. Dialoqun məqsədinin öncədən düzgün təyin edilməsi də, sonda onun uğurluluğuna təsir edən əsas faktordur.

Dialoq, kommunikasiya və konstruktiv əməkdaşlıq. Artıq qeyd olunduğu kimi sosial hadisə olan dialoq, düzgün tərtib olunmuş suallar və onlara konstruktiv cavablar dixotomiyası əsasında baş verən qarşılıqlı eşitmə-dinləmə prosesdir. Bu mənada, uğurlu dialoqun əsas şərtlərindən biri də, dialoqlar zamanı düzgün ünsiyyətin qurulmasıdır. Dialoqun mahiyyətini bilavasitə uğurlu ünsiyyət təyin etdiyi kimi, bu faktor həm də, onun konstruktiv nəticəsini də formalaşdırmaqda əsas amildir. Bu cəhətdən, "ümumi anlaşma nöqtələrini əhatə etməyə çalışan dialoq dinləmə, əks etdirmə və müzakirə formatında gerçəkləşir". [17,s.201] Bu məqamlar isə, dialoqların davamlı olmasını qaçılmaz edir. Yəni dialoqu formalaşdıran əsas şərtlər, dinləmə, qarşılıqlı refleksiya və müzakirə, dialoq prosesinə bir davamlılıq qazandırmış olur.

Dialoq bu formada inkişaf edərək davamlı prosesə çevrilmiş olur. "Hər bir dialoqa ilk dialoq kimi yanaşmaq vacibdir... Dialoq iştirakçıları hər dəfə "yenidən başlamağa", yeni prosesə girməyə hazır olmalıdırlar". [13, s.257] Hətta kifayət qədər uğurlu gedən dialoqlara, dialoqların növbəti mərhələsində mənfi təsir göstərmək iqtidarında olan kənar amillər təsir edə bilir. Bu da, dialoq iştirakçılarını yeni çağırışlar qarşısında qoyur. Dilaoq prosesində iradə və əzm nümayiş etdirmək, dəyişən şərtlərə qarşı çeviklik nümayiş etdirmək son dərəcə önəmlidir. Davamlı dialoq modelinin tərəfdarı və eləcə də, ABŞ-da Davamlı Dialoq İnstitutunu təsisçisi olmuş Harold Henry Saunders (1930-2016) hesab edir ki, "dialoq münasibətlərin mahiyyətini təşkil edən xüsusi ünsiyyət üsuludur. Danışıqlar, vasitəçilik, debat, hüquqi mübahisələr, diplomatik mübadilə, qiraət və ya adi söhbətdən fərqli olaraq, daha geniş tətbiq olunan, təlqinedici danışma və dinləmə üsuludur. Dialoq, bilavasitə olmasa da, əksər münaqişələrin həlli vasitələri üçün də vacib şərtdir". [21,s.376] Dialoq sadəcə ünsiyyət yox, ünsiyyət zamanı digər kompleks amilləri də nəzərə alaraq özündə birləşdirən *xüsusi ünsiyyət* vasitəsidir. Mahiyyəti etibarı ilə ünsiyyətin digər növlərindən daha genişdir. Dolğun izah, dəqiq təqdimat, bəlağət, eşitmə, dinləmə və digər kompleks amillər də dialoqlarda əks olunmaqdadır. Bu kimi amillər dialoqların nəticəsinə müsbət təsir göstərməkdədir. Bu mənada, dialoq digər ünsiyyət növlərindən fərqli olaraq daha düşünülmüş və dərin əsaslara sahibdir. Eləcə də, dialoqların mahiyyətində konkret fikir amili, problemlərə daha dəqiq və dərindən yönəlmə də, qabarıq şəkildə əks olunmaqdadır. Əksər hallarda, münaqişələrin həlli üçün kompleks ünsiyyət amillərinin vacibliyi əsas şərtlərdən olduğundan, dialoq həm də, münaqişələrin həllində ümumiləşdirici bir aktor kimi də çıxış edir. Bu cəhətdən, dialoq günümüzdə də, münaqişələrin həlli üçün ən effektiv vasitələrdən biri olaraq qalmadadır. "Həqiqi dialoq empatik (*tərəflərin bir-birini qarşılıqlı anlamaq mənasında-G.V.*) kommunikasiya tələb edir, həqiqi dialoq digərinə qayğı göstərməkdən daha çox vahid, əhatəli bir "sistem" naminə qayğı göstərmək və sabit düşüncə xətləri boyunca irəli-geri qaçmaq əvəzinə, yeni bir ümumi görüş sistemi əldə etmək istəyidir". [14,s.220] Dialoq fərdə - təkə yox, fərdlərdən - cəmə yönələn proqresiv və davamlı bir prosesdir. Bu proses, dialoqdakı tərəflərin bir-birilərinə qarşı istək və rəğbət formalaşdırmasından daha çox, ümumi mənafe naminə, rasional güzəştlər və ədalətli kompromislər tələb edən prosesdir. Fəlsəfi mənada problemə yanaşsaq, *dialoq praqmatik olduqda daha pozitiv nəticələr vermək iqtidarında olan fenomendir*. Əksinə, dialoq daha çox pozitiv olan hisslər üzərində qurularaq, göstərişli şəkildə davam etdikdə və bu konteksdə praqmatik məqamlar diqqətdən kənarda qaldıqda, dialoqun yekun nəticəsi də uğurlu sayılmamalıdır. Bir sözlə, dialoq soyuqqanlılıq tələb edən və praqmatik əsaslar üzərində qurulmalı olan bir prosesdir. Bu prosesdə hisslər və emosiyalara yer vermək doğru deyil. Dialoqlarda düzgün və sistemli kommunikasiyanın rolu bu cəhətdən həlledicidir. Kommunikasiya dialoqu konstruktiv edən ən əsas amildir. Kommunikasiya həm də mədəniyyətin dialoqunda da əsas faktorlarından biridir. Hər hansı bir mədəniyyət də digər mədəniyyətlər ilə ünsiyyətə daxil olmadan öz daxilində qaldıqca, inkişafdan məhrum olur. Tarixdə mədəniyyətlərin geriləməsi və süqutunun əsas şərtlərindən biri məhz budur. Mədəniyyətin də mahiyyətində əks olunan, əlaqə, ünsiyyət, qarşılıqlı təsir, sinkretika, eklektika və digər bu kimi elementlər əsasdır. "Tam olaraq özünü təkcə öz mədəniyyəti ilə eyniləşdirən insan bütün digər mədəniyyətlərə kor olur, yəni bir mədəniyyətin insanı, mənəvi yüksəlişdən məhrum olmağa məhkumdur. Ona görə də, kommunikasiya inkişaf etmiş açıq və yaradıcı mədəniyyətin ən əsas əlamətidir. Vahid mədəniyyət özünü dərk edə bilməz, başqa, fərqli mədəniyyətlərlə əlaqəsi olmadan öz kimliyini qura bilməz". [20,s.19]

Digər tərəfdən, mədəniyyətlər arası əlaqələr və eləcə də, tədqiqat mövzumuz kimi dialoqlarda əsas sistemyaradıcı element olan kommunikasiya probleminə tənqidi də yanaşmaq lazımdır. Çünki günümüzdə davam edən, eləcə də, keçmiş tarixi proseslər göstərir ki, bəzən düzgün kommunikasiya qurulduqda belə, tərəflər arasında dialoqlar uğursuz ola bilir. Belə ki, "kommunikasiya münaqişəni həll edən panaseya (*bütün xəstəliklərin dərmanı-G.V.*) demək deyil. Münaqişənin həlli üçün səmimi istək olmadıqda, kommunikasiya həm tərəflərin fikir

ayrılıqlarını artıra, həm də onları yumşalda bilər". [17,s.155] Məsələn, 44 günlük vətən müharibəsindən sonra Ermənistanın Azərbaycana qarşı beynəlxalq hüququn normaları çərçivələrinə zidd olaraq və Ermənistanın kapitulyasiyasına rəğmən hələ də qeyri-səmimi duruş nümayiş etdirməsi buna misaldır. Hüquqi müstəvidə davam edən dialoq və kommunikasiyalara baxmayaraq, bu qeyri-səmimi yanaşma, hələ də, Ermənistan cəmiyyətində böyük ölçüdə alqışlanmaqdadır. Deməli, kommunikasiya və dialoqlarda cəmiyyətlərin məsələyə rasional münasibətləri də əsas şərtlərdəndir. Bu cəhətdən, müasir dünyada ölkələr arasında diplomatik əlaqələrin qurulması üçün təmaslar, danışıqlar və konstruktiv dialoqlar son dərəcə önəmlidir. Konstruktiv dialoqlarsız hansısa münasibətlərin qurulması, münaqişəli məsələlərin aradan qaldırılması, tərəfdaşlıqların artırılması, bəyanatların imzalanması mümkünsüzdür. Eləcə də, münaqişə vəziyyətində olan tərəflər arasında da, dialoq və digər bu yönümlü təmaslar dərinləşdikcə, onların konsensusa yaxınlaşma prosesi də, bir o qədər sürətlənmiş olur. Bu mənada, "münaqişə edən tərəflər arasında dialoq inkişaf edərək dərinləşdikcə, opponentlər aralarındakı münasibətlərin şərtləri müəyyənləşdirilə və yenidən təyin edilə bilər". [17,s.142]

Müasir dünyada olduqca vacib sosial fenomen olan dialoqun gerçəkləşməsi üçün, onun ilkin bazisinin düzgün formalaşdırılması da vacib şərtlərdəndir. Bu bazisin əsaslılığı ilə dialoqların uğurluluğu düz mütənasibdir. Əvvəldə qeyd etdiyimiz kimi istənilən sferalarda gerçəkləşən dialoqlar üçün, ilkin dialoq platformaları olan, dialoqa hazır olma, konstruktiv danışıqlar, qarşı tərəfə düzgün suallar ünvanlandırma, qarşılıqlı ünsiyyət və digər bu kimi amillər əsasdır. Dialoqun uğurlu nəticəsi məhz bu amillər əsasında formalaşır. Eləcə də, dialoqların bazisini formalaşdıran, bu amillər, dialoqların sonrakı mərhələsini təşkil edən əməkdaşlıq, tərfdaşlıq, iqtisadi, siyasi əlaqələrin qurulması və bu kimi digər amillərin də konstruktivliyini şərtləndirmiş olur. Dialoqlar əsas hədəflərinə bu şərtlər əsasında çatmış olur. Bu cəhətdən, "dialoq əsasında sivilizasiyaların qarşılıqlı əlaqəsinin ən yüksək forması, qlobal problemlərin həllində tərəfdaşlıq əlaqələrinin qurulmasıdır". [10,s.103] Ümumilikdə "əməkdaşlıq, tərəfdaşlıq dialoqun yüksək pilləsi, onun inkişafının daha mükəmməl səviyyəsi deməkdir". [5,s.41] "Tərəfdaşlıq sivilizasiyaların daha dərin qarşılıqlı anlaşma və etimad dərəcəsini, qarşılıqlı əlaqələrin geniş sahəsinin sabitliyini, potensialların birləşdirilməsini, qlobal problemin həlli üçün zəruri olan ümumi qurumların yaradılmasını nəzərdə tutur". [9,s.162] Müasir dünyada cəmiyyətlərin həmahəng mövcudluğu, qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıqları üçün dialoqlarla yanaşı, bu dialoqların ilkin bazisinin düzgün qurulması da bir o qədər önəmlidir. Dialoqun nəticəsi dialoqa hazırlıqdan böyük ölçüdə aslıdır. Bu mənada konstruktiv dialoq, dialoqa qədərki mərhələlərin düzgün təşkili ilə, dialoqdan sonrakı mərhələ olan əməkdaşlığın da üzvi sintezindən aslıdır. Konstruktivlik bir proses olaraq dialoqların baş tutması və səmərələliyini təyin edən ən əsas faktordur.

Dialoqlarda yumuşaq güc faktoru və vasitəçi aktor. Günümüzdə dünyada baş verən çoxşaxəli prosesləri nəzərə aldıqda bəzi anlayışların məna dəyişikliyi və ya əvvəlki mənasından daha geniş məna qazandığının da şahidi oluruq. XXI əsrin reallıqlarını nəzərə aldıqda, mənaca dialoq məntiqinin vacib bir elementinə çevrilmiş yumuşaq güc anlayışı da bu qəbildəndir. Digər tərəfdən, qurulan konstruktiv dialoqların məntiqi nəticəsi olan əməkdaşlıq da əbədi proses deyil. Bu prosesdə də, daimi reqreslərin müşahidə oluması mümkündür. Müasir dünyanın dinamik dəyişən vektorunu nəzərə aldıqda dialoqların uzunmüddətli olaraq dayanıqlı qalmaları da son dərəcə qəliz məsələdir. "Dialoq ümumi problemlərin həllində əməkdaşlığın konkret sahələrinin, formalarının, mexanizmlərinin inkişafı üçün ilkin şərtlər yaradır. Lakin bu cür əməkdaşlıq çox vaxt qısamüddətli də olur o, öz formalarını dəyişə və ya vəziyyət dəyişdikdə, eləcə də ziddiyyətlər kəskinləşdikdə sonlana bilər". [12,s.45] Məlumdur ki, dialoqlar nəticəsində əldə olunan əsas naliyyətlər siyasi, iqtisadi, hərbi kataklizmlərin fonunda öz ilkin mahiyyətini itirə bilər. Günümüzdə iqtisadiyyat və siyasətin bütün dünya hadisələrinə son dərəcə dinamik yön verən güclər olduqlarını nəzərə aldıqda, dialoq konlfikli vəziyyətlərdən tam olaraq çıxış da deyil. Bu cəhətdən, müxtəlif sahələrdə əqdə olunan dialoqların nəticələrində reqreslərin baş verməməsi üçün, *müasir anlam-*

da başa düşülən güc faktorlarının həlledici rolları da önəmlidir. Müasir güc faktorları birbaşa konfrontasiyadan daha çox, bir növ nizamlayıcı funksiyaları yerinə yetirirlər. Müasir dünyanın güc faktorları arasında isə, yumuşaq vasitələr, ənənəvi sərt vasitələrdən daha çoxdur. Belə güc faktorlarına misal olaraq iqtisadi təzyiqlər, diplomatik xəbərdarlıqlar, sanksiyalar və digərlərini misal göstərmək olar. Bu mənada, "qlobal münaqişə və əməkdaşlığın öyrənilməsində, digər əsas anlayışlardan biri də gücdür. Bununla belə, güc faktorunu da sevgi kimi, müəyyən etmək və ya ölçməkdənsə, yaşamaq daha asandır". [19,s.46] Belə ki, müasir dünyada əksər hallarda mahiyyəti dialoq olan əməkdaşlığın özü də güc faktoru ilə ölçülür. Müasir dünyada dialoqların uğuruna bu amil də bilavasitə təsir edir. Daha zəngin və güclü ölklər ilə əməkdaşlıqda maraqlı olmaq da, eyni dərəcədə tarixin sınaqlarından çıxmış və dəfələrlə təsdiq olunmuş əsaslı arqumentdir. Bu cəhətdən, müasir dünyanın şərtləri daxilində dialoqlar həm də, bir növ balansın qorunması yollarıdır.

Müasir dünyada konstruktiv və davamlı dialoqlarda yumuşaq güc faktoru ilə yanaşı, eynən onun kimi balans rolunda çıxış etmək iqtidarında olan digər faktorlar da mövcuddur. Belə əsas faktorlardan biri də vasitəçilikdir. "Vasitəçi aktorun rolu, tərəflərarası dialoqu asanlaşdırmaq, münaqişə tərəfləri arasında bağ qurmaq və onları tədricən hansısa həll yoluna çatdırmaq üçün vasitəçi qismində xidmət etməkdən ibarətdir". [13,s.235] Ümumiyyətlə, qeyd olunmalıdır ki, dialoqların konstruktiv olmasını şərtləndirən ən əsas məqam neytrallıqdır. Çünki obyektivlik məhz bu formatda keçirilən dialoqlarda təmin oluna bilir. Amma müasir dünyanın çoxqütblülüyünü nəzərə aldıqda neytrallıq faktoru çox zaman obyektiv şəkildə təmin oluna bilmir. Məhz vasitəçilik bu neytrallığın təmin olunmasını şərtləndirə bilən aktora çevrilə bilir. Bu mənada, neyrtalığın təmin olunması üçün, bəzər ikitərəfli dialoqlarda üçüncü bir tərəfin iştirakı da vacib olur. Müasir dünyada dialoqlar sayəsində konsensusun təşviqi üçün, dialoqların özləri zəruri olduqları qədər, münaqişə edən tərəflər arasında vasitəçi aktorların da rolu bir o qədər əhəmiyyətlidir.

Nəticə

Bütün deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, müasir dövrdə insanın sosial, ictimai-siyasi həyatında baş verən münaqişələrin, ziddiyyətlərin, böhran vəziyyətlərin həll olunmasında dialoq prosesinin rolu mühümdür. Dialoqun ayrılıqda müstəqil fəlsəfi bir problem kimi öyrənilməsi və cəmiyyətdə dialoq mədəniyyətinin formalaşdırılması da vacib amillər sırasındadır. Çünki dialoq insanın qarşılıqlı anlaşma mədəniyyətinin və humanizm dəyərlərinin formalaşmasında və s. bu kimi bir sıra fəlsəfi dünyagörüşü məsələləri ilə bağlı olduğundan onun sosial-fəlsəfi dərki aktuallaşır.

Dialoq danışıq imkanlarının bitdiyi və böhran həddə çatdığı sistemlərdə vacib bir instrumentdir. Müasir dünyanın qarşılaşdığı kəskin təzadlar, hazırda həyatda baş verən bütün hadisələr və insan şüurundakı müxtəliflik amili dialoqun köməyi ilə normal vəziyyətə gətirilə bilər. Qarşılıqlı münasibətləri təmin etmək, sivilizasiyaların, dinlərin, mədəniyyətlərin, siyasi sistemlərin birgəfəaliyyəti, birgəmövcudluğu, dinc, tolerant şəkildə yaşamağa nail olmaq dialoqun uğurla həyata keçirilməsi ilə bağlıdır. Dialoq etnik, sosial, mədəni müxtəliflikdən törəyə biləcək problemləri sabitləşdirə və eləcə də cəmiyyətin stabilliyinin təmin olunması imkanlarını yarada bilir.

Dialoq prosesi iki tərəfin cəlb olunduğu müzakirə prosesidir, lakin mahiyyət budur ki, dialoq prosesi problemli tərəflərin müzakirə formatında çıxış yolu axtarmasıdır. Bu müzakirə formatının uğuru isə sistemli şəkildə yanaşılaraq düzgün və konstruktiv ünsiyyətin qurulması, qarşılıqlı müzakirədə dinləmə, qarşılıqlı refleksiya, maraqların müzakirə mərkəzinə gətirilməsi, iradə, əzm, dəyişən şərtlərə çeviklik nümayiş etdirməkdən asılıdır. Bütün bu amillər əməkdaşlığın, tərəfdaşlığın yaranmasına səbəb olur. Dialoq əməkdaşlığın inkişafı üçün başlanğıc nöqtəsi və onun ən yüksək forması - ümumi qlobal problemlərin həllində sivilizasiyaların qarşılıqlı tərəfdaşlığıdır. Digər tərəfdən müasir dünyada konstruktiv dialoqların həyata keçirilməsində yumşaq güc, vasitəçilik kimi digər faktorların da rolu mühümdür.

Ədəbiyyat

1. Abbasov Əbülhəsən, Geosiyasi və sosial fəlsəfə: ədalətli nizam və tərəqqi naminə, Bakı, "Zərdabi LTD" MMC, 2017.284 səh.
2. İsmayılov Fərman. Bəşəri problemlər, Turan evi, Bakı, 2010, 390 səh.
3. Məmmədzadə İlham, Bir daha fəlsəfə haqqında, Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Tamamlanmış və yenidən işlənmiş ikinci nəşri., Bakı, Elm və təhsil, 2019, 200 səh.
4. Zeynalov Şölət, Dialoq fəlsəfəsi, Bakı, Avropa nəşriyyatı, 2017, 304 səh.
5. Zeynalov Şölət, Sivilizasiyalararası münasibətlər: problemlər və perspektivlər. Bakı: Oğuz Eli nəşriyyatı, 2014, 240 s.
6. Zeynalov Şölət, Dialoq mədəniyyəti və müasirlik, Bakı, Avropa nəşriyyatı, 2020, 330 səh.
7. Диалог цивилизаций. Повестка дня. – Москва: ИФ РАН, – 2005. – 145 с.
8. Долгов, К.М. Личность в диалоге культур // Философия в диалоге культур: Материалы Всемирного дня философии. – Москва: Прогресс-Традиция, – 2010. – с.1147-1154
9. Кузык, Б.Н., Яковец, Ю.В. Цивилизации: теория, история, диалог, будущее // Т.I: Теория и история цивилизаций. – Москва: Институт экономических стратегий, – 2006. – 768 с.
10. Кузык, Б.Н., Яковец, Ю.В. Цивилизации: теория, история, диалог, будущее // Т.V: Цивилизации: прошлое и будущее. – Москва: Институт экономических стратегий, – 2008. – 576 с.
11. Рзаева, Роида. Постмодерн и мультикультурализм: Междисциплинарный дискурс. – Баку, «Елм ве тахсил». – 2015. – 300 с.
12. Яковец, Ю.В., Фарах С. Диалог и партнерство цивилизаций. – Москва: Международный институт Питирима Сорокина – Николая Кондратьева, Институт экономических стратегий, – 2014, 434 с.
13. Brand-Jacobsen, Kai Frithjof, with Jacobsen, Carl G. Beyond mediation: towards more holistic approaches to peacebuilding and peace actor empowerment // Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press. – 2000, – pp. 231-267
14. Galtung, Johan and Tschudi, Finn. Crafting peace: On the psychology of the transcend approach // Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press. – 2000, – pp. 206-227
15. Galtung, Johan. Transcend and Transform: An introduction to conflict work. – London: Pluto Press. – 2004, – 197 p.
16. Galtung, Johan. Peace by peaceful means: Peace and conflict, development and civilization. – Oslo: International Peace Research Institute. – 1996, – 289 p.
17. Jeong, Ho-Won. Conflict Management and Resolution. An introduction. – New York: Routledge, – 2010. – 256 p.
18. Krauss, Robert M., Morsella Ezequiel. Communication and Conflict // The handbook of conflict resolution: Theory and practice. Editors Morton Deutsch, Peter T.Coleman, Eric C.Marcus. Second Edition. – San Francisco: Jossey-Bass. – 2006, – pp. 144-157.
19. Nye, Joseph S. Jr., Welch, David A. // Understanding global conflict and cooperation: An introduction to theory and history. – Boston: Pearson. – 2017, – 449 p.
20. Saunders, Harold H. Dialogue as a process for transforming relationships // The SAGE handbook of conflict resolution. Edited by Jacob Bercovitch, Victor Kremenyuk, and I.William Zartman. – London: SAGE Publications Ltd. – 2009, – pp.376-391
21. Susnjic, Duro. The meaning and significance of dialogue // Religious dialogue in the Balkans: The drama of understanding. Edited by Milan Vukomanović and Marinko Vučinić. Belgrade: Belgrade Open School, - 2005 pp.11-19

Summary

Vusala Gulmaliyeva

Characteristics of philosophical understanding of dialogue

The article is devoted to dialogue, which is one of the most urgent problems of the modern era. It was emphasized that the role of dialogues as a method of solving problems arising as a result of fundamental changes occurring in the background of globalization in the modern world is irreplaceable, and that it is one of the most important factors in the reformation of the world. It has been considered that dialogue has the power to resolve contradictions and conflicts arising as a result of religious, ethnic, cultural, political and economic diversity. In this process, it was reported that it is possible to achieve positive changes, harmony, stability and order in the direction of spiritual enrichment of human society. Because the successful path to dialogue begins with communication, communication and the resulting cooperation, the said factors were analyzed separately. Therefore, dialogue has been generally researched as a kind of progressive and creative communication that takes place on the basis of a healthy critique of the problems of interstate or specific societies. The article provides general information on communication, communication as a fundamental philosophical and sociological concept in the form of dialogue between people and the world, if not more specifically, between people and generations. Its task is to achieve mutual understanding, mutual enrichment, transformation and refinement of one by another, and the proper organization of communication has been analyzed as the main factor leading to the success of dialogues.

Keywords: *dialogue, consensus, cooperation, harmony, peace*

Резюме

Вусал а Гюльмалиева

Особенности философского понимания диалога

Статья посвящена диалогу, который является одной из наиболее актуальных проблем современности. Подчеркивалось, что роль диалогов как метода решения проблем, возникающих в результате фундаментальных изменений, происходящих на фоне глобализации в современном мире, незаменима и является одним из важнейших факторов реформирования мира. Считалось, что диалог способен разрешить противоречия и конфликты, возникающие в результате религиозного, этнического, культурного, политического и экономического разнообразия. В этом процессе сообщалось, что можно добиться позитивных изменений, гармонии, стабильности и порядка в направлении духовного обогащения человеческого общества. Поскольку успешный путь к диалогу начинается с общения, общения и последующего сотрудничества, указанные факторы были проанализированы отдельно. Таким образом, диалог обычно исследовался как вид прогрессивного и творческого общения, которое происходит на основе здоровой критики проблем межгосударственных или конкретных обществ. В статье даются общие сведения о коммуникации, коммуникации как фундаментальной философско-социологической концепции в форме диалога между людьми и миром, если не конкретнее, между людьми и поколениями. Его задачей является достижение взаимопонимания, взаимообогащения, трансформации и уточнения друг друга, а правильная организация общения анализируется как главный фактор, ведущий к успеху диалогов.

Ключевые слова: *диалог, консенсус, сотрудничество, гармония, мир.*

UOT 32
https://doi.org/10.59849/2710-0820.2024.1.280

Нармин Азадгиль
доктор философии по филологии,
докторант факультета Международных отношений и экономика по специальности политическим наукам БГУ
Азербайджан

ИЗРАИЛЬ-АЗЕРБАЙДЖАН- ИРАН: ИСТОРИЧЕСКИЙ АНАЛИЗ СЛОЖНОЙ ДИНАМИКИ РАЗВИТИЯ ТРЕХСТОРОННИХ ОТНОШЕНИЙ

Ключевые слова: *Азербайджан, Израиль, Иран, динамика исторического развития, карабахская проблема, геополитика.*

Введение

Summary

Samira Habibbayli

Democratic Republic of Azerbaijan – Democratic Republic of Georgia relations

Azerbaijan-Georgia relations have deep historical roots. In the historical period after 1918, it is possible to distinguish six stages of relations between the two states. Among these stages, Democratic Republic of Azerbaijan – Democratic Republic of Georgia stage from May 28, 1918 to April 20, 1920, characterized as a stage of beneficial mutual cooperation, which made a special contribution to the historical development of the two states and the relations between them, is particularly important.

In general, between 1918 and 1920, Azerbaijan-Georgia relations developed in an upward direction. As mentioned above, despite the fact that there were some misunderstandings in the relations due to the Borchali issue in the early days, the states chose a constructive position, and the positive dynamics of bilateral relations were preserved.

Keywords: *Democratic Republic of Azerbaijan, Democratic Republic of Georgia, diplomatic relations, financial and monetary systems, military cooperation*

UOT 316.47
https://doi.org/10.59849/2710-0820.2024.1.294

Rəna Məmmədova
Bakı Dövlət Universiteti. Sosial iş kafedrası.
fəl.ü.f.d., dosent
rena_mammadova@yahoo.com
Azərbaycan

EKSTRABİLİTİ VƏ İNKLÜZİV MƏDƏNİYYƏT

Açar sözlər: *əlilliyi olan şəxs, inklüziya, ekstrabiliti, WHITE CANE NGO, ekstrabiliti mədəniyyəti, Azərbaycanda əlillərin vəziyyəti, inklüziv cəmiyyətin prinsipləri*

İnklüziya - canlı olmaq və dünyanı olduğu
kimi qəbul etmək sənətidir.
Urbanist Aleksey Onatsko.
(Sankt-Peterburqdakı "Sadə şeylər" inklüziv seminarlarından
"İnklüzivlik niyə lazımdır?" layihəsindən sitat)

Giriş

Dünyada 1 milyarddan çox insan və ya dünya əhalisinin təxminən 15 faizi bu və ya digər formada əlilliyə malikdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada əlilliyi olan şəxslərin sayı 1 milyardı ötüb. Bundan başqa, əlilliyi olan hər beş nəfərdən təxminən biri inkişaf etməkdə olan ölkələrdə yaşayır. Bu arada, 15 və daha yuxarı yaşda olan 190 milyon insan işləməkdə əhəmiyyətli çətinliklər yaşayır və tez-tez tibbi xidmətə ehtiyac duyur [4]. Əlillər insan hüquqlarının pozulmasına məruz qalırlar. Əlillər fiziki qüsurları ilə mübarizə aparmaqla yanaşı, onlara qarşı insan hüquqlarının pozulmasına qarşı da mübarizə aparmağa məcbur olurlar. Bütün dünyada əlilliyi olan insanların zorakılıq, istismar, qərəz və sui-istifadə kimi çoxsaylı pozuntularla üzləşməsi çox yayğındır. Əlilliyi olan insanlar həmçinin tibbi və ya sağlamlıqla bağlı xidmətlərə çıxış zamanı qərəz və ayrı-seçkiliklə üzləşə bilərlər ki, bu da keyfiyyətsiz xidmətlərlə nəticələnir. Ümumdünya Səhiyyə Təşkilatının diqqəti əlilliyi olan insanların səhiyyə sistemlərinin bütün səviyyələrində və əsasən ilkin səhiyyə səviyyəsində inteqrasiyasının təşviq edilməsinin təcili ehtiyacına yönəldir. Əlillərin 80 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. BMT-nin məlumatına görə, bütün əlillərin 80 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. Əlilliyi olan insanların təxminən 46 faizi 65 və daha yuxarı yaşdadır. Təqdim olunan məlumatlara əsasən, hər beş qadından biri həyatının hansısa mərhələsində əlilliyin bu və ya digər formasını yaşaya bilər, uşaqlar arasında isə bu göstəricinin 10-da 1 olacağı proqnozlaşdırılır. Əlillərin zorakılığa məruz qalma ehtimalının 4-10 dəfə çox olduğu güman edilir [4].

Əlilliyi olan insanlara tibbi və sosial yanaşmalar

Əlilliyi müəyyən etmək üçün tibbi və sosial yanaşmalar mövcuddur. Birincisi, əlillərin xüsusi müdafiəyə ehtiyacı olduğunu müəyyən edir. Sosial yanaşma cəmiyyətin münasibətini nəzərə alır. Sosial yanaşma və inklüziv mühit güman edir ki, ilkin olaraq inkişafda əlilliyi olan insanlar "problemin daşıyıcısı" deyillər və heç bir xüsusi yanaşma tələb olunmur. Əksinə, insanların müxtəlif tələbatlarına cavab verdiyi üçün sosial sistemin natamamlığı səbəbindən maneələr və məhdudiyyətlər yaranır [6].

Getdikcə daha tez-tez "INKLÜZİYA", "İNKLÜZİVLİK" sözlərini eşidirik, hamı üçün açıq və mehriban bir cəmiyyət haqqında oxuyuruq. İnklüzivliyi fiziki inkişafda çətinlik çəkən, o cümlədən əlilliyi olan və ya psixi xüsusiyyətləri olan insanların cəmiyyətin aktiv həyatına real daxil edilməsi prosesi kimi təqdim etmək olar. İnklüziya (İnclusion-daxiletmə) – bütün vətəndaşların, ilk növbədə sağlamlıq imkanları

məhdud olan bütün şəxslərin cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir. İnklüziv cəmiyyətdə bütün insanlar özünün dəyərli olduğunu hiss edir, fərdi fərqlərə hörmət olunduğunu və əsas ehtiyaclarının ödənildiyini görür. Cəmiyyət heç kimi təcrid etmir və məhdudlaşdırmır. İnklüzivlik əlilliyi olan şəxslərdə özünəinamı artırır və digər əlilliyi olmayan şəxslərlə bərabərhüquqlu olmasını təmin edir.

"Ekstrabiliti" anlayışı haqqında

Əlillik anlayışını qabiliyyət çatışmazlığı ideyası ilə əlaqələndirmək olar. Açıq əmək bazarında əlilliyi olan şəxslərin aşağı rəqabət qabiliyyətini və cəmiyyətdə inklüziv mədəniyyətin yaradılmasında əlillərin aşağı fəallığını qeyd etmək olar. İnklüziv mədəniyyətin formalaşması daha çox ekstrabiliti fəlsəfəsi sayəsində mümkün olmuşdur. Onun əsasında innovativ inklüziv sosial və biznes layihələri yaradılır və təkmilləşdirilir. Ekstrabiliti uğurlu sosiallaşma prosesində məhdudiyyətlər səbəbindən inkişaf edən qabiliyyət və bacarıqlardır. Ekstrabilitinin inkişafı daxili ləyaqət hissi, qarşılıqlı hörmət və həyatda böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübənin dəyərinə əsaslanır. Belə qabiliyyətləri reallaşdıran əlillər əvvəllər dərin psixoloji böhran keçirmişlər, lakin qalib gəlmişlər, bu onlara əvvəllər gizlədilən resursları üzə çıxarmağa imkan vermişdir [8].

"Extrability" (ingilis dilindən extra - əlavə, yüksək keyfiyyət, yüksək səviyyə, ability- qabiliyyət) müvəffəqiyyətli sosiallaşma prosesində məhdudiyyətlər sayəsində inkişaf edən qabiliyyətlərdir [7]. "Ekstrabiliti" anlayışı 2013-cü ildə Rusiya Federasiyasında istifadə edilməyə başladı. "Ekstrabiliti" anlayışı ictimai xadim Oleq Kolpaşçikov tərəfindən istifadəyə verilmişdir. Oleq Kolpaşçikov biznesmen, biznesməşqçi, ictimai təşkilatın rəhbəridir. O, həm də xokkeylə ciddi məşğul idi. Bir gün idman kompleksində saat mexanizmi olan partlayıcı qurğu işə düşdü (bu o zamanlar az qala adi hal idi). Xoşbəxtlikdən Kolpaşçikov sağ qaldı, lakin görmə qabiliyyətini itirdi. Onda onun 20 yaşı var idi [6].

Ekstrabiliti məhdud sağlamlıq imkanları olan, həyata uyğunlaşma ilə əlaqədar əlilliyi olan bir şəxsdə inkişaf edən əlavə qabiliyyətlərdir. Bu qabiliyyətlərin özəlliyi ondan ibarətdir ki, adi bir insanın həyatında onlara tələbat yoxdur, lakin digər tərəfdən ekstrabiliti sayəsində əlilliyi olan şəxslərin həyatı keyfiyyətcə dəyişdirilə bilər. Ekstrabiliti əlilliyi olan insanlar üçün rəqabət üstünlükləri kimi çıxış edən unikal qabiliyyət və bacarıqlardır. Peşəkar fəaliyyətdə ekstrabilitinin istifadəsi və inkişafı əlilliyi olan insanlara açıq bazarda rəqabətli yer tutmağa imkan verir [5]. Ekstrabiliti fəlsəfəsini inkişaf etdirmək üçün Rusiyada və dünyanın digər ölkələrində konfranslar, konqreslər, tədqiqatlar və müsabiqələr keçirilir [8]. Ekstrabiliti - Rusiya Federasiyasının Yekaterinburq şəhərində yaradılan "Ağ əsa" ictimai hərəkatının (WHITE CANE NGO) fəlsəfəsi, fəaliyyət prinsipi və həyat qaydasıdır. "Ağ əsa" adlı qeyri-kommersiya təşkilatı görmə qüsuru olan insanlar tərəfindən təsis edilib. Müxtəlif sosial qrupların nümayəndələri arasında inklüziv qarşılıqlı əlaqə sahəsində əvvəllər gizlədilən istedad və qabiliyyətlərdən istifadə edən yeni sosial layihələr və peşələr yaradılır [5]. Cəmiyyətdə inklüziv mədəniyyətin yaradılması məqsədilə 2018-2019-cu illərdə "Ağ əsa" qeyri-kommersiya təşkilatı və tərəfdaşları üç qitədə, 20 ölkədə və Rusiya Federasiyasının 20-dən çox regionunda inklüziv sosial-mədəni tədbirlər və kommersiya layihələri həyata keçiriblər. Tədbirlərdə 10 mindən çox insan, o cümlədən 2500-dən çox əlilliyi olan şəxs iştirak edib [8].

Ekstrabiliti - taleyin dəyişdirilməsinin yeni ənənəsidir, həyatın keyfiyyət səviyyəsinə keçiddir. Travma və ciddi məhdudiyyətlər yeni imkanların reallaşdırılması və istifadəsi üçün təkandır.

Azərbaycanda sağlamlıq imkanları məhdud olan insanlara aid həyata keçirilən tədbirlər

Azərbaycan Respublikasında əhaliyə göstərilən tibbi-sosial ekspertiza xidməti, orqanizmin funksiyalarının pozulması faizinin, səbəbinin və müddətinin müəyyən edilməsi məqsədilə əlilliyin qiymətləndirilməsi, əlilliyi olan şəxslərin sosial müdafiə tədbirlərinə ehtiyaclarının müəyyən edilməsi tibbi-sosial ekspert komissiyaları (TSEK) tərəfindən həyata keçirilir.

Şəxsin əlilliyi aşağıdakı səbəblərdən birinə əsasən müəyyən edilir:

1. ümumi səbəblərdən: ümumi xəstəlik, istehsalat zədəsi, peşə xəstəliyi, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar, hərbi xidmət dövrü ilə

əlaqədar, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, terror hadisəsi ilə əlaqədar;

2. xüsusi səbəblərdən: Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar, Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar.

Orqanizmin funksiyalarının pozulması faizinin, səbəbinin və müddətinin müəyyən edilməsi məqsədilə əlilliyin qiymətləndirilməsi TSEK tərəfindən Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əlillik" altsistemi vasitəsilə aparılır.

Orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlillik müəyyən edilmir, 30 faizdən artıq pozulması hallarında isə 31-60 faizədək, 61-80 faizədək və 81-100 faizədək qiymətləndirilməklə əlillik müəyyən edilir. Orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri 31-35-dək olduqda 35 faiz müəyyən edilir. Orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri üzrə qiymətləndirilməsi 5 faiz aralığı ilə aparılır.

Anadangəlmə xəstəlikdən və ya çatışmazlıqdan, yaxud sonradan qazanılmış xəstəlikdən və ya zədədən, habelə sonradan qazanılmış xəstəlik və ya zədə ilə bağlı çatışmazlıqdan irəli gələn orqanizmin funksiyalarının pozulmasının əlilliyin müəyyən edilməsinə əsas verən bir neçə halı olduqda, hər bir hal ayrılıqda qiymətləndirilir və orqanizmin funksiyalarının pozulması faizi müəyyənləşdirilir. Bu zaman orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri eyni olduqda, yekun göstərici 10 faiz artırılmaqla, fərqli olduqda ən yüksək olan göstərici 10 faiz artırılmaqla, ümumilikdə isə 100 faizdən çox olmamaqla müəyyən edilir. Hər hansı bir hal üzrə müddətsiz əlillik müəyyən edilməsinə əsas olduqda, əlillik müddətsiz müəyyən edilir.

İstehsalat zədəsi və ya peşə xəstəliyi ilə bağlı əmək qabiliyyətinin itirilməsi 30 faizdən yuxarı təyin olunduğu hallarda, onun müddəti əlilliyinin müddətinə uyğun olaraq müəyyənləşdirilir. Peşə xəstəliyi və istehsalat zədəsi istisna olmaqla, əlilliyin müəyyən edilməsinə əsas verən bir neçə hal üzrə orqanizmin funksiyalarının pozulmasının fərqli faizləri müəyyənləşdirildiyi hallarda, daha üstün sosial müdafiə təminatları nəzərdə tutulan əlillik səbəbi və orqanizmin funksiyalarının pozulmasının ən yüksək faizi müəyyən edilir.

BP və onun tərafdaşlarının Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıqda Bakı şəhərində həyata keçirdiyi "Əlilliyi olan şəxslərin məşğulluq qabiliyyətlərinin artırılması" proqramına ərizə qəbulu elan edib. Proqram British Council tərəfindən icra olunub [1]. Layihənin əsas məqsədi Bakı şəhərində yaşayan əlilliyi olan şəxslərin məşğulluq bacarıqlarını inkişaf etdirmək və onların iş perspektivlərini artırmaq olub. Layihədə iştirak etmək üçün Bakı şəhərində yaşayan 100 nəfər əlilliyi olan şəxs seçilərək ingilis dili, kompüter bacarıqları və sosial bacarıqların inkişaf etdirilməsi istiqamətində təlimlərə cəlb ediliblər. Layihə çərçivəsində iştirakçılara həm də psixoloji dəstəyin göstərilməsi və məşğulluq üzrə müvafiq məsləhətlərin verilməsi də nəzərdə tutulmuşdur. Proqram iştirakçılarının gələcək iş perspektivlərinin artırılması məqsədilə layihə çərçivəsində müvafiq istiqamətdə fəaliyyət göstərən qərarverici tərəflər və biznes müəssisələri tərəfdaş qismində layihəyə cəlb edilib.

Proqramda iştirak etmək üçün tələb olunan şərtlər bunlar olub: Əlilliyi olan şəxslər (I, II, III əlillilik qrupu), Yaş həddi: 18-40, Yaşayış yeri: Bakı şəhəri, Tələb olunan minimal təhsil səviyyəsi: orta təhsil, Azərbaycan dili (səlis yazmaq və danışmaq), Öyrənmək və işləmək üçün yüksək motivasiyaya malik olmaq, Liderlik potensialı olan və ictimai həyatda fəal olan şəxslərə üstünlük verilib, Baza kompüter (zəruri olub) və minimal ingilis dili bacarıqları (arzuolunan olub), Dövlət Məşğulluq Mərkəzində qeydiyyat/Məşğulluq Mərkəzinin işsizlik statusu haqqında arayışı (arzuolunan olub).

Proqrama müraciət etmək üçün tələb olunan sənədlərin siyahısı aşağıdakı olub:

Doldurulmuş ərizə forması, CV forması, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Tibbi-Sosial Ekspert Komissiyaları tərəfindən keçirilmiş müayinə barədə məlumatın verilməsi" elektron xidmətindən çıxarılmış əlillik barədə elektron arayış [1].

Layihə aşağıdakı mərhələlərdən ibarət olub:

Seçim mərhələsi.

Ərizələrin qəbulu: Ərizələrin qəbulu British Council tərəfindən həyata keçirilib.

Qəbul olunan ərizələrə bu layihə çərçivəsində təyin edilmiş, British Council və layihədə iştirak edən digər tərəflərin nümayəndələrinin də daxil olduğu Seçki Komitəsi baxıb və seçim meyarlarına uyğun olaraq seçilmiş namizədlər müsahibələrə dəvət olunublar. Müsahibələrdən uğurla keçən şəxslər proqramda iştirak etmək hüququ əldə ediblər. Layihədə iştirak etmək üçün 100 nəfər şəxs seçilib. Seçilmiş şəxslərin ilkin mərhələdə bilik və bacarıqları müvafiq ekspert tərəfindən qiymətləndirilib. İştirakçılar qiymətləndirilmə əsasında səviyyələr üzrə qruplara bölünərək təyin olunmuş fəaliyyət cədvəlinə uyğun olaraq 2018-ci il ərzində təlimlərə cəlb ediliblər. Təlimlər Azərbaycan dilində keçirilib.

Təlimlər aşağıdakı istiqamətlərdə həyata keçirilib:

1.İngilis dili üzrə təlimlər.

2.Kompüter üzrə təlimlər (ilkin bacarıqlar, veb dizayn, proqramlaşdırma).

3.Sosial bacarıqların inkişaf etdirilməsi üzrə təlimlər.

Proqram çərçivəsində iştirakçılar üçün psixoloji konsultasiyaların keçirilməsi də nəzərdə tutulub. Təlimlər 2018-ci il ərzində 9 ay müddətində keçirilib [1].

2021-ci ilin May ayının 11-də Şəki şəhər 12 nömrəli tam orta məktəbdə "Sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiyası" adlı onlayn tədbir keçirilib [3]. Tədbirdə Təhsil Şöbəsinin əməkdaşları, məktəbin direktoru, müəllimlər və valdeynlər iştirak ediblər. Tədbirdə çıxış edənlər ölkəmizdə sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərilən diqqət və qayğıdan danışıblar. Çıxışı zamanı Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olan, cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görüldüyünü, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri və xüsusi məktəblərin əsaslı təmir edildiyini və ya yenidən qurulduğunu diqqətə çatdırılıb. Həmçininin sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsini gücləndirmək məqsədilə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın uşaqların cəmiyyətə inteqrasiya olunması və təhsil almaları üçün əlverişli mühit yaratdığını da qeyd edib [3].

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində görülmüş işlərə dair iclas keçirilib. Bu barədə qurumun ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən Xalq Qəzetinə verilən xəbərdə bildirilir. Qeyd edilir ki, iclasda Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sosial sahədə aparılan islahatlar çərçivəsində əlilliyin qiymətləndirilməsi və əlillərə tibbi-sosial reabilitasiya xidmətlərinin göstərilməsi sahələrində də işlərin uğurla icra edildiyi vurğulanıb [2]. Bundan başqa, əlillərin hüquqlarının təminatı sahəsində atılan addımlar barədə məlumat verilib. Əlilliyin qiymətləndirilməsi zamanı əsas götürülən yeni meyarların sayı 2022-ci ilin 1 iyuluna qədərki cəmi 128 meyarla müqayisədə 5 dəfəyə yaxın artırılaraq 616-ya çatdırılıb. Yeni meyarlar əlilliyin qiymətləndirilməsi sisteminin mütərəqqi dünya təcrübəsinə uyğun təkmilləşdirilməsi ilə yanaşı, vətəndaş məmnunluğuna yönəlik bir sıra yeni yanaşmaların tətbiqinə imkan verib [2]. Bildirilib ki, Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi prinsipi əsasında, həm də xəstəliyin ağırlıq dərəcəsi nəzərə alınmaqla 2023-cü ildə 50 min 700 nəfərə əlillik təyinatı aparılıb. Dövlət başçısının tapşırığına əsasən son beş ildə Nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Ölkə üzrə fəaliyyət göstərən 15 reabilitasiya müəssisəsi vasitəsi ilə 87 min 700 şəxsə reabilitasiya xidməti göstərilib. Agentlik tərəfindən 10 min 500 şəxsə 91 min 400 reabilitasiya vasitəsi verilib [2]. Qeyd olunub ki, 2024-cü il iyul ayının 1-dən həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı müvafiq qərarların yekun tibbi müayinə əsasında verilməsi istiqamətində görülən işlərin icrasına başlanılacaq. Əlillərə göstərilən elektron xidmətlərin sayının artırılması, mövcud xidmət keyfiyyətinin yük-

səldilməsi istiqamətində səylərin gücləndiriləcəyi vurğulanıb [2].

Əlilliyi olan yaradıcı şəxslər səhnədə

İnklüziv mədəniyyətin formalaşdırılmasında inklüziv teatrın rolu haqqında informasiyanı araşdırmaq məqsədəuyğun hesab edilə bilər. İnklüziv teatr müasir teatrın müxtəlif əlilliyi olan aktyorları, məsələn, serebral iflic və autizmli, eşitmə və görmə qabiliyyəti zəif olan aktyorları tamaşalara cəlb edən istiqamətidir. Teatrda aktyorlar öz potensiallarını reallaşdırmaq, maraqlı layihələr yaratmaq və əməyinin qarşılığını almaq üçün gözəl imkan əldə edirlər. Mütəxəssislər Moskva Mimika və Jest Teatrını ilk inklüziv teatr hesab edirlər. 1962-ci ildə (başqa bir versiyaya görə - 1963-cü ildə) açıldı və dünyanın ilk eşitmə bacarığı zəif olan aktyorlar üçün stasionar teatrı oldu. 1920-ci illərdə Moskvada iki lal-kar klubu fəaliyyət göstərirdi və onlardan biri həvəskar teatr tamaşaları ilə məşhurlaşdı.1960-cı illərə qədər teatr inkişaf etdi və 1963-cü ilə qədər daimi oldu: truppa dar binalardan 700 yerlik tamaşa zalı olan geniş binaya köçdü. Başqa ölkələrdə də analoji proseslər eyni illərdə baş verib. Məsələn, ABŞ-da 1967-ci ildə Milli Karlar Teatrı açıldı, burada tamaşalar işarət və danışıq dilində eyni vaxtda səhnələşdirildi. 1974-cü ildə Londonda məzəli adı olan Chickenshed adlı məşhur uşaq teatrı açıldı. Chickenshed ingilis dilindən "Toyuq yuvası" kimi tərcümə edildi. İlk başlayanda təşkilatçılar Meri Uord və Co Kollinz müstəqil bir məkanda işləmək istəyirdilər və yer axtarırdılar. Sonra layihənin pərəstişkarı Ledi Elizabet Binq öz torpağında boş toyuq hini istifadə etməyi təklif etdi. Teatrda oxuyan uşaqlar deyirdilər: "Biz toyuq hininə gedirik". "Toyuq hini" incəsənətin hər kəs üçün əlçatan olması ideyasını təbliğ etməyə çalışırdı. Hər kəs komandaya qəbul edildi və 1980-ci illərin əvvəllərində teatrda serebral iflicli bir oğlan oynayırdı. Yeniyetmələr soruşdular: "Əgər biz hamıya açıqıqsa, onda niyə bizdə onun kimisi yoxdur?" Bu an teatr üçün dönüş nöqtəsi oldu və o vaxtdan bəri böyük bir inklüziv layihəyə çevrildi.

XX əsrin sonlarında inklüziv teatrlar inkişaf etməkdə davam edirdi. Belə ki, 1990-cı ildə Rusiyada əlil teatr mütəxəssislərinin təhsil aldığı xüsusi ali təhsil müəssisəsi - Dövlət İxtisaslaşdırılmış İncəsənət İnstitutu (bu gün - Rusiya Dövlət İxtisaslaşdırılmış Rəssamlıq Akademiyası) açıldı. 1999-cu ildə "Proteatr" Ümumrusiya xüsusi teatrlar festivalı meydana çıxdı. 2000-ci ildə Moskvada Daun sindromlu aktyorlar truppası ilə Sadə Düşüncəlilər Teatrı öz qapılarını açdı. Və 2017-ci ildə Kar-korlar üçün Əlaqə Fondunun bazasında Yaradıcı Layihələr üçün İnklüziv Mərkəzi yarandı.

Azərbaycanın və eləcə də Qafqazın əlilliyi olan və olmayan aktyorlardan ibarət ilk teatrı olan ƏSA Teatrı 3 sentyabr 2016-cı ildə rejissor və sosial novator Nihad Qulamzadə tərəfindən yaradılmışdır. Yaranması ilə bağlı ictimaiyyətə elan verildikdən dərhal sonra bir çoxları ƏSA Teatrının Azərbaycan incəsənətində inqilabi təşəbbüs olduğunu və yaxud son illər Azərbaycanda baş verən ən müsbət hadisə olduğunu bildiriblər. Müstəqil şəkildə fəaliyyət göstərən teatr heç bir qurumdan və şəxsdən maliyyələşmədən ilk addımlarını atmışdır. Teatrın fəaliyyətə başlaması üçün ilkin maliyyə dəstəyini teatrın hazırkı baş meneceri Nicat Qulam təmin etmişdir.

ƏSA adı bir çoxlarının istifadə etdiyi əl ağacı mənasını daşıyır, eyni zamanda əngəlsiz, sərhədsiz, azad sözlərini özündə birləşdirir.

Nəticə

Ümumdünya Əlillik İnstitutunun (Berkley, ABŞ) baş mütəxəssisi Pol Hippolitus açıq əmək bazarında məşğulluq səviyyəsini əlillərin reabilitasiyası üçün əsas meyarlardan biri hesab edir [8].

İnklüziv iqtisadiyyat gizli istedad və qabiliyyətlərin inkişaf etdirilməsi mədəniyyətidir; bu, hər kəsi cəlb etmək mədəniyyətidir. Bu o deməkdir ki, insan öz peşəsini məmnuniyyətlə dəyişməyi öyrənməlidir.

Ümumilikdə, yekun olaraq qeyd olunmalıdır ki, inklüziv cəmiyyətin prinsipləri aşağıdakılardı:

1.Şəxsin dəyəri onun qabiliyyət və uğurundan asılı deyil.

2.Hər bir şəxs hiss etmək və düşünməyə qabildir.

3.Hər bir şəxsin ünsiyyətdə olmaq və eşidilmək hüququ var.

4.Bütün şəxslərin bir-birinə ehtiyacı var.

5.Bütün şəxslərin cəmiyyətin dəstəyinə ehtiyacı var.

6.Hər bir şəxsin həyatı rəngarəng və müxtəlifyönümlü olmalıdır.

Əlilliyi olan şəxslər dünyada ən böyük azlıqdır. Bununla yanaşı, bütün dünyada əlillərə yardım göstərən təşkilatların fəaliyyəti artır. Yardımın həcmi artır, lakin eyni zamanda, yardımın keyfiyyəti və əlilliyi olan insanların inklüziv qarşılıqlı fəaliyyətə cəlb edilməsi məsələləri aktuallaşır. Cəmiyyət əlilliyi olan şəxslərin cəmiyyətə real töhfələrinə əsaslanan inklüziv mədəniyyət yaratmalıdır.

Sonda, vurğulamaq lazımdır ki, əlilliyi olan şəxs özü sağlam insandan 10 dəfə müsbət olmalıdır.

Ədəbiyyat

1. Əlilliyi olan şəxslərin məşğulluq qabiliyyətlərinin artırılması proqramı. https://eduonline.az/2018/02/20/əlilliyi-olan-səxslərin-məsgulluq-qabiliyyətlərinin-artirilmasi-proqrami/
2. Əlillik təyinatlarında yeni meyarlar. https://www.xalqqazeti.az/az/sosial-heyat/161378-elillik-teyinatlarinda-yeni-meyarlar
3. "Sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiyası" adlı onlayn tədbir keçirilib. https://shaki.edu.gov.az/az/page/13960/65036
4. ÜST: Dünyada əlillərin sayı 1 milyardı ötüb. https://avropa.info/post/384288
5. АНО "БЕЛАЯ ТРОСТЬ" (г. Екатеринбург). https://extrability.org
6. Слепой уралец Олег Колпащиков: Инвалидам никто ничего не должен. https://rg.ru/2016/01/28/slepye.html
7. Философия Экстрабилити. https://extrability.org/about/extrability/
8. ЭКСТРАБИЛИТИ КАК ФЕНОМЕН ИНКЛЮЗИВНОЙ КУЛЬТУРЫ: Формирование инклюзивной культуры в организациях. Уральский федеральный университет имени первого Президента России Б. Н. Ельцина. Сборник материалов II Всероссийской научно-практической конференции с международным участием. (Екатеринбург, 12–13 декабря 2019 года). 307 с.

Резюме

Рена Мамедова

Экстрабилити и инклюзивная культура

В статье представлена информация о положении людей с ограниченными возможностями, статистические показатели, связанные с этими людьми. Исследованы особенности медицинского и социального подходов к инвалидности. Была проанализирована конкретная информация о понятиях инклюзии и инклюзивности. Объяснена сущность философии экстрабилити, подробно проанализирована история и содержание понятия «экстрабилити». В статье нашли свое отражение утверждения о том, что инклюзивная экономика – это культура развития скрытых талантов и способностей. Рассмотрены философия и деятельность общественного движения «Белая трость» (WHITE CANE NGO) Российской Федерации. Проанализирована информация о мерах и проектах, реализуемых в направлении повышения трудовых возможностей лиц с ограниченными возможностями в Азербайджанской Республике. Представлена информация о принципах инклюзивного общества.

Ключевые слова: *человек с ограниченными возможностями, инклюзия, экстрабилити, WHITE CANE NGO, культура экстрабилити, положение людей с ограниченными возможностями в Азербайджане, принципы инклюзивного общества*

Summary

Rana Mammadova

Extrability and inclusive culture

The article presents information about the situation of people with disabilities, statistical indicators of such people. The characteristics of medical and social approaches to disability were investigated. Specific information about the concepts of inclusion and inclusiveness was analyzed. The essence of the philosophy of extrability has been explained, the history and content of the concept of "extrability " has been analyzed in detail. The article reflects the remarks that the inclusive economy is a culture of developing hidden talents and abilities. The philosophy and activities of the public movement "White Cane" (WHITE CANE NGO) of the Russian Federation were reviewed. Information about measures and projects implemented in the direction of increasing the employment abilities of persons with disabilities in the Republic of Azerbaijan was analyzed. Information about the principles of an inclusive society has been presented.

Keywords: *a person with a disability, inclusion, extrability, WHITE CANE NGO, extrability culture, the situation of disabled people in Azerbaijan, the principles of an inclusive society*

UOT 159.9
https://doi.org/10.59849/2710-0820.2024.1.301

Aytən Alışanlı
Bakı Dövlət Universitetinin dissertantı
Azərbaycan
alishanli.aytan.ilham@bsu.edu.az

ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN OPTİMALLAŞMASINDA EMOSİONAL İNTELLEKTİN ROLU

Açar sözlər: *Emosional intellekt (Eİ), şəxsiyyətlərarası münasibətlər, empatiya, sosial bacarıqlar, emosional intellekt komponentləri*

Müasir psixologiya elmində emosional intellekt anlayışının mahiyyəti, struktur və komponentləri barədə yekdil qənaətin olmamasına baxmayaraq, onun həyatın müxtəlif sahələrində rolu və funksiyalarına dair kifayət qədər əsaslandırılan, çoxsaylı tədqiqatların nəticəsi olaraq meydana çıxan təsəvvürlər mövcuddur. Bu baxımdan şəxsiyyətin formalaşması və inkişafında, sosial bacarıq və vərdişlərin əldə edilməsində, şəxsiyyətlərarası münasibətlərin səmərəliliyi və effektivliyinin artırılmasında emosional intellektin özünəməxsus rolu maraq doğuran və hər zaman aktuallıq kəsb edən mövzulardandır. "Emosional intellekt və şəxsiyyət" mövzusunun kifayət qədər geniş və çoxtərəfli olmasını nəzərə alaraq mövcud araşdırmada diqqəti köklü psixoloji səbəblərə və dolğun sosial məzmuna malik olan bir sahə - şəxsiyyətlərarası münasibətlərin optimallaşmasında emosional intellektin rolu üzərində cəmlədik.

Emosional intellekt barədə ilkin təsəvvürlərin yarandığı dövrdən bu günə kimi onun şəxsiyyətlərarası münasibətlərdə hansı ölçüdə və funksiyada meydana çıxması diqqət mərkəzində olub. L.Terstoun tərəfindən irəli sürülən intellektual təzahürlərin çoxtərəfliliyi ideyasını inkişaf etdirən H.Qardner intellektin müxtəlif növlərini kateqoriyalaşdırmağa cəhd göstərib. Tədqiqatçı 1983-cü ildə "intropsixi bacarıqlar" (mahiyyətcə bu özünümüşahidədir) və "şəxsiyyət bacarıqları" da daxil olmaqla müxtəlif intellektual bacarıqların mövcudluğu fikrini irəli sürüb. O, 1985-ci ildə ilkin olaraq intellektin yeddi növünü fərqləndirib: verbal, məkan, riyazi-məntiqi, musiqili, şəxsiyyətdaxili və şəxsiyyətlərarası. Qardnerə görə "şəxsiyyətlərarası intellekt" digər insanların hisslərini müşahidə əsasında onların davranışlarını proqnozlaşdırmaq qabiliyyəti kimi üzə çıxır. Həmçinin bu tədqiqatçı sosial intellekti digərlərini başa düşmək və idarə etmək bacarığı kimi xarakterizə edərək onu ümumi akademik qabiliyyətlərdən ayırır. [3]

Məhz Qardnerin bu konsepsiyası əsasında 1990-cı ildə C.Mayer və P.Saloveyin emosional intellekt barədə ilk nəzəriyyəsi meydana çıxdı. C.Mayer, P.Salovey və D. Karuzonun "qabiliyyətlər modeli"ndə Eİ-nin dörd komponentindən biri "öz emosiyalarını və digər insanların hisslərini idarə etmək" qabiliyyətidir. Bu qabiliyyət emosiyaları şüurlu şəkildə tənzimləməyi, həm müsbət, həm də mənfi hissləri qəbul etməyə hazır olmağı bacarmaqdan ibarətdir. Müəlliflər hesab edirlər ki, yüksək emosional intellektə sahib olmaq üçün daima ətrafdakılarla münasibətləri inkişaf etdirmək, hər zaman emosional qeyri-sabitliyi dəf etməyi bacarmaq lazımdır.

Mayer və Saloveyin fikrincə, emosional intellekt şəxsiyyətdaxili Eİ və şəxsiyyətlərarası Eİ- də nümayiş olunur. Onlardan birincisi insanın öz fikirləri, hərəkətləri və hissləri arasında qarşılıqlı əlaqə qurmaq bacarığını nəzərdə tutur. İkinci isə digər insanlara uyğunlaşmağa, onları bu və ya digər fəaliyyətə ilhamlandırmağa, stimullaşdırmağa, öz qarşılıqlı əlaqələrini müəyyənləşdirməyə, ətrafdakılarla ünsiyyəti sadələşdirməyə kömək edir.

Mayer və Saloveyin əsaslandırdığı emosional intellekt nəzəriyyəsinin prinsipləri maraq doğurur. Bu prinsiplər empatiya, məlumatlılıq, tarazlıq, məsuliyyət kimi xarakteristikalarla bağlıdır. Müəlliflərin fikrincə, empatiya açar

rolunda emosional bacarıqdır: emosional reaksiyaları yaşamaq, öz hisslərini digər insanın hissləri ilə eyniləşdirmək və beləliklə ona ürəyi yanmaqdır. Empatiya emosiyaların dərk olunmasında, həssaslıqda, empatik həyəcanların başa düşülməsində və təzahüründə üzə çıxır. Məsuliyyətli insan öz rifahınıa cavabdehdir. Fərd özünə və başqalarına zərər yetirmirsə, öz fikirlərinə, dəyərlərinə nəzarət edirsə, xoşbəxtliyin mümkünlüyünə cavabdehliyi qəbul edir və başqalarını öz bədbəxtliyinə görə günahlandırmır, özü üçün birgəyaşayışın təhlükəsiz sərhədlərini müəyyən edirsə, özünün və digərlərinin emosiyalarını dərk edirsə, öz hissləri ilə düzgün rəftar edirsə, deməli məsuliyyətli davranır. Sonralar Mayer və Salovey tərəfindən emosional intellektin strukturu yenidən işlənilib. Modelin yeni variantının əsasında emosiyaların insanın digər adamla və ya predmetlə əlaqəsinin xarakteri və informasiya daşıması barədə təsəvvürlər dayanır. Əlaqələr müxtəlif ola bilər: aktual, xatırlanan və hətta xəyal olunanlar. Əlaqələrin dəyişməsi emosiyaların dəyişməsinə səbəb olur.

Mayer və Saloveyin qabiliyyətlər modelindən fərqli olaraq Eİ-nin koqnitiv bacarıqlarla şəxsiyyət xarakteristikalarını (D.Qoulmen) və qeyri-koqnitiv bacarıqlarla şəxsiyyət xarakteristikalarını (R.Bar-On) birləşdirən modellərində Eİ və şəxsiyyətlərarası münasibətlər daha geniş psixososioloji məzmun və praktik dəyər kəsb edir.

D. Qoulmen 1995-ci ildə C.Mayer və P.Saloveyin modelini yenidən işləyərək və populyarlaşdıraraq Eİ-nin tərkibinə daxil olan dörd komponenti müəyyənləşdirib:

1) özünüdərk;
2) özünənəzarət;
3) sosial həssaslıq;
4) qarşılıqlı münasibətlərin idarə olunması

D.Qoulmen qarşılıqlı münasibətlərin idarə olunmasına bu bacarıqları daxil edir:

- ilhamlandırmaq (lider olmaq bacarığı)
- təsir (inandırmaq taktikasına sahib olmaq)
- təkmilləşməyə kömək etmək (digər insanların bacarıqlarının inkişafına dayaq olmaq)
- dəyişikliyə yardım etmək (yeniləşdirmə cəhdləri göstərmək, idarə metodlarını dəyişmək)
- konfliktləri həll etmək;
- şəxsi münasibətləri möhkəmlətmək (sosial əlaqələr saxlamaq bacarığı)
- komandada işləmək, əməkdaşlıq etmək bacarığı (komanda yaratmaq, ümumi məqsəd naminə digərləri ilə birgə fəaliyyət göstərmək)

Qoulmen sosial həssaslıq deyəndə digər insanların hisslərini nəzərə almağı, öz üzərinə məsuliyyət götürməyi, ətrafdakıların ehtiyaclarını başa düşməyi və onları təmin etməyə çalışmanı nəzərdə tutur.

Qeyd edək ki, insanların müxtəlif kateqoriyalarına tətbiq ediləndə Qoulmenin Eİ strukturu bir qədər fərqlənir. Belə ki, müəllif müəllimlərə aşağıdakı bacarıqları inkişaf etdirməyi məsləhət görür:

- öz emosiyalarını dərk etmək;
- öz emosiyalarına nəzarət;
- özünü motivasiya etmək;
- digərlərinin emosiyalarını başa düşmək;
- sosial bacarıqlar

Liderlərin emosional intellektinin inkişafında isə Qoulmen aşağıdakı keyfiyyətləri və bacarıqları vacib sayır:

1. Şəxsi bacarıqlar:
- Özünüdərk

Emosional özünüdərk: öz emosiyalarının analizi və onlara təsir göstərmənin dərk olunması; qərar qəbulunda intuisiyalardan istifadə.

Dəqiq özünəqiymət: özünün güclü tərəflərini və imkanlarının həddini dərk etmək.

Özünəinam: şəxsi ləyaqət hissi və öz istedadını adekvat qiymətləndirmə

- Özünənəzarət.

Emosiyaların ram edilməsi: dağıdıcı emosiya və impulslara nəzarət etmək bacarığı

Açıqlıq: dürüstlük və sözü birbaşa demək; etibarlılıq.

Adaptivlik: dəyişən situasiyalara çevik uyğunlaşma və maneələrin dəf olunması

Qələbə iradəsi: səmərəliliyin, keyfiyyətin artırılması yolunda israrlı cəhdlər.

Təşəbbüskarlıq: aktiv fəaliyyətə hazır olmaq və imkanı əldən buraxmamaq bacarığı

2. Sosial bacarıqlar.
- Sosial həssaslıq

Canıyananlıq: başqalarının hisslərinə şərik olmaq, onların mövqeyini başa düşmək, onların problemlərinə həssas münasibət göstərmək bacarığı.

İşgüzar məlumatlılıq: cərəyan edən hadisələri, məsuliyyət iyerarxiyasını və təşkilat səviyyəsində siyasəti başa düşmək.

Xoşrəftarlıq: tabeliyində olanların, müştərilərin və ya alıcıların tələblərini qəbul və təmin etmək bacarığı.

- Münasibətlərin idarə olunması

Ruhlandırmaq: gələcəyin cəlbedici mənzərəsini cızaraq başqalarını arxasınca apara bilmək bacarığı;

Təsir: inandıra bilmək bacarığı;

Özünütəkmilləşdirməyə kömək: digər insanların bacarıqlarının inkişafına yardım göstərmək;

Dəyişikliklərə yardım: yeniliklərlə bağlı təşəbbüs göstərmək və əməkdaşları yeni istiqamətə yönəltmək bacarığı;

Konfliktlərin nizamlanması: fikir ayrılıqlarının aradan qaldırılması;

Şəxsi münasibətlərin möhkəmlənməsi: sosial əlaqələrin yaradılması və qorunub saxlanılması;

Komanda işi və əməkdaşlığı: komanda yaradılması və əməkdaşlarla qarşılıqlı fəaliyyət.

D. Qoulmen özünün "Emosional intellekt" (1995) kitabında şəxsiyyətlərarası münasibətlərdə empatiya və sosial bacarıqların roluna xüsusi diqqət çəkir. Müəllif eyni zamanda şəxsiyyətlərarası münasibətlərdə uğur qazanma yolunun özünüdərkdən başladığını, şəxsiyyətdaxili və şəxsiyyətlərarası komponentlər arasında sıx bir əlaqənin olduğunu vurğulayır. "Empatiyanın təməli özünüdərkdir; öz hisslərimizi nə qədər yaxşı anlayırıqsa, başqalarının hisslərini də bir o qədər düzgün başa düşürük. Öz hisslərini anlamaqda çətinlik çəkən aleksitimiklər, başqaları hisslərini onlarla paylaşdıqda da eyni şəkildə, tərəddüd içində qalırlar. Başqalarının nə hiss etdiyini sezə bilməmək emosional intellekt baxımından böyük bir çatışmazlıq, insan olmaq mənasında isə faciəvi bir uğursuzluqdur. Çünki qarşılıqlı anlayışın, şəfqətin kökü olan emosional ahəng empatiya (başqalarının hissinə şərik olmaq) qabiliyyətindən qaynaqlanır. Bu qabiliyyət – başqa bir insanın nə hiss etdiyini anlamaq bacarığı ticarət və idarəetmədən sevgi münasibətləri və valideynliyə, mərhəmətdən siyasi fəaliyyətə qədər uzanan çox sayda müxtəlif sahələrdə qarşımıza çıxır. Empatiyanın yoxluğu da tez nəzərə çarpır. Bu çatışmazlıq cinayət törədən psixopatlarda, qadınlara qarşı zorakılıq edənlərdə, uşaqları pis yola çəkənlərdə müşahidə olunur". D. Qoulmen şəxsiyyətlərarası münasibətlərin effektivliyinin artırılmasında sosial bacarıqların rolunu önə çəkərək qeyd edir ki, "başqaları ilə ünsiyyət zamanı effektiv olmağı təmin edən sosial bacarıqlardır; belə bacarıqların çatışmazlığı cəmiyyətdə səriştəsizliyə və ya şəxsiyyətlərarası münasibətlərdə dəfələrlə təkrarlanan problemlərə yol açır". [2, s.178] D.Qoulmen insanların öz hisslərini necə ifadə etməsini (yaxşı və ya pis), onları digər insana necə ötürməsini, emosional sinxronluq yarada bilməsini sosial bacarıqlara aid edir. Eyni zamanda Hetç və Qardnerin şəxsiyyətlərarası intellektin hissələri kimi tərif verdiyi dörd bacarığı xüsusi olaraq qeyd edir. Bu bacarıqlara qrupların təşkili (təşkilat daxilində insanları təşviq edib onların səylərini koordinasiya etmək), qərarların müzakirəsi (münaqişələrin qarşısını alan, konfliktləri həll edən vasitəçinin bacarığı), şəxsi əlaqə (empatiya göstərmək və ünsiyyət qurmaq istedadı), sosial analiz (insanların hissini, niyyətini və problemini anlamaq qabiliyyəti) daxildir. D. Qoulmenin qeyd etdiyi kimi, bütün bu bacarıqlar şəxsiyyətlərarası münasibətlərin münaqişəsiz davam etməsini təmin edən və cəlbedicilik, sosial nailiyyətlər və hətta xarizma üçün zəruri olan elementdir. Sosial intellektə, yəni ünsiyyət qabiliyyətinə sahib olan insanlar başqaları ilə asanlıqla münasibət qurmağı, onların hiss və reaksiyalarını düzgün anlamağı, onları idarə etməyi və təşkilatlandırmağı bacarırlar".

R.Bar-Onun modelində Eİ insana müxtəlif həyat situasiyalarının öhdəsindən uğurla gəlməyə imkan verən bütün qeyri-koqnitiv bacarıqlar, biliklər və kompetentlik kimi müəyyənləşir. [7, s.88] Eİ-nin beş tərkib hissəsindən hər biri bir neçə subkomponentə malikdir.

Cədvəl 1.

R. Bar-Onun emosional intellekt modeli

1.Şəxsiyyətdaxili sfera (Özünü adekvat qiymətləndirmə və öz davranışını tənzimləmək bacarığı)	Özünütəhlil
	Assertivlik
	Müstəqillik
	Özünəhörmət
	Özünüaktuallaşdırma
2. Şəxsiyyətlərarası sfera (Ətrafdakılarla ünsiyyət saxlamaq, əlaqə qurmaq, münasibətlər yaratmaq bacarıqları ilə bağlıdır)	Empatiya (Ətrafdakıların hisslərini duymaq və anlamaq bacarığı)
	Sosial məsuliyyət (Özünü müəyyən qrupa aid etmək, qrupun digər üzvləri ilə konstruktiv dialoqa açıq olmaq, ətrafdakıların qayğısına qalmaq bacarığı)
	Şəxsiyyətlərarası münasibət (Emosional yaxınlığa əsaslanan faydalı qarşılıqlı əlaqələr qurmaq və ünsiyyət prosesində özünü rahat hiss etmək bacarığı)
3. Adaptivlik (Reallığa adekvat və plastik olmaq, problemlərin öhdəsindən onların yaranma dərəcəsinə görə gələ bilmək bacarığı)	Dərketmə
	Çeviklik
	Problemləri həll etmək bacarığı
4. Stressi tənzimləmək (Özünənəzarəti saxlamaqla stressin öhdəsindən gəlmək bacarığı)	Stressə tolerantlıq
	İmpulsivliyə nəzarət
5.Ümumi əhval	Həyatdan məmnunluq
	Optimizm

R.Bar-Onun şəxsiyyətlərarası sferaya aid etdiyi bacarıqlar – empatiya, sosial məsuliyyət, şəxsiyyətlərarası münasibətlər digər qarışıq modellərlə (məsələn D.Qoulmenin nəzəriyyəsi ilə) bu və ya digər dərəcədə səsləşir. Eyni zamanda modeldəki digər dörd komponentin hər birinin – özünü adekvat qiymətləndirmə, adaptivlik, stressi tənzimləmək və ümumi əhvalın şəxsiyyətlərarası münasibətlərin səmərəli və effektiv qurulmasının ilkin əsası olduğunu görə bilərik.

Rusiya psixoloqu D.V.Lyusinin fikrincə emosiyaları dərk etmək bacarığı özündə üç komponenti birləşdirir:

- insan emosional vəziyyəti anlamaq bacarığına malikdir;
- insan emosional vəziyyəti müəyyənləşdirməyi, özünün və ya digər insanın konkret hansı hissi keçirdiyini üzə çıxarmağı bacarır;
- insan emosiyaların yaranma səbəblərini və nə ilə nəticələnə biləcəyini görür.

Yuxarıda sadalanan iki bacarıq həm insanın öz emosiyalarına, həm də onu əhatə edən insanlara aid edilə bilər, yəni həm şəxsiyyətdaxili, həm də şəxsiyyətlərarası ola bilər. Məhz buna görə də D.V.Lyusin emosional intellektin iki növünü müəyyən edir: şəxsiyyətdaxili proseslərə yönələn və şəxsiyyətlərarası qarşılıqlı fəaliyyətə aid olan. Eİ-nin bu növləri müxtəlif bacarıq və proseslərdən istifadəni nəzərdə tutsa da ümumi komponentlərə də malikdir. [5]

Sadaladığımız müəlliflərin nəzəri görüşlərini ümumiləşdirərək bu nəticəyə gəlmək olar ki, Eİ-nin struktur komponentləri bir-biri ilə qarşılıqlı əlaqədədir və bu əlaqə şəxsiyyətlərarası münasibətlərin effektivliyinə mühüm bir şəkildə təsir göstərir. Eİ-nin yüksək səviyyəsinə malik fərdlər öz emosiyalarını və digər insanların hisslərini dərk etmək, onları nəzarətdə saxlamaq, tənzimləmək bacarıqlarına malikdirlər. Belə insanlar yeni mühitə asanlıqla uyğunlaşır və şəxsiyyətlərarası münasibətlərdə daha effektiv olur. Məhz bu səbəbdən Eİ səviyyəsinin şəxsiyyətlərarası münasibətlərdəki rolu xüsusi maraq kəsb edən, tədqiqatçıların diqqət mərkəzində olan məsələlərdəndir.

E.V.Yeroxinin tədqiqatlarında emosional intellekti müəyyənləşdirən bacarıqların, eləcə

də şəxsiyyətin davranış və sosial adaptasiyasının asılı olduğu psixoloji xüsusiyyətlərin möhkəm bağlılığı qeyd olunur. T.S.Kiselevin əldə etdiyi nəticələrə görə isə, emosional intellektin strukturunda identifikləşdirmə və emosiyaları şüurlu tənzimləmə bacarıqları açar rolunu oynayır. Çünki məhz onlar həyat fəaliyyətinin tənzimlənməsində həlledici rola malikdirlər. Müəllifin fikrincə, inkişaf etmiş emosional intellekt subyektiv rifahı, davranışın yüksək səviyyəli özünü tənzimləməsini, eləcə də problemli situasiyalarda konstruktiv strategiyanı təmin edir. E.S.Sinelnikova emosional intellektə belə bir tərif verir: bu sosial intellektin "emosional informasiyanın analizinə yönələn və emosiyaların uğurlu dərkini və idarə olunmasını təmin edən" növüdür. O, qeyd edir ki, emosional intellekt və onun komponentləri konfliktlərdə qarşılıqlı əlaqə vasitələrinə üstünlük verilməsinə təsir göstərir. Emosional intellektin yüksək səviyyəsinə malik olan insan konflikt zamanı öz emosiyalarını uğurla idarə etməyi və partnyorun emosional reaksiyalarını təmin etməyi bacarır. Emosional intellektin aşağı səviyyəsi isə problemin həllində əməkdaşlığa hazır olmağa mənfi təsir göstərir. Y.V.Mironova isə riskli davranışa meylli insanlarda emosional intellekt təzahürlərini monoqrafik səviyyədə öyrənərək bu nəticəyə gəlib ki, emosional intellekt kollektivdə şəxsiyyətlərarası emosional əlaqələrlə sıx bağlıdır və əməyin effektivliyinə təsir göstərir. [6]

Emosional intellektin şəxsiyyətlərarası münasibətlərdəki rolunu araşdırarkən bu münasibətlərin təsnifatına da diqqət yetirmək vacibdir. Elmi ədəbiyyatda bir qayda olaraq şəxsiyyətlərarası münasibətlərin aşağıdakı növləri müəyyən olunur: rəsmi, qeyri-rəsmi, işgüzar, şəxsi, rasional, emosional, subardinasiyalı, paritet. Bu münasibətlərin hər birində affilyasiya – insanın daima digərləri ilə birlikdə olmaq, onlarla müsbət qarşılıqlı münasibətlər qurmaq və bu münasibətləri saxlamaq arzusundan və cəhdindən doğan ehtiyac ön sırada dayanır. Eyni zamanda Eİ-nin bilavasitə şəxsiyyətlərarası münasibətlərin qurulmasına və saxlanılmasına yönələn komponentləri sadalanan növlərin hər birində fərqli çalarlar qazanır və müxtəlif səviyyələrdə çıxış edirlər. Məsələn, rəsmi münasibətlərdə ünsiyyət qurma bacarığı və sosial məsuliyyət həlledici rol oynayırsa, şəxsi münasibətlərdə ilkin olaraq empatiya ön plana çıxır. [4, s.94]

Emosional intellektin ilk üç tərkib hissəsi özünə hakim olmaq bacarıqlarıdır. Sonuncu iki hissə – empatiya və ünsiyyətcillik insanın digərləri ilə qarşılıqlı münasibətləri idarə etmək bacarıqlarına aiddir.

"Empatiya" termini fəlsəfi fikirdə ənənəvi olaraq inkişaf edən rəğbət ideyası ilə E.Klifford və T.Lippsin həssaslıq nəzəriyyəsini ümumiləşdirən E.Titçener tərəfindən irəli sürülüb. Digər insanın motor və affektiv reaksiyalarının proyeksiya və təqlidi mexanizmlərinə emosional empatiyanı, intellektual proseslərə əsaslanan (müqayisə, analogiya) koqnitiv empatiyanı və konkret situasiyalarda digərinin affektiv reaksiyalarını öncədən görə bilmək bacarığı kimi predikativ empatiyanı fərqləndirirlər. Müəyyən olunub ki, fərdlərin empatik bacarığı həyat təcrübəsi çoxaldıqca artır və subyektlərin davranışı və emosional reaksiyaları arasında oxşarlıq olanda empatiya asan şəkildə reallaşır. Empatiya digər insanların hiss və emosiyalarını, onların tələbat və motivlərini başa düşmək, elə bir qarşılıqlı fəaliyyət qurmaqdır ki, hər bir kəs əldə etdiyinin gördüyü işə bərabər olduğunu, öz emosiyalarının, dəyərlərinin ünsiyyət saxladığı insanlar tərəfindən qəbul olunduğunu və bölüşdürüldüyünü hiss etsin.

Ünsiyyətcillik emosional intellektin digər ölçülərinin kulminasiyasıdır. Adətən insanlar öz emosiyalarını başa düşəndə və onlara nəzarət edəndə, digərlərinin hisslərinə empatiya göstərəndə qarşılıqlı münasibətlər daha effektiv olur. Hətta motivasiya da ünsiyyətcilliyə öz töhfəsini verir. İnsanlar optimist olanda bu onların bütün söhbətlərinə və sosial fəaliyyətlərinə təsir göstərir. Müsbət emosiyaları təkcə özündə deyil, ətrafdakılarda da yarada bilmək bacarığı emosional intellekti yüksək səviyyədə olan insanların tipik cəhətidir.

Bütün deyilənləri ümumiləşdirsək, ilk növbədə D.Qoulmen və R.Bar-Onun Eİ konsepsiyalarına əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, şəxsiyyətlərarası münasibətlərin optimallaşmasında Eİ-nin bütün komponentləri (empatiya, sosial həssaslıq, ünsiyyətcillik həlledici rol oynamaqla) bu və ya digər dərəcədə iştirak edir. Emosional kompetentliyə daxil olan bütün bacarıqlar – özünüdərketmə və qiymət-

ləndirmə, özünü idarəetmə, insanların emosiyalarını və davranışlarını başa düşmək, insanlarla qarşılıqlı münasibətlər qura bilmək fərdin rəsmi, işgüzar və şəxsi əlaqələrinin xarakterini, məzmununu, effektivliyini müəyyən edir.

Ədəbiyyat

1. Андреева И.Н. Азбука эмоционального интеллекта / И.Н.Андреева. – СПб.: БХВ-Петербург, –2012. –288 с.
2. Гоулман Д. Эмоциональный интеллект. М: АСТ Москва, – 2009. – 478 с.
3. Гарднер Г. Структура разума: теория множественного интеллекта: Пер. с англ. – М. : ООО «И.Д. Вильяме», 2007. – 512 с.
4. Ильин Е. П., Психология общения и межличностных отношений. – СПб.: Питер, 2009. – 576 с.
5. Люсин Д.В.Социальный и эмоциональный интеллект: от моделей к измерениям / Д.В.Люсин, Д.В.Ушаков. – М.: Институт психологии РАН, –2009. - 347 с.
6. Овсянникова М.В. Теоретический анализ проблемы исследования эмоционального интеллекта осужденных в современной юридической психологии / М.В. Овсянникова // НоваИнфо. – 2015. – № 39-2. – С. 295–297. – 0,17 п. л
7. Р. Дж. Стернберг, Дж. Б. Форсайт, Дж. Хедланд и др. Практический интеллект. СПб.: Питер, 2002. - 272 с. – (Серия «Мастера психологии»).
8. Bar-On, R. Emotional and social intelligence: Insights from the Emotional Quotient Inventory / R. Bar-On // R. Bar-On. J.D.A. Parker. Handbook of emotional intelligence. – San Francisco: Jossey- Bass, – 2000. – P. 363-388.
9. Goleman D. The Brain and Emotional Intelligence: New Insights. 1st Digital Edition. 2011.
10. Mayer, J.D. The intelligence of emotional intelligence/ J.D. Mayer, P. Salovey // Intelligence. – 1993. – V. 17.
11. Mayer, J. Emotional Intelligence: Theory, Findings and Implications / J. Mayer, P. Salovey, D. Caruso // Psychological Inquiry, 2004

Summary

Aytan Alishanli

The role of emotional intelligence in the optimization of interpersonal relations

The article examines the role of emotional intelligence in optimizing interpersonal relationships. Based on mixed models of emotional intelligence (D.Goleman, R. Bar-On), skills are identified that influence the increase in the efficiency and effectiveness of interpersonal relationships. In the article, components of EI directly aimed at building and maintaining interpersonal relationships - empathy, social responsibility and the ability to communicate - are analyzed from the point of view of their psychosociological content. At the same time, attention is drawn to the theoretical and practical significance of studying the problem in various spheres of life.

Keywords: *Emotional intelligence (EI), interpersonal relationships, empathy, social skills, components of emotional intelligence*

Резюме

Айтен Алышанлы

Роль эмоционального интеллекта в оптимизации межличностных отношений

В статье рассматривается роль эмоционального интеллекта в оптимизации межличностных отношений. На основе смешанных моделей эмоционального интеллекта (Д.Гоулман, Р.Бар-Он) определены навыки, влияющие на повышение эффективности и результативности межличностных отношений. В статье компоненты ЭИ, непосредственно направленные на построение и поддержание межличностных отношений, - эмпатия, социальная ответственность и способность к общению - анализируются с точки зрения их психосоциологического содержания. При этом обращается внимание на теоретическую и практическую значимость изучения проблемы в различных сферах жизни.

Ключевые слова: *Эмоциональный интеллект (ЭИ), межличностные отношения, эмпатия, социальные навыки, компоненты эмоционального интеллекта*

UOT 159.97
https://doi.org/10.59849/2710-0820.2024.1.308

Kamala Aghayeva
PhD Student at Baku State University,
kamala.aghayeva.sardar@bsu.edu.az
Azerbaijan

ADHD AND COMORBID DISORDERS

Keywords: *ADHD symptoms, learning disorders, anxiety, depression, conduct disorders*

